# ÜMUMMİLLİ LİDER
# HEYDƏR ƏLİYEVİN
# 100 İLLİK YUBİLEYİNƏ
# HƏSR OLUNUR



Gənclərimizi vətənpərvərlik ruhunda tərbiyə etmək təhsilin əsas istiqamətlərindən olmalıdır; xalqımızın zəngin tarixini, mədəniyyətini, mənəviyyatını, mənəvi dəyərlərini uşaqlara öyrətmək, onları məhz həmin ənənələr ruhunda tərbiyə etmək müəllimlərin ən müqəddəs borcu olmalıdır.

Heydər Əliyev

# Zəfər sürəsi

**Rəhman və Rəhim Allahın adı ilə**

1. Gerçəkdən, biz sənə açıq bir fəth (zəfər) bəxş etdik ki
2. Allah sənin keçmiş və gələcək günahlarını bağışlasın, sənə olan nemətini tamamlasın, səni dos-doğru yola yönəltsin
3. Və Allah sənə şanlı bir Zəfər bəxş etsin

Prezident İlham Əliyev – Tarixə adı qızıl hərflərlə yazılmış Müzəffər Ali Baş Komandan!
Əfsanəvi Zəfərin müəllifi Müzəffər Ali Baş Komandan İlham Əliyevin Şəxsiyyət fenomeni və Ordu – Xalq vəhdəti!
Şəhidlər ölməz, Vətən bölünməz!
Yaşasın Qalib Azərbaycan Ordusu!

Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən Vətən Müharibəsi və antiterror tədbirləri (19-20 sentyabr 2023-cü il) nəticəsində Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam və qəti bərpa olundu. Azərbaycan qəhrəmanları 23 saata 200 illik münaqişəyə, erməni zülmünə və 30 il sürən Vətən həsrətinə son qoyaraq Azərbaycan bayrağını Xankəndi, Ağdərə, Xocalı, Xocavənd, Əsgəranda ucaltdı. Qüdrətli Azərbaycan dövləti beynəlxalq hüquq normalarını və konstitusiya quruluşunu təsbit edərək terrorizmi, ekspansionizmi və separatizmi tarixin zibilliyinə tulladı. Qondarma "Dağlıq Qarabağ Respublikası" adlanan separatist rejim özünü buraxdı, cinayətkar rəhbərləri isə Azərbaycan qanunları ilə cinayət məsuliyyətinə cəlb olunaraq həbsxanaya salındı. 200 illik "böyük Ermənistan" layihəsinə qarşı Ümummilli Lider Heydər Əliyev diplomatiyasını davam etdirən Prezident İlham Əliyev yekun nöqtəni qoydu. Eyni zamanda hərbi təcavüz və terrorçu separatizmi məhv etmək üçün XXI yüzillikdə çağdaş müharibə və antiterror əməliyyatlarının idarə olunmasında Azərbaycan modeli dünyaya bir örnək oldu.

Kəssə hər kim tökülən qan izini,

Qurtaran dahi odur yer üzünü.
(Hüseyn Cavid)

Bu müqəddəs Zəfəri bizə yaşadan Şəhidlər və Qazilər başımızın tacıdır! Allahdan Şəhidlərimizə rəhmət diləyirik! Ruhları şad, məkanları ali məqamlı Cənnət olsun! Nur içində yatsınlar! Könül baxçaları Nura qərq olsun! Allah qazilərimizə və ordumuza sağlam ömür nəsib etsin! İnşəAllah Amin!

## Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev 15 oktyabr 2023-cü il tarixində Xankəndi, Xocalı, Xocavənd, Ağdərə və Əsgəranda Dövlət Bayrağını ucaldıb



*Kitab Türk Dünyasının Mədəniyyət Paytaxtı Şuşanın azad olunması uğrunda və 44 günlük Vətən Müharibəsində Şəhid olmuş övladlarımızın Ruhlarına ithaf olunur*

**Nizami Əjdəroğlu**

# ZƏFƏRDƏN EL-OBA İRSİMİZƏ

**Bakı – 2023**

**Məsləhətçi və elmi redaktor:** **Teymur Kərimli**
akademik,
Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktoru

**Rəyçilər:** **Xəqani Məmmədov**
tarix elmləri doktoru,
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan tarixi kafedrasının professoru

**Ədalət Qasımov**
tarix elmləri doktoru,
AMEA-nın A.Bakıxanov adına Tarix İnstitutunun Əliyevşünaslıq şöbəsinin müdiri

**Nizami Tağısoy**
filologiya elmləri doktoru,
Bakı Slavyan Universitetinin Azərbaycan ədəbiyyatı kafedrasının professoru

**Nizami Əjdəroğlu. Zəfərdən el-oba irsimizə.** Bakı, 2023. - 396 s.
Bakı: “Müəllim” nəşriyyatı – 2023. 396 s.

*Kitab Nizami Əjdəroğlunun ikinci kitabıdır. Kitabda 44 günlük Vətən Müharibəsinin xronikası,. qəhrəmanları haqda məlumatlar verilir. Müzəffər Ali Baş Komandanımız Prezident İlham Əliyevin sərkərdəliyi ilə dövlət, ordu, xalq müqəddəs savaşda dəmir yumruqtək birləşdi. Tarixi Zəfərin qazanılmasında Türkiyə-Azərbaycan qardaşlığı tarixin sınağından ləyaqətlə üzü ağ çıxdı. Kitab Azərbaycançılıq ideologiyası baxımından bir Qarabağ elinin nəsil şəcərəsinə, tarixinə, maddi və mənəvi irsinə işıq salır. Bir sözlə kitab 44 günlük möcüzənin cazibəsindən tarixi keçmişimizə, el-oba irsimizə nəzər salır. Kitab gənc nəslin vətənpərvərlik ruhunda yetişməsinə müəllifin bir ziyalı olaraq töhvəsidir.*

*Geniş oxucu kütləsi üçün nəzərdə tutulub.*

**ISBN: 978-9952-39-111-4**

**© Nizami Əjdəroğlu, 2023**



## AZƏRBAYCAN HİMNİ

Söz: Əhməd Cavad
Musiqi: Üzeyir Hacıbəyov

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!

Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət,
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə,
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!
Azərbaycan! Azərbaycan!



## **İSTİQLAL MARŞI**

Söz: Mehmet Akif Ersoy
Musiqi: Osman Zəki Üngör

Qorxma, sönməz bu şəfəqlərdə üzən al bayraq,
Sönmədən yurdumun üstündə tütən ən son ocaq.
O mənim millətimin ulduzudur, parlayacaq,
O mənimdir, o mənim millətimindir ancaq!

Çatma, qurbanın olum, çöhrəni, ey nazlı hilal,
Qəhrəman xalqıma bir gül nə bu şiddət, bu cəlal?!
Sənə olmaz tökülən qanlarımız sonra halal,
Haqqıdır Haqqa tapan millətimin istiqlal!

Mən, əzəldən bəridir, hürr yaşadım, hürr yaşaram,
Hansı çılğın mənə zəncir vuracaqmış? Şaşaram!
Kükrəmiş sel kimiyəm, bəndimi çeynər, aşaram ,
Yırtaram dağları, ənginlərə sığmam, daşaram!

Qərbin afaqını sarmışsa çəlik zirehli divar,
Mənim iman dolu köksüm kimi sərhədim var.
Ulusan, qorxma! Necə böylə bir imanı boğar
“Mədəniyyət” dediyin tək dişi qalmış canavar?!

Arxadaş, yurduma alçaqları uğratma, saqın,
Sipər et gövdəni, dursun bu həyasızca axın!
Doğacaqdır sənə vəd etdiyi günlər Haqqın,
Kim bilir, bəlkə, yarın, bəlkə, yarından da yaxın!

Basdığın yerləri "torpaq" deyib keçmə, tanı!
Düşün altındakı minlərlə kəfənsiz yatanı!
Sən şəhid oğlusan, incitmə, yazıqdır, atanı,
Vermə, dünyaları alsan da bu cənnət vatanı!

Kim bu cənnət vətənin uğruna olmaz ki fəda?
Şühəda fışqıracaq torpağı sıxsan, şühəda!
Canı, cananı, bütün varımı alsın da Xuda,
Etməsin tək vətənimdən məni dünyada cüda.

Ruhumun, səndən, İlahi, budur ancaq əməli,
Dəyməsin məbədimin köksünə naməhrəm əli!
Bu əzanlar ki, şəhadətləri dinin təməli,
Əbədi yurdumun üstündə mənim inləməli!

O zaman vəcd ilə min səcdə edər, varsa, daşım,
Hər cərihamdan, İlahi, quruyub qanlı yaşım,
Fışqırar ruhi-mücərrəd kimi yerdən naşım,
O zaman yüksələrək ərşə dəyər bəlkə başım!

Dalğalan sən də şəfəqlər kimi, ey şanlı hilal!
Olsun artıq tökülən qanlarımın hamısı halal!
Əbədiyyən sənə yoxdur, xalqıma yoxdur izmehlal!
Haqqıdır hür yaşamış bayrağımın hürriyyət,
Haqqıdır Haqqa tapan millətimin istiqlal



**Türkiyə Respublikası ilə Azərbaycan Respublikası arasındakı müttəfiqlik münasibətləri haqqında ŞUŞA BƏYANATI**

Azərbaycan Respublikası və Türkiyə Respublikası,

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycanın və bütövlükdə Türk dünyasının qədim mədəniyyət beşiyi olan Şuşa şəhərində görüşünün tarixi əhəmiyyətini vurğulayaraq,

İki dost və qardaş ölkə arasında imzalanmış bütün beynəlxalq sənədlərə, bununla əlaqədar 13 oktyabr 1921-ci il tarixli Qars müqaviləsinə sadiq olduqlarını bir daha təsdiq edərək,

9 fevral 1994-cü il tarixində imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə Müqavilə"ni və "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında Protokol"u, eləcə də 16 avqust 2010-cu il tarixində imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə"ni rəhbər tutaraq,

İki ölkə və onun xalqları arasındakı dostluq və qardaşlıqdan çıxış edərək Azərbaycan Respublikası və Türkiyə Respublikası arasındakı münasibətlərin keyfiyyətcə yeni, müttəfiqlik səviyyəsinə qaldırılmasının iki ölkə və onların xalqlarının maraq və mənafelərinə xidmət etdiyini vurğulayaraq,

Ümumi maraqların qorunmasında hər iki ölkənin siyasi, hərbi iqtisadi, müdafiə, mədəni, humanitar, səhiyyə, təhsil, sosial, gənclər və idman sahələrindəki imkan və potensiallarının birləşdirilməsinin mühüm əhəmiyyətini dərk edərək,

Beynəlxalq hüququn prinsip və normalarına, o cümlədən də Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə uyğun olaraq qlobal və regional sülh, sabitlik və təhlükəsizliyin təmin edilməsində birgə səylərin davam etdirilməsinin vacibliyini vurğulayaraq,

Müştərək maraq kəsb edən regional və beynəlxalq strateji məsələlərdə fəaliyyətlərin qarşılıqlı şəkildə əlaqələndirilməsinin zəruriliyini ifadə edərək,

Azərbaycan Respublikası və Türkiyə Respublikasının müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı kimi milli maraqlara söykənən məsələlərdə ikitərəfli və çoxtərəfli formatlarda həmrəylik və qarşılıqlı yardım prinsiplərindən çıxış edərək,

Türk dünyasının davamlı inkişafına yönəlmiş qarşılıqlı fəaliyyətlərin regional və beynəlxalq müstəvilərdə irəli aparılmasında səyləri birləşdirərək,

Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün və Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müdrikcəsinə söylədikləri "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" və "Bir millət, iki dövlət" ifadələrinin xalqlarımızın milli-mənəvi sərvəti kimi dəyərləndirildiyini xüsusi vurğulayaraq,

Azərbaycan Respublikası və Türkiyə Respublikası arasındakı ikitərəfli münasibətlərin daha da genişləndirilməsi və dərinləşdirilməsi perspektivlərini hərtərəfli nəzərdən keçirərək,

bəyan edirlər:

Tərəflər iki dost və qardaş ölkə arasında strateji səviyyədə inkişaf edən münasibətlərin durumundan məmnunluq ifadə edərək siyasi

dialoqun bütün səviyyələrdə davam etdirilməsinin və qarşılıqlı yüksək səviyyəli səfərlərin əhəmiyyətini qeyd edirlər.

Tərəflər fəxarət hissi ilə bildirirlər ki, Azərbaycan 44 günlük Vətən müharibəsi ərzində qələbə qazanaraq Ermənistanın 30 ildən bəri davam edən təcavüzkar siyasətinə son qoydu, torpaqlarını işğaldan azad etdi, tarixi ədalətin zəfər çalmasını və beynəlxalq hüququn bərpa olunmasını təmin etdi.

Azərbaycan Ermənistanın 30 illik təcavüzünə son qoyulmasında, işğal olunmuş torpaqların azad olunmasında, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində Türkiyə Respublikasının mənəvi-siyasi dəstəyini yüksək qiymətləndirir. Tərəflər Qafqaz regionunda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi, bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası, eləcə də region dövlətləri arasında münasibətlərin normallaşdırılması və uzunmüddətli sülhün təmin edilməsi istiqamətində səylərini davam etdirəcəklər. Bu kontekstdə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasının xüsusi coğrafi vəziyyəti nəzərə alınacaqdır.

Tərəflər Türkiyənin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində Türkiyə-Rusiya Birgə Mərkəzinin fəaliyyətinə verdiyi töhfənin regiondakı sülhün, sabitliyin və rifahın təmin edilməsində mühüm rol oynadığını vurğulayırlar.

Azərbaycan Respublikası və Türkiyə Respublikası müstəqillik, suverenlik, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı, dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərini rəhbər tutaraq müttəfiqlik münasibətlərinin qurulmasının siyasi və hüquqi mexanizmlərini müəyyən edirlər.

Tərəflər xarici siyasət sahəsində əlaqələndirmənin və müntəzəm ikitərəfli siyasi məsləhətləşmələrin həyata keçirilməsinin vacibliyini qeyd edirlər və bu istiqamətdə Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurası çərçivəsində fəaliyyətlərin əhəmiyyətini vurğulayırlar.

Tərəflər öz milli maraq və mənafelərini müdafiə və təmin etməyə yönəlmiş müstəqil xarici siyasət həyata keçirirlər. Tərəflər regional və beynəlxalq miqyasda sabitlik və rifah vasitəsilə sülh, dostluq və mehriban qonşuluğa əsaslanan beynəlxalq münasibətlərin inkişaf etdirilməsi, eləcə də münaqişələrin və regional və qlobal təhlükəsiz-

lik və sabitlik məsələlərinin həlli istiqamətində birgə səylər göstərirlər.

Tərəflər aktual xarakter kəsb edən, qarşılıqlı maraq doğuran beynəlxalq məsələlər üzrə həmrəylik və qarşılıqlı dəstək nümayiş etdirərək yaxın və ya üst-üstə düşən mövqedən çıxış etməklə ikitərəfli əməkdaşlığı dərinləşdirəcəklər və Birləşmiş Millətlər Təşkilatı, ATƏT, Avropa Şurası, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, İslam Əməkdaşlıq Təşkilatı daxil olmaqla beynəlxalq və regional təşkilatlar çərçivəsində bir-birinə qarşılıqlı dəstək göstərəcəklər.

Tərəflərdən hər hansı birinin fikrincə, onun müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, Tərəflər birgə məsləhətləşmələr aparacaq və bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirəcək, bir-birinə BMT Nizamnaməsinə uyğun zəruri yardım göstərəcəklər. Bu yardımın həcmi və forması təxirə salınmadan keçirilən müzakirələr yolu ilə müəyyən edilərək birgə tədbirlər görülməsi üçün müdafiə ehtiyaclarının ödənilməsinə qərar veriləcək və Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyəti təşkil olunacaqdır.

Tərəflərin Təhlükəsizlik Şuralarının milli təhlükəsizlik məsələləri üzrə müntəzəm olaraq birgə iclasları keçiriləcəkdir və bu iclaslarda milli mənafe, Tərəflərin maraqlarına toxunan regional və beynəlxalq təhlükəsizlik məsələlərinin müzakirəsi həyata keçiriləcəkdir.

Tərəflər iki qardaş ölkənin silahlı qüvvələrinin müasir tələblərə uyğun olaraq yenidən formalaşdırılması və modernləşdirilməsi istiqamətində birgə səy göstərməyə davam edəcəklər.

Tərəflər minalanmış ərazilərin təmizlənməsi əsas götürülməklə Ermənistan işğalından azad edilmiş rayonlarda həyatın normallaşdırılması istiqamətində fəaliyyətləri dəstəkləyəcəklər.

Tərəflər müdafiə qabiliyyətlərinin və hərbi təhlükəsizliyin möhkəmləndirilməsinə yönələn şəxsi heyət mübadiləsini, birgə təhsil və təlimlərin keçirilməsini, iki ölkənin silahlı qüvvələrinin birlikdə fəaliyyət qabiliyyətinin artırılmasını, müasir texnologiyalara əsas-

lanan silah və sursatların idarə olunmasında sıx əməkdaşlığı və bu məqsədlə səlahiyyətli struktur və qurumların əlaqəli fəaliyyətinin təmin edilməsini təşviq edəcəklər. Azərbaycan və Türkiyə digər dost dövlətlərin orduları ilə birlikdə hərbi təlimlərin keçirilməsini dəstəkləyəcəklər.

Tərəflər milli və beynəlxalq öhdəliklərini nəzərə almaqla dəniz, hava və kosmos sahələrində qarşılıqlı texnologiya mübadiləsini həyata keçirərək müştərək qabiliyyətlərin inkişaf etdirilməsi məqsədilə birgə layihələrin yerinə yetirilməsini təşviq edəcək və qarşılıqlı müdafiə sənayesi texnologiyalarının inkişaf etdirilməsinə müsbət töhfə verəcəklər, sahib olduqları silah və sursatla təchiz edəcək, onların istehsal texnologiyalarını qarşılıqlı şəkildə təşviq edəcək və hazırda onların ölkələrində mövcud olmayan istehsal sahələrinin yaradılmasını, birgə tədqiqat və istehsalat işlərinin həyata keçirilməsini, iki ölkənin müdafiə sənayesi qurumlarının texnologiyalar, hərbi təyinatlı məhsullar və xidmətlər sahəsində daxili və beynəlxalq bazarlarda əməkdaşlıq etməsini dəstəkləyəcəklər.

Tərəflər bildirirlər ki, iki dövlət arasında inkişaf etdirilən və onların milli maraqlarına cavab verən hərbi-siyasi əməkdaşlıq üçüncü dövlətlərə qarşı yönəlməmişdir.

Tərəflər kiber təhlükəsizlik sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsinin vacibliyini vurğulayırlar və bu sahədə birgə elmi tədqiqat işləri, mütəxəssis hazırlığı həyata keçirəcək, qarşılıqlı texniki əməkdaşlığı təşviq edəcəklər.

Tərəflər ticarət-iqtisadi münasibətlərdə milli iqtisadiyyatlarının və ixracın şaxələndirilməsi, eləcə də perspektiv sahələrdə birgə istehsalın qurulması, investisiya əməkdaşlığının qarşılıqlı faydalı inkişafı üçün daha əlverişli şəraitin inkişaf etdirilməsi istiqamətində səylərini artıracaqlar. Bu xüsusda Azərbaycan və Türkiyə malların sərbəst hərəkətinin təşkili mexanizmlərinin yaradılması istiqamətində tədbirlər görəcəklər.

Tərəflər regionun və Avropanın enerji təhlükəsizliyinə töhfə verən, təbii qaz mənbə və marşrut saxələndirilməsini təmin edən strateji Cənub Qaz Dəhlizinin həyata keçirilməsində Türkiyə və Azərbaycanın qabaqcıl rolunu vurğulayırlar. Tərəflər Cənub Qaz Dəhlizinin səmərəli şəkildə istifadə olunmasına və daha da inkişaf etdirilməsinə yönəlmiş səyləri əlaqələndirilmiş şəkildə davam

etdirəcəklər. Tərəflər, həmçinin qlobal enerji sektorundakı prosesləri nəzərə alaraq regionun enerji təchizatı təhlükəsizliyinin gücləndirilməsi üçün elektrik sahəsində də regional əməkdaşlığa töhfə verəcək səylərin artırılaraq davam etdirilməsi üzrə niyyətlərini ifadə edirlər.

Tərəflər iki ölkənin ərazisindən keçən Şərq-Qərb/Orta beynəlxalq nəqliyyat dəhlizinin rəqabət qabiliyyətinin artırılması məqsədilə qarşılıqlı əməkdaşlığı möhkəmləndirəcəklər. Azərbaycan və Türkiyə intellektual nəqliyyat sistemləri texnologiyalarından istifadə etməklə beynəlxalq nəqliyyat dəhlizlərinin Azərbaycan-Türkiyə hissələrində tranzit-nəqliyyat potensialını daha da inkişaf etdirəcəklər.

Tərəflər Azərbaycan və Türkiyəni birləşdirən Azərbaycan Respublikasının qərb rayonları ilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası arasında dəhlizin (Zəngəzur dəhlizi) açılmasının və həmin dəhlizin davamı kimi Naxçıvan-Qars dəmir yolunun tikintisinin iki ölkə arasında nəqliyyat-kommunikasiya əlaqələrinin intensivləşməsinə mühüm töhfə verəcəyini qeyd edirlər.

Tərəflər Türkiyə ilə Azərbaycan arasında əlaqələrin mövcud səviyyəsinin ümumi regional və beynəlxalq sülh və rifaha töhfə verdiyini, əlaqələrin sadəcə iki ölkəyə deyil, eyni zamanda, regiona sülh və rifah gətirərək başda region ölkələri olmaqla beynəlxalq birliyin sabitlik, sülh və maraqlarına xidmət edəcəyini vurğulayırlar.

Tərəflər regional və beynəlxalq sabitliyə və təhlükəsizliyə mənfi təsir edən müxtəlif təhdid və çağırışlara, xüsusilə terrorçuluğa, onun bütün forma və təzahürlərinə, maliyyələşdirilməsinə, həmçinin kütləvi qırğın silahlarının yayılmasına, mütəşəkkil cinayətkarlığa, çirkli pulların yuyulmasına, narkotiklərin qanunsuz dövriyyəsinə, insan alverinə, qanunsuz miqrasiyaya qarşı mübarizə sahəsində birgə səylərini və əməkdaşlıqlarını genişləndirəcək və dərinləşdirəcəklər.

Azərbaycan Respublikası Türkiyə Respublikasının suverenliyinə, ərazi bütövlüyünə, sərhədlərinin toxunulmazlığına, sabitliyinə və təhlükəsizliyinə qarşı yönəlmiş bütün fəaliyyətləri, o cümlədən terrorçuluğun bütün forma və təzahürlərini pisləyir və Türkiyə Respublikasının terrorçuluğa qarşı apardığı mübarizəni qətiyyətlə dəstəkləyir.

Tərəflər müxtəlif ölkələrdə yaşayan Azərbaycan və türk diasporları arasında əməkdaşlığın daha sıx inkişaf etdirilməsi, onların

məruz qaldıqları ümumi problemlər qarşısında birlikdə addımlar atılması və ardıcıl həmrəylik göstərilməsi məqsədilə səylərini birləşdirəcəklər.

Tərəflər ölkələrinin təqdim edilməsi və milli mənafelərinin qorunmasına dair tarixi həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında diasporal fəaliyyətin əlaqələndirilməsini və qarşılıqlı dəstəyi təşviq edəcəklər.

Tərəflər Ermənistanın Türkiyəyə qarşı əsassız iddialarının, tarixin təhrif olunması və tarixi faktların təhrif olunmaqla siyasiləşdirilməsi cəhdlərinin regionda sülhə və sabitliyə ziyan vurduğunu vurğulayaraq bu kontekstdə 1915-ci il hadisələri ilə bağlı olaraq öz arxivlərini açan Türkiyənin Ermənistandakı və digər ölkələrdəki arxivlərin açılması və bu mövzuda tarixçilər tərəfindən araşdırmaların aparılmasına yönəlmiş səylərini qətiyyətlə dəstəkləyirlər.

Tərəflər 10 dekabr 2020-ci il tarixində imzalanmış "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında media sahəsində strateji əməkdaşlıq haqqında Anlaşma Memorandumu"na uyğun olaraq Azərbaycan-Türkiyə Media Platformasının imkanları nəzərə alınmaqla, iki ölkənin aidiyyəti qurumları arasında informasiya, kommunikasiya və ictimai diplomatiya sahələrində əməkdaşlığı daha da gücləndirəcəklər və bu çərçivədə xarici işlər nazirlikləri arasında davamlı olaraq informasiya üzrə sıx məsləhətləşmələr və mübadilələr həyata keçiriləcəkdir.

Tərəflər parlamentlərarası əməkdaşlığın daha da gücləndirilməsini və bu istiqamətdə qarşılıqlı fəaliyyətin artırılmasını təşviq edirlər.

Tərəflər hər iki xalqın müştərək dəyərlərinin ümdə təzahürlərinə lazımi ictimai dəstəyin göstərilməsini təmin edəcək, tarixi və mədəni irslərinin qorunması üçün birgə fəaliyyət həyata keçirəcəklər.

Tərəflər Türk dünyasının birlik və rifahına xidmət edəcək milli və beynəlxalq səylərin artırılmasına diqqət çəkdilər.

Tərəflər Türk mədəni irsinin beynəlxalq səviyyədə təbliğ və təşviq edilməsi sahəsində birgə əməkdaşlığı gücləndirəcəklər.

Tərəflər Türk həmrəyliyinin daha da möhkəmləndirilməsi məqsədilə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu, TÜRKSOY və Türkdilli Ölkələrin Par-

lament Assambleyası çərçivəsində həyata keçirilən fəaliyyətlərə təkan verəcəklər.

Tərəflər bir Tərəfin vətəndaşlarının digər Tərəfin ərazisinə şəxsiyyət vəsiqəsi ilə səyahət etmələri haqqında əldə edilən razılaşmadan məmnunluq ifadə edirlər və həmin razılaşmanın xalqlarımız arasında yaxınlıq və insanlar arasında əlaqələr baxımından müstəsna əhəmiyyətini qeyd edərək, bir Tərəfin vətəndaşlarının digər Tərəfin ərazisində yaşamaq hüququ əldə etmələrini qarşılılıq prinsipinə uyğun olaraq asanlaşdırmaq üçün müvafiq tədbirlər görülməsini təqdir edirlər.

Tərəflər lazımi dövlət dəstəyini təmin edərək xalqları arasında müştərək dəyərlərə söykənən sıx əlaqələri humanitar, sosial müdafiə, elm, təhsil, səhiyyə, mədəniyyət, gənclər və idman sahələrində daha da inkişaf etdirəcək və dərinləşdirəcəklər. Bu məqsədlə iki ölkənin aidiyyəti qurumları tərəfindən birgə davamlı fəaliyyətlər həyata keçiriləcəkdir.

Bu Bəyannamə Şuşa şəhərində 15 iyun 2021-ci il tarixində, Azərbaycan türkcəsi və Türkiyə türkcəsi dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir.

Bəyannaməni imzalayıblar:

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev,**
**Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan**

*Azərbaycan Respublikasının Prezidenti,*
*Ali Baş Komandan İlham Əliyevin Sərəncamı*
*ilə elan edilmiş "Şuşa İli"nə ithaf edilir*

**Akademik Teymur Kərimli**

## "ƏZİZ ŞUŞA! BİZ QAYITDIQ!"

Ay ağalar, gəlin sizə söyləyim:
Baş tacıdır bizim zəfər Şuşanın!
Başımıza min il qaxınc olardı,
Yolu bağlı qalsa əgər Şuşanın.
"Şuşanı al!" komandası gələndə,
"Yarasalar" qarğaları dələndə,
Fəğan etməz "Xarıbülbül" çəməndə;
Bağlarında gülləri tər Şuşanın!
Bizim dağlar igid doğan, nər doğan,
Bu nərlərə tay olarmı hər doğan?
Qəşəh demiş Rəcəb Tayyib Ərdoğan:
"Dumanı da gülümsəyər Şuşanın!"
Ağ yel kimi dərə keçib, dağ aşıb,
Sinəsilə sal qayaya dırmaşıb,
Aslan kimi kükrəyibən qarmaşıb,
Toyuna can saldı nəmər Şuşanın!
Yağıların zəhər qatdıq aşına!
Müjdə verin İstanbul qardaşına!
Türkiyəylə Azərbaycan başına
Zəfər günü zər səpələr Şuşanın!
Anıb şəhidləri gözü dolsa da,
Qoynunda bir daha olmaz qan-qada!
Kirs dağın başını duman alsa da,
Bundan belə üzü gülər Şuşanın!
Alnında vüqarı, nuru üzündə,
Düşmən zingiltisi məğrur izində,
Komandan gəzəndə Cıdır düzündə,
Saf ürəyi dağa dönər Şuşanın!

**12.12.2020**

## ŞAH BABAMIZIN VƏSİYYƏTİ:

## “SİZƏ ÜÇ ƏMANƏT QOYUB ƏRƏN BABALAR: DİLİMİZ, VİCDANIMIZ, VƏTƏNİMİZ”

Azərbaycan tarixinə adı qızıl hərflərlə yazılmış tarixi şəxsiyyətlərdən biri də Şah İsmayıl Xətaidir. Şah İsmayıl Xətai Səfəvi imperiyasının qurucusudur. Onun bölünmüş Azərbaycanı necə birləşdirməsi, qüdrətli imperiya qurması barədə kifayət qədər romanlar, əsərlər, oçerklər, məqalələr yazılıb.

Şah İsmayıl Xətainin vəsiyyəti:

Çox çalışdım. Artıq kamala dolmuşdum. Çox əlləşdim – müharibə olmasın,- dedim, – olmadı.

Budur, Çaldıran döyüşündən on il keçib. Hələ bir dəfə üzüm gülməyib, dodaqlarımda təbəssüm olmayıb…

…Ömrün son günlərini yaşayıram… Sizin üçün bu az ömrümdə əlimdən gələni elədim. Fəthlər edib, parça-parça bölünmüş diyarımızı birləşdirməyə çalışdım.

Vətənin bir sıxma torpağını bir ovuc qızıldan, türk dilimizin bir küçücük sözünü bir ölçü ləl-cəvahirətdən üstün bildim. Hər ikisinin – Vətənimizin və dilimizin əbədiyyəti üçün.

Nə bacardımsa onu elədim. Yaxşı nə başladımsa – onu göyərdin! Səhvlərimi təkrar etməyin! Sizə vəsiyyətim budur!..

Sizə üç əmanət qoyub ərən babalar: dilimiz, vicdanımız, Vətənimiz – can onlar əmanəti!

## ÖN SÖZ

Kitabla ilk tanışlığımda mənə elə gəlmişdi ki, bu, tarixi özündə əks etdirən bir əsərdir. Lakin onu vərəq-vərəq oxuduqca gördüm ki, burada həm tarix var, həm də folklor. Müəllif öncə 1992-1993-cü illər ərzində Ermənistanın təcavüzkar qüvvələrinin Azərbaycan ərazisinin 20%-ni işğal etməsindən, bu işğal faktları ilə əlaqədar BMT-nin Təhlükəsizlik Şurasının qəbul etdiyi yeddi Bəyanat və dörd Qətnamədən bəhs açır, sonra isə 44 günlük Qarabağ müharibəsinin hər gününün, hər uğurunun statistikasını oxucuların diqqətinə çatdırır. Sonra isə Narıncların bağlandığı bölgələr haqqında məlumatla tanış oluruq. Monoqrafiyanın bu hissəsində müəllif oxucunun diqqətini iki məsələyə yönəldir: 1) Narınclar kəndinin tarixi-coğrafi təhrifə uğrayaraq Qarabağın deyil, Dağlıq Qarabağ məhfumu tərkibində göstərilməsi məsələsinə; 2) kəndin qədim adının Qoca Qurt adlanmasının türk ellərinin dastanlarında xilaskarlıq simvolu sayılan Boz qurdla səsləşməsi məsələsinə.

Narınclar Qarabağ regionu Şuşa qəzasının Çiləbörd sahəsinin Şıxavənd oymağı (Kolanı mahalı), sonra isə Cavanşir qəzasına və Ağdərə rayonuna tabe olduğundan, bu anlayışlar haqqında təfsilatlı arayış verməyi qərara alan Nizami Məmmədov bu problemlə əlaqədar XIX əsr ictiami fikir xadimlərindən Mirzə Camal Cavanşirin, Abbasqulu Ağa Bakıxanovun, XX-XXI əsr tarixçilərindən Yaqub Mahmudov, Kərim Şükürov kimi alimlərin qeydlərinə istinad edir.

Kitabın üçüncü bölməsi Narınclar kəndinin yaranma tarixinə həsr edilmişdir. Bu bölmədə həmçinin Narınclar kəndinin və onun sakinlərinin təşəkkülünün İsmayıl bəylə bağlı olması faktını öyrənirik. Müəllif bu bölmədə Narınclar kəndi ilə bağlı eldə mövcud olan rəvayətlərdən bəhrələnmişdir. Tarix, rəqəmlər, faktlar əsasında yazılmış monoqrafiyada folklorun yer alması çox təqdirəlayiqdir.

Kitabda Qarabağın yaylaq yurdlarının siyahısı, Narınclar elinin nəsil şəcərəsi, kənddəki inzibati binaların sayı, kəndin toponimləri, bulaqlarının adları, habelə, kənddə bitən dərman bitkiləri haqda təfsilatlı məlumat verilmişdir.

Narınclar elinin adət-ənənələri də müəllifin diqqətindən kənarda qalmamışdır. Müəllif burada xalq oyunları, Novruz adətləri haqqında təfsilatlı məlumat verir, Narıncların folklorunu yüksək həssaslıqla incələyərək tədqiqata çəkir.

Kitabın bölmələrindən biri Narıncların Sovet dönəmindəki həyatına həsr edilmişdir. Nizami Məmmədov bu bölmədə II Dünya Müharibəsi illərində Narınclar sakinlərinin ön və arxa cəbhədə fəal iştirakından geniş bəhs açmışdır. Müəllif monoqrafiyada 416-cı Taqanroq Diviziyası haqqında da ətraflı məlumat vermişdir.

Nizami Məmmədov Narınclar kəndində təhsil problemini də diqqətdən kənarda qoymamışdır. Müəllif həmçinin Narıncların verdiyi şəhidlərdən geniş bəhs açmışdır.

Kitabın "Qarabağın görkəmli ağsaqqalları və tanınmış şəxsiyyətləri" adlı bölməsi də diqqət cəlb edir. Müəllif bu bölmədə də Qarabağın görkəmli şəxsiyyətlərinin, habelə tanınmış simalarının adlarını yüksək hörmətlə çəkir, bir çoxunun tərcümeyi-halı ilə oxucunu yaxından tanış edir.

Kitabla yaxından tanış olduqdan, onu diqqətlə oxuduqdan sonra gəldiyim qənaət budur ki, müəllif onu yazarkən xeyli mənbə ilə tanış olmuş, imkan daxilində fikirlərini tutarlı mənbələrə söykəmişdir. Tarix faktlardan, rəqəmlərdən ibarətdir. Bu monoqrafiyada da yetərincə fakt, rəqəm var. Lakin müəllifin hərtərəfli elmi səviyyəsi tarixlə, rəqəmlərlə kifayətlənməyib, yazdıqlarına folklordan qaynaqlanan bədiilik qatması onun əsərini daha oxunaqlı etmişdir. Kitab istər tarixçilər, istərsə də vətənsevər vətəndaşlar üçün çox gözəl mənbə rolunu oynayacaq. Müəllifi bu gözəl əsərin araya-ərsəyə gəlməsi münasibətilə təbrik edir, ona gələcək fəaliyyətində yaradıcılıq uğurları arzulayırıq.

**Leyla İmaməliyeva**
**filologiya elmləri doktoru, professor**

## MÜƏLLİFDƏN

Azərbaycanın 44 günlük Vətən Müharibəsi dünya hərb tarixinə bir fenomen kimi daxil oldu. Bu əfsənavi savaşın əsasını milli şüur, türk soyağacından gələn milli qeyrət, milli qürur hissi, barışmazlıq, döyüş əzmi və milli-mənəvi dəyərlər təşkil edirdi. Qan yaddaşımızdan süzülüb gələn bu dəyərlər öz bariz nümunəsini Vətən Müharibəsində təsdiqi tapdı.

Əlində silah tutan hər kəs döyüşçü sayılmaz! Döyüşçü dövlət, Vətən, millət naminə silaha sarılan qəhrəmandır! Müzəffər Ali Baş Komandanımız, Prezident İlham Əliyevin əmri ilə Vətən oğulları Müqəddəs Savaşa atıldılar.

Tarixi Zəfər işığında milli-mənəvi dəyərlərimiz olan soykökə qayıdış, qan yaddaşı və milli ruhun oyanışı kimi kardinal məsələlər böyük əhəmiyyət kəsb etdi. Bir millət, dövlət olaraq genetik kodlar və milli dövlətçilik düşüncəsində açılım oldu. Bilavasitə 44 günlük Vətən Müharibəsi tarix və müasirliyin vəhdətini yaratdı.

Atalarımız deyib "Oğul düşmən çəpəridir". Tarixən türk törənində oğul övladı anadan olanda şadyanalıq olurdu. Ulusun qeyrətini, namusunu qoruyan övladlar türklük ruhnda təlim-tərbiyə alırdılar. Bilirsinizmi türklərin gücü, savaşda qalibiyyəti nə ilə bağlıdır?! Türklərin inancı olan təkallahlılığa etiqaddan irəli gəlir. Prototürklər bəşər sivilizasiyasına ilk dəfə olaraq Tenqriçililik (Tanrı) inancını yayan etnos idi. Bu inancın təməlində Vətən əxlaqı dururdu. "Türkün vətənsevərliyinə örnək olaraq Hun dövlətinin qurucusu olan Meteni göstərə bilərik. Çin hökmdarı savaş elanına bəhanə üçün ilk öncə onun çox sevdiyi atını istədi. Bu at saatda min fərsəx uzunluğunda yol gedirdi. Mete soydaşlarını savaşın müsibətlərinə məruz qoymamaq üçün atı Çin xaqanına göndərdi. Çin savaşa bəhanə arayırdı. Bu səfər də Metenin çox sevdiyi arvadını istədi. Bütün bəylər qurultayda savaş dan etməyi irəli sürdükləri halda, Mete: «Mən vətənimi öz eşqimin uğrunda tapdalada bilmərəm» - deyərək sevgilisini düşmənə vermək kimi böyük bir fədakarlığı qəbul etdi. Belə olduqda Çin hökmdarı Hun ölkəsindən heç bir məhsulu, tarlası, meşəsi, yeraltı sərvəti, əhalisi olmayan bir bölgə parçasını istədi. Qurultay bu faydasız torpağın verilməsində heç bir zərər olmadığını söyləyərkən, Mete: «Vətən bizim mülkümüz deyildir, məzarda yatan atalarımızın və qiyamətə qədər doğulacaq törəmələrimizin bu

mübarək torpaq üzərində haqları vardır. Vətəndən - istər, bir qarış qədər olsun yer verməyə heç kəsin səlahiyyəti yoxdur. Buna görə də, müharibə edəcəyik. Bax, indii mən atımı düşmənə doğru sürürəm. Ardımca gəlməyən edam olunacaqdır» - deyərək çinlilərin üzərinə yeridi. Əski türklərin gözündə vətənin nə qədər əziz olduğunu bu tarixi hadisədən anlaya bilərik".

44 günlük müharibədə də Vətən əxlaqının ali dəyər olduğu sübüta yetdi. Nəsildən-nəsilə ötürülən vətənpərvərlik tərbiyəsinin aşılanmasında dədə-babalarımızın, ağsaqqalların, ruhanilərin xüsusi payı var. Bu da özünü şifahi xalq ədəbiyyatının nümunələri olan atalar sözü, zərb məsəlləri, bayatılar, dastanlar, nağıllar, xalq mahnılarında və s. öz əksini tapmışdır. Ənənəvi olaraq xalq pedaqogikasında Vətən sevgisi və yurdun yağı düşmənlərdən qorunması ana xətt təşkil edir.

Şəhidlərin və Qazilərin yetişməyində pedaqoqlar əsas simadır. Birinci Qarabağ Müharibəsi, 2016-cı il aprel döyüşləri, 2020-ci il Tövuz döyüşləri, 44 günlük Böyük Vətən Müharibəsinin fatehləri olan Şəhidlər və Qazilər məktəbdə verilən şəxsiyyətyönümlü vətəndaşlıq tərbiyəsinin örnəkləridir. İgidlərimizin yaratdığı tarix haqda kitablar yazılmalı, kinofilmlər çəkilməli, teatr tamaşaları və televiziya verilişləri çəkilərək təbliğ olunmalıdır.

Hər bir insan milliyətindən, cinsiyyətindən asılı olmayaraq öz millətinə xidmət missiyasını yerinə yetirməlidir. 1988-ci ildən bəri Azərbaycan xalqı azadlıq yolunda faciələrə, soyqırımlara məruz qalıb. Bu illər ərzində Ermənistan silahlı qüvvələrinin öz himayədarının yardımı ilə dədə-baba yurdlarımızı işğal etməsi hər birimizin üzərinə müəyyən vəzifə və məsuliyyət qoyur. Mən də bir tarixçi olaraq bu ümumxalq mübarizəsində öz tövhəmi verməyə çalışmışam. 1988-ci ildən etibarən erməni faşizminə qarşı çıxışlar etmişəm. Bu zəmində ziyalı olaraq xalqa xidmət missiyasını rəhbər tutaraq fəaliyyət göstərmişəm. Hələ 1988-ci ildə Xankəndində fəaliyyət göstərən Pedaqoji İnstitutda "Pravda" qəzetinin müxbirinin iştirakı ilə keçirilən azərbaycanlı və erməni tələbələrlə görüşdə Qarabağ məsələsi ilə bağlı həqiqətləri onların nəzərinə çatdırmışam. Pedaqoji fəaliyyətimdə də yetirmələrimə Vətən ruhunu təbliğ etmişəm. İlahi Eşqi, millət, dövlət, bayraq, Turan sevgisini aşılamışam. Ermənistanın Azərbaycana hərbi təcavüzü elmi araşdırmalarımda da xüsusi yer tutmuşdur. Belə ki, 1997-ci il 30 may tarixində "Azərbaycanda keçid dövrü və

siyasi elmlər problemi" adlı elmi-nəzəri konfransda məruzə ilə çıxış edərək Ermənistanın Azərbaycana təcavüzü məsələsinə xüsusi yer ayırmış və məsələnin hərbi-siyasi həllinin konseptual əsaslarını qeyd etmişəm. Respublika və beynəlxalq statuslu bir sıra elmi tədbirlərdə bu vacib məqamları dəfələrlə elmi ictimaiyətə təqdim etmişəm. "Erməni təcavüz və tarixi həqiqətlər" (Bakı, 2000) adlı kitabım işıq üzü görmüşdür. Bu kitab erməni ideoloqlarının "üç dəniz - Qara, Aralıq və Xəzər dənizləri arasındakı əfsanəvi "böyük ermənistan" proqramı ilə vəhdətdə olan üç fəaliyyət istiqamətinin cəfəng, antibəşəri olduğunu sübut etməyə həsr olunub. Bu proqramın fəaliyyət istiqaməti aşağıdakılardır:

1. "böyük Ermənistan"ın "tarixi konsepsiyasını" yaratmaq;
2. Fövqəldövlətlərin böyük siyasət oyununda erməni məsələsi adı altında alət yolunda çıxış etməklə ermənilik ideologiyasını yeritmək;
3. Bu təcavüzkar ideyanın həyata keçirilməsində erməni faşizminin terroru mübarizə üsulu kimi seçməsi.

Oxuculara təqdim olunun yeni kitabım 44 günlük Vətən Müharibəsində qazandığımız Zəfərimizə bir töhvədir. Belə ki, bu kitabın məziyyəti Tarixi Qələbəmizin işığında yazılmasıdır. Azərbaycan ziyalıları, yazarları, elm və mədəniyyət xadimləri Zəfərimizin izi ilə əsərlər yaratdılar.

Cəmi 44 gün davam edən savaş nəticəsində düşmən tərəfindən viran qoyulmuş əzəli-əbədi torpaqlarımız yağı tapdağından qurtuldu. İgidlərimiz hərb tarixində analoqu olmayan döyüş şücayəti, hərbi rəşadət, cəsarət və yenilməzlik göstərdilər. Qarabağın incisi olan Şuşanın yağı düşməndən geri alınmasının özü bir əfsanədir. Hərb tarixində görünməmiş İlahi möcüzə ilə aşağıdan yuxarıya dağların zirvəsinə qalxaraq əliyalın düşmən üzərinə hücum edərək Şəhadət məqamına yüksəldilər, Qazilərimiz də Vətən uğrunda sağlamlıqlarını itirərək Şəhid qardaşı oldular.

44 günün hər bir səhifəsi bir möcüzədir. Dastanlaşan, nağıllaşan Şəhidlər və Qazilər tarixin, xalqın yaddaşında əbədiləşdilər. Onlar bizə tək torpağı, yurdumuzu qaytarmadı. Onlar bizim milli yaddaşımızı, el-oba dəyərlərini, folklorumuzu, adət-ənənələrimizi, xalq sənət nümunələrini və s. qaytardı. Vətənpərvərlik təkcə torpaq uğrunda mübarizə olmayıb tariximizi, mədəniyyətimizi, dilimizi, milli dəyərlərimizi qorumaqla şərtlənir. Biz ziyalıların çiyninə işğaldan azad

olunmuş yurdların köklü, yerli sahiblərri olan nəsillərin şəcərəsini, mənəvi və maddi sərvətlərini aşkara çıxararaq gənc nəslə çatdırmaqdır.

Əsərdə Zəfərin işığında bir kolanı elinin şəcərəsi, maddi və mənəvi mədəniyyəti, tarixi keçmişi, igid oğulları, el-oba ağsaqqalları, seyid ocaqları, ziyarətgahları, şəxsiyyətləri, folkloru, adət-ənənələri, təbiəti, xalq təbabəti və s. haqda söhbət açılır. Eyni zamanda bu kitab baş tacımız Şəhidlərimiz və Qazilərimizə ehtiram ifadəsidir. Qəhrəman övladların yetişməyində mənsub olduqları nəslin genetik yaddaşı, coğrafi mühit, təlim-tərbiyə, ağsaqqal və ağbirçəklərin öyüd-nəsihəti bir məhəng daşıdır. 44 günlük müharibədə Şəhid və Qazilərimizlə dövlət, xalq, el-oba çiyin-çiyinə böyük birlik nümayiş etdirdilər. Müqəddəs savaş zamanı xalqımız 7dən 77yə qədər Zəfər naminə heç nəyini əsirgəmədi.

Vətən müqəddəs və toxunulmazdır! Torpaqdan pay olmaz! Bu formulə 44 günlük Vətən müharibəsinin rəmzinə çevrildi. Xalq yaradıcılığının Vətən bayatıları dərin qatlara işıq saçır:

Əzizim kətan yaxşı,
Geyməyə kətan yaxşı,
Qürbət yer cənnət olsa,
Yenə də vətən yaxşı.

Əzizim sözə qaldı,
Bir şirin sözə qaldı.
Yad qovuldu dağlardan,
El-oba bizə qaldı.

Vətənin müqəddəs əmanət olaraq mühafizəsi nəinki ağız ədəbiyyatında, həmçinin yazılı ədəbi abidələrimizdə də nəsihət edilir. "Kitabi Dədə Qorqud" dastanında "Qarı düşmən dost olmaz" çağırışı ilə Dədəm Qorqud gələcək nəsilləri ayıq-sayıq olmağa çağırmışdır. Çox təəssüflər ki, bu öyüd-nəsihəti unutmağımız bizi milli fəlakətlərlə üz-üzə qoydu. Tarixi unutqanlığımız milli faciəmizdir. Ancaq milli ruhun intibahının göstəricisi olan 44 günlük möcüzəli savaş böyük millət olduğumuzu dünyaya əyan etdi.

Qalib olaraq Müzəffər Ali Baş Komandanımızın sərkərdəliyi altında tarixdən çağdaşlığa körpü saldıq. Dünya hərb tarixinə yenilməzlik imzası atan dövlət – xalq – ordu vəhdəti ilə ədalətli müharibə, sülh, barış örnəyi bəxş edildi. Ulu əcdadlarımızın qan yaddaşını yaşadan Türkiyə-Azərbaycan qardaşlığı bu Şanlı Qələbədə möhürünü vurdu. Rəcəb Tayyib Ərdoğan və İlham Əliyev nümunəsində uzaq keçmişdən bizə örnək olan Türk sərkərdələrinin hərb və barış ənənəsini gördük. Türk-Turan Dünyasının strateqləri dünyaya ədalətli düzən və barış gətirmək üçün uğurlu fəthlərlə tarixdə iz qoyblar. Türk fatehləri fütuhatlarında xalqların dilinə, etnik identikliyinə, milli-mənəvi dəyərlərinə sayğı ilə yanaşmış, mədəniyyətini, tarixi-memarlıq abidələrini qoruyub saxlamışdılar. Odur ki, Türk dövlətçiliyi yüzilliklər boyunca yaşayaraq tarixi model nümunəsi yaratmışlar. Bir tarixi misala müraciət edək. Tarixdən məlumdur ki, xristianlığın mərkəzi sayılan Roma Hun İmperatoru Atillaya təslim oldu, Roma Papası diz çökərək yalvardı və Atilla Romanı işğal etməyərək bağışladı. Atilla 452-ci ildə Roma Paytaxtı Ravennaya doğru irəlilədi. Aetius qarşılaşmanın imkansız olduğunu söyləyir və İmperator Valentinianusa İtalyanı tərk etmək lazım gəldiyini deyirdi. Təslim olub, itaət etməkdən Atillaya xərac vergisini artırmaqdan başqa çarə olmadığını düşündülər və buna qərar verdilər.

Atilla papalığın mərkəzi Roma İmperatorluğunun və bütün Avropanın ən məhşur heykəllərlə dolu şəhərin qapılarında dayandığı zaman romalılar Papa I Leonun başçılığı ilə onun yanına böyük bir heyət göndərdilər. Atilla bu heyəti qəbul etdi. Papa Leo türk başçısına Roma İmperatoru və bütün xristian dünyası adından gəldiyini söyləyərək kimləri təmsil etdiyini sənədlərlə göstərdi. Ən böyük sübut isə İmperatorlar da daxil olmaqla bütün xristian aləminin lideri olan Papanın gəlməsi idi. Papa Atilladan Romanın əfvini xahiş etdi və bunun müqabilində ilbəil xəracın artırılacağını, Hun başçısının bütün şərtlərinə sözsüz əməl olunacağını bildirdi. Əsas məqsədi xristianlıq mərkəzinin yıxılmaması idi. Əslində bu Romanın təslimi deməkdi və Papa da bundan başqa bir şey söyləmir, Atilla isə bundan başqa heçnə istəmirdi.

Atilla Papanın yalvarışını qəbul etdi və Roma şəhərini işğal etmədi, dağıtmadı, yandırmadı. Beş il öncə Böyük Çəkməcəyə qədər gəldiyi halda İstanbulun məhv olmasına yol vermədiyi kimi, indi də onun qədər böyük bir şəhər olan, ən böyük abidələrin və kitabxanaların yerləşdiyi Romanı bu şəhərin əsərlərini qorumuş olurdu. Vaxtı ilə Romanın İmperatoru və baş sərkərdəsi olan Yuli Sezar Misiri zəbt etdiyi zaman dünyanın ən zəngin və böyük kitabxanası olan İskəndəriyyə kitabxanasını yandırmışdır.

44 günlük Vətən Müharibəsində əfsanəvi Qələbə qazanmağımız düşmənin belini qıraraq diz çökməyə məcbur etdi. Düşmən kapitulyasiya sənədinə imza ataraq ağ bayraq qaldırdı. Müzəffər Ali Baş Komandan etnogenetik olaraq Türk Xaqanının xəttini tutaraq haqq-ədaləti bərpa etdi. O istəsəydi qədim Oğuz Yurdu olan Qərbi Azərbaycanı (indiki Ermənistanı) ələ keçirərdi. Onu da qeyd edək ki, türk mədəni tarixi psixologiyasından irəli gələn barış, quruculuq, yaradıcılıq eşqi 44 günlük müharibənin gedişatında Zəfərimizdən sonra da özünü göstərdi. Azərbaycan işğal olunmuş ərazilərdə yenidənqurma, quruculuq-bərpa işləri apararaq mədəni, sivil millət olduğunu əyani göstərdi. Bu gün işğaldan azad olunan doğma yurdlarımıza yeni nəfəs gəlir. Torpaq öz əzəli sahiblərinin qayıdışını hiss edir. Ölkə rəhbərinin sərəncamları əsasında o yerlərdə yenidənqurma işləri ən qısa zaman axınında sürətli şəkildə aparılır, doğma yurdlara köç başlayıb. Bu gün bu ellərdə, obalarda, yurdlarda yaşamış dünyadan köçən insanların ruhu da şaddır. Oxucuya təqdim olunan bu kitabda o yerlərdə ömür sürmüş, ev tikmiş, yurd salmış insanların keçdikləri həyat yolunu işıqlandırmağa çalışmışıq.

Türkiyə-Azərbaycan liderliyi altında Türk-Turan birliyinin qurulması yolunda atılan tarixi addımlar qürurverici hissləri doğurur. Türk Dövlətləri Təşkilatı qurulması yeni-yeni xoş müjdələrdən xəbər verir. Ümidvaram ki, oxucular da bu xoş notlarla kitabı oxuyaraq rəy və təkliflərini bildirəcəklər. Sonda kitabın ərsiyə gəlməsində əməyi olan hər kəsə dərin minnətdarlığımı bildirirəm. Sayqılar!

# I BÖLMƏ

# AZƏRBAYCANIN BÖYÜK VƏTƏN MÜHARİBƏSİ

1985-ci ildə M.Qorbaçovun hakimiyyətə gəlməsi ilə erməni separatçı terrorizmi geniş vüsət aldı. 1987-ci ilin payızında Dağlıq Qarabağ Muxtar Vilayətini Ermənistana ilhaq etmək planı həyata keçirilməsində xüsusi fəallaşma başlandı. Belə ki¸ 1987-ci ildə ermənilər tərəfdən Moskvaya məktublar¸ imzalar formasında müraciətlər edilirdi. Həmin ilin noyabrında Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri A.Aqanbekyan "Paris L'Humanite" qəzetinə müsahibəsində Dağlıq Qarabağın iqtisadi baxımdan Ermənistana verilməsini məqbul sayaraq birləşdirilməsi təklifini irəli sürdü. 1987-ci ilin oktyabr ayında İrəvanda "Qarabağ Komitəsi"-nin keçirdiyi mitinqdə "MİATSUM"¸ "Dağlıq Qarabağ Ermənistana verilsin" şüarları ilə çıxışlar başlandı. Ermənilər işğalçılıq niyyətini gizlətmək üçün sosial iqtisadi bəhanə olaraq sosial-iqtisadi məsələləri qabardırdılar. Gerçəklikdə isə münaqişənin səbəbi iqtisadi deyil, ekspansionizm iddiası idi. Heydər Əliyev 2001-ci ilin fevral ayında Milli Məclisdə keçirilən müzakirələr zamanı çıxışında söyləmişdir:

"Mən xeyli müddət bu məsələlərlə tanış olduğuma görə və bilavasitə Azərbaycanda rəhbər olduğum dövrdə Dağlıq Qarabağ Muxtar Vilayətinin problemləri ilə yaxından məşğul olduğuma görə, ümumiyyətlə, bu problemin tarixini də yaxşı bilirəm və çətinliyini də bilirəm. Ermənilərin bu torpaq iddiası yeni bir şey deyildir. Ermənilər Dağlıq Qarabağda vəziyyəti həmişə qızışdırırdılar.

Ona görə də mən Azərbaycana rəhbərlik etdiyim zaman,- bunu açıq demək lazımdır, - biz Dağlıq Qarabağa daha çox iqtisadi cəhətdən şərait yaradırdıq, onların iqtisadiyyatının inkişaf etməsinə üstünlük verirdik. Çünki daim məsələ qalxırdı ki, guya Dağlıq Qarabağı Azərbaycanda sıxışdırırdılar və ermənilər Dağlıq Qarabağda inkişaf edə bilmir. Azərbaycanın bütövlüyünü saxlamaq, bütün ərazisini qorumaq üçün biz o vaxtlar Dağlıq Qarabağa daha da çox diqqət yetirirdik. ... Edirdim ona görə ki, birincisi, Dağlıq Qarabağı

azərbaycanlılarla da, məskunlaşdırmaq lazım idi, ikincisi, Dağlıq Qarabağa, ermənilərə verməyək ki, bu məsələni qaldırsınlar.

...O fakt da nəzərdən qaçmamalıdır ki, mən Moskvada bütün işlərdən kənarlaşdırılandan 25 gün sonra bu proses sürətlə başladı. Ondan bir ay sonra Dağlıq Qarabağda olan ermənilərin hamısı ayağa qalxdılar və qərar qəbul etdilər ki, Dağlıq Qarabağ Ermənistana birləşdirilsin. Ondan sonra bu faciələr başladı, bunun da nəticəsi göz qabağındadır. ... Ona görə yox ki, Azərbaycan xalqı ermənilərdən gücsüzdür. Bizim çoxəsrlik tariximiz Azərbaycan xalqının nəyə qadir olduğunu nümayiş etdirir.

Birincisi, ona görə ki, ermənilər, Ermənistan bu məsələyə uzun müddət hazırlıq görmüşdür. İkincisi, bu münaqişə başlayan zaman, yəni Ermənistanın torpaq iddiası meydana çıxandan sonra ermənilər hamısı - həm Ermənistanda, həm də dünyanın hər yerində yaşayan ermənilər bütün daxili ziddiyətləri, münasibətləri unutdular, hamısı birləşdilər.

Onlardan fərqli olaraq, Azərbaycanda bu hadisə başlayan zaman xalqımız birləşə bilmədi, xalqa rəhbərlik edən adamlar savadsızlıq etdi və bir, iki ildən sonra artıq Dağlıq Qarabağ məsələsi unuduldu, Azərbaycanda daxili çəkişmələr, vuruşmalar, hakimiyyət mübarizəsi başladı. Ona görə də belə bir vəziyyətdə ermənilər asanlıqla Azərbaycan torpaqlarını işğal etdilər".

Sovet dövründə erməni şovinist millətçiləri cürbəcür vasitələrlə Dağlıq Qarabağı Ermənistana birləşdirmək üçün çalışırdılar. Heydər Əliyev Azərbaycanın Dövlət Təhlükəsizlik Komitəsinin sədri təyin olunmasından sonra, erməni-daşnak millətçiləri ilə seperatist cəhdlərinin qarşısını almaq üçün tədbirlər gördü. 1969-cu ildə Azərbaycana rəhbərlik etdiyi dövr ərzindədə DQMV-də milli mənafelərimiz qorunaraq ərazi iddialarının qarşısı alındı. Heydər Əliyevin strateji və müdrik siyasəti nəticəsində davakar və barışmaz erməni şovinizmi tarixi, etnik yurdlarımıza gəlmə olduqlarını aşağıdakı faktla sübut etdilər. Tarixdən məlumdur ki, 1828-ci ildə bağlanmış (Çar Rusiyası ilə Qacar dövləti arasında) Türkmənçay müqaviləsindən sonra ermənilərin indiki İran ərazisində yerləşən Marağa əyalətindən iki yüz erməni ailəsi Azərbaycana köçürüldü. Ermənilərin İranın Marağa şəhərindən Qarabağa köçürülmələrinin

150 illiyi münasibətilə 1978-ci ildə keçmiş Ağdərə, indiki Tərtər rayonunun Şıxarx qəsəbəsində "Marağa-150" adında abidə qoymuşdular. Rusiya və Qacar dövlətləri arasında 1828-ci ildə bağlanmış Türkmənçay müqaviləsi, Osmanlı Türkiyəsi ilə Çar Rusiyası arasında 1829-cu ildə bağlanmış Ədirnə müqavilələrindən sonra 10 minlərlə erməni əhalisinin Cənubi Qafqaza köçürülməsinə razılıq verilmişdir. Rus-hay münasibətləri Rusiyanın dəstəyi ilə erməni dövlətinin yaradılması, o cümlədən hayların Rusiyanın işğal və ilhaq etdiyi ərazilərə köçürülməsi Türkiyə və Azərbaycana düşmənçilik siyasətindən irəli gəlirdi. Hay koloniyalarının yaranması I Pyotr (hayların köçürülməsi və məskunlaşdırması üçün 1724-cü il fərmanı) və siyasi varisləri tərəfindən həyata keçirildi. Türkmənçay müqaviləsinin XV maddəsi diplomatik üsulla olsa da, əslində hayların Azərbaycanın strateji bölgələrinə köçürülməsini nəzərdə tuturdu. XV maddədən: "Şah həzrətləri: Azərbaycan adlanan vilayətin bütün əhalisinə və məmurlarına büsbütün və tam bağışlanma əta edir. Bundan başqa o məmur və sakinlərə bu gündən başlayaraq öz ailəsi ilə birlikdə İran vilayətindən Rusiyaya sərbəst keçmək, hökümət yerli rəyisliyin heç bir maneçiliyi olmadan onların satlıq malına və ya əmlakına və əşyalarına hər hansı gömrük və vergi qoyulmadan tərpənən mülkiyyətini aparmaq və satmaq üçün bir il vaxt verilir. Tərpənməyən mülkə gəldikdə isə onun satılması və ya onun haqqında könüllü sərancam üçün beş illik müddət müəyyən edilir". Ermənilərin Azərbaycan ərazisinə köçürülməsi ilə bağlı "Marağa-150"-dən başqa "Çaylı-150", "Cığabert-150", "Metişen-150" abidələri də onların buraya alloxton (tarixin müxtəlif mərhələlərində müəyyən bir ölkəyə köçüb burada məskunlaşmış-milli etnik toplumlar) olduğunu sübut edir. Marağa abidəsi rəngli mozaika ilə "Qızlar bulaq başında" kompozisiyası formatında qurulub, kompozisiyanın eni 1.5 hündürlüyü, 3 metrədək olan sağ və sol tərəflərdə mərmər sütun bulaqlardan ibarət olub. Mərmər sütunlarından birinin üzərində yuxardan aşağıya doğru 1828 digərinin üzərində isə 1978 rəqəmləri yazılıb. Üzərində erməni əlifbası ilə "Marağa-150" yazılmış abidə Ermənistanın Azərbaycana ərazi iddiaları başlayandan etibarən dağıdılmışdı.



***ermənilərin 1828-ci ildə İrandan Azərbaycan torpaqlarına köçürülmələrinin 150 illiyi münasibəti ilə qoyduqları abidə (Abidənin üzərində ermənicə "Marağa – 150" yazılmışdır. Ağdarə, 1978)***

Ordumuz bu ərazini azad etdikdən sonra Müzəffər Ali Baş Komandan Prezident İlham Əliyev bu abidənin tarixi həqiqət və siyasi əhəmiyyətini nəzərə alaraq qərar qəbul edir. Bundan sonra qalıqları qalan abidənin dəqiq yerinin müəyyən edilməsi və bərpa edilməsi ilə bağlı işlər görülür.







Dövlət başçısı abidəni abadlaşdıraraq Azərbaycana səfər edən xarici ölkə səfirlərinə nümayəndələrə göstərilməsi ilə bağlı göstərişlər verdi. Mütəxəssizlər Sankt-Peterburq şəhərində yerləşən arxivdən fars dilində iki yüz səhifədən artıq Türkmənçay müqa-

viləsini Azərbaycan, Rus və İngilis dillərinə tərcümə etdilər. Rus Çarının ermənilərin köçürülməsi ilə bağlı sərəncamı, Çarın Qriboyedova tapşırıqları, Qriboyedovun Çara məruzələri aşkar olundu. Eyni zamanda Çarın tapşırığı ilə Maşko adlı Rus rəssamı Marağadan Şıxarxa köç mənzərəsini təsvir edən portretlərin surətidə çıxarılıb.

Abidənin ətrafı abadlaşdırıldı, istendlər quruldu və səfirlərin xarici KİV, eləcə də yerli mətbuat nümayəndələrinin səfəri təşkil olundu. İnformasiya müharibəsində erməni saxtakarlığına tutarlı bir cavab oldu.(https://ordu.az/az/news/139115/maraga%E2%80%93150--ermenilerin-erazi-iddialarini-ifsa-eden-abide-fotolar-)

M.Qorbaçov və separatçı daşnaq qüvvələrinin təcavüzkar ideyasının həyata keçməsində ciddi maneə Heydər Əliyev amili idi. O Sovet rəhbərliyi elitasından uzaqlaşdırılandan sonra millətlərarası münaqişəyə rəvac verildi. Qeyri-legal yaradılan "Qarabağ Komitəsi", "Krunk" təşkilatları açıq-aşkar təcavüzkar separatizm fəaliyyətini genişləndirdilər.

1987-ci ildə Ermənistan SSRİ-nin Qafan rayonunda azərbaycanlıların deportasiyası başlandı. 1988-ci il fevralın 22-sində Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda ilk şəhidlərimiz olan Əli Hacıyev və Bəxtiyar Quliyev canlarını fəda etdilər. Azərbaycan rəhbərliyinin rəsmi Moskvadan asılılığı, səriştəsizliyi ucbatından milli müqavimət təşkil edilə bilmədi. Ermənilər məkrli planlarını həyata keçirmək və azərbaycanlıları vəhşi obrazında təqdim etmək üçün SSRİ Dövlət Təhlükəsizlik Komitəsi ilə erməni xususi xidmət orqanlarının təşkilatçılığı ilə Sumqayıtda erməni Eduard Qriqoryanın icraçılığı ilə qətl və qarətlər törədildi. Ssenari üzrə də Sumqayıt hadisələrində qəsdən erməniləri öldürərək azərbaycanlıların üstünə yıxdılar. Məhz bu əvvəlcədən planlaşdırılmış təxribatdan istifadə edən Ermənistan hakim dairələri Ermənistanda və Qarabağ bölgəsində etnik təmizləmə və soyqırım həyata keçirdi. Ermənistanda Azərbaycanlıların dədə-baba torpaqlarından deportasiyası tamamilə başa çatdırıldı. 1991-ci ilin sentyabrında erməni təcavüzkar separatçı qüvvələri Dağlıq Qarabağ Respublikası adında siyasi alət olan qondarma qurumun mövcudluğunu elan etdilər. Noyabrın 20-sində erməni terrorçuları tərəfindən Qarakənd üzərindən uçan vertolyotun

vurulması nəticəsində nümayəndələr faciəli surətdə həlak oldular. Azərbaycanın çox dəyərli rəhbər şəxsləri və ziyalıları erməni terrorunun qurbanı oldu.

Erməni terrorizminə cavab olaraq Azərbaycan Respublikası noyabrın 26-da Dağlıq Qarabağ Muxtar Vilayətini ləğv etdi. Azərbaycanın müstəqilliyini bərpa etməsi münaqişənin xarakterini dəyişdi. Sovet imperatorluğu dağılandan sonra qarşıdurma Ermənistan-Azərbaycan müharibəsinə çevrildi.

Ermənistan xarici dövlətlərin havadarlığı və köməyi ilə hərbi təcavüzünü genişləndirdi. 1991-1994-cü illərdə Birinci Qarabağ müharibəsi nəticəsində təcavüz genişləndi. Könüllülük əsasında təşkil olunmuş Azərbaycan özünümüdafiə qüvvələri şücaətlər göstərərək şəhid oldular. Azərbaycanın qeyrətli oğul və qızları xalqımızın Qarabağın azadlığı uğrunda mübarizəsini dəyanət və əzmkarlıqla davam etdirmişlər. 1991-1994-cü illərdə xalqımız tarixin ən ağır sınaqlarından keçdi. Erməni faşizminin iç üzü azərbaycanlılara qarşı soyqırım siyasətinin tarixi mərhələləri olan 1813-1828-ci illər, 1905-1907-ci illər, 1918-1920-ci illər, 1948-1953-cü illər, 1987-ci ildən üzü bəri misli-bərabəri olmayan vəhşiliyi ilə seçilir. Erməni vəhşiliyi indiki Ermənistan ərazisində olan qədim Oğuz yurdlarında, Nüvədi, Kərki, Bağanis-Ayrım, Ağdaban, İmarət, Qərvənd, Tuğ, Salakətin, Axullu, Xocavənd, Cəmilli, Nəbilər, Meşəli, Həsənabad, Qaybalı, Malıbəyli və Yuxarı və Aşağı Quşçular, Kərgicahan, Qaradağlı, Xocalı və digər yaşayış məntəqələrində xüsusi qəddarlıqla özünü biruzə verdi.

1989-1994-cü illlərdə Ermənistan dövlətinin və erməni diasporasının yardımı ilə dünya ölkələrində fəaliyyət göstərən erməni terror təşkilatları ölkəmizə qarşı terror müharibəsi aparmışdır. Hərbi münaqişələrin getdiyi ərazilərdən uzaqda terraktlar nəticəsində minlərlə dinc insan həyatını itirmişdir. Azərbaycan ərazisində törədilən terror, təxribat hadisələri göstərir ki, düşmən total olaraq bütün sahələrdə konfrontasiya xətti tutub.

1992-1993-cü illər ərzində Ermənistanın təcavüzkar silahlı qüvvələri Azərbaycan ərazisinin 20%-dən çoxunu işğal etmişdir. Bu

işğal faktları ilə əlaqədar BMT-nin Təhlükəsizlik Şurası yeddi Bəyanat və dörd Qətnamə qəbul etmişdir. Bunlar:

- 1993-cü il aprelin 30-da Kəlbəcərin işğalı ilə əlaqədar 822 saylı;
- 1993-cü il iyulun 29-da Ağdamın işğalı ilə əlaqədar 853 saylı;
- 1993-cü il oktyabrın 14-də Füzuli, Cəbrayıl və Qubadlının işğalı ilə əlaqədar 814 saylı;
- 1993-cü il noyabrın 11-də Zəngilanın işğalı ilə əlaqədar 884 saylı qətnaməsidir.

Təhlükəsizlik Şurası Ermənistanın təcavüzkar dövlət kimi tanınmasına razılıq verməyərək, münaqişənin ATƏT-in Minsk qrupu çərçivəsində dinc yolla həll olunmasını üstün tutdu.

Ermənistanın təcavüzkar dövlət kimi tanınmasına razılıq verməyən TŞ tərəfindən qəbul edilən beynəlxalq sənədlərdə işğalçılıq siyasəti “Dağlıq Qarabağ regionunda və onun ətrafında münaqişə” kimi qiymətləndirilmişdir.

Azərbaycan Respublikası işğal olunmuş torpaqların azad olunması ilə əlaqədar BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrin icrası üçün Ermənistan Respublikası ilə Bişkek protokolundan sonra 30 ilə yaxın diplomatik danışıqlar apardı. Ermənistan beynəlxalq hüquq normalarına zidd olaraq bu qətnamələrə məhəl qoymadı.

Uzunmüddətli danışıqlar prosesində beynəlxalq formatlı Qərb institutları real irəliləyişə nail ola bilmədilər. Əlaxsus Minsk Qrupunun fəaliyyəti effektiv nəticə vermədi. Məlum olduğu kimi, Minsk Qrupu Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin siyasi həllini tapmaq üçün Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi (Konfransı) tərəfindən yaradılmışdır.

1992-ci il martın 24-də ATƏT-in Helsinki görüşündə Şura Baş katibdən Dağlıq Qarabağla bağlı ATƏT-in rəhbərliyi altında onun prinsipləri, tələb və öhdəlikləri və Əsasnaməsi haqqında böhranın sülh yolu ilə həllini təmin etmək üçün dərhal konfrans çağırılmasını xahiş etdi. 1994-cü il dekabrın 6-da dövlət və hökümət başçılarının Budapeşt Sammiti Minsk Qrupu üçün həmsədrlik yaratmağa qərar verdi. 1995-ci il martın 23-də isə Budapeşt Sammitinin qərarına əsasən, ATƏT sədri Minsk Qrupunun həmsədrlərinə mandat verdi.

Təcrübə göstərdi ki, ATƏT-in həmsədr üçlüyünün vasitəçilik missiyası Ermənistanın Azərbaycana hərbi təcavüzünü sülh yolu ilə aradan qaldırmaq deyil, təmsil etdiyi dövlətlərin maraqlarını müdafiə etməklə, münaqişəni həll etməməkdir. Minsk Qrupunun uğursuz fəaliyyəti Ermənistanın xeyrinə münaqişənin həllini dondurmaq üçün diplomatik manipulyasiyalar etmək, öz məqsəd və vəzifələrinə zidd olaraq işğalçılıq və ilhaq siyasətinə tərəfkeşliyi ilə təcavüzkarla təcavüzə məruz qalan arasında ədalətsiz tarazlıq yaratması ilə bağlıdır. Üzücü və uğursuz sülh danışıqları xalqımızın və ordumuzun səbr kəsasını doldurmaqda idi. Ordumuzun hər bir əsgəri Ali Baş Komandanın döyüş əmrini səbrsizliklə gözləyirdi. İgidlərimizin bir amalı vardı – Vətən torpaqları yağı düşməndən mütləq azad olunmalıdır. Onlar bu müqəddəs amal uğrunda Şəhid olmağı arzulayırdı. Onların düşüncəsinə görə əgər Şəhidlik Zirvəsinə ucalmadımsa, demək ona layiq deyiləm. Məhz bu mənəvi əzəmət, ruh yüksəkliyi, canı və qanı ilə qəhrəmanlıq dastanı yazdılar. Demək, Şəhidlər, Qazilər Qarabağ Qəhrəmanları tarix yaratdılar. Tarixçilər də tarix yaradanların tarixini yazmalıdılar. Dünyanı heyran qoyan qəhrəmanlıq əfsanələrini Vətənin torpağı, dağları, meşələri, çayları yaddaşına həkk olundu.

Çoxsaylı Qarabağ qəhrəmanlarından Allahverdi Bağırov, Ramiz Qəmbərov, Tofiq Hüseynov, Əlif Hacıyev, Əliyar Əliyev, Həsən Qorxmaz, Albert Aqarunov, Çingiz Mustafayev və digərlərinin adını çəkmək olar. Bu məqamda savaş ruhunun rəmzi olan Mübariz İbrahimov öz adının ecazkarlığını Vətənin və tarixin hafizəsinə yazdırdığını vurğulamaq istərdik. Mübariz İbrahimov 2010-cu il 19 iyunda gecə ikən "Şəhid olsam üzülməyin. Vətən sağ olsun" sətrini yazaraq Şəhidlik yoluna çıxdı. İnanc qədər sevdiyi Vətən sevgisinə qovuşmaq İlahidən onun diləyi idi. Yaradan sevimli bəndəsinin duasını qəbul edərək Şəhadət məqamına yüksəltdi. Necə ki, Uca Allah Müqəddəs kitabımızda buyuyur "Allah yolunda öldürülənləri (şəhid olanları) heç də ölü zənn etmə! Əsil həqiqətdə onlar diridirlər. Onlara Rəbbi yanında ruzi (cənnət ruzisi) əta olunur. (ALİ-İMRAN SURƏSİ 169)".



Mübariz İbrahimov sanki 44 günlük Vətən Müharibəsində Zəfərimizi görürdü. Bunu onun bizə qoyub getdiyi məktubu ordumuza bir Savaş çağırışı idi. Əfsanəvi qəhrəman məktubunda yazırdı: "Canım atam və anam. Məndən sarı darıxmayın. İnşallah, cənnətdə görüşəcəyik. Mənim üçün bol-bol dua edin. Vətənin dar günündə artıq ürəyim dözmür. Allaha xatir bunu etməliyəm. Ən azından ürəyim sərinlik tapar. İnşallah. Şəhid olanadək bu şərəfsizlərin üzərinə gedəcəyəm. Şəhid olsam, ağlamayın. Əksinə, sevinin ki, o mərtəbəyə yüksəldim. Allaha ibadətlərinizi dəqiq yerinə yetirin. Çoxlu sədəqə verin. Seyid nəvəsi olaraq bunu etməliyəm. Allah böyükdür. Vətən sağ olsun. Oğlunuz Mübariz. Haqqınızı halal edin".

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan Cənab İlham Əliyev 2020-ci il oktyabrın 26-da xalqa müraciətində ATƏT-in Minsk Qrupu həmsədrlərinin fəaliyyətinə geniş real qiymət verərək bildirir: "Minsk Qrupunun fəaliyyəti göz qabağındadır. Minsk Qrupuna həmsədrlik edən ölkələr müəyyən

müddətdən sonra faktiki olaraq bütün səlahiyyətləri öz əllərində cəmləşdirdilər, faktiki olaraq bu məsələni inhisara götürdülər, faktiki olaraq Minsk qrupu bir qrup kimi iflic vəziyyətə düşdü və üç ölkə bu məsələ ilə məşğul olmağa başlamışdı. Amma bunun nəticəsi oldumu? Olmadı. Bizim üçün olmadı, Ermənistan üçün oldu. Ermənistan elə bu nəticəni istəyirdi ki, daim danışıqlar getsin, daim bizim başımızı aldatsınlar, dondurulsun bu məsələ, əbədi qalsın işğal altında bizim torpağımız. Bəs, nədir Minsk Qrupunun fəaliyyəti? İşğalçıya təzyiq edə bildimi? Yox! Dəfələrlə mən onların qarşısında məsələ qaldırmışdım: əgər məsələnin həllini görmək istəyirsinizsə, sanksiyalar tətbiq edin Ermənistana. Sizin əlinizdədir. Siz BMT Təhlükəsizlik Şurasının daimi üzvlərinisiz, istənilən məsələni həll edə bilərsiniz. Xüsusilə bu ölkələrin rəsmi nümayəndələri deyirlər ki, bu məsələdə onların fikri üst-üstə düşür. O da maraqlı bir məsələdir. Necə olur, bütün başqa məsələlərdə - nüvə silahları ilə bağlı, Yaxın Şərqdə olan vəziyyətlə bağlı, Asiyada olan vəziyyətlə bağlı, Avropada olan vəziyyətlə bağlı bunların maraqları daban-dabana ziddir. Hansı başqa məsələdə bunların maraqları üst-üstə düşür? Heç bir məsələdə, Ancaq Dağlıq Qarabağ məsələsində. Nə üçün? Hər kəs başa düşür. Çünki bu dondurulmuş vəziyyət, təbii ki, bu ölkələr arasında bizdən başqa hər kəsi qane edirdi, ilk növbədə, Ermənistanı qane edirdi.

Ermənistan bu torpaqlarda qanunsuz məskunlaşma aparır. Bir söz deyən varmı? Yoxdur! Bu cinayətdir, beynəlxalq cinayətdir, Cenevrə Konvensiyalarına ziddir. Bir söz deyən var onlara ki, sən niyə qanunsuz məskunlaşma aparırsan? Özü də bunu nümayiş etdirirsən. Ərəb ölkələrindən erməniləri gətirirsən, yerləşdirirsən, o cümlədən Şuşada. Bir söz deyən yoxdur. Bu, nə deməkdir? O deməkdir ki, davam elə, gətir, nə qədər istəyirsən gətir, bu torpaqları erməniləşdir, Azərbaycan mədəni irsini sil. Bu idi mesaj. Yoxsa, bu üç ölkə məgər imkanlara sahib deyil ki, təcavüzkara öz yerini göstərsin? İstəmirdilər. Bu reallıq onları qane edirdi. Ona görə, Minsk Qrupunun fəaliyyətinə başqa cür qiymət vermək olmaz. Elə bil, bizi bu vəziyyətlə barışmağa sürükləyirdilər ki, yeni reallıqlar yaranıbdır, siz də reallıqlarla hesablaşmalısınız. Biz yeni bir reallıq yaratmışıq. İndi hər kəs yeni reallıqla hesablaşmalıdır. Amma biz nəyi görürük? Biz öz torpaqlarımızı işğalçılardan azad etməyə başlayanda, görün, nələr

baş verir. Nə qədər böyük təzyiq göstərirlər Azərbaycana, hər tərəfdən. Əl-ayağa düşdülər. Bəs, nə oldu? İyirmi səkkiz il bu məsələni belə süründürə-süründürə, elə bil ki, həll edirdiniz. Gəlib-getmək, orada görüş, burada danışıqlar. Biz bu danışıqlardan boğaza yığılmışıq. Bu düşmənlə nə qədər danışıqlar aparmaq olar? Özü də düşmən harınlaşır, azğınlaşır, qudurur və bizə deyirlər ki, yox, ancaq sülh yolu ilə, bunun hərbi variantı yoxdur. Kim deyir ki, yoxdur? Bəs, indi məsələnin hərbi variantı deyilmi? Biz nə edirik? Biz BMT Təhlükəsizlik Şurasının Qətnamələrini təkbaşına yerinə yetiririk."

Ermənistanın Azərbaycanın hərbi təcavüzü nəticəsində torpaqlarımızın 20%-i işğal edilmiş, etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı deportasiya olunaraq didərgin düşmüşdür. Azərbaycanın tarixi torpaqlarına qarşı təcavüzün nəticələrinin aradan qaldırılması və BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin həyata keçirilməsi üzrə 30 ilə yaxın davam edən diplomatik danışıqlar nəticə verməmişdir.

2016-cı il aprelin 1-dən 2-nə keçən gecə bütün cəbhə boyu Azərbaycan mövqeləri və yaşayış məntəqələri Ermənistan Silahlı Qüvvələri tərəfindən güclü artilleriya atəşinə məruz qaldı.

Azərbaycan hərbiçiləri əks-hücuma keçərək ermənilərin "keçilməz" elan etdikləri istehkam xəttlərini bəzi yerlərdə 20 dəqiqəyə, bəzi yerlərdə isə 2 saata yarıb keçdi. Azərbaycan mühəndis-istehkamçılarının sərəncamında olan vasitələrin beşdə biri səddi yarmağa kifayət etmişdir. Aprel döyüşləri nəticəsində erməni tərəfinin xeyli canlı qüvvəsi və hərbi texnikası məhv edildi. Fizuli, Cəbrayıl və Tərtər rayonlarının işğal altında olan 2 min hektardan çox ərazisi işğaldan azad edildi. Cəbrayıl rayonunun Cocuq Mərcanlı və Fizuli rayonun İranla sərhəd ərazilərinin təhlükəsizliyi təmin edildi.

Aprelin 5-də Rusiyanın vasitəçiliyi ilə Moskva şəhərində Azərbaycan və Ermənistan Silahlı Qüvvələri baş qərargah rəisləri arasında əldə olunan razılığa əsasən atəşkəs bərpa olundu. Aprel döyüşlərindən sonra ATƏTin Minsk qrupunun 2007-ci ildə təklif etdiyi "Madrid prinsipləri" yenidən gündəmə gəldi. Bu prinsiplərə görə, ilk mərhələdə erməni silahlı qüvvələri və onların havadarları tərəfindən işğal olunmuş Ağdam, Fizuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonları və Laçın rayonunun 13 kəndi Azərbaycana qaytarılmalı, növbəti

mərhələdə Laçın və Kəlbəcər rayonları azad edilməli idi. Azərbaycanlı icması öz yerlərinə qayıtmalı, ondan sonra Azərbaycanın ərazi bütövlüyü çərçivəsində hüquqi status müəyyən edilməli idi.

2018-ci ildə Ermənistanda N.Paşınyanın hakimiyyətə gəlməsi ilə danışıqlar prosesinə maneələr törədilməyə başladı. Ermənistan tərəfinin 2019-cu ildən danışıqlar prosesini qəsdən tamamilə pozması bir neçə amillərlə şərtlənir. Ermənistan hərbi-siyasi rəhbərliyinin müharibə bəyanatları, Azərbaycanın yeni ərazilərini ilhaq etməkdən ibarət olan təcavüzkar hərbi doktrina, işğal edilmiş ərazilərdə qeyri-qanuni məskunlaşdırma, "yeni ərazilər uğrunda yeni müharibə" çağırışlı rəsmi mövqeyi situasiyanı dahada gərginləşdirdi.

Əvvəlcə danışıqlarda separatçıların ayrıca tərəf kimi iştirak etməsini təkid edən N.Paşinyan isə 2019-cu ilin avqustunda Xankəndinə etdiyi qanunsuz səfər zamanı "Qarabağ Ermənistandır və nöqtə" deməklə sülh prosesinə ağır zərbə vurdu. İki ay sonra Rusiyada keçirilən "Valday" Beynəlxalq Diskursiya Klubunun illik iclasında Azərbaycan Respublikası Prezidenti İlham Əliyev beynəlxalq ictimayət qarşısında Ermənistan Baş nazirinin məsuliyyətsiz sözlərinə də münasibət bildirdi: "Dünya tərəfindən həm Aran, həm də Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi kimi tanınıb. Ermənistan özü də bu qanunsuz qurumu tanımır. Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi!".

2020-ci ilin mayında Şuşada qondarma respublikanın prezidentinin andiçmə mərasiminin keçirilməsi, parlamentin və paytaxtın Şuşaya köçürülməsi planı, Azərbaycanın işğal olunmuş ərazilərinə ardıcıl qanunsuz səfərlər və digər təxribatçı davranışlarla Ermənistan hökuməti Qarabağ probleminin dinc yolla həll edilməsinin mümkünsüzlüyünü dünya ictimayətinə göstərdi.

2020-ci ilin iyulun 12-də Ermənistan hərbi birləşmələri Azərbaycanın dövlət sərhəddində Tovuz istiqamətindəki strateji yüksəklikləri ələ keçirmək məqsədi ilə hücuma cəhd etdilər. Neft strategiyası və kommunikasiya siyasətində əsas yer tutan Tovuz bölgəsində 11 gün davam edən şiddətli döyüşlər nəticələrində düşmən geri oturduldu. Bir çox zirehli texnika, radio kəşviyyat qurğusu, pilotsuz uçuş aparatları ilə yanaşı, erməni tərəfi xeyli canlı qüvvə itirdi. Döyüşlərdə 3-cü Ordu Birliyinin qərargah rəisi general-mayor Polad Həşimov və

polkovnik İlqar Mirzəyev (hər ikisinə "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib) daxil olmaqla Azərbaycan ordusunun 12 nəfər hərbiçisi qəhrəmancasına şəhid oldu. Düşmənin mülki obyektləri atəşə tutması nəticəsində isə bir mülki şəxs həyatını itirdi.



**Polad Həşimov**
***(1975-2020)***
***Azərbaycanın hərbi xadimi genaral-mayor Azərbaycan Silahlı Qüvvələrinin 3-cü Ordu Korpusunun Qərargah rəisi olmuşdur Azərbaycanın Milli Qəhrəmanıdır***



**İlqar Mirzəyev**
***(1973-2020)***
***polkovnik Azərbaycan Silahlı Qüvvələrinin 3-cü Ordu Korpusunun Artilleriya rəisi olmuşdur Azərbaycanın Milli Qəhrəmanıdır***

İyulunun 23-dən etibarən Ermənistan silahlı qüvvələrinin Rusiya ilə birgə hərbi təlimlər keçirməsi, avqustda isə Goranboy rayonu ərazisinə diversiya qrupu göndərməsi, Yaxın Şərqdən gətirilən terrorçu qrupların Azərbaycan Ordusi ilə təmas xətti boyu yerləşdirilməsi düşmənin müharibə hazırlığının əlamətləri idi.

2020-ci il sentyabrın 27-də Ermənistan Respublikasının silahlı qüvvələrinin bir neçə istiqamətdən Azərbaycan Respublikasının yaşayış məntəqələrini və hərbi mövqelərini atəşə tutmaqla törətdikləri hərbi təcavüz nəticəsində mülki şəxslər və hərbçilər arasında ölən və yaralananlar olduğu, milli təhlükəsizliyimizə qarşı silahlı təhdid-

lərin qarşısının alınması və zərərsizləşdirilməsi üçün Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən əks-hücum əməliyyatlarına başlamışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilmiş, Ermənistanın hərbi təcavüzünə cavab olaraq adekvat tapşırıqlar verilmişdir.

Ermənistan Respublikasının silahlı qüvvələrinin Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsini və ətraf rayonlarını işğal etməsi, Azərbaycan Respublikasına qarşı real silahlı hücum təhlükəsi yarandığı, ölkənin, əhalinin və ərazinin, eləcə də Silahlı Qüvvələrin və başqa silahlı birləşmələrin müdafiəyə hazır vəziyyətə gətirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 27 sentyabr 2020-ci il tarixli Fərmanı ilə 2020-ci il 28 sentyabr saat 00:00-dan Azərbaycan Respublikasının bütün ərazisində hərbi vəziyyət elan edilmiş, 28 sentyabr 2020-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasında qismən səfərbərlik elan olunmuş, hərbi əməliyyatlara hazırlıq və onların keçirilməsinə dair qərarlar qəbul edilmişdir.

Azərbaycan Respublikasının Silahlı Qüvvələri ilk gündən əks-hücum əməliyyatları nəticəsində Azərbaycan Respublikasının bir neçə rayonunu, eləcə də strateji əhəmiyyətli digər ərazilər işğaldan azad edilmişdir. Bu məqsədlə 29 sentyabr 2020-ci il tarixdə Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" Fərman imzalanmışdır. Fərmandan irəli gələrək Azərbaycan Respublikasının işqaldan azad olunmuş ərazilərində, Azərbaycan Respublikasının inzibati ərazi bölgüsünə müvafiq olaraq hər rayon üzrə xüsusi idarəetməni həyata keçirən müvəqqəti komendantlıqlar yaradılmışdı. Müvəqqəti komendantlıqların nəzdində də müvafiq dövlət orqanlarının (qurumlarının) nümayəndələrinin daxil olduğu əməliyyat qərargahları yaradılmış, vəzifələri müəyyən edilmişdir.

# VƏTƏN MÜHARİBƏSİNİN XRONOLOGİYASI

## 27 sentyabr 2020-10 noyabr 2020

### 27 sentyabr

Ermənistan Silahlı Qüvvələri tərəfindən Tərtər rayonunun Qapanlı, Ağdam rayonunun Çıraqlı və Orta Qərvənd, Füzuli rayonunun Alxanlı və Şükürbəyli və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndləri 27 sentyabr 2020-ci il saat 06:00 radələrində iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğuları vasitəsilə intensiv atəşə tutulmuşdur. Bunun nəticəsində Azərbaycanın mülki əhalisi arasında həlak olan və yaralananlar olub və mülki infrastruktur obyektlərinə ciddi ziyan dəyib.

Eyni gündə Azərbaycan Silahlı Qüvvələrinə aid şəxsi heyət və tank bölmələrinin raket-artilleriya qoşunlarının bölmələri, cəbhə aviasiyası və pilotsuz uçuş aparatlarının dəstəyi ilə Ermənistan silahlı qüvvələrinin ön xətdə və müdafiənin dərinliyində yerləşən xeyli sayda canlı qüvvəsi, hərbi obyektləri və döyüş texnikası, o cümlədən 12 ədəd "OSA" zenit-raket kompleksi aşkar edilərək məhv edilmişdir. Bundan əlavə, Azərbaycan Hərbi Hava Qüvvələri cəbhənin Tərtər istiqamətində bir döyüş helikopteri vurmuş, ekipaj üzvləri isə sağ qalmışdır.

Aparılan hərbi əməliyyatlar zamanı Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, Horadiz, Yuxarı Əbdürrəhmanlı, Aşağı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Böyük Mərcanlı və Nüzgar kəndləri işğaldan azad edilmiş, o cümlədən qarşı tərəfin Ağdərə rayonu istiqamətində və Murov dağı silsiləsindəki hündürlüklərdə yerləşən postları darmadağın edilərək bir sıra hakim yüksəkliklər (Gamışdağ və Ömər aşırımı) nəzarətə götürülmüşdür. Azərbaycan Silahlı Qüvvələrinin uğurlu əməliyyatı nəticəsində Murovdağ silsiləsindəki Murov zirvəsi işğaldan azad edilmişdir.

Ermənistan silahlı birləşmələrinin dinc Azərbaycan əhalisini hədəfə alması səbəbindən növbəti dəfə toplarla açılmış atəş nəticəsində Naftalan rayonu, Qaşaltı kənd sakini Qurbanov Elbrus İsa oğlu və

onun 4 ailə üzvü həlak olmuşdur. Azərbaycan mediasının axşam saatlarında verdiyi məlumata görə Azərbaycan Ordusuna məxsus kamikadze tipli uçan pilotsuz aparatlar Ermənistanın işğal etdiyi ərazilərdə yerləşdirdiyi S-300 zenit-raket sistemini məhv etmişdir.

Azərbaycan Müdafiə Nazirliyinin Mətbuat Xidmətinin məlumatlarına görə, Ermənistan ordusuna məxsus silah-sursat anbarı məhv edilmiş və bölgədə güclü partlayış baş vermişdir.

Elə həmin gün İran rəsmiləri, qarşıdurmalar nəticəsində bir top mərmisinin Xudafərin şəhristanının Aşağı Xələfbəyli kəndinə tuş gəldiyini, lakin maddi ziyanın dəymədiyini və heç kimsənin xəsarət almadığını bildirmişdir.

## 28 sentyabr

Saat 01:00 radələrində Azərbaycan Müdafiə Nazirliyi tərəfindən təmas xəttinin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu qoşunlarının dəqiq zərbələri nəticəsində erməni hərbi texnikasının məhv edildiyini əks etdirən video yayımlanıb. Bundan dərhal sonra nazirlik Ermənistan Müdafiə Nazirliyinin Azərbaycan Ordusundaki itki sayı ilə bağlı yaydığı məlumatın əsassız olduğunu və həqiqəti əks etdirmədiyini bildirərək erməni iddialarının çoxunu rədd etmişdir. Nazirlik, həmçinin, bu iddiaların Azərbaycan Ordusunun uğurları qarşısında erməni əhalisi arasında hökm sürən təşviş və ordularındakı yaranmış xaosu bir qədər azaltmaq məqsədi güddüyü ifadələrini irəli sürmüşdür. Saat 09:30 radələrində Azərbaycan Müdafiə Nazirliyi Tərtərin Talış kəndi ətrafındakı bir neçə əlverişli yüksəkliyin azad edildiyini bildirmişdir.

Bakı vaxtı ilə saat 11:00 radələrində, Prezident İlham Əliyevin sərəncamına əsasən Azərbaycan Respublikasında qismən səfərbərlik elan edilib. Bir qədər sonra Müdafiə Nazirliyinin Mətbuat Xidmətinin rəisi polkovnik Vaqif Dərgahlı Ermənistan tərəfinin itkiləri arasında Suriya və Yaxın Şərqin müxtəlif ölkələrindən olan erməni əsilli muzdluların da olduğunu açıqlamışdır.

Ermənistan silahlı birləşmələrinin dinc Azərbaycan əhalisinin sıx yaşadığı əraziləri növbəti dəfə ağır artilleriya qurğularından atəşə tutması nəticəsində Ağdam rayonu Evoğlu kənd sakini 1979-cu il təvəllüdlü Paşayev Coşqun Ənvər oğlu həlak olmuşdur. Saat 11 radələrində düşmənin dinc Azərbaycan əhalisinin sıx yaşadığı əraziləri növbəti dəfə ağır artilleriya qurğularından intensiv atəşə tutması nəticəsində Tərtər şəhəri Heydər Əliyev prospektində yerləşən rayon Məhkəməsinin inzibati binasının yanına düşmüş mərmi qəlpələrindən 1975-ci il təvəllüdlü Əliyev Mehman Sovet oğlu həlak olmuş, həmin vaxt ərazidən keçən təcili tibbi yardım maşınının sürücüsü 1968-ci il təvəllüdlü Əsədov Qənbər Əsgər oğlu və maşında olan hərbi polisin əməkdaşı 1994-cü il təvəllüdlü Hüseynov Fəxrəddin Fərman oğlu, həmçinin, ərazidə olan digər Tərtər şəhər sakini 1991-ci il təvəllüdlü İbrahimov Tural Firdovsi oğlu yaralanmışdır. Təxminən saat 13:10-da Azərbaycan Müdafiə Nazirliyi iki erməni tankının Azərbaycan PUA-ları tərəfindən məhv edildiyi görüntülərini yayımlamışdır.

Saat 18 radələrində Cəbrayıl rayonu, Cocuq Mərcanlı kənd sakini, 2006-cı il təvəllüdlü Həziyev Hilal İlqar oğlu kənd ərazisində qoyun otararkən erməni silahlı qüvvələrinin açdığı atəş nəticəsində baş nahiyəsindən qəlpə yarası xəsarəti alaraq xəstəxanaya yerləşdirilmişdir. Saat 19 radələrində isə Tərtər rayonu Şıxarx qəsəbəsində yerləşən əlillər və məcburi köçkünlər üçün inşa edilmiş çoxmənzilli yaşayış binasının həyətinə top mərmisinin atılması nəticəsində Tərtər rayon sakinləri 1981-ci il təvəllüdlü Abbasov Xaliq Asif oğlu və onun qardaşı 1987-ci il təvəllüdlü Abbasov Elşən Asif oğlu həlak olmuş, 1984-cü il təvəllüdlü Məmmədov Seymur Füzuli oğlu, 1989-cu il təvəllüdlü Mahmudov Faiq Malik oğlu isə müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanalara yerləşdirilmişlər. Bununla yanaşı, saat 20 radələrində düşmən tərəfindən atılan mərmilərdən biri Tərtər Rayon Polis Şöbəsinin inzibati binasının həyətinə düşüb. Mərmi qəlpələri inzibati binanın dəhlizlərinə qədər daxil olmuş, insan tələfatı, xəsarət alan olmasa da, binaya ciddi maddi ziyan dəymişdir.

İşğal altındakı Azərbaycan torpaqlarına gedən mühüm strateji yollardan biri, Azərbaycan Ordusu nəzarəti altında olan Vardenis-

Ağdərə yolu da daxil olmaqla, bütün döyüş ərazilərində Azersky peyki vasitəsilə monitorinqlər aparılmağa başlamışdır. Təxminən saat 20:40 radələrində, Ermənistan Respublikası Müdafiə Nazirliyinin Vazgen Sarkisyan adına Hərbi Universitetinin Komandanlıq və Kadrlar Fakültəsinin rəhbəri Arçrun Ovannisyan "Azərbaycan qüvvələrinin Madagiz-Talış istiqamətində Araz vadisində yeni genişmiqyaslı hücum əməliyyatı başlatdığını" bildirmişdir. Bir müddət sonra, Mihran Poqosyan, Xocavənd yaxınlığında Azərbaycan Ordusuna məxsus təyyarənin düşürülməsi haqqında məlumat vermiş, lakin Azərbaycan Müdafiə Nazirliyi Mətbuat Xidmətinin rəisi polkovnik Vaqif Dərgahlı bu fikirləri yalan məlumat və dezinformasiya adlandırmışdır. Saat 21 radələrində təmas xəttində baş tutan bombardman nəticəsində Ermənistan Silahlı Qüvvələrinin Baş Qərargah Kəşfiyyat Müdirliyinin başçısı, general-mayor Arakel Martikyan, həmçinin Ermənistan ordusunun daha iki yüksək rütbəli zabiti, Xüsusi Təyinatlı Briqadanın komandiri, polkovnik-leytenant Vardanyan Lernik Aregi və polkovnik Nikolay Mikaeloviç Aykyan ölmüşdür.

Həmin gün İran rəsmiləri, qarşıdurmalar nəticəsində daha iki top mərmisinin ölkənin şimal-qərbində yerləşən Xudafərin şəhristanının Aşağı Xələfbəyli kəndində təsərrüfat sahəsinə tuş gəldiyini, lakin heç kimsənin xəsarət almadığını bildirib.

## 29 sentyabr

Sentyabrın 28-dən 29-na keçən gecə intensiv toqquşmalar bütün cəbhə boyu davam etmiş, erməni qüvvələri dəfələrlə əks-hücuma cəhd göstərsə də, Azərbaycan Ordusu tərəfindən müvəffəqiyyətlə dəf edilmişdir. Müdafiə Nazirliyindən verilən məlumata görə, sentyabrın 29-da səhər saat 07.30-dan etibarən Ermənistanın Vardenis rayonu ərazisindən Azərbaycanın Daşkəsən rayonunun ərazisi artilleriya atəşinə tutulmuş, Azərbaycan Ordusu tərəfindən adekvat tədbirlər görülmüşdür.

Qarşıdurmalar 29 sentyabrda Ermənistan-Azərbaycan dövlət sərhəddindəki Vardenis rayonundan (üstdə) Daşkəsən rayonunun (altda) atəşə tutulması ilə davam etmişdir.

Həmin gün 28 sentyabr axşam saatlarında Ermənistan ordusunun cəbhənin Tərtər istiqamətində yaşayış məntəqələrini atəşə tutması nəticəsində yaralanan Azərbaycanın mülki vətəndaşı, 1981-ci il təvəllüdlü Əsədov Sabit Usub oğlu xəstəxanada vəfat etmişdir.

Səhər saat 07:00-08:00 radələrində Azərbaycan Müdafiə Nazirliyi cəbhənin Füzuli-Cəbrayıl istiqamətində Ermənistan qoşunlarının daha 4 tankının məhv edildiyi məlumatını yayımlamışdır. Təxminən yarım saat sonra Vaqif Dərgahlı Azərbaycan Ordusunun azad etdiyi ərazilərinin bir qisminin Ermənistan ordusu tərəfindən guya geri qaytarılması barədə erməni tərəfinin yaydığı xəbərin dezinformasiya olduğunu açıqlamışdır.

Təxminən saat 10:15-də Azərbaycan Müdafiə Nazirliyi iki erməni tankının Azərbaycan PUA-ları tərəfindən məhv edildiyi görüntülərini yayımlayıb. Azərbaycan Ordusunun atəş zərbələri nəticəsində Ermənistan silahlı qüvvələrinin işğalı altında olan Xocavənd rayonu ərazisində yerləşdirilən 3-cü "Martuni" motoatıcı alayı darmadağın edilmişdir. Həmçinin, Azərbaycan Ordusunun cəza tədbirləri nəticəsində müvəqqəti işğal altında olan Cəbrayıl rayonu istiqamətində yerləşdirilən Ermənistan ordusunun 18-ci motoatıcı diviziyasının artilleriya rəisi polkovnik Karen Babayan məhv edilmişdir. Təxminən saat 11-ə olan məlumata əsasən, Azərbaycan Ordusu Xocavənd rayonu istiqamətindəki Ermənistan silahlı qüvvələri bölmələrinin "Uraqan" yaylım atəş sistemini sıradan çıxartmışdır.

Vaqif Dərgahlı bildirib ki, Ermənistan tərəfi, həmişə olduğu kimi, əvvəlki döyüşlərdən olan köhnə videomaterialları əhalisinə yeni kimi təqdim edir. Məqsəd öz uğursuzluqlarını əhalisinə uğurları kimi təqdim etməkdir. Təxminən saat 12 radələrinə olan məlumata görə, Eçmiədzin rayonunda dislokasiya olunan və işğal edilmiş ərazilərdə gedən döyüşlərə cəlb edilmiş Ermənistan ordusunun 61-ci əlahiddə mühəndis alayının 13516 saylı hərbi hissəsinin zabiti Spartak Köçəryan öldürülmüşdür. Bir qədər sonra keçmiş Ağdərə rayonunun işğal altında olan Köyarx kəndi yaxınlığındakı yüksəklik ətrafında gedən döyüşlərdə Ermənistan ordusunun daha bir tankının məhv

edildiyi bildirilmişdir. Həmçinin Xocavənd rayonunun Hadrut yaşayış məntəqəsi istiqamətində yerləşən Ermənistan ordusunun 1-ci alayının, 3-cü taborunun komanda-müşahidə məntəqəsi dəqiq atəşlə darmadağın edilmişdir. Vaqif Dərgahlı Füzuli rayonunun işğal altında olan Aşağı Veysəlli kəndi istiqamətindən Azərbaycan Ordusunun üzbəüz mövqelərinə basqın etməyə cəhd göstərən Ermənistan ordusunun hərəkətinin qarşısının alındığını və düşmənin geri çəkilməyə məcbur edildiyini bildirib. Bundan əlavə, geri çəkilərkən məhv edilmiş erməni əsgərlərinin meyitləri döyüş meydanında qalmışdır. Saat 13 radələrinə olan məlumata görə, Azərbaycan Ordusunun keçirdiyi döyüş əməliyyatı nəticəsində Ermənistan ordusunun 18-ci motoatıcı diviziyasının 9-cu alayının komandiri polkovnik Artyom Poqosyan ağır yaralanmışdır.

Saat 12 radələrindən başlayaraq, ermənilər kütləvi şəkildə Xankəndi şəhərini tərk etməyə başlayıb. Azərbaycan Müdafiə Nazirliyi Mətbuat Xidmətindən verilən məlumata görə, "Azərbaycan Ordusunun genişmiqyaslı döyüş əməliyyatı nəticəsində Madagizdəki Ermənistən ordusunun alayı tamamilə demoralizə olunub, ölümqabağı əzabları başlayıb. Şəxsi heyət təşviş içindədir. Dəstək məqsədilə yeni gələn ehtiyat qüvvələri də daxil olmaqla, bir çoxları döyüşə girməkdən imtina edir və döyüş əməliyyatı rayonunu tərk edirlər." Saat 15:30 radələrində Vaqif Dərgahlı açıqlama vermişdir ki, döyüşlərdə tətbiq edilməsi üçün Ermənistandan hərəkət edən S-300 zenit raket kompleksi işğal olunmuş ərazilərə daxil olduğu anda məhv ediləcək.

Saat 13 radələrində Ermənistan ordusunun dinc Azərbaycan əhalisinin sıx yaşadığı əraziləri növbəti dəfə ağır artilleriyadan atəşə tutması nəticəsində Ağdam rayonu, Qaradağlı kəndində tibb məntəqəsinə düşmüş top mərmisinin qəlpələrindən kənd sakini 1997-ci il təvəllüdlü Sarıyev Elməddin Hümbət oğlu həlak olmuş, məntəqənin binası dağılmış, ərazidəki sakinlər təxliyə edilmişdir.

Saat 16:00 radələrində Azərbaycan Ordusu tərəfindən Ermənistanın daha bir yüksək rütbəli zabiti olan R. Atabekyan məhv edilmişdir. Saat 16:30 radələrində Azərbaycan Müdafiə Nazirliyi Azərbaycan Ordusunun artilleriya bölmələrinin düşmənə sarsıdıcı zərbələr endirdiyini əks etdirən video yayımlamışdır. Bundan 1 saat sonra, Qarabağda yerləşən Ermənistan Silahlı Qüvvələrinin 18-ci

motoatıcı diviziyasının 9-cu mexanikləşdirilmiş piyada alayının artilleriya rəisi polkovnik Artem Poqosyan məhv edilmişdir.

Sentyabrın 27-dən etibarən Ermənistan silahlı qüvvələrinin yenidən törətdiyi genişmiqyaslı təxribatlar nəticəsində düşmənin yaşayış məntəqələrinə istiqamətlənmiş atəş zərbələrindən biri Füzuli rayonunun Babı kəndinin yaxınlığında yerləşən qəbiristanlığa düşmüş, ərazidəki dövlət mühafizəsinə götürülmüş ölkə əhəmiyyətli tarix-memarlıq abidəsi olan Şeyx Babı türbəsinə ciddi ziyan dəymişdir. Verilən məlumata görə, tarixi abidənin fasadı zədələnmiş və nəticədə türbə qəzalı vəziyyətə düşmüşdür

Saat 18 radələrinə olan məlumata əsasən, Ermənistan ordusunun cəbhənin Tərtər istiqamətində yaşayış məntəqələrini hədəfə alması nəticəsində rayonun Üzeyir Hacıbəyov küçəsi sakini, 1959-cu il təvəllüdlü Mehdiyeva Ayna Məhəmmədəli qızı həlak olmuşdur.

Həmin gün Ermənistan Müdafiə Nazirliyi Gəncə Beynəlxalq Hava Limanından qalxan və Türkiyəyə məxsus olan F-16 qırıcı təyyarələrinin Ermənistan ordusuna məxsus Suxoy Su-25 təyyarəsini vurması və pilotun həlak olması barədə məlumat yaymışdır. Lakin Azərbaycan və Türkiyə tərəfi bu xəbəri yalanlamış və erməni hərbi təbliğat maşınının növbəti fantaziyası olduğunu açıqlamışdır.

Azərbaycan Müdafiə Nazirliyinin saat 23 radələrinə olan məlumatına əsasən, Azərbaycan Ordusunun artilleriya zərbələri nəticəsində Tərtər rayonunun Həsənqaya yaşayış məntəqəsi yaxınlığında yerləşən Ermənistan silahlı qüvvələrinin 5-ci motoatıcı alayının 1-ci taboru və Talış istiqamətində yerləşən 6-cı motoatıcı alayının 1-ci taborunun mövqeləri dağıdılmışdır.

## 30 sentyabr

Sentyabrın 29-dan 30-na keçən gecə, saat 00:20 radələrində Azərbaycan Ordusunun İsrail istehsalı Harop dağıdıcı dronu vasitəsilə dəqiq zərbəsi nəticəsində yüksək rütbəli erməni zabitlərinin toplaşdığı bunker dağıdılıb. Bunkerdə Ermənistan silahlı qüvvələrinin bir generalı, bir neçə polkovniki və digər yüksək rütbəlilərinin olduğu bildirilib.

Saat 01:00 radələrində sosial şəbəkələrdə İran ərazisindən Ermənistana aparılan silah-sursat, hərbi texnika yüklü maşınların yandırılmasına aid görüntülər yayılıb. Nəqliyyat vasitələrinin Cənubi Azərbaycanlılar tərəfindən Azərbaycana dəstək məqsədilə yandırıldığı və görüntülərinin paylaşıldığı iddia olunmuşdur.

Təxminən saat 01:10-da Azərbaycan Müdafiə Nazirliyi, Cəbrayıl rayonu ərazisindəki tanklar da daxil olmaqla, bir neçə erməni hərbi texnikasının məhv edildiyini göstərən görüntülər yayımlayıb.

Səhər saat 08.00-dan etibarən Ermənistan silahlı qüvvələrinin bölmələri Tərtər şəhərini artilleriya atəşinə tutmuşdur. [90] Atəş nəticəsində dövlət qurumlarının inzibati binalarının yaxınlığına top mərmisinin düşməsi nəticəsində 7 nəfər mülki şəxs müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanalara yerləşdirilmiş, o cümlədən mülki infrastruktur obyektlərə külli miqdarda ziyan vurulmuşdur.

Ermənistanın 1-ci ümumqoşun ordusunun 10-cu dağatıcı diviziyasının Tonaşendə yerləşən 7-ci dağatıcı alayının 2-ci taboru ağır itkilərə məruz qaldığından təcili surətdə köməyə gələn ehtiyat qüvvə Azərbaycan Ordusu tərəfindən məhv edilib.

Saat 10:20 radələrində Azərbaycan Müdafiə Nazirliyi cəbhənin Ağdərə-Tərtər istiqamətində mühasirəyə alınan erməni qüvvələrinin artilleriya vasitələri ilə məhv edilməsi və ərazinin təmizlənməsi əməliyyatı keçirilməsi barədə məlumat yayımlamışdır, Bir neçə dəqiqə Sonra Ermənistan silahlı qüvvələrinin artilleriya bölmələri Goranboy rayonunun Aşağı Ağcakənd kəndini atəşə tutmağa başlamışdır.

Saat 11:40 radələrində Azərbaycan Müdafiə Nazirliyi Azərbaycan Ordusunun bölmələrinin düşmən mövqelərinə artilleriya zərbələri endirdiyini göstərən video yayımlamışdır. Həmçinin, Ermənistanın 1-ci ümumqoşun ordusunun 10-cu dağatıcı diviziyasının Tonaşendə yerləşən 7-ci dağatıcı alayının 2-ci taborunun şəxsi heyəti ağır itkilərə məruz qalaraq müdafiə mövqelərini özbaşına tərk edərək qaçması barədə məlumat verilmişdir. Köməyə gələn Ermənistan ordusunun ehtiyat qüvvələri Azərbaycan Ordusu tərəfindən aşkar olunaraq dəqiq atəş zərbəsi ilə məhv edilmişdir.

Saat 12:40 radələrində Ermənistan silahlı qüvvələrinin 18-ci motoatıcı diviziyasının 41-ci əlahiddə alayının komanda məntəqəsinə

atəş zərbəsi endirilmişdir. Saat 13 radələrinə olan məlumata əsasən Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib ki, sentyabrın 29-da Ermənistan ərazisindən havaya qalxmış iki "Su-25" tipli təyyarəsi dağa dəyərək partlamış və məhv olmuşdur.

Saat 13:00 radələrində Azərbaycan Müdafiə Nazirliyi səhər saatlarında məhv edilən düşmən hərbi texnikalarının videogörüntülərini yayımlamışdır. Yayımlanan digər bir videoda Azərbaycan Ordusunun mövqelərini atəşə tutan Ermənistan ordusu toplarının dəqiq atəşlə məhv edildiyi görüntülər əksini tapmışdır.

Ermənistan Səhiyyə naziri Arsen Torosyan, 2 təcili yardım helikopteri, təcili yardım maşınları yüzlərlə tibb işçiləri ilə Qarabağ istiqamətində hərbi əməliyyatlar nəticəsində yaralanmış əsgərlərin təxliyyəsi üçün vacib missiya həyata keçirdiyini bildirmişdir.

Saat 15:10 radələrində Müdafiə Nazirliyi Azərbaycan Ordusunun bölmələri tərəfindən Tonaşendə düşmənin iki tankının məhv edildiyi görüntüləri yayımlamışdır. Saat 15 radələrinə olan digər məlumata görə isə Azərbaycan Ordusunun bölmələri Ermənistan silahlı qüvvələrinin Füzuli istiqamətində yerləşən 4-cü taborunu ağır artilleriya atəşinə məruz qoymuşdur. Həmçinin Azərbaycan Ordusunun bölmələri tərəfindən Ermənistan silahlı qüvvələrinin 1-ci ümumqoşun ordusunun 10-cu dağatıcı diviziyasının 5-ci dağatıcı alayının Ağdərə yaşayış məntəqəsində yerləşən qərargahına zərbə endirilmişdir. Döyüşlərdə Ermənistan silahlı qüvvələri "Toçka-U" taktiki raket kompleksini tətbiq etsə də, hərbi texnikanın köhnə və keyfiyyətsiz olması səbəbindən atılan raketlər partlamayıb.

Azərbaycan Müdafiə Nazirliyinin verdiyi məlumata əsasən, cəbhənin müxtəlif istiqamətlərində Ermənistan Silahlı Qüvvələrinin 1 ədəd "Uraqan" yaylım atəşli reaktiv sistemi, 2 ədəd "9K33 Osa" zenit-raket kompleksi, 4 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 1 ədəd piyadanın döyüş maşını, 4 ədəd D-20 haubitsa-topu, 16 ədəd tank və şəxsi heyətlə 2 ədəd yük maşını məhv edilmişdir. Saat 16 radələrində Ermənistan silahlı qüvvələrinin dinc Azərbaycan əhalisinin sıx yaşadığı əraziləri növbəti dəfə ağır artilleriyadan atəşə tutması nəticəsində Füzuli rayonu, Horadiz şəhərində yerləşən

yanacaqdoldurma məntəqələrinin birinin yaxınlığına düşmüş top mərmisinin qəlpələrindən 1990-cı il təvəllüdlü Rüstəmov Murad Tahir oğlu həlak olmuş, 3 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdirilmiş, məntəqəyə ciddi ziyan dəymişdir.

Ağdərə istiqamətində gedən döyüşlər zamanı Ermənistan ordusunun darmadağın edilən 6-cı dağ atıcı alayına köməyə gələn 193-cü əlahiddə həmlə taborunun döyüş bayrağı və sənədləri ələ keçirilmişdir. Azərbaycan Ordusunun bölmələrinin axşam saatlarında keçirdiyi döyüş əməliyyatları nəticəsində Ermənistan ordusunun 8 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi məhv edilmişdir.

## 1 oktyabr

Saat 01:00 radələrində Azərbaycan Müdafiə Nazirliyi qarşı tərəfin müxtəlif istiqamətlərdə hərəkət edən hərbi kolonlarının Azərbaycan Silahlı Qüvvələrinin bölmələri tərəfindən məhv edildiyi xəbərini yayıb. Azərbaycan Müdafiə Nazirliyinin verdiyi məlumata əsasən, Ermənistan silahlı qüvvələrinin bölmələri səhər saatlarından etibarən Tərtər şəhərini yenidən artilleriya atəşinə tutmuşdur.

Saat 09:00 radələrində Ermənistan silahlı qüvvələrinin dinc Azərbaycan əhalisinin sıx olduğu əraziləri növbəti dəfə ağır artilleriyadan atəşə tutması nəticəsində Tərtər şəhər avtovağzalına düşmüş top mərmisinin qəlpələrindən 1982-ci il təvəllüdlü Həsənov Zabil Məhəmməd oğlu həlak olmuş, avtovağzala ciddi ziyan dəymişdir.

Saat 11:00 radələrində Azərbaycan Müdafiə Nazirliyi Ermənistan ordusunun artilleriya qurğularının məhv edilməsinin videogörüntülərini yayımlamışdır. Ötən gün səhər saatlarından etibarən Ermənistan hərbi birləşmələrinin növbəti dəfə ağır artilleriyadan Tərtər şəhərini intensiv atəşə tutması nəticəsində yaralanan 7 mülki vətəndaşdan ikisi vəfat etmişdir. Onlar rayonun Dəmirçilər kənd sakinləri 1988-ci il təvəllüdlü İbrahimov Şahin Mahmud oğlu və 1971-ci il təvəllüdlü Əliyev Müzəffər Əli oğludur.

Ermənistan tərəfi Lələtəpə yaxınlığında Azərbaycan Ordusuna məxsus təyyarənin vurulması və qalıqlarının İran ərazisinə düşməsi barədə məlumat yayımlamış, lakin Azərbaycan tərəfi bu məlumatın yalan olduğunu bildirmişdir. Həmçinin Azərbaycan Müdafiə Nazirliyinin verdiyi məlumata əsasən, həyata keçirilən əməliyyatlar nəticəsində Ermənistan ordusu ağır itkilər verərək, geri çəkilməyə məcbur olmuşdur.

Səhər saatlarında Ermənistanın Gorus rayonu ərazisindən Azərbaycanın Cəbrayıl-Füzuli cəbhə xətti ərazisi raket zərbələri ilə atəşə tutulmuşdur. Günorta saatlarında yayılan rəsmi məlumata görə, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi, Füzuli rayonunun Horadiz şəhəri, Goranboy, Tərtər və Ağdam rayonlarının cəbhəboyu kəndləri Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən artilleriya atəşinə tutulmuşdur. Madagizdə yerləşən 6-cı dağatıcı alayın komandiri və onun müavini Azərbaycan Ordusunun bölmələrinin artilleriya atəşinə məruz qalması və ağır yaralanaraq olaraq sıradan çıxarılması nəticəsində hərbi hissə komandirinin yerinə 2016-cı il aprel döyüşləri zamanı döyüş meydanını özbaşına tərk etdiyi üçün ciddi şəkildə cəzalandırılan, 10-cu dağatıcı diviziyanın komandir müavini Gevorq Manqalaryan təyin edilmişdir.

Saat 13 radələrində Ermənistan silahlı qüvvələrinin dinc Azərbaycan əhalisinin sıx yaşadığı əraziləri növbəti dəfə ağır artilleriyadan atəşə tutması nəticəsində Ağdam rayonu, Hacıməmmədli kəndində yaşadıqları evə düşmüş top mərmisinin qəlpələrindən 1966-cı il təvəllüdlü Mürşid Rəşid oğlu Məmmədov və onun 1996-cı il təvəllüdlü oğlu Samir Məmmədov həlak olmuş, yaşadıqları evə külli miqdarda ziyan dəymişdir. Azərbaycan Müdafiə Nazirliyinin verdiyi məlumata əsasən, işğal altında olan Hadrut yaşayış məntəqəsindəki Ermənistan silahlı qüvvələrinin 18-ci motoatıcı diviziyasının qərargahına, onun tabeliyində olan 1-ci motoatıcı alayının infrastrukturuna və Xocavənddəki 3-cü motoatıcı alayın qərargahına Azərbaycan Ordusu tərəfindən atəş zərbələri endirilmişdir.

Saat 15:40 radələrində Ermənistan tərəfi Azərbaycan Hərbi Hava Qüvvələrinə məxsus 3 təyyarə, 2 helikopter və 6 PUA-nın vurulması ilə bağlı məlumat yayımlamışdır. Bir neçə dəqiqə sonra isə Vaqif

Dərgahlı həmin gün döyüşlərdə döyüş təyyarəsi və helikopterlərin tətbiq olunmadığını bildirərək, yayılmış məlumatın dezinformasiya olduğunu açıqlamışdır.

Saat 16:35 radələrində Azərbaycan Müdafiə Nazirliyi Azərbaycan Ordusunun bölmələrinin Ermənistan ordusunun hava hücumundan müdafiə vasitələrini və yaylım atəşli reaktiv sistemlərini məhv etdiyini göstərən video yayımlamışdır. Xocavənd ərazisindəki toqquşmaları işıqlandıran "Le Monde" qəzetinin iki fransız jurnalisti Azərbaycan Ordusunun açdığı atəş nəticəsində yaralanmışdır.

Saat 17:50 radələrində Ermənistan ordusunun bölmələri Füzuli rayonunun Horadiz şəhərinin mülki obyektlərini artilleriya atəşinə tutmuşdur. Saat 23:00 radələrində isə Ermənistan tərəfi Azərbaycan Ordusunun Nərimanlı və Böyük Məzrə kəndlərini atəşə tutması barədə məlumat yayımlamışdır. İran mediasının verdiyi məlumata əsasən, Ermənistan ordusunun atdığı raketlər Cənubi Azərbaycanın Pərvizxanlı kəndinə düşmüş, bir mülki şəxs yaralanmış, alti ev və bəzi nəqliyyat vasitələri zərər görmüşdür.

## 2 oktyabr

Azərbaycan Müdafiə Nazirliyinin verdiyi məlumata əsasən Ağdərə istiqamətində Madagiz ətrafındakı hakim yüksəkliklər Azərbaycan Ordusunun nəzarəti altına keçmişdir. Saat 00:00-dan 07:00-dək Ermənistan ordusunun 5 zirehli və avtomobil texnikası, 3 hərbi infrastruktur obyekti və xeyli sayda şəxsi heyəti məhv edilmişdir.

Azərbaycan Müdafiə Nazirliyinin Ermənistan tərəfinə yaşayış məntəqələrimizi atəşə tutmamaları barədə dəfələrlə xəbərdarlığına baxmayaraq Ağdam rayonunun Xındırıstan, Əlibəyli, Əhmədağalı və Səfərli kəndləri düşmən tərəfindən intensiv artilleriya atəşinə tutulmuşdur. Ermənistan ordusunun cəbhənin Tərtər istiqamətində yaşayış məntəqələrini atəşə tutmağa davam etməsi nəticəsində rayonun BalaKəngərli kənd sakinləri, mülki vətəndaşlar Aybəniz Nizami qızı Rəhimova və Gülnarə Fabir qızı Rəhimova xəsarət almışlar. Saat 11:00 radələrində Azərbaycan Müdafiə Nazirliyi Ermənistan ordusunun qüvvə və vasitələrinin məhv edilməsinin videogörüntülərini yayımlamışdır. Ermənistan ordusu Ermənistan ərazisindən Şəmkir rayonunun Sabirkənd, işğal olunmuş ərazilərdən isə Ağdam rayonunun Quzanlı yaşayış məntəqələrini raket atəşinə tutmuşdur. Həmçinin Bərdə rayonunun Əmirli və Tovuz rayonunun Ağdam kəndi raket atəşi zərbələrinə məruz qalmışdır.

Saat 13:30 radələrində Azərbaycan Müdafiə Nazirliyi düşmənin yüksək dağ zirvəsində yaratdığı dayaq məntəqəsinə silah-sursat çatdıran təminat vasitələri və döyüş texnikalarının məhv edilməsini göstərən video yayımlamışdır. Nazirlikdən verilən məlumata görə, Ermənistan ərazisindən Şəmkir rayonunun Sabirkənd yaşayış məntəqəsinə atılan 10-a yaxın raket "Toçka-U" taktiki raket kompleksindən buraxılmışdır. Saat 14:00 radələrində Ermənistan tərəfi Azərbaycan Ordusunun Xankəndi şəhərini bombaladığını açıqlamışdır. Təxminən bir saat sonra Azərbaycan tərəfi düşmənin qüvvə və vasitələrinin məhv edilməsinin növbəti videogörüntülərini yayımlamışdır.

Ermənistan silahlı qüvvələri Tərtər şəhərini, rayonun Şıxarx qəsəbəsini və Bərdə rayonunun Soğanverdilər kəndini intensiv

artilleriya atəşinə tutmuşdur. Saat 17:50 radələrində Azərbaycan Müdafiə Nazirliyi Ermənistan ordusunun səhra idarəetmə məntəqəsi, üzərindəki Ermənistan bayrağı və qondarma rejimin asılan əski parçasının göyə sovurulması, eləcə də tanklarının məhv edilməsinin videogörüntülərini yayımlamışdır.

## 3 oktyabr

Saat 08:23 radələrində Ermənistan tərəfi Dağlıq Qarabağ ərazisinin şimal və cənub qismində şiddətli döyüşlərin getdiyini bildirmişdir. Qondarma "Dağlıq Qarabağ Respublikası"nın prezidenti Arayik Harutyunyan həmin ərazilərə baş çəkmişdir. Saat 10:00 radələrində Azərbaycan Müdafiə Nazirliyi gecə ərzində cəbhənin müxtəlif istiqamətlərində Ermənistan ordusunun döyüş aktivliyinin qarşısının alınması və ona sarsıdıcı zərbələr endirilməsini əks etdirən videogörüntüləri yayımlamışdır. Gecə ərzində Ermənistan silahlı qüvvələri tərəfindən Tərtər şəhəri, rayonun Səhləbad, Qəzyan, Qapanlı, Qaynaq, Əskipara, Hüsənli, Ağdam rayonunun Ayaq Qərvənd, İmamqulubəyli, Qaradağlı, Təzəkənd, Ağcabədi rayonunun Muğanlı, Qiyaməddinli, Rəncbərlər və Goranboyun Tahqaraqoyunlu kəndi intensiv artilleriya atəşinə tutulmuşdur. Ermənistan ordusunun Tərtərin yaşayış məntəqələrini atəşə tutması nəticəsində daha iki mülki vətəndaş xəsarət almışdır. Onlar Qapanlı kənd sakinləri, 1984-cü il təvəllüdlü Quliyev Vasif Qasım oğlu və 1985-ci il təvəllüdlü Quliyev Pərviz Cəfər oğludur. Saat 16:30 radələrində Azərbaycan Müdafiə Nazirliyi Ermənistan ordusunun ağır itkilər verdiyini özündə əks etdirən videogörüntülər yayımlamışdır. Saat 19 radələrində Ermənistan silahlı qüvvələrinin Beyləqan şəhərinin müxtəlif istiqamətlərində dinc əhalinin yaşayış evlərini növbəti dəfə ağır artilleriyadan atəşə tutması nəticəsində 1976-cı il təvəllüdlü şəhər sakinləri İsmayılova Zülfiyyə İsgəndər qızı və bacısı – 1998-ci il təvəllüdlü Əsədova Arzu İsgəndər qızı yaşadıqları evə çoxsaylı top mərmilərinin düşməsi nəticəsində dağıntılar altında qalaraq həlak olmuş, eyni zamanda şəhərin müx-

təlif yerlərinə düşmüş top mərmilərinin qəlpələrindən şəhər sakinləri 1982-ci il təvəllüdlü Balakişiyev Etibar Təvəkkül oğlu və 1969-cu il təvəllüdlü Bəşirova Sevda Yaşar qızı müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanalara yerləşdirilmiş, çoxsaylı yaşayış evlərinə külli miqdarda ziyan dəymişdir.

Prezident, Ali Baş Komandan İlham Əliyev özünün "Twitter" səhifəsində Azərbaycan Ordusunun Madagizi işğaldan azad etdiyini və həmin ərazilərdə Azərbaycan bayrağının qaldırıldığını açıqlamışdır. Həmçinin, İlham Əliyevin verdiyi qərara əsasən, Madagizin tarixi adı olan Suqovuşan adı bərpa edilmişdir. Azərbaycan Ordusu həmin gün ərzində həmçinin Tərtər rayonunun Talış, Cəbrayılın Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy və Quycaq kəndlərini, Füzulinin Aşağı Əbdürrəhmanlı kəndini tamamilə işğaldan azad etmişdir. Azərbaycan Müdafiə Nazirliyinin verdiyi məlumata əsasən, Madagiz-Ağdərə istiqamətində gedən döyüşlər zamanı Ermənistan silahlı qüvvələrinin 77-ci tank taborunun 4 tankı məhv edilmiş, 3 tankı qənimət götürülmüşdür. Həmçinin, Ermənistan silahlı qüvvələrinin Ağdərə istiqamətində yerləşən 5-ci dağatıcı alayının müdafiə sahəsinə artilleriya zərbələrinin endirilməsi nəticəsində alayın 4 ədəd avtomobil texnikası məhv edilmişdir.

## 4 oktyabr

Saat 09:00 radələrində Ermənistan ordusu Tərtər şəhərinə və Horadiz yaşayış məntəqəsinə raket zərbələri endirmişdir. Ermənistan ordusu Xankəndi şəhərindən şimalda – Ballıcada yerləşən hərbi hissədən Azərbaycan Ordusunun bölmələrinin mövqelərini və yaşayış məntəqələrini intensiv atəşə tutmuşdur. Saat 10:50 radələrində Azərbaycan Müdafiə Nazirliyinin verdiyi məlumata əsasən, Ermənistan silahlı qüvvələri Gəncə şəhərini atəşə tutmuşlar. Saat 11:40 radələrində şəhərə daha dörd yeni raket atılmışdır. Bir neçə dəqiqədən sonra Ermənistan tərəfi Azərbaycan Ordusunun Xankəndi şəhərini bombardman etdiyini açıqlamışdır. Zakir Həsənov düşmənin

Gəncə şəhərini atəşə tutmasına reaksiya olaraq bildirib ki, "Ermənistan ərazisindən Azərbaycan ərazisinə atəş açılması açıq təxribat xarakteri daşıyır və döyüş bölgəsini genişləndirir". Ermənistan tərəfi Gəncə şəhərindəki hərbi obyektlərin və Gəncə Beynəlxalq Hava Limanının vurulması ilə bağlı məlumat yayımlamışdır. Azərbaycan Müdafiə Nazirliyi isə yayılmış xəbərin təxribat xarakteri daşıdığını və yalan olduğunu bildirmiş, düşmən tərəfindən açılan atəş nəticəsində dinc sakinlərə, mülki infrastruktura və qədim tarixi tikililərə ziyan dəydiyini açıqlamışdır.

Ermənistan ərazisindən Gəncənin atəşə tutulması nəticəsində 1 mülki şəxs həlak olub, 32 nəfər yaralanıb. Verilən məlumata görə, yaralanan mülki şəxslərdən biri - 1943-cü il təvəllüdlü erməni əsilli Karina Qriqoryandır. Saat 13:45 radələrində Hikmət Hacıyevin verdiyi məlumata əsasən, cəbhəni ziyarət edən Qondarma Dağlıq Qarabağ Respublikasının prezidenti Araik Arutunyanın yeri Azərbaycan Ordusu tərəfindən aşkar edilmiş və hal-hazırda ağır yaralıdır. Saat 15 radələrində Azərbaycan Müdafiə Nazirliyi düşmənin zirehli texnikaları, atəş-dəstək və təminat vasitələrinin məhv edildiyini nümayiş etdirən videogörüntü yayımlamışdır.

Saat 16 radələrində Ermənistan ordusu Ağcabədi rayonunun Sarıcalı, Ağdam rayonunun Baharlı, Çıraqlı, Üçoğlan və Bərdə rayonunun Şahvəlilər yaşayış məntəqələrini intensiv artilleriya atəşinə tutub. İlham Əliyev özünün "Twitter" səhifəsində Azərbaycan Ordusunun Cəbrayıl şəhərini və rayonun bir neçə kəndinin işğaldan tam azad etdiyini açıqlamışdır. Saat 15 radələrində Ermənistan silahlı qüvvələrinin Ağcabədi rayonunun müxtəlif istiqamətlərində dinc əhalinin yaşayış evlərini növbəti dəfə ağır artilleriyadan atəşə tutması nəticəsində, yeməkxanada olan zaman oraya top mərmilərinin düşməsi ilə Taynaq kənd sakini 2006-cı il təvəllüdlü İsgəndərov Fərid Dilafət oğlu dağıntılar altında qalaraq həlak olmuş, çoxsaylı mülki infrastruktur obyektlərə külli miqdarda ziyan dəymişdir.

Saat 18:00 radələrində Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun 2010-cu il iyunun 18-də təkbaşına döyüşərək xeyli sayda düşmən qüvvəsini məhv etdiyi posta Azərbaycan bayrağı sancıldığı xəbəri verilmişdir. Cəbrayıl istiqamətində düşmənin xeyli

sayda silah-sursatı, döyüş və avtomobil texnikası qənimət götürülüb. İlham Əliyev xalqa müraciətində Cəbrayıl rayonunun Karxulu, Şükürbəyli, Yuxarı Maralyan, Çərəkən, Daşkəsən, Decal, Mahmudlu, Cəfərabad və Horovlu kəndlərinin işğaldan tam azad edildiyini açıqladı. Saat 22:00 radələrində Ermənistan silahlı qüvvələri Mingəçevir şəhərinə raket hücumu edib. Mingəçevir şəhərinə Ermənistan tərəfindən dörd ədəd "Toçka-U" ortamənzilli ballistik raket buraxılmışdır. Bir neçə dəqiqə sonra Azərbaycan Müdafiə Nazirliyi Ermənistan silahlı qüvvələri tərəfindən Mingəçevir şəhəri ərazisinə raket zərbələri, Tərtər şəhərinin ərazisinə artilleriya zərbələrinin endirilməsi və yaralalıların olduğu barədə məlumat yaymışdır. Mingəçevir şəhərinə atılmış 3 raketdən 2-si partlamayıb. 3-cü raketin fərdi yaşayış evinə atılması nəticəsində 5 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdirilmiş, eyni zamanda evə külli miqdarda ziyan dəymişdir.

Azərbaycan tərəfi Ermənistanın əsas məqsədinin Mingəçevir su anbarının vurulması olduğunu bildirsə də, qarşı tərəf bu fikirləri rədd etmişdir.

Saat 23:00 radələrində Xızı və Abşeron bölgəsinə iki 300 km məsafəli orta mənzilli raket atıldığı bildirmişdir. Ermənistan ordusunun ağır artilleriyadan istifadə etməklə Tərtəri atəşə tutmağa davam etməsi nəticəsində 2 şəhər sakini yaralanmışdır.

## 5 oktyabr

Səhər saatlarında Azərbaycan Hava Hücumundan Müdafiə Qoşunlarının Radiolokasiya sistemlərinin texniki vasitələri Ermənistanın Cermuk, Qafan və Berd rayonları ərazisində yerləşən start mövqelərindən Azərbaycan ərazisinə atılan raket buraxılışını qeydə almışdır. Ermənistan tərəfi Azərbaycan Ordusu tərəfindən Xankəndi şəhərinə 16 raket zərbəsinin endirildiyini açıqlamışdır. Azərbaycan Müdafiə Nazirliyinin verdiyi məlumata əsasən, Beyləqan, Bərdə və Tərtər şəhərləri Ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutulmuşdur.

Saat 11:40 radələrində Füzuli şəhəri, Ağcabədi rayonunun kəndləri, Tərtər şəhəri və rayonun kəndləri, Goranboy və Göygöl rayonlarının əraziləri Ermənistan silahlı qüvvələri tərəfindən atəşə məruz qalmışdır. Təxminən 1 saat sonra Ermənistanın Berd rayonu ərazisindən Gəncə şəhəri raket zərbələri ilə atəşə tutulmuşdur. Hikmət Hacıyev özünün "Twitter" səhifəsində Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Gəncə, Bərdə və Beyləqan şəhərlərinin sıx məskunlaşmış ərazilərini raket və mərmi atəşinə tutduğunu açıqlamışdır. Ermənistan tərəfi gecə ərzində şiddətli döyüşlərin getdiyini bildirmiş və Azərbaycan Ordusunun cənub istiqamətində hücuma keçdiyini açıqlamışdır. Ermənistan silahlı qüvvələrinin dinc Azərbaycan əhalisinin sıx yaşadığı əraziləri növbəti dəfə ağır artilleriyadan atəşə tutması nəticəsində Bərdə şəhərinin mərkəzi küçələrinə və mərkəzi xəstəxananın yaxınlığına düşmüş raket mərmisinin qəlpələrindən Mehdiyeva Şəhriyar İsa qızı həlak olmuş, 3 nəfər isə müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdirilmişdir. Azərbaycan Respublikası Baş Prokurorluğunun verdiyi məlumata görə, Gəncə şəhərinə atılmış raketlərin Gəncə Beynəlxalq Xəstəxanasının, 34 saylı orta məktəbin, Şah İsmayıl Xətai küçəsində yerləşən mebel fabrikinin yaxınlığına, "Yevlax avtovağzalı" kimi adlandırılan əraziyə və Mərkəzi bazara atılması nəticəsində 3 nəfər mülki şəxs müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdirilmiş, mülki infrastruktura külli miqdarda ziyan dəymişdir. Eyni zamanda, Beyləqan şəhərinə atılmış 2 ədəd raket mərmisindən 1 ədədi uşaq bağçasının həyətinə, digəri isə şəhər ərazisindəki boş sahəyə düşmüşdür.

Saat 16:40 radələrində Ermənistan silahlı qüvvələri Ağcabədi şəhərini atəşə tutmuş, mülki şəxslər arasında yaralıların olması haqqında məlumat verilmişdir. Həmçinin, düşmən ordusu Beyləqan şəhərini atəşə tutmuşdur.

Saat 5 radələrində Azərbaycan Müdafiə Nazirliyi Ermənistan silahlı qüvvələrinin 63-cü tank taborunun daha 3 ədəd tankının məhv edilməsi barədə məlumat yayımlamışdır. Azərbaycan Ordusu tərəfindən Ermənistan silahlı qüvvələrinin cəbhənin Ağdərə istiqamətində 62-ci artilleriya alayının 2 ədəd, 41-ci artilleriya alayının

2 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi məhv edilmişdir. Azərbaycan Respublikası Baş Prokurorluğunun verdiyi məlumata görə, Ermənistan ordusu tərəfindən Ağcabədi rayonuna 3 raket atılmış, atılmış raketlərdən birinin evə düşməsi nəticəsində şəhər sakinləri – 1994-cü il təvəllüdlü İbrahimov Elşən Mehdi oğlu və qardaşı qızı, 2015-ci il təvəllüdlü İbrahimova Ayan Rövşən qızı müxtəlif bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdirilmiş, eyni zamanda evə külli miqdarda ziyan dəymişdir. Saat 20:00 radələrində Ermənistanın silahlı qüvvələri Gəncə şəhərini növbəti dəfə atəşə tutmuşdur. Erməni silahlı qüvvələrinin Ağdam rayonunun müxtəlif istiqamətlərində intensiv atəşə tutması nəticəsində 1954-cü il təvəllüdlü Rəhimov Eyvaz Musa oğlu həlak olmuş, rayonun Üçoğlan kənd sakini – 1971-ci il təvəllüdlü Səfərov Mehman Ağalar oğlu isə müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdirilmişdir. Bundan başqa, düşmənin Goranboy rayonunun yaşayış məntəqələrini ağır artilleriyadan atəşə tutması səbəbindən yaşadığı evə top mərmisinin düşməsi nəticəsində Qızılhacılı kənd sakin – 1955-ci il təvəllüdlü Abbasova Raziyə Bayraməli qızı həlak olmuş, eyni zamanda top mərmisinin düşdüyü başqa bir yaşayış evinin sakinləri 1958-ci il təvəllüdlü Həsənov Məşdi İbrahim oğlu, sonuncunun qızı 1984-cü il təvəllüdlü Sevinc Həsənova və azyaşlı nəvəsi 2011-ci il təvəllüdlü Həsənov Elcan Elgün oğlu, boş sahəyə düşmüş top mərmisinin qəlpələrindən 1969-cu il təvəllüdlü Ələkbərov Rasim Nadir oğlu müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdirilmişlər.

Prezident İlham Əliyev özünün "Twitter" səhifəsində Azərbaycan Ordusunun Cəbrayıl rayonunun Şıxaliağalı, Sarıcallı, Məzrə kəndlərini və müxtəlif istiqamətlərdə bir neçə strateji yüksəkliyi işğaldan tam azad etdiyini açıqlamışdır. Gün ərzində cəbhənin müxtəlif istiqamətlərində gedən döyüşlərdə Ermənistan ordusuna məxsus 2 ədəd BM-21 "Qrad"ı sıradan çıxarılıb. Bundan əlavə, 42-ci artilleriya alayının atəş mövqeyində yerləşdirilmiş D-20 artilleriya qurğuları və onların heyətləri də Azərbaycan Ordusunun sərrast atəşi ilə məhv edilmişdir.

## 6 oktyabr

Ermənistan Milli Məclisinin birinci vitse-spikeri Vahe Enfiacyan özünün "Facebook" səhifəsində "Dəhşət" ləqəbli polkovnik-leytenant Artur Qalstyanın öldüyünü bildirmişdir. Azərbaycan Müdafiə Nazirliyinin verdiyi məlumata əsasən, Azərbaycan Ordusunun dəqiq atəş zərbəsi nəticəsində Ballıca məntəqəsində yerləşən mərkəzi silah-sursat anbarı məhv edilmişdir. Vaqif Dərgahlı açıqlamasında bildirib ki, Azərbaycan Ordusu gecə boyu, Cəbrayıl-Füzuli istiqaməti də daxil olmaqla, cəbhə boyu bütün istiqamətlərdə tam üstünlük nümayiş etdirərək, düşmənə ağır zərbələr endirmişdir.

Saat 12 radələrində Ermənistan silahlı qüvvələrinin Ağdam rayonuna atdığı mərmi məktəb binasında dağıntılar törətmiş, növbədə olan yanğınsöndürmə avtomobilinə ziyan dəymişdir. Avtomobilin sürücüsü, Fövqəladə Hallar Nazirliyi Dövlət Yanğından Mühafizə Xidmətinin əməkdaşı, daxili xidmət çavuşu Qismət Əli oğlu Yusibov partlayış dalğasının təsirindən xəsarət almış və xəstəxanaya yerləşdirilmişdir.

Saat 16:30 radələrində Ermənistan tərəfi Azərbaycan Ordusunun cənub istiqamətində yenidən hücuma keçdiyi barədə məlumat yayımlamışdır. Yarım saat sonra düşmən tərəf Azərbaycan Silahlı Qüvvələrinin Xankəndi şəhərini bombardman etdiyini açıqlamışdır. Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzündə xarici muzdlulardan, o cümlədən İraq və Suriya ərazisindən gətirilmiş kürd terrorçu qruplaşma üzvlərindən fəal istifadə etdiyini sübut edən radio danışıqları ələ keçirilmişdir. Həmçinin, verilən məlumata görə, aparılan əməliyyatlar nəticəsində daha iki əcnəbi muzdlu-terrorçu məhv edilmişdir. Saat 19 radələrində Azərbaycan Müdafiə Nazirliyi Ermənistan silahlı qüvvələrinin Yevlax, Goranboy və Beyləqan rayonlarının ərazilərini atəşə tutması barədə məlumat yayımlamışdır.

Zakir Həsənov xüsusi xidməti müşavirədə düşmən tərəfindən "İskəndər" əməliyyat-taktiki raket komplekslərinin tətbiq olunacağı halda adekvat tədbir görüləcəyini bildirmişdir. Saat 21 radələrində

Ermənistan silahlı qüvvələrinin Tərtər rayonunun müxtəlif istiqamətlərdə intensiv atəşə tutması nəticəsində rayonun Qaynaq kənd sakini 1981-ci il təvəllüdlü Məmmədov Həsən Asif oğlu həlak olmuş, həmin kənd sakini 1989-cu il təvəllüdlü Əliyev Dəyanət Qənimət oğlu və Köçərli kənd sakini 1968-ci il təvəllüdlü Həsənov Seyfulla Yaqub oğlu müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdirilmişdir. Həmçinin həmin radələrdə Ermənistan silahlı qüvvələri regionun ən böyük strateji layihəsi, Avropanın enerji təhlükəsizliyi sahəsində mühüm yer tutan Bakı-Tbilisi-Ceyhan neft kəmərini hədəfə almaqla, kəmərin Yevlax rayon ərazisindən keçən hissəsinə raket zərbələri endirsə də, Azərbaycan Ordusunun qətiyyətli tədbirləri nəticəsində həmin terror cəhdinin qarşısı alınmışdır. Azərbaycan Müdafiə Nazirliyinin verdiyi məlumata əsasən, gün ərzində düşmənə endirilən artilleriya zərbələri nəticəsində 5-ci alayın müdafiə sahəsində komanda müşahidə məntəqəsi sıradan çıxarılmışdır. Artilleriya zərbəsi ilə düşmənin müdafiə sahəsində 1 ədəd tankı və 3 topu məhv edilmişdir.

## 7 oktyabr

Azərbaycan Müdafiə Nazirliyi gecə boyu cəbhənin bütün istiqamətlərində şiddətli döyüşlərin getdiyini açıqlamışdır. Saat 10 radələrində Azərbaycan tərəfinin verdiyi məlumata görə, Azərbaycan Ordusu Cəbrayıl rayonu istiqamətində tam üstünlüyü ələ keçirtmişdir. Həmçinin, işğaldan azad olunmuş Şükürbəyli kəndindən yeni videogörüntülər yayımlanmışdır. Saat 10:20 radələrində Ermənistan silahlı qüvvələri Tərtər, Bərdə, Ağdam, Ağcabədi, Füzuli və Cəbrayıl rayonlarının kəndlərini atəşə tutmuşlar. Saat 12 radələrində Azərbaycan Müdafiə Nazirliyi düşmən texnikalarının məhv edilməsinin növbəti videogörüntüsünü yayımlamışdır. Günorta saatlarında Azərbaycan Müdafiə Nazirliyi cəbhənin müxtəlif istiqamətlərində düşmənin dayaq nöqtələrinin ələ keçirildiyini açıqlamışdır. Ermənistan silahlı qüvvələrinin mülki əhalini hədəfə almaqla ağır artilleriyadan Ağdam rayonunu müxtəlif istiqamət-

lərdən atəşə tutması nəticəsində rayonun Xındırıstan kəndi ərazisində yaşadığı evə mərmi düşməsi nəticəsində kənd sakini 1945-ci il təvəllüdlü Əliyeva Zərifə Qamboy qızı həlak olmuş, eyni zamanda evə külli miqdarda ziyan dəymişdir. Saat 15 radələrində Ermənistan silahlı qüvvələri Tərtər və Füzuli rayonlarının yaşayış məntəqələrini atəşə tutmuşdur.

Saat 10 radəlarində Ermənistana məxsus pilotsuz uçuş aparatı (PUA) Ermənistan-Azərbaycan dövlət sərhədinin Ağstafa rayonu sahəsində uçuş keçirməyə cəhd göstərərkən məhv edilmişdir. Azərbaycan Müdafiə Nazirliyinin verdiyi məlumata əsasən, Azərbaycan Ordusunun atəşi nəticəsində düşmənin 10-dak tankı, 6 ədəd D-20 topu, 1 ədəd "Akasiya"' Özüyeriyən artilleriya qurğusu, 30-dək avtomobil texnikası və xeyli sayda canlı qüvvəsi məhv edilmişdir. Günorta saatlarında Ermənistan tərəfi Azərbaycan Ordusunun Xankəndi şəhərini bombardman etdiyini açıqlamışdır. Azərbaycan xüsusi xidmət orqanlarına yaxın mənbələr Xankəndidə dinc sakinlərin qalmadığını bildirib. Dağlıq Qarabağdan minlərlə qaçqın Ermənistana axışıb. Onların yolunda ilk yaşayış məntəqəsi sərhədyanı erməni şəhəri Gorusdir. Qarabağdan çıxan qaçqınları Gorus meriyasına gətirirlər, oradan onları ya qohumları götürür, ya da mehmanxanalara paylayırlar. Oktyabrın 7-dən Dağlıq Qarabağın paytaxtında erməni hərbçiləri formasında rusdilli şəxslər rast gəlinməyə başlayıb.

## 8 oktyabr

Ermənistan tərəfi gecə boyu şiddətli döyüşlərin getdiyini açıqlamışdır. Səhər saatlarından başlayaraq, Ermənistan silahlı qüvvələri Goranboy, Tərtər, Ağdam rayonlarının kəndlərini artilleriya atəşinə tutmuşdur. Saat 7 radələrində Ermənistan silahlı qüvvələrinin aydın görünən və fərqləndirilən obyektləri, o cümlədən, mülki əhalini hədəfə almaqla, Goranboy rayonunun Şahməmmədli kəndini ağır artilleriyadan atəşə tutması nəticəsində həmin kənd sakini 1957-ci il təvəllüdlü Quliyeva Türyan Tofiq qızı yaşadığı evdə həlak olmuş, yaşadığı evə isə maddi ziyan dəymişdir. Azərbaycan

Respublikası Baş Prokurorluğundan verilən məlumata əsasən, saat 4 radələrində Ermənistan silahlı qüvvələri tərəfindən Gəncə şəhərinə raket zərbələri endirilmişdir. Saat 8 radələrində Ermənistan silahlı qüvvələri Bərdə və Ağcabədi rayonlarının kəndlərini atəşə tutmuşdur. Səhər saatlarından başlayaraq, düşmən ordusunun Goranboy rayonunu müxtəlif istiqamətlərdən atəşə tutması nəticəsində rayonun Aşağı Ağcakənd qəsəbəsi ərazisinə top mərmilərinin düşməsi səbəbindən orada yerləşən Xocalı Rayon Polis Şöbəsinin inzibati binasına, o cümlədən qəsəbə ərazisində çoxsaylı mülki infrastruktur obyektlərə və yaşayış evlərinə, Qaraçinar tam orta kənd məktəbinə külli miqdarda ziyan dəymişdir. Həmin radələrdə Ermənistan ordusunun Ağdam rayonunu müxtəlif istiqamətlərdən raket və artilleriya mərmilərindən intensiv atəşə tutması nəticəsində rayonun Böyükbəyli kənd sakinləri – 1992-ci il təvəllüdlü Sədi Bəbir oğlu Cəbrayıllı 1977-ci il təvəllüdlü Quliyeva Hürü Talış qızı avtomaşınla yol gedərkən Alıbəyli kəndi ərazisində mərmi düşməsi nəticəsində müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdirilmişdir.

Ermənistana məxsus pilotsuz uçuş aparatı (PUA) Oğuz rayonunun Xaçmaz kəndi sahəsində uçuş keçirməyə cəhd göstərərkən məhv edilmişdir. Saat 11:30 radələrində Ermənistan silahlı qüvvələri Bərdə şəhərini atəşə tutmuşdur. Ermənistan mətbuatının verdiyi məlumata əsasən, Azərbaycan Ordusunun Qarabağın azadlığı uğrunda apardığı əks-hücum əməliyyatı nəticəsində seperatçıların liderlərindən biri olan Yervand Qaciyan məhv edilmişdir.

Saat 12:30 radələrində Azərbaycan Müdafiə Nazirliyi gecə döyüşləri zamanı Ermənistan silahlı qüvvələrinin hərbi hissəsinin qərargahı, infrastrukturu və silah-sursat anbarlarına endirilən artilleriya zərbələrinin videogörüntüsünü yayımlamışdır. Azərbaycan Ordusu tərəfindən Ermənistanın milli qəhrəmanı Vartan Markaryanın adını daşıyan Ermənistan ordusunun 8-ci əlahiddə motoatıcı briqadasının döyüş bayrağı ələ keçirilmişdir. Azərbaycan Respublikası Baş Prokurorluğundan verilən məlumata əsasən, saat 11 radələrində Bərdə şəhərinin mərkəzində yerləşən "Qədim Bərdə" restoranına raketin düşməsi nəticəsində həmin vaxt orada olan 2 nəfər şəxs müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdirilmiş, eyni za-

manda Bərdə şəhər 5 nömrəli tam orta məktəbin yaxınlığına düşmüş raketlər 5 nəfər şəxsin yaralanmasına səbəb olmuş, o cümlədən məktəbin binasına, çoxsaylı nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəymişdir. Həmçinin, bildirilib ki, Ermənistan silahlı qüvvələri Bərdə rayonu ərazisinə "Toçka-U" taktiki raket kompleksindən atəş açmışdır. Günorta saatlarında Hikmət Hacıyev erməni silahlı qüvvələrinin Gəncə, Bərdə, Tərtər və digər şəhərlərə Smerç reaktiv yaylım atəş sistemi vasitəsilə raket zərbələri endirdiyini açıqlamışdır. Azərbaycan Ordusunun Şuşa şəhərini bombalaması nəticəsində şəhərin simvolu sayılan Qazançetsots kafedralının günbəzinə ciddi ziyan dəymişdir. Azərbaycan Müdafiə Nazirliyi isə kilsənin zərər çəkməsinin Azərbaycan Ordusunun döyüş fəaliyyəti ilə heç bir əlaqəsi olmadığını açıqlamışdır. Gündüz saatlarında yerdəyişməyə cəhd göstərən düşmənin döyüş texnikası və hərbi kolunu artilleriya atəşi ilə məhv edilmişdir.

Saat 19 radələrində Ermənistan silahlı qüvvələri Goranboy, Tərtər və Ağdam rayonlarının kəndlərini artilleriya atəşinə tutmuşdur. Saat 8 radələrində Azərbaycan Müdafiə Nazirliyi düşmənin zirehli texnikasının məhv edildiyi video-görüntüləri yayımlamışdır.

## 9 oktyabr

Azərbaycan Müdafiə Nazirliyinin verdiyi məlumata əsasən, gecə ərzində gərgin döyüşlər ordumuzun üstünlüyü ilə davam etmişdir. Həyata keçirilən hərbi əməliyyatlar zamanı Azərbaycan Ordusunun atəş zərbəsi nəticəsində Ermənistan silahlı qüvvələrinin 5-ci dağatıcı alayının qərargah binası dağıdılmışdır. Nəticədə binada olan 10-cu dağatıcı diviziyanın qərargah rəisi polkovnik Samvel Qriqoryan ağır yaralanmış, alayın artilleriya rəisi polkovnik-leytenant Arman Dermeyan və xeyli sayda hərbi qulluqçu məhv edilmişdir. Dünən gün ərzində və gecə ümumilikdə düşmənin 13 ədəd T-72 tankı, 2 ədəd PDM-i, 4 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 2 ədəd 253 "Akasiya" özüyeriyən artilleriya qurğusu, 3 ədəd D-30 haubitsa topu, 2 ədəd radar sistemi və xeyli sayda avtomobil texnikası dəqiq

atəşlə məhv edilmiş və sıradan çıxarılmışdır. Cəbhənin istiqamətlərindən birində həyata keçirilən əməliyyat nəticəsində Ermənistan Silahlı Qüvvələrinin 49-cu tank briqadasına məxsus 6 ədəd T-72 tankı tam işlək vəziyyətdə ələ keçirilmişdir. Azərbaycan Müdafiə Nazirliyi səhər saatlarında Cəbrayıl rayonuna Azərbaycan bayrağının sancıldığını əks etdirən videogörüntülər yayımlamışdır.

Saat 9 radələrində Ermənistan silahlı qüvvələrinin Füzuli rayonunu müxtəlif istiqamətlərdən raket və artilleriya mərmilərindən intensiv atəşə tutması nəticəsində rayonun Qarabağ kənd sakinləri 1982-ci il təvəllüdlü Əsədov Samir Hidayət oğlu, 1958-ci il təvəllüdlü İbrahimov Nizami Cəfər oğlu və 1968-ci il təvəllüdlü Abbasov Alman Ənvər oğlu yaşadıqları evlərə mərmi düşməsi nəticəsində müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdirilmiş, o cümlədən onların yaşadıqları evlərə külli miqdarda ziyan dəymişdir. Saat 11 radələrində Ermənistan silahlı qüvvələri Goranboy, Tərtər və Ağdam rayonlarının ərazilərini atəşə tutmuşdur.

Saat 14 radələrində Azərbaycan Müdafiə Nazirliyi ordumuzun mühüm istiqamətlərdə düşmənə atəş zərbələri endirərək, onun xeyli sayda hərbi texnikasını məhv etdiyini özündə əks etdirən videogörüntüləri yayımlamışdır. Həmin radələrdə Ermənistan silahlı qüvvələri Bərdə və Ağdam rayonlarının ərazilərini intensiv atəşə tutmuşdur. Həmçinin düşmən Mingəçevir və Ağcabədi rayonlarının ərazilərinə artilleriya zərbələri endirmişdir. Azərbaycan Ordusunun bölmələrinin keçirdiyi döyüş əməliyyatları nəticəsində Ermənistan ordusunun xeyli sayda BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi məhv edilmişdir.

Saat 16:30 radələrində Ermənistan ərazisindən Mingəçevir istiqamətində atılan ballistik hədəf Azərbaycan HHM sistemləri tərəfindən aşkar edilərək 20 kilometrdən artıq hündürlükdə məhv edilmişdir. Ermənistan tərəfi Azərbaycan Ordusunun Xankəndi şəhərini yenidən bombardman etdiyini açıqlamışdır. Hikmət Hacıyev bildirmişdir ki, bu günlərdə Ermənistan tərəfindən Beyləqan şəhərində məscidə, Gəncə şəhərində İmamzadə kompleksinə raket atılmışdır.

Prezident İlham Əliyev xalqa müraciətində Xocavənd rayonunun Sor kəndi və Hadrut qəsəbəsinin, Tərtər rayonunun Çaylı kəndi, Cəbrayıl rayonunun Qışlaq, Qaracallı, Əfəndilər, Süleymanlı, Füzuli rayonunun Yuxarı Güzlək, Gorazıllı kəndlərinin işğaldan tam azad edildiyini açıqlamışdır. 27 sentyabr tarixindən bu günə qədər Ermənistan ordusuna məxsus 16 komanda məntəqəsi, 196 tank, 38 BM-21 "Qrad", 1 "Uraqan", 10 özüyeriyən artilleriya qurğusu - onlardan 8-i 2S3 "Akasiya", 2-si "Qvozdika", 36 piyadanın döyüş maşını, 24 artilleriya batareyası, 2 "REM" və ya hava hücumundan müdafiə vasitəsi, 2 ədəd S-300 kompleksinin buraxıcı qurğusu, 25 "Osa" zenit raket kompleksi, 2 "Kub" zenit raket kompleksi, 4 "Repelent" radio-texniki manea vasitəsi, 136 top, 56 minaatan, 1 ədəd "TOS 1a" odsaçan sursatı, 2 ədəd radiolokasiya stansiyası, 1 "Kalçuqa" anteni məhv edilmişdir. Həmçinin 18 tank, 4 top, 22 piyadanın döyüş maşını, 12 minaatan, 4 "UAZ" maşını, 1 ekskavator, 27 "İqla" kompleksi, 1 "ZİL" maşını, 9 "QAZ" maşını hərbi qənimət kimi ələ keçirilmişdir.

Saat 18 radələrində Goranboy rayonun Tapqaraqoyunlu kəndinə Ermənistan silahlı qüvvələri tərəfindən 22 top mərmisinin atılması nəticəsində həmin kənd sakini 1980-ci il təvəllüdlü Mehracov Sənan Yusif oğlu müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdirilmişdir. Bundan başqa, Tərtər rayonunun inzibati mərkəzinin də top atəşinə tutulması nəticəsində rayon sakini 1968-ci il təvəllüdlü Fərəcov Müşfiq Təvəkkül oğlu müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdirilmişdir. Axşam saatlarında düşmənin atəş mövqeyinə çıxardığı zirehli texnikaları Azərbaycan Ordusu tərəfindən məhv edilmişdir. Həmçinin, Azərbaycan Müdafiə Nazirliyi işğaldan azad olunmuş Suqovuşan və Talış kəndlərindən yeni videogörüntülər yayımlamışdır. Saat 14 radələrində Ermənistan silahlı qüvvələrinin Ağdam rayonunun Quzanlı qəsəbəsini müxtəlif istiqamətlərdən raket və artilleriya mərmilərindən intensiv atəşə tutması nəticəsində qəsəbə sakinləri 1979-cu il təvəllüdlü Hüseynov Əlizamin Cavid oğlu, 1978-ci il təvəllüdlü Zeynalov Elçin Əli oğlu, 1984-cü il təvəllüdlü Məmmədova Lalə Məhəmməd qızı və 1992-ci il təvəllüdlü Rzayev Elçin Hənifə oğlu qəsəbə ərazisinə mərmi

düşməsi nəticəsində müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdiriliblər.

## 10 oktyabr

Gecə saatlarında, Rusiya Xarici İşlər Naziri Sergey Lavrov, Azərbaycan və Ermənistanın Moskvada baş tutan 10 saatlıq danışıqlardan sonra iki ölkənin Dağlıq Qarabağda atəşkəs barədə razılığa gəldiklərini və tərəflərin bundan sonra "maddi" danışıqlara başlayacaqlarını bildirdi. Saat 08:00-dan etibarən hərbi əməliyyatlar dayandırılacaq, əsir və cəsədlərin mübadiləsi təmin ediləcək. Azərbaycan Müdafiə Nazirliyi gecə boyu cəbhənin bütün istiqamətlərində şiddətli döyüşlərin getdiyini açıqlamışdır. Ermənistan tərəfi də vəziyyətin gərgin olaraq qaldığını bildirmişdir. Səhər saatlarınadək Azərbaycan Ordusunun davam etdirdiyi hücum əməliyyatı nəticəsində bu müddətdə düşmənin xeyli sayda canlı qüvvəsi, 13 ədəd tankı, 4 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 6 ədəd D-20 və D-30 topu, 3 ədəd 2S3 "Akasiya" özüyeriyən artilleriya qurğusu, 2 ədəd M55 "Zastava" zenit qurğusu, 2 radiolokasiya stansiyaları və radioelektron mübarizə vasitələri dəqiq atəşlə məhv edilmiş və sıradan çıxarılmışdır.

Saat 9:30 radələrində Ermənistan ordusu Xocalı istiqamətindən Hadrutu yaylım atəşli reaktiv sistemlərdən intensiv atəşə tutmuşdur. Ermənistan tərəfi bu məlumatın yalan olduğunu bildirmişdir. Saat 10 radələrində Ermənistan tərəfi Azərbaycanı "hərbi əməliyyatlar dayandırılana qədər vəziyyəti dəyişdirmək" cəhdində günahlandıraraq, Xankəndi şəhərində həyəcan siqnalının verildiyini açıqlamışdır.

Saat 10:30 radələrində Azərbaycan Müdafiə Nazirliyi düşmənin daha bir zirehli tank bölməsinin darmadağın edildiyini göstərən videogörüntülər yayımlamışdır. Həmin radələrdə Ermənistan silahlı qüvvələri Goranboy, Tərtər, Ağdam, Ağcabədi və Füzuli rayonlarının yaşayış məntəqələrini intensiv atəşə məruz qoymuşdur. Ermənistan tərəfi isə bu məlumatın yalan olduğunu bildirmişdir. Həmçinin Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrinə məxsus S-3000 zenit raket sistemini məhv etmişdir. Ermənistan

ordusunun bütün havadan müdafiə sistemini yönəldən, Xocalıda yerləşən ən bahalı 19J6 (ST-68U) radiolokasiya stansiyasi məhv edilmişdir.

Saat 12 radələrində Azərbaycan Müdafiə Nazirliyi Ermənistan ordusunun növbəti artilleriya qurğularının məhv edildiyini göstərən videogörüntülər yayımlamışdır. Saat 12:30 radələrində Ermənistan silahlı qüvvələri Tərtər və Ağdam rayonlarının ərazisini atəşə tutmuşdur. Saat 12:00-da, atəşkəs elan olunması barədə razılıq əldə edilməsinə baxmayaraq, Ermənistan ordusu cəbhənin Ağdərə-Tərtər və Füzuli-Cəbrayıl istiqamətlərində hücuma keçməyə cəhd göstərmişdir. Ermənistan tərəfi Azərbaycan Ordusunun Kaşataq mərzinin Birinci Alıbəyli kəndini və Sünik mərzinin Artsvanik kəndini bombardman etdiyini açıqlamışdır. Hər iki tərəf saat 12:00-dan etibarən bir-birini atəşkəsi pozmaqda ittiham etmişdir.

Saat 13:30 radələrində Azərbaycan Müdafiə Nazirliyi atəşkəs rejimini pozan düşmənin zirehli texnikasının məhv edildiyini göstərən videogörüntülar yayımlamışdır. Saat 18:30 radələrində atəşkəs rejimini pozmaq məqsədi düşmənin atəş nöqtələrinə çıxarılan ağır artilleriyası Azərbaycan Ordusu tərəfindən dəqiq zərbələrlə məhv edilmişdir. Hikmət Hacıyev özünün "Twitter" səhifəsində Ermənistan ordusunun Füzuli və Goranboy rayonlarının kəndlərini raket hücumuna məruz qoyduğunu açıqlamışdır.

Saat 19 radələrinda Azərbaycan Müdafiə Nazirliyi düşmənin döyüşə hazır vəziyyətə gətirilən zenit-raket komplekslərinin məhv edildiyini göstərən videogörüntülər yayımlamışdır. Ermənistan ordusu günorta saatlarında atəşkəs rejimini pozaraq, Tuğ kəndi istiqamətindən Hadrut istiqamətində, Aragül və Banazur istiqamətlərindən Cəbrayıl istiqamətində hücum etməyə cəhd göstərmişdir. Cəhdlərin qarşı alınarkən baş vermiş döyüş toqquşması nəticədə düşmənin 38 nəfər canlı qüvvəsi, 2 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 7 ədəd topu və sursatla dolu 2 yük maşını məhv edilmişdir.

Saat 20 radələrində atəşkəs rejimini kobud şəkildə pozan Ermənistan silahlı qüvvələri Ağdam rayonu ərazisini atəşə tutmuşdur. Həmin radələrdə Ermənistan ordusunun artilleriya batareyasının məhv edildiyini göstərən videogörüntülər yayımlanmışdır.

Saat 19 radələrində Ermənistan silahlı qüvvələri tərəfindən Ağdam rayonunun Çəmənli və Zəngişalı kəndləri ağır artilleriyadan intensiv atəşə tutulmuş, top mərmisinin partlaması nəticəsində Çəmənli kənd sakini 1974-cü il təvəllüdlü Gündüz Taryel oğlu Hüseynov həlak olmuşdur. Humanitar atəşkəs rejimini kobud şəkildə pozan Ermənistan silahlı qüvvələri saat 22:30-dan başlayaraq, Tərtər şəhərini artilleriya atəşinə tutmuşdur. Ermənistan tərəfi isə Azərbaycan Ordusunun yenidən Xankəndi şəhərini bombardman etdiyini açıqlamışdır. Azərbaycan tərəfi bu məlumatı təkzib etmişdir.

## 11 oktyabr

Saat 02:00 radələrində Gəncə şəhərinin mərkəzində bir yaşayış binası raket atəşinə məruz qalmışdır. Nəticədə Azərbaycan Respublikası Baş Prokurorluğunun verdiyi məlumata görə, düşmənin Gəncənin mərkəzi hissəsində yerləşən çoxmənzilli yaşayış binasını raket atəşinə tutması nəticəsində 5 nəfər həlak olmuş, 28 nəfər yaralanmış, çoxsaylı mülki infrastruktur obyektlərə külli miqdarda ziyan dəymişdir.

Saat 4 radələrində Ermənistan ordusunun Mingəçevir su-elektrik stansiyasını hədəfə almaqla cəbhə zonasından 100 km-dən artıq uzaqlıqda yerləşən, iri sənaye şəhəri Mingəçevirə raketlər atmışdır. Raketlər Azərbaycan Ordusunun hərbi hava hücumundan müdafiə qüvvələri tərəfindən zərərsizləşdirilmişdir. Gecə ərzində Azərbaycan Ordusunun keçirdiyi əməliyyatlar nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, eləcə də 5 ədəd T-72 tankı, 6 ədəd D-20 və D-30 haubitsası, 5 ədəd sursatla dolu yük maşını, 11 ədəd digər avtomobil texnikası, 3 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 5 ədəd 2S1 "Qvozdika" özüyeriyən haubitsası, 8 ədəd hava hücumundan müdafiə sistemi və radiolokasiya stansiyası məhv edilmiş və sıradan çıxarılmışdır. Məlumata əsasən, canlı qüvvə sarıdan xeyli itki verən düşmən ordusunda ölənlər arasında 1-ci motoatıcı alayın komandirinin müavini polkovnik-leytenant Artak Vanyan da var.

Azərbaycan Müdafiə Nazirliyinin verdiyi məlumata əsasən, Ermənistan silahlı qüvvələrinin bölmələri itirdikləri mövqeləri geri qaytarmaq məqsədilə canlı qüvvə və döyüş texnikasını cəmləşdirərək, yenidən kiçik qruplarla cəbhənin Hadrut və Cəbrayıl istiqamətlərində hücuma keçməyə cəhd göstərmişdir. Hikmət Hacıyev özünün "Twitter" səhifəsində Gəncə səhərində 3 yaşayış binası dağıdılması nəticəsində, qadınlar da daxil olmaqla, 7-dan çox mülki şəxsin öldürüldüyünü, uşaqlar da daxil olmaqla, 33 mülki şəxsin ağır yaralandığını açıqlamışdır.

Səhər saat 08:00 radələrində Mingəçevir istiqamətində uçuşlar həyata keçirməyə cəhd edən Ermənistana məxsus pilotsuz uçuş aparatı (PUA) Azərbaycan Ordusunun Hava Hücumundan Müdafiə bölmələri tərəfindən məhv edilmişdir. Xarici İşlər Nazirliyinin verdiyi məlumata əsasən, Suqovuşan ərazisində erməni əsgərlərinin cəsədlərini yığan və üzərinə aydın şəkildə ağ bayraq sancılan sanitar maşınının Ermənistan Silahlı Qüvvələri tərəfindən atəşə tutulması nəticəsində bir tibbi xidmət qulluqçusu ağır yaralanmışdır. Saat 13 radələrində Azərbaycan Respublikasi Baş Prokurorluğunun verdiyi məlumata görə, Gəncənin mərkəzi hissəsində yerləşən çoxmənzilli yaşayış binalarını raket atəşinə tutulması nəticəsində, 4-ü qadın olmaqla, 9 nəfər həlak olmuşdur.

Prezident İlham Əliyev özünün "Twitter" səhifəsində Gəncə şəhərinə raket hücumunun Ermənistanın Vardenis rayonundan həyata keçirildiyini bildirmişdir. Azərbaycan Hərbi Hava Qüvvələri tərəfindən Ermənistan silahlı qüvvələrinin 41-ci əlahiddə artilleriya alayı bölmələrinə havadan endirilən zərbələr nəticəsində düşmən ağır itkilər verərək döyüş meydanından qaçmağa məcbur edilmişdir. Saat 16:30 radələrində Azərbaycan Müdafiə Nazirliyi Cəbrayıl rayonunun işğaldan yenicə azad olunan Daşkəsən kəndindən videogörüntü yayımlamışdır.

Saat 17:30 radələrində Ermənistan silahlı qüvvələri Ağdam, Tərtər, Ağcabədi və Füzuli rayonlarının kəndlərini atəşə tutmuşdur. Azərbaycan Müdafiə Nazirliyi Ermənistan ordusunun "Kub" zenit raket kompleksinin məhv edildiyini göstərən videogörüntü yayımlamışdır. Saat 17 radələrində Ermənistan silahlı qüvvələri tərəfindən

Ağcabədi rayonunun Haramı düzü adlanan ərazisi və Yuxarı Qiyaməddinli kəndi ağır artilleriyadan intensiv atəşə tutulmuş, top mərmilərinin partlaması nəticəsində mülki infrastruktura ciddi ziyan dəymişdir.

## 12 oktyabr

Səhər saatlarında Ağdam rayonu ərazisi Ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutulmuşdur. Gecə boyu həyata keçirilən əməliyyatlar nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 3 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 1 ədəd T-72 tankı, bir neçə avtomobil texnikası məhv edilmiş və sıradan çıxarılmışdır. Qırmızı Bazar məntəqəsi istiqamətinə endirilən artilleriya zərbəsi nəticəsində 1-ci alayın daimi dislokasiya məntəqəsində yeraltı sığınacaq və düşmənin geri çəkilən bölməsinin 2 texnikası məhv edilmişdir. Məlumata əsasən canlı qüvvə sarıdan xeyli itki verən Ermənistan ordusunda ölənlər arasında 246-cı alayın tabor komandiri polkovnik-leytenant Artur Qriqoryan da var. Saat 10 radələrində Goranboy, Tərtər və Ağdam rayonlarının ərazisi Ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutulmuşdur. Nəticədə Tərtər rayon Kəngərli kəndində top mərmilərinin partlaması ilə 1970-ci il təvəllüdlü Bəylərov Firudin Kamal oğlu müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdirilmişdir.

12 oktyabr tarixinə keçən gecə Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətində düşmənin 2 PUA-sı, bu gün saat 10:00 radələrində Ağdam rayonu istiqamətində 1 PUA-sı hava hücumunda müdafiə bölmələrimiz tərəfindən məhv edilmişdir. Saat 15 radələrində Azərbaycan Müdafiə Nazirliyi Cəbrayıl rayonunun işğaldan azad olunmuş Süleymanlı kəndinin videogörüntüsünü yayımlamışdır. Azərbaycanın ikinci ən böyük şəhəri Gəncədə yaşayış binasına Ermənistan silahlı qüvvələri tərəfindən törədilən raket hücumu "Elbrus" ballistik raketi (SCUD) ilə həyata

keçirilmişdir. Raketin üzərində onun növünü müəyyənləşdirməyə imkan verən "8K14" yazısı aşkarlanmışdır.

## 13 oktyabr

Saat 8 radələrində Ermənistan silahlı qüvvələri Tərtər rayonunun ərazisini atəşə tutmuşdur. Həmçinin, humanitar atəşkəs rejimini kobudcasına pozan Ermənistan silahlı qüvvələri Goranboy, Tərtər və Ağdam rayonlarının ərazilərini atəşə məruz qoymuşdur. Saat 09:30 radələrində Ermənistan silahlı qüvvələri Ağcabədi rayonunun ərazisini atəşə tutmuşdur. Azərbaycan Ordusu tərəfindən həyata keçirilən əməliyyatlar nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 3 ədəd BM-21 "Qrad" YARS, 1 ədəd "Tor-M2KM" ZRK, 1 ədəd ZSU-23-4 "Şilka" özüyeriyən zenit qurğusu, 2 ədəd PDM-2, 3 ədəd 2A36 "Qiasint-B" topu, 1 ədəd KS-19 zenit topu, 1 ədəd D-20 haubitsa topu, 3 ədəd PUA, bir neçə avtomobil texnikası məhv edilmiş və sıradan çıxarılmışdır.

Döyüş əməliyyatları zamanı Ermənistan Silahlı Qüvvələrinin 5-ci dağatıcı alayının müdafiə sahəsində mövqe tutan şəxsi heyəti məhv edilmiş, 1-ci motoatıcı alayın bir bölüyə qədər canlı qüvvəsi pusquya salınmış, hərəkətdə olan avtomobil texnikası sıradan çıxarılmışdır. Əsgəran istiqamətində hərəkət edən 4-cü motoatıcı alayın avtomobil texnikası kolonu və Ermənistanın Sisyan yaşayış məntəqəsi istiqamətindən işğal olunmuş ərazilərə doğru hərəkət edən könüllülərdən ibarət bir qrup atəş zərbəsi ilə məhv edilmişdir. Döyüş əməliyyatları zamanı tanınmış erməni terrorçu, "Körpə" ləqəbli Mqer Arutyunyan da zərərsizləşdirilmişdir. Azərbaycan Müdafiə Nazirliyi işğaldan azad olunan Hadrut qəsəbəsinin görüntüsü yayımlamışdır.

## 14 oktyabr

Saat 03:23-də Azərbaycan Müdafiə Nazirliyi Azərbaycan Silahlı Qüvvələrinin Kəlbəcər rayonu ilə sərhəd zonasında yerləşdirilmiş

Ermənistanın bir neçə ballistik raket kompleksini məhv etdiyini bildirdi. Müdafiə Nazirliyinin məlumatına görə, raket sistemləri Gəncə, Mingəçevir və Azərbaycanın digər şəhərlərindəki mülki əhaliyə və infrastruktura yönəlmişdi.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Füzuli rayonunun Qaradağlı, Xatınbulaq, Qarakollu və Xocavənd rayonunun Bulutan, Məlikcanlı, Qırmızıqaya, Təkə, Tağaser kəndlərinin Azərbaycan qoşunları tərəfindən azad olunduğunu elan etdi.

## 15 oktyabr

Ermənistan silahlı qüvvələrinin Tərtər şəhər qəbiristanlığa ağır artilleriyadan intensiv atəş açması nəticəsində 4 mülki şəxs həlak olmuş, 4 nəfər ağır yaralanmışdır. Azərbaycan Respublikası Prezidenti İlham Əliyev özünün rəsmi "Twitter" səhifəsində "Rəşadətli Azərbaycan Ordusu tərəfindən Füzuli rayonunun Arış, Cəbrayıl rayonunun Doşulu, Xocavənd rayonunun Edişə, Düdükçü, Edilli, Ciraquz kəndləri işğaldan azad edilib. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!" başlıqlı paylaşım edib.

## 16 oktyabr

Azərbaycan Müdafiə Nazirliyinin verdiyi məlumata görə, səhər saatlarında Ermənistan silahlı qüvvələri Azərbaycanın Goranboy, Tərtər, Ağdam və Ağcabədi rayonlarının ərazilərini intensiv atəşə məruz qoymuşdur. Atəş günortadan sonra davam etmişdir. Müdafiə Nazirliyi həmçinin bir gün əvvəl Ermənistan Respublikası Silahlı Qüvvələri tərəfindən işğal olunan Qubadlı rayonu ərazisindən Naxçıvan Muxtar Respublikasının Ordubad rayonu ərazisinə raket zərbəsi endirildiyini lakin, xoşbəxtlikdən sakinlərə və mülki obyektlərə zərər dəymədiyini bildirir. 16 oktyabr tarixində Azərbaycan Silahlı Qüvvələri Xocavənd rayonunun Ağbulaq, Axullu və Xırmancıq kəndlərini işğaldan azad etmişdir. 27 ildən sonra azad edilmiş Cəbrayıl rayonunun Çaxırlı və Mahmudlu sərhəd zastavalarında Dövlət Sərhəd Xidmətinin Qoşunları tərəfindən xidməti-döyüş fəaliyyətinə başlanılıb. Azərbaycan Ordusu tərəfindən həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 1 ədəd BM-21 Qrad YARS, 5 ədəd D-30 haubitsa topu, 2 ədəd ZSU-23-4 Şilka özüyeriyən zenit qurğusu və döyüş sursatı ilə yüklənmiş 8 ədəd avtomobil texnikası məhv edilib və ya sıradan çıxarılıb. Azərbaycan Müdafiə Nazirliyinin saat 20:03 olan məlumatına görə, Ermənistan silahlı qüvvələri Gəncə şəhərini növbəti dəfə atəşə məruz qoyub.

## 17 oktyabr

Oktyabrın 16-dan 17-nə keçən gecə Gəncənin yaşayış sahələri yenidən iki raket hücumuna məruz qalır. Jurnalistlərin verdiyi məlumata görə, şəhərdə üç güclü partlayışın eşidildiyini bildirirlər. Azərbaycan Respublikası Baş Prokurorluğunun verdiyi məlumata görə, Ermənistan ordusu saat 01 radələrində növbəti dəfə Cənubi Qafqazın ən böyük istilik elektrik stansiyası olan Mingəçevir Su Elektrik Stansiyasını hədəfə almaqla, cəbhə zonasından 100 km-dən artıq uzaqlıqda yerləşən, iri sənaye şəhəri Mingəçevirə raketlər atmışdır. Lakin raketlər Azərbaycan Hava Hücumundan Müdafiə Qoşunları tərəfindən havadaca zərərsizləşdirilmişdir. Azərbaycan tərəfi atəşin Ermənistan ərazisindən həyata keçirildiyini bildirir. Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyevin sözlərinə görə, Gəncə şəhərinin atəşə tutulması zamanı 20 ev dağıdılmış, 12 nəfər (o cümlədən 2 uşaq) ölmüş və 40-dan çox dinc sakin yaralanmışdır. Azərbaycan Ərazilərinin Minalardan Təmizlənməsi Agentliyinin (ANAMA) verdiyi məlumata görə, raketin düşdüyü yerdən tapılan parçalar onun Elbrus əməliyyat-taktiki raket sisteminin ballistik raketlərinin olduğunu göstərir. Fövqəladə Hallar Nazirliyinin yaydığı məlumata görə, bu vaxta qədər dağıntılar altından xəsarət almış 52 nəfər və 13 nəfərin cəsədi çıxarılmışdır. Humanitar atəşkəs rejimini kobudcasına pozan Ermənistan silahlı qüvvələri səhər saatlarından başlayaraq, Tərtər, Ağdam, Bərdə və Ağcabədi rayonlarının ərazilərini atəşə tutmuşdur.

Prezident İlham Əliyev xalqa müraciətində Füzuli rayonunun Qoçəhmədli, Çimən, Musabəyli, Pirəhmədli, Dədəli, İşıqlı, Cuvarlı kəndləri və Füzuli şəhərinin işğaldan tam azad edildiyini açıqlamışdır. Əməliyyatlar nəticəsində Ermənistan ordusunun mühəndis-istehkam rəisi, polkovnik Aşot Qazaryan məhv edilmişdir. 16 oktyabr tarixində gün ərzində və 17 oktyabr tarixinə keçən gecə Ermənistan silahlı qüvvələrinin 1-ci motoatıcı alayının müdafiə

zolağında ehtiyatdan çağırılmış 300 nəfərədək hərbi vəzifəli döyüş mövqelərini özbaşına tərk edərək geri çəkilmişdir.

Azərbaycan Ordusu tərəfindən sutka ərzində həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 7 ədəd T-72 tankı, 2 ədəd BM-21 "Qrad" YARS, 8 ədəd D-30 və 1 ədəd D-20 haubitsa topları, döyüş sursatı ilə yüklənmiş 10 ədəd yük maşını və 7 ədəd digər avtomobil texnikası məhv edilmiş və sıradan çıxarılmışdır. 27 sentyabr tarixindən bu günə qədər Ermənistan ordusuna məxsus 234 tank, 49 ədəd piyadanın döyüş maşını, 16 ədəd özüyeriyən artilleriya qurğusu, 190 ədəd müxtəlif çaplı toplar, 2 ədəd "Uraqan" sistemi, 1 ədəd "TOS 1a" odsaçan sursatı, 2 ədəd "Elbrus" əməliyyat-taktiki raket kompleksi, 1 ədəd "Toçka-U", 2 ədəd "S-300" kompleksi, 35 ədəd "Osa" zenit raket kompeksi, 3 ədəd "Tor" zenit-raket kompleksi, 5 ədəd "Kruq" və "Kub" zenit raket kompleksləri, 9 ədəd radioelektron mübarizə sistemləri, 196 ədəd yük avtomobili məhv edilmişdir. 36 tank, 24 ədəd piyada döyüş maşını, 98 ədəd yük avtomobili isə qənimət kimi ələ keçirilmişdir. Saat 12 radələrində Azərbaycan Müdafiə Nazirliyi Ermənistan ordusunun S-300 zenit-raket kompleksinin məhv edildiyini göstərən videogörüntü yayımlamışdır.

Saat 11:11 radələrində Cəbrayıl rayonu istiqamətində Azərbaycan Ordusu mövqelərinə hava zərbələri endirməyə cəhd edən Ermənistana məxsus 1 ədəd Su-25 təyyarəsi Hava Hücumundan Müdafiə bölmələrinin dəqiq atəşi ilə məhv edilmişdir. Ermənistan tərəfi bunu inkar edib. Gündüz saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri taktiki pilotsuz uçuş aparatı (PUA) vasitəsilə Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətindəki Azərbaycan Ordusu mövqeləri üzərində uçuşlar keçirməyə cəhd göstərərkən Hava Hücumundan Müdafiə bölmələri tərəfindən dərhal aşkar olunaraq məhv edilmişdir. Saat 16 radələrində Azərbaycan Müdafiə Nazirliyi Ermənistan ordusunun yanacaq-sürtkü materialları və döyüş sursatı anbarlarını aviasiya zərbələri ilə darmadağın edildiyini göstərən videogörüntü yayımlamışdır. Həmin radələrdə Ermənistan silahlı birləşmələri tərəfindən Ağcabədi rayonunun müxtəlif

istiqamətlərdən intensiv raket və ağır artilleriyadan atəşə tutulması nəticəsində Arazbar kəndinin 1 sakini yaralanmışdır.

Füzuli-Cəbrayıl istiqamətində gedən döyüşlər zamanı son iki gündə dəqiq zorba ilə Ermənistan silahlı qüvvələrinə məxsus 3 ədəd "Tor-M2KM" zenit-raket kompleksi məhv edilmişdir. Cəbhənin Ağdərə-Ağdam istiqamətində gedən döyüşlər zamanı Azərbaycan Ordusunun mövqelərini atəşə tutan Ermənistan silahlı qüvvələrinə məxsus 1 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi məhv edilmişdir. Saat 19:40 radələrində Azərbaycan Müdafiə Nazirliyi Ermənistan silahlı qüvvələrinin "S-125" zenit-raket kompleksi sıradan çıxarıldığı açıqlamışdır. Ermənistan ordusunun "Qara Qaplan" könüllü dəstəsinin komandiri Rüstəm Qasparyan ağır qəlpə yarası aldıqdan sonra Xankəndi şəhərindən İrəvana aparılsa da, bu gün müalicə aldığı xəstəxanada ölmüşdür. Saat 21 radalarində Ermənistan silahlı birləşmələri tərəfindən Ağdam rayonunun müxtəlif istiqamətlərdən intensiv raket və ağır artilleriyadan atəşə tutulması səbəbindən Mahrızlı kənd sakini 1981-ci il təvəllüdlü Həsənov Ramil Kamal oğlu yaşadığı evin həyətinə top mərmisinin düşməsi nəticəsində müxtəlif dərəcəli bədən xəsarətləri almış, yaşayış evinə isə külli miqdarda ziyan dəymişdir. Azərbaycan Respublikası və Ermənistan Respublikası 18 oktyabr, yerli vaxtla saat 00.00 dan etibarən müvəqqəti humanitar atəşkəsə razılıq veriblər.

## 18 oktyabr

Saat 7 radələrində Ermənistan silahlı qüvvələri növbəti dəfə humanitar atəşkəs rejimini kobud şəkildə pozaraq Cəbrayıl şəhərinin ətraf ərazilərini, eləcə də bu rayonun Araz çayı boyu yerləşən və işğaldan azad olunmuş kəndlərini gecə ərzində minaatan və artilleriya qurğularından atəşə tutmuşdur. Azərbaycan Ordusu tərəfindən dünən gün ərzində həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin canlı qüvvəsi, 2 ədəd S.300 zenit-raket kompleksinin raket tuşlama stansiyası, 5 ədəd T-72 tankı, 3 ədəd BM-21 "Qrad" YARS, 2 ədəd "Smerç", 1 ədəd D-20

haubitsa-topu və 1 ədəd KS-19 zenit topları, 6 ədəd avtomobil texnikası məhv edilmiş və sıradan çıxarılmışdır. Ermənistan silahlı qüvvələri saat 07:00-dan başlayaraq cəbhənin Ağdərə, Füzuli, Hadrut və Cəbrayıl istiqamətlərində düşmən hücuma keçməyə cəhd göstərmişdir. Azərbaycan Müdafiə Nazirliyinin verdiyi məlumata əsasən, saat 00:05-dan 04:00-dak Ermənistan silahlı qüvvələrinin bölmələri Çəmbərək rayonu istiqamətindən Gədəbəy rayonu, Berd rayonu istiqamətindən isə Tovuz rayonu ərazisindəki Azərbaycan Ordusunun döyüş mövqelərini iriçaplı silahlardan atəşə tutmuşdur.

Saat 12 radələrində Azərbaycan Ordusunun Füzuli istiqamətində uğurlu döyüş əməliyyatları zamanı Ermənistan silahlı qüvvələrinin hərbi hissəsi bölmələrimiz tərəfindən ala keçirilmişdir. Saat 12:30 radələrində cəbhənin Cəbrayıl istiqamətində Azərbaycan Ordusunun mövqelərinə aviazərbələr endirməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinin növbəti Su-25 hücum təyyarəsi Azərbaycan Hava Hücumundan Müdafiə bölmələri tərəfindən məhv edilmişdir. Saat 14 radələrində Ağdam rayonu ərazisi Ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutulmuşdur. Saat 13:00 radələrində Horadiz istiqamətində uçuşlar keçirməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinə məxsus taktiki pilotsuz uçuş aparatı (PUA) Azərbaycan Hava Hücumundan Müdafiə bölmələri tərəfindən aşkar olunaraq məhv edilmişdir.

Ermənistan silahlı qüvvələri tərəfindən Xızı rayonuna raket atılsa da, raket Azərbaycan Hava Hücumundan Müdafiə Qoşunları tərəfindən zərərsizləşdirilmişdir. Azərbaycan Ordusu işğaldan azad edilmiş Cəbrayıl rayonunda yerləşən Xudafərin körpülərinə Azərbaycan bayrağı sancmışdır. Azərbaycan Müdafiə Nazirliyinin verdiyi məlumata əsasən, ağır döyüşlərdə xeyli canlı qüvvə və döyüş texnikası itirən Ermənistan Silahlı Qüvvələrinin 527-ci motoatıcı alayının atıcı taboru praktiki olaraq iflic vəziyyətinə düşmüşdür.

## 19 oktyabr

Prezident İlham Əliyev özünün "Twitter" səhifəsində Cəbrayıl rayonunun Soltanlı, Əmirvarlı, Maşanlı, Hasanlı, Alıkeyxalı, Qum-

laq, Hacılı, Göyərçin Veysəlli, Niyazqulular, Keçəl Məmmədli, Şahvəlli, Hacı İsmayıllı, İsaqlı kəndlərinin işğaldan tam azad edildiyini açıqlamışdır. Azərbaycan Ordusu tərəfindən həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin canlı qüvvəsi, 2 ədəd T-72 tank 2 ədəd BM-21 "Qrad" YARS, 1 ədəd D-30 və 1 ədəd D-20 haubitsa topları və 11 ədəd avtomobil texnikası məhv edilmiş və sıradan çıxarılmışdır. Ermənistan Silahlı Qüvvələrinin 1-ci motoatıcı alayının müdafiə zolağında döyüş tapşırığı icra edən taborun komandiri şəxsi heyətlə birlikdə döyüş mövqelərini ataraq geri çəkilmişdir. Alayın müdafiə sahəsində yerləşən 63-cü tank taborunun qərargah rəisi məhv edilmiş, 1-ci taborun komandiri və onun müavini Gevorq Makaryan isə yaralanmışdır. Həmçinin 5-ci dağatıcı alayın müdafiə sahəsindəki taborun şəxsi heyətinin bir qismi məhv edilmiş, digərləri isə döyüş mövqelərini özbaşına tərk edərək qaçmışdır. Ölənlər arasında tabor komandirinin müavini mayor Hayk Stepanyan da var. Ermənistan silahlı qüvvələri gecə ərzində Goranboy, Tərtər və Ağdam rayonlarının ərazisini minaatanlar və toplardan atəşə tutmuşdur.

Hikmət Hacıyev özünün "Twitter" səhifəsində Ermənistan ordusunun humanitar atəşkəsin birinci günü saat 12-den etibarən 5 rayona toplamda 229 mərmi atdığını açıqlamışdır. Bunlardan 160-1 Tərtər, 63-ü Ağdam, 6-s1 Goranboy ərazisinə düşmüşdür. Həmçinin düşmən tərəf 1-i Xızı rayonu, 2-si Ağcabədi rayonunun Poladlı kəndinə olmaqla, 3 raket hücumu həyata keçirmişdir. Ermənistan silahlı qüvvələrinin humanitar atəşkəs rejimini kobud şəkildə pozaraq Tərtəri atəşə tutmağa davam etməsi nəticəsində 1962-ci il təvəllüdlü Səlimov Niyaz Hüseynağa oğlu müxtəlif dərəcəli bədən xəsarətləri almış, yaşayış evinə isə külli miqdarda ziyan dəymişdir. İşğalçı Ermənistanın Könüllülər Birliyinin Sədri, parlamentin "Manim Addımım" fraksiyasının deputatı Sasun Mikaelyan Qarabağda davam edən döyüşlər zamani belindən və ayağından qəlpə yaraları almışdır. Saat 11:10-dan başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri Berd rayonu istiqamətindən Tovuz rayonu, Vardenis rayonu istiqamətindən isə Daşkəsən rayonu ərazisindəki Azərbaycan Ordusunun döyüş mövqelərini iriçaplı silahlardan atəşə

tutmuşdur. Ermənistan silahlı qüvvələrinin bölmələri saat 12:00-dan başlayaraq işğal olunmuş Kəlbəcər rayonu istiqamətindən Göygöl rayonu ərazisindəki Azərbaycan Ordusunun döyüş mövqelərini 82 və 120 millimetrlik minaatan və iriçaplı atıcı silahlardan atəşə məruz qoymuşdur.

Ermənistan silahlı qüvvələri hərbi əməliyyatlar aparılan ərazidən təxminən 300 kilometrdən artıq məsafədə yerləşən Xızı rayonu istiqamətində raket zərbələri endirməyə cəhd göstərərkən, Azərbaycan Ordusunun hərbi hava hücumundan müdafiə qüvvələri tərəfindən havada zərərsizləşdirilməsi nəticəsində raketin içərisində olan partlayıcı hissəciklərin bir hissəsi Azərbaycan-Rusiya iqtisadi əməkdaşlığında strateji əhəmiyyətli Bakı-Novorossiysk neft kəmərinin Xızı rayonunun Sitalçay kəndindən keçən hissəsindən 250 metr məsafəyə səpələnmişdir. Ermənistan tərəfi bu məlumatı təkzib etmişdir. Saat 15 radələrində düşmən tərəfin silahlı birləşmələrinin Ağdam rayonunu müxtəlif istiqamətlərdən intensiv raket və ağır artilleriyadan atəşə tutması nəticəsində rayonun Bənövşələr qəsəbəsinə top mərmisi düşməsi nəticəsində 1955-ci il təvəllüdlü Şamama İsa qızı Quliyeva və 1976-cı il təvəllüdlü Maya Məmməd qızı Quliyeva müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdirilmişdir. Həmçinin, həmin vaxt Bənövşələr qəsəbəsində olan "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin (AzTv) cəbhə boyu zonaya ezam olunmuş əməkdaşı 1982-ci il təvəllüdlü Həsənov Anar Bəybala oğlu Ermənistanın mülki əhaliyə qarşı törətdiyi təxribatları dünya ictimaiyyətinə çatdırarkən müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdirilmişdir. Bundan başqa, rayonun Paşabəyli kəndi ərazisinə top mərmisi düşməsi nəticəsində kənd sakini Çiçək İlyas qızı Məhiyəddinli müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdirilmişdir. Saat 17 radələrində Ermənistan silahlı qüvvələri Tərtər və Ağdam rayonlarının yaşayış məntəqələrini artilleriya atəşinə tutmuşdur.

**20 oktyabr**

Azərbaycan Müdafiə Nazirliyinin verdiyi məlumata görə, Ağdərə-Ağdam, Füzuli – Hadrutn - Cəbrayıl və Qubadlı - Zəngilan istiqamətlərində Ermənistan silahlı birləşmələri Azərbaycan Ordusunun mövqelərini atıcı silahlar, mina atanlar və toplardan atəşə tutmuşdur. Azərbaycan Ordusu tərəfindən həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 4 ədəd BM-21 "Qrad" YARS, 1 ədəd D-30 haubitsa topu və 5 ədəd avtomobil texnikası məhv edilmiş və sıradan çıxarılmışdır. Füzuli rayonu istiqamətində əks-hücuma keçən Ermənistan Ordusunun bölmələrindən birinin 30 nəfər şəxsi heyəti Azərbaycan Ordusunun atəşi nəticəsində məhv edilmişdir. Azərbaycan Ordusunun endirdiyi artilleriya zərbələri nəticəsində Ermənistan Silahlı Qüvvələrinin 1-ci motoatıcı alayının müdafiə sahəsində düşmən bölmələrinin şəxsi heyəti arasında çoxlu sayda ölən və yaralanan olmuşdur. Alay komandirinin müavini Hovik Melkumyan, digər vəzifəli şəxs Qor Mirzoyan, həmçinin, alayın müdafiə zolağında mövqe tutan xüsusi təyinatlı bölmənin komandiri kapitan Vahab Asetryan da zərərsizləşdirilmişdir. 5-ci motoatıcı alayın müdafiə sahəsində düşmən bölmələrinin şəxsi heyəti arasında çoxlu sayda ölən və yaralanan var. Yaralılar arasında bölük komandiri Norik Arakelyanın da olduğu bildirilir. 18-ci motoatıcı diviziyasının müdafiə zolağında yerləşdirilən muzdlulardan ibarət "Legion" dəstəsi və ehtiyatdan çağırılmış hərbi vəzifəlilər döyüşlərdə iştirak etməkdən imtina etmişdir. 246-cı alayın müdafiə sahəsində alay komandiri polkovnik Tatul Qazaryan, alay komandirinin müavini Armen Ohanyan və 3-cü taborun komandiri də xüsusi tədbirlər nəticəsində zərərsizləşdirilmişdir.

Saat 13 radələrində Ermənistan silahlı qüvvələri Tərtər və Ağdam rayonlarının ərazilərini atəşə tutmuşdur. Prezident İlham Əliyev xalqa müraciətində Füzuli rayonunun Dördçinar, Kürdlər, Yuxarı Əbdürrəhmanlı, Qarğabazar, Aşağı Veysəlli, Yuxarı Aybasanlı kəndlərini, Cəbrayıl rayonunun Safarşa, Həsənqaydı, Fuğanlı, İmambağı, Daş Veysəlli, Ağtəpə, Yarəhmədli kəndləri, Xocavənd rayonunun Ağcakənd, Mülküdərə, Daşbaşı, Günəşli, Çinarlı kəndləri, Zəngilan rayonunun Havalı, Zərnalı, Məmmədbəyli, Həkəri,

Şərifan, Birinci Muğanlı və Zəngilan şəhərinin işğaldan tam azad edildiyini açıqlamışdır. 27 sentyabr tarixindən bu günə qədər Ermənistan ordusuna məxsus 241 tank, 50 ədəd piyada döyüş maşını, 17 ədəd özüyeriyən artilleriya qurğusu, 198 ədəd müxtəlif çaplı toplar, 58 minaatan, 2 ədəd "Uraqan" sistemi, 1 ədəd "TOS 1a" odsaçan sursatı, 53 ədəd tank əleyhinə raket sistemləri, 2 ədəd "Elbrus" əməliyyat-taktiki raket kompleksi, 1 ədəd "Tocka-U", 4 ədəd "S-300" kompleksi, 40 ədəd "Osa" zenit raket kompleksi, 3 ədəd "Tor" zenit-raket kompleksi, 5 ədəd "Kruq" və "Kub" zenit raket kompleksləri, 8 ədəd radioelektron mübarizə sistemləri, 198 ədəd yük avtomobili məhv edilmişdir. 39 tank, 24 ədəd piyadanın döyüş maşını, 12 minaatan, 25 qumbaraatan, 102 ədəd yük avtomobili isə qənimət kimi ələ keçirilmişdir.

Saat 15 radələrində Ermənistan silahlı birləşmələrinin Tərtər rayonunu müxtəlif istiqamətlərdən intensiv raket və ağır artilleriyadan atəşə tutması nəticəsində rayonun Cəmilli kəndində fərdi yaşayış evinə top mərmisinin düşməsi nəticəsində kənd sakinləri - 1994-cü il təvəllüdlü İsaqlı Anar Rəsul oğlu və 1984-cü il təvəllüdlü Quliyev Anar Tofiq oğlu həlak olmuş, 1972-ci il təvəllüdlü Şabanov Murov Rəsul oğlu müxtəlif dərəcəli bədən xəsarətləri almış, yaşayış evinə isə külli miqdarda ziyan dəymişdir. Saat 17 radələrində Ermənistan ordusu tərəfindən Goranboy və Tərtər rayonlarının ərazisi raket-artilleriya atəşinə tutulmuşdur. Axşam saatlarında Gəncə istiqamətində Ermənistan Silahlı qüvvələrinə məxsus pilotsuz uçuş aparatı (PUA) Hava Hücumundan Müdafiə bölmələri tərəfindən məhv edilmişdir. Həmçinin saat 19:30 radələrində Goranboy rayonunun Tap Qaraqoyunlu kəndi üzərində Ermənistan silahlı qüvvələrinə məxsus pilotsuz uçuş aparatı (PUA) Hava Hücumundan Müdafiə bölmələri tərəfindən məhv edilmişdir.

Saat 16 radələrində işğaldan azad edilmiş Zəngilan şəhərində Azərbaycan bayrağının dalğalandığını göstərən videogörüntü yayımlanmışdır. Ermənistan tərəfi Azərbaycan Ordusunun Araz çayı boyunca geri çəkildiyini açıqlasa da, Azərbaycan tərəfi bu məlumatın yalan olduğunu bildirmişdir. Azərbaycanın işğal altında olan Dağlıq Qarabağ bölgəsində ordumuzun əks-hücum əməliyyatları nəticəsində

Ermənistan Silahlı Qüvvələrinin daha iki polkovniki - hərbi hissə komandirinin müavini olan Aşot Kazaryan və qərargah rəisinin müavini Geqam Qabrielyan məhv edilmişdir. Saat 20 radələrində Azərbaycan Müdafiə Nazirliyi Qubadlı istiqamətində gedən döyüşlərdə Azərbaycan Ordusunun artilleriya bölmələri tərəfindən Ermənistan silahlı qüvvələrinin bölmələrinin məhv edildiyini göstərən videogörüntü yayımlamışdır.

## 21 oktyabr

Gecə ərzində cəbhənin Ağdərə, Füzuli-Cəbrayıl və Qubadlı istiqamətlərində döyüş əməliyyatları müxtəlif intensivliklə davam etmişdir. Cəbrayıl və Qubadlı istiqamətlərində Ermənistan silahlı qüvvələrinin 18-ci motoatıcı diviziyasının müdafiə olunan bölmələri şəxsi heyət və hərbi texnikada itki verərək geri çəkilməyə məcbur edilmişdir. 5-ci dağatıcı alayın müdafiə sahəsində düşmənin mövqeləri ələ keçirilmiş, çoxlu sayda silah və sursat qənimət götürülmüşdür. Alayın artilleriya rəisi, artilleriya divizion komandiri və 4-cü taborunun komandiri taborunun şəxsi heyəti ilə birlikdə məhv edilmişdir. 6-cı və 7-ci dağatıcı alayların müdafiə sahələrində düşmən bölmələrinin şəxsi heyəti arasında ölən və yaralananlar var. Məhv edilənlər arasında alay komandirinin müavini Vahan Sarkisyan da var. Səhər saatlarından başlayaraq Ermənistan silahlı qüvvələri Tərtər şəhəri və rayonun ərazisini artilleriya qurğularından atəşə tutmuşdur. Cəbrayıl istiqamətində gedən döyüş zamanı Azərbaycan Ordusu tərəfindən görülən tədbirlər nəticəsində Ermənistan silahlı qüvvələrinin 556-cı alayının taboru məhv edilmişdir.

Azərbaycan Müdafiə Nazirliyi Cəbrayıl rayonunun işğaldan azad olunan Çərəkən kəndinin yeni görüntülərini yayımlamışdır. Gün ərzində Ermənistan silahlı qüvvələrinə məxsus 6 taktiki pilotsuz uçuş aparatı (PUA) Azərbaycan Hava Hücumundan Müdafiə bölmələri tərəfindən aşkar olunaraq məhv edilmişdir. Onlardan 2-si cəbhənin Füzuli istiqamətində, 1-i isə Tərtər istiqamətində vurulmuşdur. Er-

mənistan tərəfi Azərbaycan Ordusunun Ağdərə şəhərini bombardman etdiyini açıqlamışdır.

Prezident İlham Əliyev özünün "Twitter" səhifəsində Füzuli rayonunun Gecəgözlü, Aşağı Seyidəhmədli, Zərgər kəndləri, Cəbrayıl rayonunun Balyand, Papı, Tulus, Hacılı, Tinli kəndləri, Zəngilan rayonunun Mincivan qəsəbəsi, Xurama, Xumarlı, Sarıl, Babaylı, Üçüncü Ağalı, Hacallı, Qıraq Müşlan, Üdgün, İçəri Müşlan, Məlikli, Cahangirbəyli, Turabad, Baharlı kəndlərinin işğaldan tam azad edildiyini açıqlamışdır.

## 22 oktyabr

Gecə ərzində cəbhənin Ağdərə-Ağdam, Füzuli-Cəbrayıl və Zəngilan-Qubadlı istiqamətlərində döyüş əməliyyatları müxtəlif intensivliklə davam etmişdir. Ermənistan Silahlı Qüvvələrinin cəbhənin Xocavənd istiqamətində mövqe tutan 155-ci artilleriya alayının D-20 batareyasının şəxsi heyəti arasında çoxlu sayda yaralanan var. Ağdərə istiqamətində yerləşən 5-ci dağatıcı alayın müdafiə sahəsinə endirilən artilleriya zərbələri nəticəsində düşmən ölən və yaralanan olmaqla çoxlu sayda itki vermişdir. Alayın 3-cü taborunun komandiri Robert Hambartsumyan itkin düşmüş, taborun qərargah rəisi isə məhv edilmişdir. 543-cü alayın müdafiə sahəsinə vurulan atəş zərəri nəticəsində şəxsi heyət arasında xeyli itki var. Alay komandiri yaralanmış, onun müavini, tabor komandiri Araik Hovakimyan, onun müavinləri, minaatan batareyası və bölüyünün komandirləri məhv edilmişdir. Saat 09:15-dən başlayaraq Ermənistan silahlı qüvvələri işğal olunmuş ərazilərdən Füzuli rayonu ərazisindəki mövqeləri reaktiv artilleriya sistemlərindən atəşə tutmuşdur.

Səhər saatlarından başlayaraq Ermənistan ərazisindən Azərbaycan ərazisi əməliyyat-taktiki raket kompleksindən ballistik raketlərlə atəşə tutulmuşdur. Saat 07:00 radələrində Siyəzən rayonu istiqamətində 3 raket, saat 09:00 radələrində isə Qəbələ rayonu istiqamətində 2 raket və Kürdəmir rayonu istiqamətində 1 raket

buraxılmışdır. Raket zərbələri nəticəsində Qəbələ rayon sakini 2003-cü il təvəllüdlü Əmirbəyov Murad Ceyhun oğlu müxtəlif dərəcəli bədən xəsarətləri almış, kənd ərazisində yerləşən 5 yaşayış evinə ciddi ziyan dəymişdir. Həmçinin, Ermənistan silahlı qüvvələri Abşeron yarımadasını içməli su ilə təchiz edən və ölkə üçün xüsusi strateji əhəmiyyətə malik Oğuz-Qəbələ-Bakı su kəmərini hədəfə alaraq raket atmış, lakin Azərbaycan Ordusunun hava hücumundan müdafiə qüvvələrinin zərərsizləşdirilməsi nəticəsində raketin hissələri su kəmərinin yaxınlığına düşmüşdür. Prezident İlham Əliyev özünün "Twitter" səhifəsində Zəngilan rayonunun Ağbənd qəsəbəsi, Kolluqışlaq, Malatkeşin, Kənd Zəngilan, Genlik, Vəliqulubəyli, Qaradərə, Çöpədərə, Tatar, Tiri, Əmirxanlı, Qarqulu, Bartaz, Dəlləkli kəndlərinin işğaldan tam azad edildiyini açıqlamışdır.

## 23 oktyabr

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin verdiyi məlumata görə oktyabrın 23-nə keçən gecə cəbhənin Ağdərə, Füzuli-Hadrut-Cəbrayıl və Qubadlı istiqamətlərində döyüş əməliyyatları müxtəlif intensivliklə davam etmişdir. Prizident İlham Əliyev özünün "Twitter" səhifəsində Xocavənd rayonunun Dolanlar, Bünyadlı, Cəbrayıl rayonunun Dağ Tumas, Nüsüs, Xələfli, Minbaşılı, Veysəlli, Zəngilan rayonunun Vənədli və Mirzəhəsənli və Qubadlı rayonunun Zilanlı, Kürd Mahrızlı, Muğanlı, Alaqurşaq kəndlərini işğaldan tam azad edildiyini açıqlamışdır.

## 24 oktyabr

Azərbaycan Silahlı Qüvvələrinin məlumatına görə Ermənistanın Sünik mərzinin Gorus və Qafan çəhərlərinin inzibati ərazisindən, dövlət sərhədinə yaxın yerdə döyüş mövqeyi tutan düşmənin raket və artilleriya qurğuları ilə Laçın və Qubadlı rayonları ərazilərini güclü atəşə tutur. Üstəlik günorta saatlarında Ermənistan silahlı

qüvvələrinin bölmələri Sünik-Zəngilan yolu istiqamətindən azərbaycan Ordusuna hücum etməyə cəhd edib. Müdafiə Nazirliyinin digər məlumatında isə cəbhənin Qubadlı istiqamətində Ermənistan Hərbi Hava Qüvvələrinə məxsus döyüş təyyarəsi Azərbaycan Hava Hücumundan Müdafiə bölmələri tərəfindən məhv edildiyi qeyd edilir. Azərbaycan Müdafiə Nazirliyi cəbhənin Ağdərə və Ağdam bölgələrində Ermənistan Silahlı Qüvvələrinin hərbi infrastrukturuna Hava Qüvvələrindən istifadə etməklə hava zərbələri endirdiyini bildirir.

## 25 oktyabr

Azərbaycan Müdafiə Nazirliyinin məlumatına görə cəbhənin Ağdərə, Xocavənd, Füzuli, Hadrut, Qubadlı və Laçın istiqamətlərində döyüş əməliyyatları müxtəlif intensivliklə davam edib. Qubadlı rayonu istiqamətinə gətirilən Ermənistan Silahlı Qüvvələri 543-cü alayının 1-ci taborunun bölmələri canlı qüvvə və hərbi texnikada itkilər verərək geri çəkilib. Azərbaycan Ordusunun keçirdiyi fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, eləcə də 2 tank, 2 PDM, 4 D-30 haubitsa topu, 1 2A36 “Qiasint-B” topu, 7 ədəd avtomobil texnikası məhv edilib və ya sıradan çıxarılıb. Prezident İlham Əliyev özünün "Twitter" səhifəsində Zəngilan, Cəbrayıl və Qubadlı rayonlarının bəzi kəndlərinin, həmçinin Qubadlı şəhərinin işğaldan tam azad edildiyini açıqlamışdır.

## 26 oktyabr

ABŞ Dövlət Departamenti məlumat yayaraq Dağlıq Qarabağda humanitar atəşkəs elan olunduğunu bəyan edir. Humanitar atəşkəs Bakı vaxtı ilə saat 08:00-da başlayır. Azərbaycan Müdafiə Nazirliyinin məlumatına görə Ermənistan Silahlı Qüvvələri bu elan edilmiş atəşkəs rejimini kobudcasına pozaraq Laçın rayonunun

Səfiyan kəndində yerləşən Azərbaycan Ordusunun mövqelərini artileriya atəşinə tutur. Üstəlik Tərtər şəhəri və onun kəndləri artileriya atəşinə tutulmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciətində Azərbaycan Ordusu tərəfindən dünən Zəngilan rayonunun Birinci Alıbəyli, İkinci Alıbəyli, Rəbənd, Yenikənd; Cəbrayıl rayonunun Qovşudlu, Sofulu, Dağ Maşanlı, Kürdlər, Hovuslu, Çələbilər; Qubadlı rayonunun Padar, Əfəndilər, Yusifbəyli, Çaytumas, Xanlıq, Sarıyataq, Mollabürhan və Qubadlı şəhərinin azad olunduğunu bəyan etmişdir.

**27 oktyabr**

Yeni humanitar atəşkəs rejiminə riayət etməyən Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin yerləşdiyi mövqeləri və cəbhəboyu zonaya yaxın yaşayış məntəqələrimizi müxtəlif silahlardan atəşə tutub. Döyüş əməliyyatları əsasən cəbhənin Xocavənd, Füzuli və Qubadlı istiqamətlərində davam edib. Hücum etmək cəhdlərinin qarşısı alınan düşmən itki verərək geri oturdulub. Azərbaycan Ordusunun keçirdiyi fəaliyyətlər nəticəsində Ermənistan silahlı qüvvələrinin 18-ci motoatıcı diviziyasının ön idarəetmə məntəqəsi məhv edilmişdir. Ölənlər arasında diviziyanın qərargah rəisi polkovnik Sergey Şakaryan da var. Cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, eləcə də 1 ədəd T-72 tankı, 4 ədəd D-30 və 3 ədəd D-20 topu, 1 ədəd “Osa-AKM” ZRK, 1 ədəd BM-21 “Qrad” yaylım atəşli reaktiv sistemi, 1 ədəd radiolokasiya stansiyası və 6 ədəd avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

Azərbaycan Müdafiə Nazirliyinin ölkənin xüsusi xidmət orqanları ilə birlikdə həyata keçirdiyi parlaq əməliyyat nəticəsində Qarabağdakı qondarma rejimin "müdafiə ordusunun komandanı”, general Cəlal Arutyunyan məhv edilib. Belə ki, C.Arutyunyanın getdiyi UAZ avtomobili raket zərbəsindən sonra tamamilə yanaraq hərbi cani ilə birlikdə məhv olub. Zərbə nəticəsində daha iki erməni zabiti də məhv edilmişdir.

Günorta saatlarından başlayaraq düşmənin silahlı birləşmələri tərəfindən Goranboy və Bərdə rayonları müxtəlif istiqamətlərdən intensiv raket və ağır artilleriyadan atəşə tutulub. Erməni silahlı qüvvələri tərəfindən saat 16:00 radələrində Bərdə rayonunun Qarayusifli kəndinin müxtəlif istiqamətlərdən "Smerç" raketindən atəşə tutulması nəticəsində dinc sakinlər Cəfərova Ofeliya Məcid qızı, Əhmədova Aybəniz Əşrəf qızı, İsmayılov Ehtiram Xəlil oğlu və 2013-cü il təvəllüdlü İsgəndərova Aysu Rövşən qızı həlak olub, 14 nəfər isə xəsarət alıb.

## 28 oktyabr

Azərbaycan Müdafiə Nazirliyinin verdiyi məlumata görə döyüşlər cəbhənin Ağdərə, Xocavənd, Füzuli, Zəngilan və Qubadlı rayonları istiqamətlərində davam etmişdir. Düşmənin hücum cəhdlərinin qarşısı alınıb. Düşmən itki verərək geri çəkilib. Gün ərzində və gecə saatlarında cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, eləcə də 1 ədəd “Osa” ZRK, 3 ədəd BM-21 “Qrad” yaylım atəşli reaktiv sistemi, 6 ədəd D-30, 5 ədəd D-20 və 1 ədəd D-44 topu, 2 ədəd 2A36 “Qiasint-B” topu, 1 ədəd 120-mm minaatan, 1 ədəd “Konkurs” tank əleyhinə raket kompleksi və 6 ədəd avtomobil texnikası məhv edilmiş və sıradan çıxarılmışdır. Saat 07:30 radələrində Ermənistan silahlı qüvvələri Tərtər rayonunun ərazisini artilleriya atəşinə tutmuşdur. Saat 07:35-dən 09:00-dək Ağcabədi rayonu ərazisi düşmən tərəfindən atəşə məruz qalmışdır.

Saat 10 radələrində Ermənistanın Berd, Çəmbərək, Vardenis və Gorus rayonları ərazisindən Azərbaycanın Tovuz, Gədəbəy, Daşkəsən və Qubadlı rayonlarının əraziləri Ermənistan ordusu tərəfindən atəşə tutulmuşdur. Saat 10:15-də Ermənistan ordusu “Smerç” yaylım atəşli reaktiv sistemindən Tərtər şəhərini və rayonunun ərazisini atəşə tutmuşdur. Günorta saatlarında Ermənistan tərəfi Azərbaycan Ordusunun Şuşa şəhərini bombardman etdiyini və Çanaqçı kəndi ətrafında döyüşlərin getdiyini açıqlamışdır. Azərbaycan Müdafiə Nazirliyi Ermənistan tərəfinin Şuşa və Xankəndi

şəhərlərinin Azərbaycan Ordusu tərəfindən raket atəşinə tutulması barədə yaydıqları məlumatın yalan olduğunu açıqlamışdır.

Saat 13 radələrində Ermənistan silahlı qüvvələri tərəfindən Bərdə şəhərinə qarşı yenidən “Smerç” raketlərindən istifadə edilərək zərbələr endirilmişdir. Azərbaycan Respublikası Baş Prokurorluğunun yaydığı məlumata görə, hadisə nəticəsində 21 nəfər həlak olmuş, 70-dən artıq şəxs isə yaralanmış, şəhərdə yerləşən mülki infrastruktur obyektlərinə və nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəymişdir. Mülki əhali arasında xidmət aparan Fövqəladə Hallar Nazirliyinin bir əməkdaşı raket atəşi nəticəsində həlak olmuş, bir əməkdaşı isə ağır yaralanmışdır. Humanitar atəşkəs rejimini kobud şəkildə pozan Ermənistan silahlı qüvvələri saat 14:40-dan etibarən Goranboy və Tərtər rayonlarının ərazisi atəşə tutmuşdur. Azərbaycan Müdafiə Nazirliyi Ermənistan mətbuatının Azərbaycan Ordusu tərəfindən Xankəndidə yerləşən doğum evinin atəşə tutulması barədə yayılan xəbərin məqsədyönlü dezinformasiya olduğunu açıqlamışdır. Saat 15:30 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri yenidən Tərtər rayonunun ərazisini atəşə tutmuşdur.

Saat 16 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Tərtər rayonunun ərazisini BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemlərdən və toplardan atəşə tutmuşdur. Prezident İlham Əliyev özünün "Twitter" səhifəsində Zəngilan rayonunun Birinci Ağalı, İkinci Ağalı, Üçüncü Ağalı, Zərnəli kəndləri, Füzuli rayonunun Mandılı kəndi, Cəbrayıl rayonunun Qazanzəmi, Xanağabulaq, Çüllü, Quşçular, Qaraağac kəndləri, Qubadlı rayonunun Qiyaslı, Əbilcə, Qilican kəndlərinin işğaldan tam azad edildiyini açıqlamışdır.

## 29 oktyabr

Gecə ərzində döyüş əməliyyatları əsasən cəbhənin Xocavənd, Füzuli və Qubadlı istiqamətlərində davam etmişdir. Dünən gün ərzində və gecə saatlarında cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 2 ədəd BM-21 “Qrad” yaylım atəşli reaktiv sistemi, 14 ədəd müxtəlif tipli topu,

bir neçə dayaq məntəqəsi və 6 ədəd avtomobil texnikası məhv edilmiş və sıradan çıxarılmışdır. Həmçinin görülən cavab tədbirləri nəticəsində düşmənin 1-ci ümumqoşun ordusu komandanın müavini polkovnik Artur Sarqisyan və 18-ci motoatıcı diviziyanın rabitə rəisi mayor Aram Qazaryan məhv edilmişdir. Bundan əlavə 1-ci ümumqoşun ordunun artilleriya idarəsinin zabiti polkovnik-leytenant B. Aseryan, 2-ci motoatıcı alayın komandiri Hunan Hayrumyan yaralanmış və 5-ci dağatıcı alayın 3-cü taborunun komandir müavini Roman Tunyan isə itkin düşmüşdür.

Ermənistan silahlı qüvvələri saat 09:25 radələrində Goranboy və Tərtər rayonlarının ərazisini artilleriya atəşinə tutmuşdur. Azərbaycan Müdafiə Nazirliyi Qubadlı rayonunun işğaldan azad olunan Qiyaslı və Sarıyataq kəndlərinin videogörüntüsünü yayımlamışdır. Saat 12:30 radələrində Bərdə və Goranboy rayonlarının ərazisi Ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutulmuşdur. Günorta saatlarında Azərbaycan tərəfi Qazax-Tovuz istiqamətində humanitar koridorun açaraq 30-a yaxın hərbçinin meyitini və iki mülki şəxsi Ermənistana təhvil vermişdir. Həmçinin Ermənistan tərəfi Şuşa şəhərindən bir neçə kilometr cənubda yerləşən Çanaqçı kəndi ətrafında gərgin hərbi döyüşlərin getdiyini açıqlamışdır.

Saat 13:18 və 13:20 radələrində cəbhənin Qubadlı istiqamətində Azərbaycan Ordusunun mövqelərinə aviazərbələr endirməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinin iki “Su-25” hücum təyyarəsi Azərbaycan Hava Hücumundan Müdafiə bölmələri tərəfindən məhv edilmişdir. Saat 15 radələrində Göygöl rayonunun ərazisi Ermənistan silahlı qüvvələrinin ağır artilleriya qurğularından atəşlərə məruz qalmışdır. Azərbaycan Müdafiə Nazirliyi Ermənistan mətbuatının Azərbaycan Ordusunun Ermənistan ərazisində İranla həmsərhəd bölgələrdə yerləşən Rusiya sərhəd zastavasını minaatanlardan atəşə tutması ilə bağlı yaydığı məlumatın tamamilə dezinformasiya olduğunu və təxribat xarakteri daşıdığını açıqlamışdır. Saat 17 radələrində Ermənistan silahlı qüvvələrinin Goranboy rayonunu müxtəlif istiqamətlərdən intensiv raket və ağır artilleriyadan atəşə tutması nəticəsində rayonun Tap Qaraqoyunlu

kəndində fərdi yaşayış evinə mərmi düşməsi nəticəsində 1967-ci il təvəllüdlü Ziyadova Flora Qaraş qızı həlak olmuş, yaşayış evinə isə ciddi ziyan dəymişdir.

Saat 18 radələrində humanitar atəşkəs rejimini kobudcasına pozmağa davam edən Ermənistan silahlı qüvvələri Goranboy, Tərtər və Bərdə rayonlarının ərazisini artilleriya atəşinə tutmuşdur. 29 oktyabrda Azərbaycan Prezidenti "işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" fərman verir. Fərmana əsasən bu ərazilərdə yerləşən hər bir bölgə üçün müvəqqəti komendant təyin edilir.

## 30 oktyabr

Gecə ərzində döyüş əməliyyatları əsasən cəbhənin Ağdərə, Xocavənd və Qubadlı istiqamətlərində davam etmişdir. Dünən gün ərzində və gecə saatlarında cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 2 ədəd Su-25 təyyarəsi, 3 ədəd T-72 tankı, 1 ədəd PDM, 2 ədəd "Smerç" və 1 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemləri, 10 ədəd müxtəlif tipli topu, 2 ədəd "Qvozdika" özüyeriyən haubitsası, 1 ədəd "Osa" ZRK, 1 ədəd P-18 radiolokasiya stansiyası, 4 ədəd avtomobil texnikası məhv edilmiş və sıradan çıxarılmışdır. Ermənistan silahlı qüvvələrinin 18-ci motoatıcı diviziyasının müdafiə zolağında avtomobil kolonunun atəşə tutulması nəticəsində 1-ci ümumqoşun ordusu komandanının silahlanma üzrə müavini polkovnik Viktor Arustamyan məhv edilmişdir.

Saat 07:35-dən başlayaraq Ermənistan silahlı qüvvələri Goranboy, Tərtər, Ağdam və Ağcabədi rayonlarının ərazisini artilleriya atəşinə tutmuşdur. Səhər saatlarında Göygöl rayonunun ərazisi Ermənistan silahlı qüvvələrinin ağır artilleriya qurğularından atəşə məruz qalmışdır. Prezident İlham Əliyev özünün "Twitter" səhifəsində Cəbrayıl rayonunun Xudaverdili, Qurbantəpə, Şahvələdli, Xubyarlı kəndləri, Zəngilan rayonunun Aladin, Vejnəli kəndləri, Qubadlı rayonunun Kavdadıq, Məmər, Mollalı kəndlərinin işğaldan tam azad edildiyini açıqlamışdır.

Saat 12 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Gorus rayonu tərəfdən Qubadlı rayonunun ərazisini artilleriya atəşinə tutmuşdur. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin verdiyi məlumata görə, Ermənistan silahlı qüvvələrinin Ağcabədi və Göygöl rayonlarını mütəmadi artilleriya atəşinə tutması nəticəsində Ağgöl və Göygöl milli parklarının ərazilərinə bir neçə dəfə raket mərmiləri düşmüşdür.

**31 oktyabr**

Azərbaycan Müdafiə Nazirliyinin məlumatına görə, döyüş əməliyyatları, əsasən, cəbhənin Ağdərə, Ağdam, Xocavənd və Qubadlı istiqamətlərində davam etmişdir. Digər məlumatda isə Tərtər şəhəri, rayonun Şıxarx qəsəbəsi, Əskipara kəndinin, eləcə də, Ağcabədi rayonunun Qiyaməddinli kəndinin düşmən tərəfindən artilleriya atəşinə tutulması deyilir.

**1 noyabr**

Azərbaycan Müdafiə Nazirliyinin məlumatına görə, Zəngilan rayonunun sərhəd ərazisində Ermənistan Ordusuna məxsus 2 ədəd BM-21 Qrad qurğusu məhv edilmişdir. Üstəlik, düşmənə məxsus iki artilleriya batereyası və çoxlu sayda canlı qüvvəsinin məhv edilməsi kadrları nümayiş etdirilmişdir. Digər məlumatda isə oktyabrın 31-də saat 17:00 radələrində ərazinin havadan müşahidəsi zamanı cəbhənin Xocavənd istiqamətində hərbi avtomobil kortejinin hərəkətinin qeydə alındığı, istiqamətlənmiş və kombinəedilmiş havadan və artilleriyanın dəqiq atəş zərbələri ilə kortejin tərkibində olan bir neçə avtomobilin, şəxsi heyətin məhv edildiyi bildirilir.

**2 noyabr**

Prezident İlham Əliyev özünün "Twitter" səhifəsində Zəngilan rayonunun Dərə Gilətağ, Böyük Gilətağ kəndləri, Cəbrayıl rayonunun

Çaprand, Hacı İsaqlı, Qoşabulaq kəndləri, Qubadlı rayonunun İşıqlı, Muradxanlı, Milanlı kəndlərinin işğaldan tam azad edildiyini açıqlamışdır. Azərbaycan Müdafiə Nazirliyinin məlumatına görə, cəbhənin müxtəlif istiqamətlərində Ermənistan Ordusuna məxsus 4 ədəd BM-21 Qrad qurğusu və Tərtərin Çardaqlı kəndi istiqamətində 1 ədəd "KUB" zenit-raket kompleksi məhv edilmişdir. Elə həmin gün Qondarma Dağlıq Qarabağ Respublikasının müdafiə nazirinin və ordu komandanlığının müavini Artur Sarkisyanın ölməsi ilə bağlı məlumat yayılır.

## 3 noyabr

Azərbaycan Müdafiə Nazirliyinin məlumatına görə, Xankəndi yaxınlığında düşmənin iki sursat anbarı, Zəngilan istiqamətində kəşfiyyat-diversiya qrupu məhv edilib. Digər məlumatda Ermənistan silahlı qüvvələrinin Füzuli şəhərini və ətraf kəndlərini "Smerç" yaylım atəşli reaktiv sistemindən atəşə tutduğu deyilir.

## 4 noyabr

Azərbaycan Müdafiə Nazirliyi cəbhənin cənub və cənub – şərq hissələrində – Ağdam, Xocavənd, Zəngilan və Qubadlı istiqamətlərində davam edən döyüşlər barədə məlumat verir. Erməni tərəfi, də öz növbəsində, Şuşa, daha sonra Laçın yaxınlığındakı döyüşlər barədə məlumat verir. Qondarma Dağlıq Qarabağ rəhbərliyi bu istiqamətdə gedən döyüşlərin intensivliyi səbəbindən Ermənistandan Dağlıq Qarabağa gedən Şuşa-Laçın yolunun mülki vətəndaşlar üçün müvəqqəti bağlandığını elan edir.

Prezident İlham Əliyev özünün "Twitter" səhifəsində Zəngilan rayonunun Məşədiismayıllı, Şəfibəyli kəndləri, Cəbrayıl rayonunun Mirək, Kavdar kəndlərinin, Qubadlı rayonunun Başarat, Qarakişilər, Qaracallı kəndlərinin işğaldan tam azad edildiyini açıqlamışdır.

## 7 noyabr

Azərbaycan Ordusunun keçirdiyi əməliyyatlar nəticəsində Füzuli rayonunun Yuxarı Veysəlli, Yuxarı Seyidəhmədli, Qacar, Divanlılar, Qorqan, Üçüncü Mahmudlu, Cəbrayıl rayonunun Yuxarı Məzrə, Yanarhac, Xocavənd rayonunu Ataqut, Tsakuri, Xocalı rayonunun Moşxmaat, Qarabulaq, Qubadlı rayonunun Qazyan, Balasoltanlı, Mərdanlı, Zangilan rayonunun Beşdəli kəndi işğaldan azad edilib. Bunu Prezident İlham Əliyev öz "Twitter" səhifəsində paylaşıb.

## 8 noyabr

Azərbaycan Ordusunun keçirdiyi uğurlu əməliyyatlar nəticəsində Şuşa şəhəri işğaldan azad olunub. Bunu Prezident İlham Əliyev xalqa müraciətində paylaşıb.

## 9 noyabr

Prezident İlham Əliyev özünün "Twitter" səhifəsində Füzuli rayonunun Qobu Dilağarda, Yal Pirəhmədli, Yuxarı Yağlivand, Dilağarda, Seyid Mahmudlu Ələsgərli, Xocalı rayonunun Dəmirçilər, Çanaqçı, Mədətkənd, Sığnaq, Xocavənd rayonunun Susanlıq, Domi, Tuğ, Akaku, Azıx, Cəbrayıl rayonunun Hüseynalılar, Söyüdlü, Aşağı Sirik, Qubadlı rayonunun Yuxarı Mollu, Aşağı Mollu, Xocik, Zəngilan rayonunun Keçikli, Ördəkli kəndlərinin işğaldan tam azad edildiyini açıqlamışdır.

Prezident İlham Əliyev özünün "Twitter" səhifəsində Xocavənd rayonunun Böyük Tağlar, Salakətin, Zoğalbulaq, Arakül, Tağaverd, Böyük Tağaverd, Zərdanaşen, Şexer, Xocalı rayonunun Şuşakənd, Muxtar, Daşaltı, Füzuli rayonunun Aşağı Güzdək, Govşatlı, Mirzacəmallı, Şəkərcik, Merdinli, Şıxlı, Qaraməmmədli, Dövlətyarlı, Hacılı, Hüseynbəyli, Saracıq, Zəngilan rayonunun Sobu, Qaragöz, İsgəndərbəyli kəndlərini, Bartaz qəsəbəsini, Bartaz strateji yüksəkliyini (2 300 metr), Sığırt yüksəkliyini (1 370 metr), Şükürataz yüksəkliyini (2 000 metr) və əlavə 5 adsız strateji yüksəkliyi, Cabrayıl rayonunun Qalacıq, Mollahəsənli, Əsgərxanlı, Yuxarı Nüjsüs, Aşıq Məlikli, Niftalılar, Qərər, Çələbilər, Qubadlı rayonunun Qaramanlı, Xəndək, Həmzəli, Mahrızlı, Hal, Ballıqaya, Ulaşlı, Tinli, Xocahan, Boyunəkər, Qaraqoyunlu, Çərəli, Laçın rayonunun Güləbird, Səfiyan, Türklər kəndlərinin işğaldan tam azad edildiyini açıqlamışdır.

## 10 noyabr

10 noyabr 2020-ci il tarixində üç ölkənin dövlət başçıları tərəfindən bəyanat imzalanır. Bəyanatda 10 noyabr 2020-ci il tarixində Moskva vaxtı ilə 00:00-dan etibarən tam bir atəşkəs və Dağlıq Qarabağ münaqişəsi bölgəsindəki bütün hərbi əməliyyatları dayandırılması elan edilir. Bu bəyanatın müddəalarına əsasən Azərbaycan Ordusu bölgədə tam qalib elan edilir.

1. Dağlıq Qarabağ münaqişəsi zonasında tam atəşkəsdən və bütün hərbi əməliyyatlar dayandırıldıqdan sonra, 10 noyabr 2020-ci il tarixində Moskva vaxtı ilə 00:00 dan etibarən Azərbaycan və Ermənistan öz mövqelərində dayanırlar.

2. Ağdam rayonu və Ermənistan tərəfinin Azərbaycanın Qazax rayonu istiqamətində saxladığı ərazilər 20 noyabr 2020-ci il tarixinədək Azərbaycana qaytarılır.

3. Rusiya sülhməramlı kontingenti Dağlıq Qarabağdakı təmas xətti boyunca və Laçın dəhlizi boyunca yerləşdirilir. Rusiya Federasiyasının sülhməramlı kontingenti Ermənistan silahlı qüvvələrinin geri çəkilməsinə paralel olaraq yerləşdirilir. Atəşkəsi izləmək üçün bir sülhməramlı mərkəz yerləşdirilir.

1. Ermənistan 15 noyabr 2020-ci ilədək Kəlbəcər rayonunu, 1 dekabr 2020-ci ilədək Laçın rayonunu Azərbaycana qaytaracaq. Dağlıq Qarabağın Ermənistanla əlaqəsini təmin edəcək Laçın dəhlizi (5 km enində) geridə qoyulacaq və eyni zamanda, bu məsələ Şuşa şəhərinə təsir göstərməyəcək. Üç il ərzində Laçın dəhlizi boyunca Xankəndi ilə Ermənistan arasında rabitə təmin edən yeni bir nəqliyyat marşrutunun inşası üçün bir plan müəyyən ediləcək və bu marşrutu qorumaq üçün sonra burada Rusiya sülhməramlı kontingenti yenidən yerləşdiriləcək. Azərbaycan hər iki istiqamətdə vətəndaşların, nəqliyyat vasitələrinin və malların Laçın dəhlizi boyunca hərəkətinin təhlükəsizliyinə zəmanət verir.

2. Məcburi köçkünlər və qaçqınlar Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığı İdarəsinin nəzarəti altında Dağlıq Qarabağ ərazisinə və bitişik ərazilərə qayıdırlar.

3. Hərbi əsirlərin və digər saxlanılan şəxslərin və ölülərin cəsədlərinin mübadiləsi aparılır.

4. Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri blokdan çıxarılır. Ermənistan Azərbaycanın qərb bölgələri ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqərini təmin edir. Nəqliyyat nəzarəti Rusiya Federasiyası Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin orqanları tərəfindən həyata keçirilir.

## 44 GÜNLÜK MÜHARİBƏDƏ ERMƏNİ TERRORİZMİ

Hərb meydanında məğlubiyyətə uğrayan Ermənistan ordusunun süni mifik obrazı darmadağın edildi. Müzəffər Ali Baş Komandanımız Prezident İlham Əliyevin sərkərdəliyi altında Azərbaycan ordusu misilsiz şanlı qələbələr qazandı. Eyni zamanda, Prezidentin bir diplomat kimi yürütdüyü xarici siyasət ədalətli müharibə apardığımızı sübut etdi. Onun beynəlxalq səviyyəli KİV-ə verdiyi müsahibələr Azərbaycan həqiqətlərinin çatdırılmasında rupor oldu. Eyni zamanda, erməni təbliğat maşınının illərlə yaratdığı informasiya blokadasını yardı. Haqq-ədalət savaşında miskin duruma düşən Ermənistan rəhbərliyi dinc əhaliyə qarşı terror aktları törətdi. Azərbaycanın mülki əhalisinə qarşı bu teraktlar düşmənin xislətini aşkara çıxardı. Azərbaycan Silahlı Qüvvələri hərb tarixinə müasir müharibə anlayışını gündəmə gətirdi. Çağdaş texnologiyalarla əfsanəvi savaşlarda ordumuz mülki əhalini deyil, hərbi obyektləri hədəfə alırdı. Bu isə düşmənlə müqayisədə Azərbaycan ordusunun sülh missiyalı olduğunu dünyaya göstərdi. Ermənistan hərbi-siyasi rəhbərliyi qisasını uşaq, qadın, yaşlı insanlardan alırdı. 44 günlük müharibədə Ermənistan silahlı qüvvələri bir neçə şəhəri bombardmana məruz qoydu.

## GƏNCƏ TERRORU

2020-ci ilin oktyabr ayında Azərbaycanın Gəncə şəhərinin Ermənistan Silahlı Qüvvələri tərəfindən 4 dəfə ayrı-ayrı vaxtlarda bombalanması. Bombalanmalar 2020-ci il Qarabağ döyüşləri dövründə baş vermişdir.

İlk hücum 4 oktyabrda baş vermiş və 1 mülki şəxsin həlak olması, 30-dan çox mülki şəxsin yaralanması ilə nəticələnmişdir. Bu raket hücumu müharibənin getdiyi Dağlıq Qarabağ bölgəsindən kənara edilən ilk ciddi hücum idi.

İkinci raket hücumu 8 oktyabrda baş vermişdir. Hücum nəticəsində həlak olan və yaralanan olmamışdır.

Üçüncü raket hücumu 11 oktyabrda baş vermiş və nəticədə 10 mülki şəxs həyatını itirmiş və 40-dan çox insan yaralanmışdır. Bu hücum imzalanan atəşkəsdən bir gün sonra baş vermiş və atəşkəsin pozulması ilə nəticələnmişdir.

Mülki şəxsləri hədəf alan dördüncü raket hücumu 17 oktyabrda baş vermişdir. Hücum nəticəsində, hamısı mülki şəxslər olmaqla, 16 nəfər həyatını itirmiş, 55 nəfər yaralanmışdır. Hücumlar zamanı şəhərin infrastrukturuna, yaşayış binaları da daxil olmaqla, digər binalara, avtomobillərə ziyan dəymişdir.

Ermənistanın mülki şəxslərə raket hücumlarından həyatını itirənlər və yaralananlar arasında azyaşlılar da vardır. Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev bu hücumu "Azərbaycan xalqına qarşı Xocalı soyqırımından bəri şahidi olduğumuz bir soyqırım aktı" adlandırıb. Ortada olan sübutlara baxmayaraq, Ermənistan tərəfi hücumların onun tərəfindən edilməsini inkar etmişdir. Qondarma Dağlıq Qarabağ rəhbərliyi isə yalnız birinci hücumun məsuliyyətini öz üzərinə götürmüşdür. Raket hücumları BMT, Avropa İttifaqı və Türkiyə tərəfindən qınanmışdır.

## Hücumlar

***1-ci hücum***

Oktyabrın 4-də birinci dəfə OTR-21 TOÇKA ballistik raketindən Gəncə şəhəri birinci dəfə vuruldu. Azərbaycan tərəfi hücuma görə məsuliyyəti Ermənistanın daşıdığını bildirsə də, Ermənistan tərəfi ittihamları rədd elədi, Hücuma görə məsuliyyəti rəsmi olaraq Dağlıq Qarabağın rəsmiləri üzərinə götürdülər. Onlar hədəfin mülki insanlar yox, şəhərdə olan hərbi təyinatlı binalar, habelə, Gəncə Beynəlxalq Aeroportu olduğunu bildirdilər. Azərbaycan tərəfi isə Gəncədə, ümumiyyətlə, hərbi təyinatlı binaların olmadığını bildirdi. Hadisə yerində olan rus jurnalist və hava limanının direktoru Covid-19 pandemiyasına görə martdan bəri çalışmayan hava limanının vurulması xəbərini yalanladı. Hücum nəticəsində bir nəfər öldü, 30 nəfər yaralandı.

***2-ci hücum***

Oktyabrın 8-də Gəncəyə növbəti dəfə hücum oldu. Nəticədə, ölən və yaralananlar olmasa da, evlərə və nəqliyyat vasitələrinə ciddi ziyan dəydi.

***3-cü hücum***

10 oktyabrda imzalanmış atəşkəsdən sonra, yerli vaxtla 02:00-da Azərbaycan Müdafiə Nazirliyi bildirdi ki, Ermənistanın Berd rayonunda yerləşən Ermənistan silahlı qüvvələri Gəncəni Skad ballistik raketlərindən atəşə tutmuşdur. Raket yaşayış binasını tamamilə dağıtmışdır. Qısa müddət sonra axtarış və xilasetmə komandaları hadisə yerinə çatmışdır. Hücum nəticəsində şəhərdəki infrastruktura mühüm ziyan dəymişdir. Ümumilikdə, 31 mənzil tamamilə dağıdılmış, hadisə yerində və onun yaxınlığındakı obyektlərə və avtomobillərə ciddi ziyan dəymişdir. Hücumdan ümumilikdə 205 nəfərin yaşadığı 95 mənzil təsirlənmişdir. Ermənistan hücum üçün məsuliyyəti inkar etmişdir. Hücum nəticəsində 10 nəfər həyatını itirmiş və 40 nəfər yaralanmışdır. Qurbanlar arasında qadınlar və uşaqlar olmuşdur.

***4-cü hücum***

17 oktyabrda, təxminən yerli vaxtla 01:00-da Azərbaycanın rəsmi dairələri bildirdilər ki, Ermənistan silahlı qüvvələri Skat ballistik raketləri ilə Gəncəni atəşə tutmuşdur. Jurnalistlər şəhərdə 3 güclü

partlayış səsinin eşidildiyini bildirmişlər. RİA Novosti agentliyinin müxbirinə görə, ballistik raketlər əhalinin sıx yaşadığı əraziyə düşmüşdür. Bu zaman xeyli sayda müxtəlif yaşayış evləri və digər tikililər ziyan görmüşdür. İlk raket şəhər binasından cəmi 2 km uzaqlığa, ikinci raket isə şəhərin qərbindəki Kəpəz bölgəsinə düşmüşdür. "Dojd" kanalının müxbiri Vasili Polonski raketlərin düşdüyü yerlərin yaxınlığında heç bir hərbi, o cümlədən hər hansısa vacib obyektin olmadığını bildirmişdir. Yerli səlahiyyətli şəxslərin bildirdiklərinə görə, 20 ev dağıdılmış və xeyli sayda mülki şəxs dağıntıların altında qalmışdır. Azərbaycan Respublikasının axtarış və xilasetmə komandaları, Azərbaycan Müdafiə Nazirliyinin işçiləri hadisə yerinə gəlmiş və dağıntılar altında qalan şəxsləri olduqları yerdən çıxarmağa başlamışlar. Ermənistan hücumun onun tərəfindən edildiyini inkar etmişdir. Hücum nəticəsində 14 nəfər həlak olmuş, 55 nəfər yaralanmışdır.

### Azərbaycanın cavabı

14 oktyabr tarixində Azərbaycan bildirdi ki, 3-cü hücuma cavab olaraq Azərbaycan Silahlı Qüvvələri Kəlbəcər bölgəsində yerləşən 3 R-17 Elbrus taktiki raketini məhv etmişdir. İddiaya görə, bu raketlər Azərbaycanın Gəncə və Mingəçevir şəhərlərini hədəfə alırmış. Ermənistan tərəfi Ermənistan daxilindəki bölgələrin vurulmasını qəbul etsə də, Azərbaycana edilən hücumları özünün etməsini inkar etdi. 3 gün sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bildirdi ki, Azərbaycan qüvvələri 4-cü hücuma cavab olaraq, Füzuli şəhərini və onun bir çox kəndini işğaldan azad etmişdir.

## Reaksiyalar

**Ölkədaxili:**

Hücumlar Azərbaycan hökuməti tərəfindən güclü şəkildə qınanmışdır və üçüncü hücum Azərbaycan xalqına qarşı soyqırım aktı kimi qiymətləndirilmişdir. Azərbaycan prezidenti İlham Əliyev üçüncü hücumu müharibə cinayəti adlandırmış, atəşkəsin pozulması kimi qiymətləndirmiş və uyğun cavabın veriləcəyini bildirmişdir. O, həmçinin, dördüncü hücumu da müharibə cinayəti adlandırmış və

bunun cavabının veriləcəyinə söz vermişdir. Əliyev əlavə etmişdir ki, beynəlxalq icmanın reaksiya göstərməyəcəyi təqdirdə, Azərbaycan Ermənistanı cəzalandıracaqdır. Azərbaycanın ombudsmanı Səbinə Əliyeva Ermənistanı terrorizmi dəstəkləməkdə ittiham etmişdir.

Prezidentin köməkçisi Hikmət Hacıyev Tvitterdə işğalçı Ermənistan tərəfindən atəşə məruz qalmış Gəncədən fotolar paylaşmışdır. Hikmət Hacıyev qeyd etmişdir ki, Ermənistanın dövlət səviyyəsində terror siyasəti davam edir:

"Ermənistanın cəzasız qalması onu müharibə və hərbi cinayətlərə təşviq edir. Humanitar atəşkəsdən sui-istifadə edərək, Ermənistan Gəncənin əhalisi sıx olan yaşayış hissəsini seçmədən atəşə tutdu".

**Azərbaycan Xarici İşlər Nazirliyinin bəyanatı:**

"Rusiya Federasiyasının vasitəçiliyi ilə baş tutmuş Azərbaycan Respublikası və Ermənistan Respublikası Xarici İşlər nazirlərinin Moskva görüşü nəticəsində 10 oktyabr 2020-ci il tarixi saat 12.00-dan etibarən humanitar atəşkəsə riayət olunması razılığının əldə olunmasına baxmayaraq, Ermənistan silahlı qüvvələri bu razılığı kobud şəkildə pozmağa davam edir.

Humanitar atəşkəsin müəyyən olunduğu vaxtdan dərhal sonra Azərbaycanın Ağdam və Tərtər rayonları Ermənistan silahlı qüvvələri tərəfindən artilleriya atəşinə tutulub. Bir neçə saat sonra isə Ermənistan silahlı qüvvələri cəbhənin Hadrut və Cəbrayıl istiqamətlərində hücum cəhdi göstərib.

Suqovuşan ərazisində erməni əsgərlərinin cəsədlərini yığan və üzərinə aydın şəkildə ağ bayraq sancılmış maşının Ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutulması nəticəsində bir tibbi xidmət qulluqçusu ağır yaralanıb.

11 oktyabr gecə saatlarında Azərbaycanın ikinci böyük şəhəri olan və cəbhə bölgəsindən xeyli uzaqda yerləşən Gəncə şəhəri Ermənistan silahlı qüvvələri tərəfindən raket atəşinə məruz qalıb. Bunun nəticəsində 7 mülki şəxs həlak olub, aralarında azyaşlı uşaqlar olmaqla, 34 nəfər yaralanıb.

Ermənistan silahlı qüvvələrinin humanitar atəşkəs razılığından sonra dinc insanları və şəhərləri atəşə tutması barbarlığın növbəti bariz nümunəsidir və Ermənistan rəhbərliyinin atəşkəs çağırışlarının riyakarlıqdan başqa bir şey olmadığını göstərir.

Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasəti çərçivəsində dinc insanları, evləri, mülki obyektləri, tibb işçilərini məqsədli şəkildə atəşə tutması ölkənin beynəlxalq hüququn fundamental normalarına, o cümlədən beynəlxalq humanitar hüquq və Cenevrə Konvensiyalarına məhəl qoymadığını, öz öhdəliklərini aşkarcasına pozduğunu və adi humanizm prinsiplərindən çox uzaq olduğunu növbəti dəfə nümayiş etdirir.

Ermənistanın bu təcavüzkar əməllərini qətiyyətlə pisləyir və beynəlxalq ictimaiyyəti işğalçı Ermənistanı beynəlxalq hüquqa və beynəlxalq öhdəliklərinə riayət etməyə məcbur etmək üçün qətiyyətli addımlar atmağa çağırırıq.

Bölgədə yaranmış vəziyyətin tam məsuliyyəti Ermənistan siyasi-hərbi rəhbərliyinin üzərindədir".

**Beynəlxalq səviyyədə:**

3-cü və 4-cü hücumlar Türkiyə tərəfindən qınandı və sonuncusu müharibə cinayəti adlandırıldı. Qətər, İsveçrə, Malayziya və Britaniya Azərbaycandakı səfirləri 3-cü hücuma görə təəssüf etdiklərini ifadə etdilər və başsağlığı verdilər. Avropa İttifaqı 4-cü hücumu qınamış və BMT-nin Baş katibi Antonio Quterreş bunu qəbuledilməz adlandırdı.

16 oktyabr tarixində Birləşmiş Krallıqda yaşayan azərbaycanlılar, İran azərbaycanlıları və türklər Amnesty In ternationalin Londondakı mərkəzi qarşısında toplaşaraq, Ermənistan Silahlı Qüvvələrinin Gəncə, Mingəçevir, Tərtər və digər mülki şəxslər yaşayan şəhərlərə raket hücumlarını qınayan etiraz yürüşü etdilər. Növbəti gün ABŞ azərbaycanlıları Çikaqoda etiraz yürüşü edərək raket hücumlarını qınadılar. Sonrakı günlərdə Britaniya azərbaycanlıları Londondakı Azərbaycan səfirliyinin qarşısında hücumlar zamanı həyatını itirənləri anarkən, Gürcüstan azərbaycanlıları Tiflisdəki parlament binasının qarşısında yürüş etdilər. Eyni gündə Rusiya azərbaycanlıları Moskvadakı Azərbaycan səfirliyinin giriş qapısının bir hissəsini 17 oktyabr hücumunda həyatını itirən şəxslərin xatirəsinə həsr etdilər.

## BƏRDƏ TERRORU

Ermənistan Silahlı Qüvvələrinin bölmələri tərəfindən 2020-ci il oktyabrın 27-də Bərdə rayonunun Qarayusifli kəndinə, oktyabrın 28-də Bərdə şəhərinə olan raket hücumları. Hücumlar nəticəsində 27 nəfər həlak oldu, 70 nəfərdən artıq insan yaralandı.

**Hücumlar:**

27 oktyabr hücumu - 5 nəfər oldu, 13 nəfər isə yaralandı.

**Ölənlərin siyahısı:**

1959-cu il təvəllüdlü Aybəniz Əşrəf qızı Əhmədova
1961-ci il təvəllüdlü Almaz Salah qızı Əliyeva
1970-ci il təvəllüdlü Ofeliya Məcid qızı Cəfərova
1980-cı il təvəllüdlü Ehtiram Xəlil oğlu İsmayılov
2013-cü il təvəllüdlü Aysu Rövşən qızı İsgəndərova

**28 oktyabr hücumu**

Oktyabrın 28-də saat 13:40 radələrində Ermənistan Silahlı Qüvvələri tərəfindən Bərdə şəhərinə növbəti hücumlar baş verdi. Hücumlardan dərhal sonra Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev özünün Twitter hesabında "Ötən gün klaster silahları ilə Bərdədə mülki şəxslərin ölümündən heç bir dərs çıxarılmadı. Ermənistan hərbi işğala və müharibə cinayətinə son qoymalıdır." yazdı. Bir müddət sonra isə hücumların Ermənistan ərazisində "SMERCH" Reaktiv Yaylım Atəş Sistemindən reallaşdırıldığı müəyyən olundu. 22 nəfər həlak oldu, 60 nəfər isə yaralandı.

**Həlak olanların siyahısı:**

1940-a il təvəllüdlü Yalçın Rizvan oğlu İsgəndərov
1947-ci il təvəllüdlü Ağamoğlan Bəylər oğlu Quliyev
1950-ci il təvəllüdlü Hümbət Süleyman oğlu Süleymanov
1961-ci il təvəllüdlü Solmaz Sədrəddin qızı Qasımova
1969-cu il təvəllüdlü Fazil Hacı oğlu Hacıyev
1969-cu il təvəllüdlü Leyla Elmir qızı Mustafayeva
1972-ci il təvəllüdlü Çərkəz Xanlar oğlu Mirzəliyev
1971-ci il təvəllüdlü Məhərrəm Ənvər oğlu Mustafayev
1972-ci il təvəllüdlü Gülşən Mehrab qızı Hüseynova
1975-ci il təvəllüdlü Mirsaqi Yusif oğlu Əhmədov
1977-ci il təvəllüdlü İntiqam Ələmdar oğlu Xıdırov
1983-cü il təvəllüdlü Əsgər Mahir oğlu Allahverdiyev
1984-cü il təvəllüdlü Ruslan Məhəmməd oğlu Abbasov
1986-ci il təvəllüdlü Sadiq Sahib oğlu Əliyev
1988-ci il təvəllüdlü Fuad İsa oğlu İsmayılov
1990-a il təvəllüdlü Amil Fazil oğlu Cəfərov
1990-cı il təvəllüdlü Dəyanət Tahir oğlu Kazımov
1990-cı il təvəllüdlü Vasif Vaqif oğlu İsmayıllı
1991-ci il təvəllüdlü Rəşad Vaqif oğlu Şəfiyev
1995-ci il təvəllüdlü Tükəzban Çərkəz qızı Mirzəliyeva
1995-ci il təvəllüdlü Niftalı Səlim oğlu Paşayev. (1)

# II BÖLMƏ

## NARINCLARIN BAĞLANDIĞI BÖLGƏLƏR

Araşdırma predmetimiz Qarabağ regionuna aid olan Ağdərə rayonunun Narınclar kəndidir. Bu yaşayış məntəqəsi sovet dövründə Azərbaycan SSR-in inzibati-ərazi bölgüsündə Dağlıq Qarabağ Muxtar Vilayətinin tabeliyində olan Mardakert rayonunun Nareştar kəndi adı ilə göstərilir (2).

Narınclar toponimi bir neçə məkanın adını daşıyır.Bunlar aşağıdakılardır;

Narışlar – Kəlbəcər rayonunda kənd. Dağətəyi ərazidədir. Keçmiş adı: Qoca Qurt toponimi təhrifə uğrayaraq Narıştar kimi qeydə alınmışdır.Yaşayış məntəqəsi narışlar nəslinə mənsub ailələrin məskunlaşması nəticəsində yaranmışdır.

Narışlar – Laçın rayonunda kənd. Çalbayır silsiləsinin ətəyindədir. Kənd Narışlar nəslinin adını daşıyır. IX yüzillikdə Cavanşir qəzasında Narışlı adlı binə də olmuşdur. Samux rayonunun Çoban Abdallı kəndində Narışdılar məhəllələri, Başqırdıstanın Baray rayonunda isə Narış adlı kənd mövcuddur. Yaşayış məntəqəsi Narışlar nəslinə mənsub ailələrin nəticəsində yaranmışdır (3)

İki mühüm məsələyə diqqətimizi yönəldək. Birincisi, Narınclar kəndinin tarixi-coğrafi təhrifə uğrayaraq Qarabağın deyil, Dağlıq Qarabağ məhfumu tərkibində göstərilməsi: İkincisi, kəndin qədim adının Qoca Qurt adlanması türk ellərinin dastanlarında xilaskar simvolu sayılan Boz qurdla səsləşir.

Narınclar kəndi Qarabağ regionu Şuşa qəzasının Çiləbörd sahəsinin Şıxavənd oymağı (Kolanı mahalı), sonra isə Cavanşir qəzasına və Ağdərə rayonuna tabe olduğundan, bu anlayışlar haqqında müxtəsər arayış verməyi lazım bilirik.

Quzeydə Dərbənddən güneydə Həmədan əyalətinə, Doğuda Xəzərdən Batıda Göyçə gölünün batı əyalətlərinədək olan vətənimiz Azərbaycanın bir parçası olan Qarabağ ulu sivilizasiya mərkəzlərindən biridir. Qarabağ vahid tarixi-coğrafi məkanı mavi səması, yaşıl meşələri, qəhvəyi dağları yamacları, çökəklikləri, göy çayları,

gölləri, zəngin relyefi, əlverişli iqlimi, məhsuldar zəmiləri, bağları, rəngarəng torpaq örtüyü, ecazkar biosfer aləmi, zoocoğrafi arealı və əsrarəngiz sivilizasiyası ilə İlahi simfoniyadır.

Qarabağ bölgəsi tarixi-coğrafi məhfum kimi hansı əraziləri əhatə edir? Tarixi mənbələrə müraciət edək: Qarabağ xanlığının vəziri olmuş Mirzə Camal Cavanşirin "Qarabağ tarixi" (1847) əsərindən iki iqtibaş göstərməyi zəruri bilirəm.

Mirzə Camal Cavanşir yazırdı: "Qarabağ vilayəti Aran məmləkətinin bir hissəsidir. Çünki Nuh peyğəmbərin (ona Allahın salamı olsun) zamanında bir tufan olmuş, tufandan sonra Nuhun övladlarından biri Kür və Araz çayları arasındakı Tiflis, Gəncə, İrəvan, Naxçıvan, Ordubad şəhərləri və hal-hazırda Qarabağ torpağında xaraba qalmış Bərdə və Beyləqan vilayətləri və torpaqlarında hökmran və sahib olmuş, buraları abad etmiş və hamısına öz adını qoymuşdur. Onun adı Aran idi."

Mirzə Camal Cavanşir Qarabağ ərazisinin sərhədləri barədə yazırdı: "Qədim tarix kitablarının yazdığına görə, Qarabağ vilayətinin sərhədi belədir: Cənub tərəfdən Xudafərin körpüsündən Sınıq körpüyə qədər – Araz çayıdır. İndi (Sınıq körpü) Qazax, Şəmsəddin və Dəmirçi-Həsənli camaatı arasındadır və Rusiya dövləti məmurları onu rus istilahilə Krasnı most yəni Qırmızı körpü adlandırırlar.

Şərq tərəfdən Kür çayıdır ki, Cavad kəndində Araz çayına qovuşaraq gedib Xəzər dənizinə tökülür. Şimal tərəfdən Qarabağın Yelizavetpolla sərhədi Kür çayına qədər-Yoran çayıdır və Kür çayı çox yerdən (keçib) Araz çayına çatır.

Qərb tərəfdən Küşbək, Salvartı və Ərikli adlanan uca Qarabağ dağlarıdır (4)

Abbasqulu ağa Bakıxanov "Gülüstani-İrəm" əsərində yazırdı: "Pənahəli Xudafərin körpüsündən başlayaraq, Kürək çayına və Bərgüşat mahalına qədər yerləri ələ keçirtdi. Bundan əlavə,Qarabağa aid Mığrı və Güney mahallarını,Naxçıvana aid Tatif və Sisyanı, İrəvana aid Tərtər kolanını və Təbrizə aid olan Zəngəzur və Qapanı tutdu. O, bəzən Ərdəbil və sair kimi qonşu ölkələri də özünə tabe edirdi" (5).

Xülasə, yazılı mənbələr göstərir ki, Qarabağ Azərbaycanın ən qədim bölgələrindən biri, Kiçik Qafqaz dağları ilə Kür-Araz çayları

arasındakı torpaqları əhatə edərək, 1923-cü ilə qədər bütöv və sabit qalmışdır. Dağlıq Qarabağ anlayışı 1923-cü ildən etibarən Qarabağın dağlıq hissəsinə muxtariyyət verilməsi ilə rəsmiləşdi. Bununla da, Qarabağ xanlığının inzibati bölgüsünün müəyyən hissəsi saxtakarlıqla Ermənistana qatıldı, dağlıq ərazisində isə Dağlıq Qarabağ Muxtar Vilayəti təsis olundu. Muxtar qurum yaradıldıqdan sonra inzibati ərazi bölgüsü ermənilərin xeyrinə dəyişdirildi.

Tarixçi Yaqub Mahmudov və Kərim Şükürov yazırlar: "Dağlıq Qarabağ Muxtar Vilayəti yaradıldıqdan sonra onun tərkibinə verilmiş yaşayış məskənləri rayon-volost-kənd pillələri əsasında inzibati baxımdan aşağıdakı kimi bölünmüşdür:

1.Dizaq rayonu. Bu rayonun tərkibində 5 volost (Hadrut, Tuğ, Xozabyurd, Arakül, Edilli) və 48 kənd var idi.

2.Vərəndə rayonu. Bu rayonun tərkibində 4 volost (Toğavert, Sus, Çartaz, Noraşen) və 46 kənd var idi.

3.Şuşa rayonu. Şuşa şəhəri və Malıbəyli volostundan (12 kənd) ibarət idi

4.Xaçın rayonu. Bu rayonun tərkibində 4 volost (Daşbulaq, Əsgəran, Krasnoselsk, Qala dərəsi) və 53 kənd var idi

5.Ceraberd rayonu. Bu rayonun tərkibində 4 volost (Marquşevan, Orataq, Dovşanlı, Aterk) və 53 kənd var idi.

Yeni inzibati-ərazi bölgüsü həyata keçirilərkən Dağlıq Qarabağ vilayətində dəyişiklik baş verir. 1930-cu ilin avqustunda Dağlıq Qarabağ Muxtar Vilayəti ərazisi yenə də 5 rayona bölünür: 1.Ceraberd, 2.Martuni, 3.Stepanakert, 4.Dizaq, 5.Şuşa. Göründüyü kimi, Vərəndə Martuni adlandırılır, Xaçının ərazisi isə Stepanakertə aid edilir. 1939-cu il avqustun 17-də Ceraberd Mardakert, Dizaq isə Hadrut adlandırılır. (6)

Kolanı mahalı inzibati-ərazi vahidi kimi Qarabağ xanlığı dövründə yaranmışdır. Qarabağ xanlığı inzibati-ərazi bölgüsü baxımından 21 mahal və 5 məlikliyi əhatə edirdi. Mahallar bunlardır:

1.Sisyan
2.Dəmirçihəsənli
3.Küpora
4.Bərgüşad
5.Baqabyurd
6.Kəbirli

7.Tativ
8.Cavanşir
9.Talış
10.Xaçın
11.Kolanılar
12.Çiləbyurd
13.Xırdapara
14.Püsyan
15.Dizaq Cavanşir
16.Otuziki
17.İyirmidörd
18.Qaraçorlu
19.Vərəndə
20.Dizaq
21.Acnan Türk.

Tarixçi professor T.Mustafazadə "Qarabağ xanlığı" əsərində yazır ki, Kolanılar mahalında 9 oymaqda 462 (203 vergi ödəyən, 259 ödəməyən) ailə yaşayırdı (7).

Narınclar kəndi Şuşa qəzasına bağlı olduğundan bu qəza barədə məlumat verək. 1840-cı ildə Çar Rusiyası Cənubi Qafqazda inzibati islahat barəsində qanun qəbul edərək komendant idarə üsulunu ləğv etmişdi. İnzibati ərazi quruluşunda edilən dəyişikliklər nəticəsində quberniyalar və mahallar əvəzinə qəzalar yaradılmışdı. Quberniya və vilayət qəzalara, qəzalar isə nahiyələrə bölündü. Cənubi Qafqaz diyarı mərkəzi Tiflis olan Gürcü-İmereti quberniyasına və mərkəzi Şamaxı olan Kaspi (Xəzər) vilayətinə ayrıldı. Kaspi (Xəzər) vilayətində 7 qəza və 32 nahiyə təşkil edildi. Quzey Azərbaycanın Şuşa, Nuxa (Şəki), Dərbənd, Quba, Bakı, Şamaxı və Talış qəzaları Kaspi (Xəzər) vilayətinə düşdü. Bu islahat nəticəsində Qarabağ anlayışı siyasi-inzibati əhəmiyyətini itirmiş oldu.

1846-cı ilin dekabırında Cənubi Qafqazın inzibati-ərazi bölgüsündə Şuşa qəzası Şamaxı quberniyasına (1859 -cu ildən Bakı) tabe edildi.1867-ci ildə Yelizavetpol quberniyasının tərkibinə verilən Şuşa qəzasının ərazisi bölünərək üç qəza-Zəngəzur, Cavanşir və

Cəbrayıl qəzaları təşkil olunur. Şuşa qəzası Mehri, Kəbirli, Zəngəzur, Cavanşir, Çiləbörd, Vərəndə sahələrinə bölünürdü.

Azərbaycan Xalq Cumhuriyyəti dövründə Şuşa qəzasının inzibati-ərazi vahidində Qarabağ general-qubernatorluğu təsis edildi. 1920-ci il aprelin 28-də Bakı işğal olunduqdan sonra Şuşa qəzasında bolşeviklər hakimiyyətə gəldilər. Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 1923-cü il 7 iyul dekreti ilə DQMV yaranandan sonra qəzanın bir hissəsi onun tərkibinə verildi. Şuşa qəzası 1929-cu ildən etibarən ləğv olunmuşdur.

Məlum olduğu kimi, Narınclar kəndi Şuşa qəzasının Çiləbörd sahəsinin Şıxavənd oymağına və Cavanşir qəzasına (Kolanı mahalı) bağlı olmuşdur. Odur ki, Çiləbörd məlikliyi barədə arayış verməyi lazım bildik.

1687-ci ildə Çiləbörd məlikliyinin əsasını əsli-nəcabəti Zəngəzurun Mağaviz kəndindən olan məlik Allahqulu (Nadir şah ona sultan titulu vermişdi) qoymuşdur. Odur ki, Tərtər çayının sahilindəki Çardaqlı kəndinə Mağaviz deyilirdi. Məliklər Çermux adlı hərbi qalada yaşayırdılar. Məlikliyin ərazisi ilə bağlı Mirzə Yusif Qarabaği "Tarixi-Safi" əsərində yazır: "Çiləbörd mahalının uzunluğu Qırğızdan başlayıb, Bərdə və Bayat meşəsinin kənarında qurtarır. Eni isə Xacın və Qabartı çayından Tərtər çayına qədərdir".

1930-cu ildən inzibati-ərazi dəyişikliyi nəticəsində qəzalar ləğv olunaraq, rayonlar yarandı. Həmin ilin avqustinda DQMV ərazisi, Ceraberd, Martuni, Stepanakert, Dizaq və Şuşa olmaqla, 5 rayona bölünmüşdür. 1939-cu ildə Ceraberd Mardakerd adı ilə əvəz edilmişdir.

Azərbaycan Respublikasının qərbində, Xankəndi şəhərindən 62 kilometr şimalda yerləşən Ağdərə rayonu 1930-cu ildə yaradılıb. Aparılan tədqiqatlardan məlum olur ki, Ağdərənin ilkin adı «İsfahancıq», XIX əsrdə «Hunaşin» və ya «Xonaşen» adlandırılıb. XIX əsrdə Qarabağ düzünün 36 min desyatin hissəsini əhatə edən Xonaşen ərazisi maldar ellər üçün qışlaq, yeri idi. Xonaşen toponimi «hun» və «şen» sözlərindən ibarətdir. Vizantiya tarixçisi Feofan yazır ki, 624-cü ildə Vizantiya çarı İrakli Albaniyada «Hun ölkəsi» adlı yerdə xəzərlərlə görüşmüşdü. Güman etmək olar ki, «Hun

ölkəsi» adlı həmin yer məhz Xonaşendir. Məkrli niyyət sahibləri olan erməni «tədqiqatçıları» «şen» sözünü erməni dilinə məxsusluğunu əldə rəhbər tutaraq, ərazinin ermənilərə aid olduğunu iddia edirlər. Lakin araşdırmalardan məlum olur ki, «şen» sözü qədim türk mənşəlidir. Belə ki, XIII əsrə aid «Türk-ərəb lüğəti»ndə «şen» sözü, «məskun», «əhali yaşayan yer», «əhalisi sıx olan yer» kimi göstərilmişdir. L.Z.Budaqovun, İ.M.Dyakonovun, M.Kaşkarinin, H.A.Abelovun tədqiqatlarında göstərilir ki, «eşen» sözü sırf türk-müsəlman sözüdür və bu söz «yaşayış yeri», «kiçik məntəqə», «məhəllə», «abad yer» mənasındadır. Ağdərə oronimi «ağ» («kiçik», «qısa», «dayaz»), və «dərə» («çay yatağı», «iki dağ arası», «dərin çuxur») sözlərindən düzəlib, «kiçik çay yatağı», «dayaz çuxur» deməkdir. Bu toponimə Azərbaycanın müxtəlif yerlərində rast gəlmək mümkündür. Belə ki, Ağsu rayonu Bico kəndi ərazisində, Şamaxıda, Zəngilanda dərə, Tərtər rayonunda dağ oronimləri, Xızı, Ordubad, Şamaxı, Tovuz, Laçın, Daşkəsən kənd oykonimləri, Girdi-mançay hövzəsində çay hidronimi Ağdərə adını daşıyır. Hətta Əfqanıstan, İran ərazisində də Ağdərə toponiminə rast gəlmək mümkündür.

Ağdərə Qarabağ düzünü dağlıq hissəsi ilə birləşdirən keçidin adı olmuşdur. Sonra bu ərazidə Qasabad kəndindən çıxmış ailələr məskunlaşmışdılar. XIX yüzillikdə məqsədli şəkildə Ağdərəyə köçürülmüş ermənilər qədim Oğuz-Türk diyarının adını öz mənafelərinə uyğun dəyişdirmişr. Belə ki, 1923-1930-cu illərdə Ağdərənin adı Ceraberd, 1930-1992-ci illərdə Mardakert adı ilə əvəzləndirilmişdir. Nəhayət, 1992-ci ildə Ağdərənin keçmiş adı yenidən bərpa edilmişdir. Ağdərəyə 1960-cı ildə şəhər tipli qəsəbə, 1985-ci ildə şəhər statusu verilmişdir. 1992-ci il oktyabrın 13-də Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən Ağdərə bir rayon kimi ləğv edilmiş və ərazisi Ağdam, Tərtər, Kəlbəcər rayonlarına verilmişdir. Ağdərə rayonu 7 iyul 1993-cü ildə Ermənistan silahlı birləşmələr tərəfindən işğal edilmişdir.

Ağdərə keçmiş DQMV-nin ən böyük rayonu olmuşdur. 1981-ci il məlumatına görə, Ağdərənin ərazisi 1705 kv. km, əhalisi 44400 nəfər idi. Rayonun bir şəhəri, iki şəhər tipli qəsəbəsi, 57 kəndi, 22 kənd sovetliyi olub. Rayonun mərkəzi Ağdərə şəhəri idi. Rayonun

Madagiz qəsəbəsi 1959-cu ildə, Marağa qəsəbəsi isə 1967-ci ildə yaradılmışdır. 1981-ci il məlumatına görə, Ağdərə rayonunda 44,4 min nəfər əhali yaşayırdı ki, bundan 5,7 mini Ağdərə şəhərində, 5,8 min qəsəbələrdə, 33,2 mini kənddə məskunlaşmışdi. Ağdərə rayonunda yaşayan ümumi əhalinin 13,1 min nəfərini azərbaycanlılar, 30,2 minini ermənilər, yerdə qalanını isə digər millətlər təşkil edirdi. Ağdərə rayonunda bir kv. km-ə 26 nəfər əhali düşürdü. Bu göstərici istər, ümumrespublika səviyyəsində, istərsə də, DQMV-in səviyyəsində ən yüksək göstərici idi. Belə ki, 1985-ci il məlumatına görə bir kv. km-ə Fizuli rayonunda 58 nəfər, Bərdə rayonunda 84,6 nəfər, Ağdam rayonunda 92,9 nəfər, Tərtər ryonunda 121 nəfər, Dağlıq Qarabağda 34,4 nəfər əhali düşürdü. Bütün bunlar isə bütövlükdə, Dağlıq Qarabağda, o cümlədən Ağdərə rayonunda əhalinin yaxşı yaşamasına şərait yaradırdı. Ağdərə rayonunda əhalinin 1000 nəfər hesabı ilə təbii artımı 18,5 nəfər idi ki, bu göstərici ümumi respublika səviyyəsində ən yaxşı hal kimi qiymətləndirilə bilər. Ağdərə rayonunun səthi əsasən dağlıq, şərq hissəsi isə düzənliklərdən ibarətdir. Ağdərədə 75059 hektar meşə sahələri var ki, bu da ərazinin 44%-ni təşkil edirdi. Şimalda Murovdağ silsiləsi (Qamış dağ 3724 m.) uzanır. Bundan cənubda Tərtər çayının dərəsi və Aterk çökəkliyi, daha cənubda Qarabağ silsiləsinin qolu Oğlanqala silsiləsi (hündürlüyü 1743 m.) yerləşir. Səthi dağlıq hissəsində Yura və Təbaşir vulkanik çökmə və çökmə süxurlarından, düzənlikdə Antropogenin çağıldaşı və gilcələrindən təşkil olunmuşdur. Ağdərə rayonu ərazisində Tərtər çayının sol sahilində Murovdağ silsiləsində Keçəldağ yerləşir ki, dağın hündürlüyü 2232 metrdir. Keçəldağ tabaşir sisteminin əhəngdaşılarından təşkil olunmuşdur və onun subalp çəmənlikləri var. Yuxarıda qeyd etdiyimiz kimi, Ağdərə ərazisindən Tərtər çayı axır ki, çay öz başlanğıcını Qarabağ yaylasından (3120 m. hündürlükdən) başlayır. Əsasən yeraltı sularla qidalanır. Yeri gəlmişkən onu da qeyd edək ki, Kürün sağ qolunda yerləşən Tərtər çayının uzunluğu 184 km, hövzəsinin sahəsi 2650 km, orta illik su səthi 23,2 m /san., illik axın həcmi 729 mln. mo-dır. 1976-cı ildə Ağdərə rayonunun Sərsəng dərəsində Tərtər çay üzərində Sərsəng Su Anbarı istifadəyə verilmişdir. Bu

nəhəng qurqunun tikilib başa çatdırılması Ümummilli liderimiz H.Ə.Əliyevin diqqət və böyük qayğısı ilə bağlı olmuşdur. Dövlət başçısı tikinti işlərinə özü nəzarət etmiş və hətta 70-ci illərdə «Tərtər çayında magistral kanallarla birlikdə su anbarı tikintisinin sürətləndirmək tədbirləri haqqında» xüsusi qərar da vermişdir. Tikintiyə əsaslı vəsaitin həcmi artırılmış, yeni texnika, işçi qüvvəsi cəlb edilmişdir. Hətta, Moskvadan, Kiyevdən, Volqoqraddan gətirilən mütəxəssislər Sərsəng SES-ə cəlb edilmişdir. Tikintiyə sərf olunan vəsaitin ümumi həcmi 95 milyon manata çatdırıldı ki, bu da altıncı beşillik ərzində Respublikamızda su təsərrüfat qurğuları tikintisinə sərf edilən bütün vəsaitə təxminən bərabər idi. Tezliklə 20 milyon kubmetrdən çox torpaq qazılıb daşındı, təqribən 300 min kub metr beton və sement beton töküldü, 2800 ton metal konstruksiya və texnoloji avadanlıq quraşdırıldı və uzunluğu 1 km-dən çox olan yeraltı tunellər çəkildi. Dövlət başçısı H.Ə.Əliyev Sərsəng su anbarının açılışında iştirak etmiş və çıxışında göstərmişdir ki, «Ağdərə rayonunda Sərsəng adlı yerdə 130 metrlik tökmə bənd Avropada ən hündür bəndlərdən biridir. Su anbarı 560 milyon kubmetr su tutur. Bu su, ümumi uzunluğu təxminən 100 km olan kanallar vasitəsilə DQMV-nin və respublikamızın qonşu rayonlarının tarlalarına axıdılacaqdır. Sərsəng SES-in hər il istehsal etdiyi 125 milyon kilovat-saat elektrik enerjisi Zaqafqaziyanın vahid energetika sisteminə daxil olacaqdır».

Ağdərə rayonu ərazisindən Xaçın çayı da axır; bu çayın uzunluğu 119 km, hövzəsinin səthi 657 km-dir. Qarabağ silsiləsindən (Uyuxlu dağından cənubda, 2100 m hündürlükdən) başlanır. Mühüm qolu Kolataqdır. Əsasən, yağış suları ilə qidalanır. Suvarmada istifadə olunur. Məcrasında Xaçınçay su anbarı yaradılmışdır. Rayon ərazisindən axan Torağay çay, Tərtər çayının sol qolu olmaqla, başlanğıcını Camış dağından alır. Uzunluğu 35 km, hövzəsinin sahəsi 172 $km^2$-dir. Suvarmada istifadə olunur.

Ağdərə rayonu ərazisindən Gülyataq çayı, Qabartı çayı, Qanıq çayı, Yenşərəgəl çayları da axır. Bu çaylar öz başlanğıcını qar, yağış və yeraltı sulardan alır.

Ağdərə rayonu faydalı qazıntı yataqları ilə zəngindir. Qızılbulaq qazıntı yatağında 13,5 vahid sənaye ehtiyatı olan qızıl, 47,9 milyon ton mis, Mehmana yatağında sənaye ehtiyatları 37,3 milyon ton olan qurğuşun, 40,4 milyon ton olan sink, 100 milyon ton olan Dəmirli mis yatağı, CanyataqGülyataq qızıl yatağı vardı. Sənaye ehtiyatları 38080 min $m^3$ olan Ağdərə, 6423 min $m^3$ olan Şorbulaq - I, 2129 min kub metr olan Şorbulaq - II mişar daşı yatağı, 200 min kub metr olan Ağdərə gəc yatağı təcavüzkar Ermənistan tərəfindən işğal edildi. Təəssüflər olsun ki, 1993-cü ildən bu günə qədər işğal olunmuş ərazilərimizin tükənməz təbii sərvətləri Rusiya, Kanada, İsveçrə, Fransa, Almaniya iş adamları tərəfindən talan olunur. Gəlirin çox hissəsi isə mənfur siyasət sahibləri olan ermənilərə çatır.

Ağdərə rayonu ərazisində kiçik dağ gölləri var (Qara göl və s.). Yağış, qar, bulaq suları ilə qidalanan bu göllərdən bölgəyə cəmləşən ermənilər bəhrələnirlər.

Ağdərənin iqlimi çox yerdə qışı quraq keçən mülayim isti, yüksək dağlarda soyuqdur. Orta temperatur yanvarda 1dən – $100^0$-dək, iyulda 25-$100^0$ olur, illik yağıntının miqdarı 400-900 mm-dir.

Rayonda dağ-şabalıdı, qəhvəyi, dağ-meşə, dağ-çəmən və s. torpaqlar yayılmışdır. Rayon ərazisinin 75,6 min hektarı və yaxud 44%-ni meşələr tuturdu. Meşələrdə palıd, fıstıq, vələs, saqqızağacı, ardıc, qoz, fındıq, çinar və s. qiymətli ağaclar bitir. Ağdərə rayonundakı Tərtər çayı vadisindəki Şərq çinarı meşəliyi xüsusi olaraq qorunurdu. İşğal olunmuş ərazidə 8036 hektar sanitariya-gigiyena və sağlamlaşdırma funksiyalı meşələr mövcud idi ki, bunun 628 hektarı şəhərətrafı yaşıllıq zonası, 7408 hektarı isə su təchizatı mənbələrinin sanitar mühafizə zonalarına aid meşələr idi. Ekoloji sistemlərin qorunub saxlanması bəşəriyyətin qarşısında kəskinliyi ilə durduğu bir şəraitdə yüz illər ərzində əmələ gələn Ağdərə meşələri bu gün mebel düzəltmək məqsədilə qəddarcasına talanaraq xarici dövlətlərə satılır və ya Ermənistana aparılır. Təbiidir ki, meşə olmayanda meşə heyvanları da məhv olur. Keçmişdə Ağdərə meşələrində yaşayan ayı, dağkeçisi, dovşan, çöldonuzu, və s. heyvanlar, qırqovul, turac kimi nadir quşlar meşələrin məhv olması və ya ovlaması ilə tələf olaraq ekosistemdən çıxmışdır.

Ağdərə Dağlıq Qarabağın mühüm kənd təsərrüfatı rayonlarından idi. İqtisadiyyatda üzümçülük, taxılçılıq, tütünçülük və heyvandarlıq əsas yer tuturdu. 1988-ci il məlumatına görə Ağdərə rayonunda kənd təsərrüfatına yararlı torpaqlar 53324 hektar idi. Bunun 21189 hektarı əkin yeri, 5931 hektarı çoxillik bitkilər, 1892 hektarı biçənəklər, 22863 hektarı örüş yeri, 0,4 min hektarı dincə qoyulmuş torpaqlar idi. Torpaqların 15,3 min hektarı əkin sahəsinin, 9,7 hektarını dənli-paxlalı bitkilər (buğda, arpa, qarğıdalı) və kartof, 11,3 min hektarını yem bitkiləri, 3,4 min hektarını üzümlülər, 2%-ni bostan tərəvəz bitkiləri tuturdu. 1985-ci il məlumatına görə, rayonun təsərrüfatlarından 12 milyon ton taxıl, 75 min ton üzüm yığılmışdır. Azərbaycan hökuməti rayonda heyvandarlığın inkişafı üçün hər cür şərait yaratmışdı. Beləki, yeni tipli heyvandarlıq formaları yaradılmış, cins heyvan növləri, güclü yem bazası ilə təmin edilmiş, xəstəliklərə qarşı mübarizə tədbirləri həyata keçirilmişdi. Nəticədə, heyvanların sayında çox böyük irəliləyiş olmuşdur. Aparılan hesablamalara görə, keçən əsrin 80-ci illərinin ortalarında rayonda 20-min qaramal, 39 min davar, 18 min donuz var idi. Ağdərə rayonunda əhali quşçuluq, arıçılıq və baramaçılıqla da, məşğul olurdu.

Keçən əsrin 70-80-cı illərində Ağdərə sakinlərinin rifahı xeyli yaxşılaşmışdır. 1986-cı ildə Ağdərədə əhalinin adambaşına düşən pul gəliri 1114 manatdan çox olmuşdur ki, bu da bütövlükdə Azərbaycan üzrə olduğundan 98 manat, Naxçıvan MR-dan 171 manat çoxdur. Bu dövrdə mənzil tikintisinin də inkişafi yüksələn xətlə xarakterizə olunmuşdur. Ağdərədə bir sakinin mənzillə təminatı 15 $m^2$-ə çatdığı halda, Respublika üzrə bu göstərici 11 $m^2$-ə çatırdı.

1970-1985-ci illərdə Ağdərədə yaşayış məntəqələrinin abadlaşdırılması sürətlə davam etmişdi. Tədqiqatlardan məlum olur ki, Ağdərədə abadlıq işləri ümumrespublika səviyyəsini üstələmişdir. Belə ki, 1987-ci ildə respublikamızın şəhərlərində mənzillərin su kəməri ilə təchizatı 30,5% idisə, Xankəndində 45,5%-a, kanalizasiya ilə təminat 6,4%-ə qarşı 11,6%, qazla təminat 96%-ə qarşı 100%, vanna ilə təminat müvafiq olaraq 4,7%-ə qarşı 10,4% olmuşdur.

Sovet hakimiyyəti illərində Ağdərə rayonunda mədəni quruculuq sahəsində çox böyük nailiyyətlər əldə edilmişdir. 1982-ci ildə rayonda 27 məktəbəqədər uşaq müəssisəsi var idi ki, bu müəssisələrdə

1225 uşaq tərbiyə olunurdu. Bəhs olunan dövrdə Cəbrayılda 8, Qubadlıda 1, Ağcabədidə 10, Zəngilanda 9, Bərdədə 17, Tərtərdə 13 məktəbəqədər uşaq müəssisəsi fəaliyyət göstərirdi. 1987-ci ildə Ağdərə rayonunda məktəbəqədər uşaq müəssisələri ümumrespublika səviyyəsində birinci yerdə dayanmışdır. Belə ki, Respublikamizda məktəbəqədər uşaq müəssisələri ilə təminat 20%, Naxçıvanda 12% olduğu halda Ağdərədə 35%-ə çatmışdı. Təəssüflər olsun ki, Ağdərədə azərbaycanlılar yaşayan 15 kənddən yalnız ikisində məktəbəqədər uşaq müəssisəsi fəaliyyət göstərirdi ki, onlar da yarıtmaz vəziyyətdə idi. Bu dövrdə Ağdərənin 50 məktəbində 9800 şagird təhsil alırdı. Bəhs olunan dövrdə Zəngilanda 15, Tərtərdə 42 məktəb var idi. Ağdərədə hər məktəbə 196 şagird düşürdüsə, Zəngilanda bu göstərici 419-a, Ağdamda 354-ə çatırdı. Həmçinin, Ağdərənin bir texniki peşə məktəbində 420, yeddiillik musiqi məktəbində 135 şagird təhsil alırdı. 1983-cü ildə Ağdərə rayonunda 63 klub müəssisəsi fəaliyyət göstərirdisə, bu göstərici Cəbrayılda 49-a, Qubadlıda 23-ə, Ağdamda 27-3, Ağcabədidə 23-ə, Bərdədə 43ə, Tərtərdə 23-ə çatırdı. Bəhs olunan dövrdə Ağdərə rayonunda 225 min kitabı olan 51 kitabxana var idisə, Qubadlıda 47, Tərtərdə 30, Zəngilanda 35, Ağcabədidə 34 kitabxana fəaliyyət göstərirdi. Aparılan araşdırmalardan məlum olur ki, 80-ci illərin sonlarında Ağdərə rayonunda hər bir sakinə 10 kitabxana kitabı düşdüyü halda, respublikamızda bu göstərici 5,8-idi. Ağdərə rayonunun kütləvi kitabxanalarla təmin edilməsi 100% olduğu halda, bütün Azərbaycan üzrə bu göstərici 94%-ə çatırdı. Araşdırmalardan bir acı həqiqət də aşkar edilmişdir ki, Ağdərədəki, azərbaycanlılar yaşayan kəndlərdəki, kitabxanalardakı kitab fondunun 80% erməni dilində, 10-%-i rus və 10%-i Azərbaycan dilində idi.

1985-ci ildə Ağdərədə 17 kinoqurğu fəaliyyət göstərirdi. Əhalinin mədəni-maarif müəssisələri ilə təminatına görə, 80-ci illərin ortalarında Ağdərənin göstəricilərinin əksəriyyəti, istər, ümumrespublika səviyyəsində, istərsə də, Ermənistanla və Ümumittifaq göstəricilərini üstələmişdi. Məsələn, hər 10 min nəfərə düşən klub və mədəniyyət evlərinin sayı Azərbaycanda 5, Ermənistanda 3,8, Keçmiş SSRİ-də 4,8 olduğu halda, Ağdərədə 15 olmuşdur. Həmçinin, hər 10 min nəfərə düşən kinoqurğuların sayı Azərbaycanda 3, Ermənistanda 2,9, SSRİ-də 5,4 olduğu halda Ağdərə rayonunda bu göstərici 11 idi.

Azərbaycanın qədim tarixə malik Ağdərə ərazisi memarlıq abidələri ilə zəngindir. Rayonun Dovşanlı kəndindən 9 km Cənub Şərqdə Xaçın çayının sağ sahilində ilk tunc dövrünə aid Xaçınçay kurqanları aşkar edilmişdir. Kurqanların hündürlüyü təxminən 1-2,5 metr, diametri 10-20 metrdir. Buradakı dəfn adəti bir-birindən fərqlənirdi. Kurqanlardan qızıl bəzək əşyaları, qədim tipli xəncərlər, daş toppuz, dəvəgözündən bıçaq və bir ədəd bütöv saxsı qab tapılmışdır.

Azərbaycanın əhəmiyyətə malik abidələrindən bir də Tərtər çayın dərəsində, Ağdərə rayonunun Çardaxlı kəndində tikilmiş Crabert («Su ilə əhatə olunan») qalasıdır. Qalaya Caraberti (car çəkilən yer) də deyirlər. Qalanın adı VII əsr mənbələrində çəkilmişdir. Qala Torağay çayının Tərtər çayına töküldüyü yerdə, çay səthindən təxminən 1500 m. yüksəklikdə, sıldırım qayalıqdan ibarət bir yüksəklikdə bina edilmişdir. Azərbaycan arxeoloqları 1963-cü ildə Carabert qalasını tədqiq etmişlər. Yuxarısı ikiqat divarlar və bürclərlə möhkəmləndirilmiş qala hərbi məqsədlə istifadə olunmuşdu. Təsadüfü deyildir ki, son dövrlərə qədər məhz bu qalanın adı ilə Yuxarı Qarabağın bir hissəsi Carabert adlanırdı.

Ağdərə rayonu ərazisində XIII-XIX əsrlərdə alban katalikoslarının iqamətgahı olmuş Xəzinədağ məbədi var. Tarixçi Kirakos Gəncəlinin məlumatına görə, Xəzinədağ məbədi. 1216-1238-ci illərdə Xaçın knyazı Həsən Cəlal tərəfindən tikilmişdir. Məbədin daxili müxtəlif naxışlar, həmçinin, rəngarəng freskalarla bəzədilmişdir. Məbəd günbəzli formadadır. Xəzinədağ məbədi xüsusi zal, cəbbəxanalar, mehrab və zəngxanadan ibarət tağbənd örtüklü böyük kompleksdir.

Rayonun ərazisində Vəngli kəndində Xanabad qalası, Gülüstan kəndi yaxınlığında qala qalıqları, Ağdərə şəhəri yaxınlığında Cermux qalası, Kolataq kəndində 635-ci ildə inşa edilmiş məbədi, Ağdərənin 1 km şimal-qərbində dağ ətəyində XIII əsrə aid memarlıq abidələri, XII-XIII əsrlərə aid qala qalıqları, Maqavuz kəndində orta əsrlərə aid arxeoloji abidə, körpü, XII əsrə aid Yegeş-Arakül məbədi, Talış kəndi ərazisində memarlıq abidələri, XIII əsrə aid Ürək məbədi, Tərtər çayı üzərində körpü, Tərtər çayının yuxarı axarında (Murovdağın ətəyində) XIII əsrə aid məbəd, Kasabet («Dağ yamacı») kəndində Hətəm-Məlik qalası, körpü və digər qədim mədəniyyət

abidələri var idi. Təəssüflər olsun ki, Azərbaycanın yuxarıda adları qeyd olunan və qeyd etmədiyimiz qədim tarixi abidələrimiz Ermənistan silahlı birləşmələri tərəfindən dağıdılmışdır.

Ağdərə rayonu ərazisində yaradılmış abidələrdən biri də bölgənin erməni icmasının xahişi ilə 1978-ci ildə Marağa kəndində ermənilərin Ağdərəyə köçürülməsinin 150 illiyi münasibətilə inşa edilmişdir. Abidənin üzərinə böyük rəqəmlərlə «1828-1978» və «150» rəqəmləri həkk olunmuşdu. Lakin bu abidə bəzi məsələlərə aydınlıq gətirdiyi üçün ermənilər 1985-ci ildə həmin abidəni məhv etdilər.

Azərbaycanın Ağdərə rayonunda 1932-ci ildən erməni dilində «Barekamutyun» («Dostluq»), 1966-cı ildən «Sosializmin uğı» («Sosializm yolu») qəzeti nəşr olunurdu. Rayonda 1966-cı ildən yerli radio verilişləri redaksiyası fəaliyyət göstərirdi.

1985-ci ildə Ağdərə rayonunda 340 çarpayılıq 8 xəstəxana müəssisəsi, 50 həkim məntəqəsi, sanitariya-epidemioloji stansiya, 50 həkim, 400 orta tibb işçisi var idi. Halbuki, bəhs etdiyimiz dövrdə qonşu Tərtər rayonunda 6 xəstəxana, 18 həkim məntəqəsi, 293 orta tibb işçisi və həkim, Qubadlıda 4 xəstəxana, 21 həkim məntəqəsi 151 orta tibb işçisi və həkim, Şuşada 2 xəstəxana, 11 həkim məntəqəsi. 193 orta tibb işçisi və həkim, Cəbrayılda 6 xəstəxana, 18 həkim məntəqəsi, 347 orta tibb işçisi və həkim, fəaliyyət göstərirdi. Ağdərə rayonu əhalinin 10 min nəfərinə düşən həkimlərin və çarpayıların sayına görə ümumrespublika səviyyəsində öndə getmişdir. Belə ki, 1987-ci ildə 10 min nəfər hesabı ilə xəstəxana çarpayıları ilə təminat ümumrespublika üzrə 97,8, Ağdərədə 101,7, bütün ixtisaslardan olan həkimlər və orta tibb işçiləri ilə təmin ümumrespublika üzrə 132,4 Ağdərədə 151,8 olmuşdur [6, s.355]. Bütün yuxarıda göstərilən obyektiv tədqiqatlar məkrli niyyət sahibləri ona erməni tədqiqatçılarının «sosial-iqtisadi gerilik» konsepsiyasının ağ yalan olduğunu" təsdiqləyir.

1992-ci il oktyabrın 13-də Azərbaycan Respublikası Milli Məclisi tərəfindən Ağdərə rayonu ləğv edilərək üç qonşu rayon - Kəlbəcər, Tərtər və Ağdam rayonları arasında bölüşdürüldü. 7 iyul 1993-cü ildə isə Ağdərə rayonu Ermənistan silahlı birləşmələri tərəfindən ələ keçirildi. Rayonun 14 kəndində (Sırxavənd, Bəşirlər, Qaraşlar, Qaralar, Baş Güneypəyə, Orta Güneypəyə, Xatınbəyli, Manikli, Tellibinə, Narınclar, Çərəktar, İmarət-Qərvənd, Umudlu, Yeni Qaralar) və

Gəncxana Sovxoz qəsəbəsində yaşayan 14 mindən çox azərbaycanlı öz dədə-baba yurd-yuvalarından didərgin düşdü.

Ağdərənin ləğvini o zaman həm rayon əhalisi, həm bütövlükdə Dağlıq Qarabağın azərbaycanlı icması, həm də ayrı-ayrı ictimai-siyasi dairələr narazılıqla qarşılaşmışdılar. Ötən 16 il ərzində bu məsələ dəfələrlə gündəmə gətirilmişdir. Milli Məclisin regional məsələlər daimi komissiyasının sədri Arif Rəhimzadənin, millət vəkili Qənirə Paşayevanın Xankəndi seçki dairəsindən deputat Həvva Məmmədovanın, Şuşa Rayon İcra Hakimiyyəti aparatının rəhbəri Vəzir Səfixanovun, deputat Aqil Abbasin, Ağdərəli hüquqşünas Yalçın İmanovun, Ağdərəli jurnalist, Qarabağ müharibəsi veteranı Xəqani Rzaquliyevin fikirlərinə görə Ağdərə rayonunun statusunun bərpası bu gün olduqca vacibdir. Biz inanırıq ki, tezliklə Ermənistan Azərbaycan Dağlıq Qarabağ münaqişəsi sülh yolu ilə həll ediləcək, Ermənistan silahlı birləşmələrinin nəzarəti altında olan bütün Qarabağ torpaqları işğaldan azad olacaq, eyni zamanda Ağdərənin rayon statusu bərpa ediləcək və bütün məcburi köçkünlərimiz, o cümlədən 14 minlik ağdərəli məcburi köçkünləri öz doğma el-obalarına qayıdacaqlar (8).

# AZƏRBAYCAN ALİ SOVETİNİN RƏYASƏT HEYƏTİ

## SOVETLƏR ŞÖBƏSİ

# AZƏRBAYCAN SSR

# İNZİBATİ-ƏRAZİ BÖLGÜSÜ

**1968-ci il iyulun 10-dək olan vəziyyətə görə tərtib edilmişdir**

**ÜÇÜNCÜ NƏŞRİ**

**Azərbaycan Dövlət Nəşriyyatı**
**Bakı - 1968**

## DAĞLIQ QARABAĞ MUXTAR VİLAYƏTİ
## MƏRKƏZİ –STEPANAKERT ş.

| **Ərazisi k.v. k.m-lə................ 4388** | **İnzibati vahidlərin sayı:** |
|---|---|
| Moskvadan Stepanakert şəhərinədək məsafə............2816 km | Vilayət tabeliyində olan şəhər ..1 |
| Bakıdan Stepanakert şəhərinədək məsafə ................................392 km | Rayon tabeliyində olan şəhər ....1 |
| Vilayətin təşkil olunduğu tarix – 7.VII. 1923-cü il | Kənd rayonu .............................5 |
| | Qəsəbə Soveti...........................4 |
| | Kənd Soveti..........................78 |
| | **Yaşayış məntəqələrinin sayı:** |
| | Şəhər .......................................2 |
| | Şəhər tipli qəsəbə......................4 |
| | Fəhlə qəsəbəsi ..........................- |
| | Kənd və başqa yaşayış məntəqələri...........................224 |

## RAYONLAR VƏ RAYON MƏRKƏZLƏRİ

| Sıra № | Rayonun adı | | Rayon mərkəzi haqqında məlumat | Rayon haqqında məlumat | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Rayon mərkəzinin adı | Yaxın dəmiryol stansiyasının adı və dəmiryol stansiyalarınadək məsafə km-lə | | | İnzibati vahidlərin sayı | | | Yaşayış məntəqələrinin sayı | | | |
| | | | | Stepanakertədək məsafə, km-lə | ərazi, kv. *km*-lə | şəhər Soveti | qəsəbə Soveti | kənd Soveti | şəhər | şəhər tipli qəsəbə | fəhlə qəsəbəsi | kənd və başqaları |
| 1 | Mardakert | Mardakert ş.t.q. | Yevlax .....67 | 62 | 1705 | - | 2 | 24 | - | 2 | - | 58 |
| 2 | Martuni | Martuni ş.t.q. | Horadiz ....60 | 41 | 779 | - | 2 | 16 | - | 2 | - | 41 |
| 3 | Stepanakert | Stepanakert ş.t.q. | Yevlax.....99 | - | 928 | - | - | 19 | - | - | - | 53 |
| 4 | Hadrut | Hadrut ş.t.q. | Horadiz ....49 | 95 | 679 | - | - | 13 | - | - | - | 41 |
| 5 | Şuşa | Şuşa ş. | Yevlax.....110 | 11 | 289 | 1 | - | 6 | 1 | - | - | 30 |

## Mardakert rayonu
## MƏRKƏZİ – MARDAKERT ştq.

| **Ərazisi k.v. k.m-lə............1705** | **İnzibati vahidlərin sayı:** |
|---|---|
| Stepanakertdən rayon mərkəzinədək məsafə.......62 *km* | Şəhər Soveti .................. – |
| Mardakert şəhər tipli qəsəbəsindən yaxın dəmiryol Yevlax stansiyasınadək məsafə .............................67 *km* | Qəsəbə Soveti ................2 |
| Rayonun təşkil olunduğu tarix – 8.VIII. 1930-cü il | Kənd Soveti..................24 |
| | **Yaşayış məntəqələrinin sayı:** |
| | Şəhər ............................. – |
| | Şəhər tipli qəsəbə............2 |
| | Fəhlə qəsəbəsi ............... – |
| | Kənd və başqa yaşayış məntəqələri ..................58 |

### Qəsəbə Soveti

| № | Qəsəbə Sovetinin adı | Şəhər tipli qəsəbənin təşkil olunduğu tarix | Rayon mərkəzinədək məsafə, *km*-lə | Yaşayış məntəqələri |
|---|---|---|---|---|
| 1. | Mardakiz | 1943 | 17 | Mardakiz ş.t.q. |
| 2. | Mardakert | 1960 | – | Mardakert ş.t.q. |
| | | | 15 | Qarmirovan k. |

### Kənd Sovetləri

| № | Kənd Sovetinin adı | Məsafə, *km*-lə | | Yaşayış məntəqələri |
|---|---|---|---|---|
| | | rayon mərkəzinədək | kənd Sovetinədək | |
| **1** | **2** | **3** | **4** | **5** |
| 1 | Araçadzor | 42 | -<br>2<br>4 | Araçadzor k.<br>Temaqahof k.<br>Hayad k. |
| 2 | Arutunaqomer | 37 | - | Arutunaqomer k.<br>Verin Horətaf k. |
| 3 | Aterk | 33 | - | Aterk k. |
| 4 | Vaquas | 40 | - | Vaquas k. |
| 5 | Vanklu | 48 | -<br>4<br>4 | Vanklu k.<br>Şahmasur k.<br>Qarnakar k. |
| 6 | Verin Çaylı | 16 | -<br>2 | Verin Çaylı k.<br>Nerkin Çaylı k. |
| 7 | Qazançı | 31 | - | Qazançı k. |
| 8 | Drınbon | 30 | -<br>5 | Drınbon k.<br>Qocoqot k. |
| 9 | İmarət Qərvənd | 47 | -<br>3<br>2 | İmarət Qərvənd k.<br>Zardaxac k.<br>Capar k. |
| 10 | Kolatağ | 45 | -<br>3 | Kolatağ k.<br>Damqalı k. |
| 11 | Leninavan | 17 | -<br>7<br>3<br>6<br>1 | Leninavan k.<br>Levonarx k.<br>Həsənqaya k.<br>Maralyansarov k.<br>Marağa k. |

| | | | | |
|---|---|---|---|---|
| 12 | Maqavuz | 10 | -<br>3<br>1 | Maqavuz k.<br>Lüləsaz k.<br>Minqrelsk k. |
| 13 | Madakiz | 18 | -<br>6<br>8 | Madakiz k.<br>Dəstəgir k.<br>Tonaşen k. |
| 14 | Metsşen | 10 | - | Metsşen k. |
| 15 | Möhrətaf | 6 | -<br>4 | Möhtəraf k.<br>Ağabəyələnc k. |
| 16 | Nareştar | 63 | - | Nareştar k. |
| 17 | Nergin Horətağ | 4 | -<br>4<br>2 | Nergin Horətağ k.<br>Qasapet k.<br>Dəmirli k. |
| 18 | Seysulan | 15 | -<br>1 | Seysulan k.<br>Yarımça k. |
| 19 | Srxavənd | 35 | -<br>1 | Sxravənd k.<br>Kiçran k. |
| 20 | Talış | 25 | - | Talış k. |
| 21 | Umudlu | 25 | -<br>4 | Umudlu k.<br>Zəylik k. |
| 22 | Cərəktar | 56 | - | Cərəktar k. |
| 23 | Cldran | 42 | -<br>8<br>4<br>2<br>3 | Çldran k.<br>Mehmana k.<br>Poqosaqomer k.<br>Txkot k.<br>Axperkan k. |
| 24 | Canyataq | 10 | -<br>6<br>5<br>10<br>8<br>4 | Canyataq k.<br>Gülyataq k.<br>Maniklu k.<br>Baş Güneypəyə k.<br>Orta Güneypəyə k. |

| | | | | |
|---|---|---|---|---|
| | | | | Xatınbəyli k. |

## MARDAKERT RAYONU
## MƏRKƏZİ – MARDAKERT ştq.

| **Ərazisi k.v. k.m-lə........1705** | **İnzibati vahidlərin sayı:** |
|---|---|
| Stepanakertdən rayon mərkəzinədək məsafə...62 *km* | Şəhər Soveti ......................... – |
| Mardakert şəhər tipli qəsəbəsindən yaxın dəmiryol Yevlax stansiyasınadək məsafə ..........................67 *km* | Qəsəbə Soveti ........................2 |
| Bərdə stansiyasınadək məsafə ..........................41 *km* | Kənd Soveti.........................22 |
| | **Yaşayış məntəqələrinin sayı:** |
| | Şəhər .................................... – |
| | Şəhər tipli qəsəbə................... 3 |
| | Fəhlə qəsəbəsi ...................... –<br>Kənd və başqa yaşayış məntəqələri .........................58 |
| | Kənd və başqa yaşayış məntəqələri .........................58 |

### Sovetlər və yaşayış məntəqələri

| | |
|---|---|
| 1. Mardakert qəsəbə Soveti<br>Mardakert ş.t.q.<br>Qarmirovan k. | 10. Mağavuz kənd Soveti<br>Mağavuz k.<br>Akop Kamari k.<br>Minqrelsk k.<br>Cerabert k. |
| 2. Leninavan qəsəbə Soveti<br>Leninavan şt.q. | 11. Meteşen kənd Soveti<br>Meteşen k. |

<table>
<tr><td>Levonarx k.<br>Həsənqaya k.<br>Maralyansarov k.</td><td>12. Möhrətağ kənd Soveti<br>Möhrətağ k.<br>Ağabəyələnc k.</td></tr>
<tr><td>3. Aracadzor kənd Soveti<br>Aracadzor k.<br>Tsmaqahof k.<br>Hayad k.</td><td>13. Nareştar kənd Soveti<br>Nareştar k.</td></tr>
<tr><td>4. Artunaqomer kənd Soveti<br>Arutunaqomer k.<br>Verin Oratağ k.</td><td>14. Nerkin Oratağ kənd Soveti<br>Nerkin Oratağ k.<br>Qasapet k.<br>Dəmirli k.</td></tr>
<tr><td>5. Aterk kənd Soveti<br>Artekk.</td><td>15. Seysulan kənd Soveti<br>Seysulan k.<br>Yarımca k.</td></tr>
<tr><td>6. Vaquas sən Soveti<br>Vaquas k.<br>Hetevan k.</td><td>16. Srxavənd kənd Soveti<br>Srxavənd k.<br>Kican k.</td></tr>
<tr><td rowspan="2">7. Vanklu kənd Soveti<br>Vankluk<br>Şahmasur k.<br>Qarnakar k.</td><td>17. Talış kənd Soveti<br>Talış k.</td></tr>
<tr><td>18. Umudlu kənd Soveti<br>Umudluk k.<br>Zəylik k.</td></tr>
<tr><td>8, Verin Çaylı kənd Soveti<br>Verin Çaylık<br>Nerkin Çaylık k.<br>Madagiz k.<br>Dostahir k.<br>Tonaşen k.<br>Madagiz ş.t.q.</td><td>19. Çərəktar kənd Soveti<br>Çərəktar k.</td></tr>
<tr><td>9. Qazançı kənd Soveti<br>Qazançı</td><td>20. Çldran kənd Soveti<br>Çldran k.<br>Mehmana k.<br>Poqosaqomer k.<br>Txkot k.</td></tr>
</table>

| | |
|---|---|
| | Axperkan k.<br>Baş Güneypəyə k.<br>Orta Güneytəpə k. |
| 21. Drbon kənd Soveti<br>D r b o n k.<br>Qocoqot k. | 24. Çanyataq kənd Soveti<br>Çanyataq k.<br>Gülyataq k.<br>Manikulu k.<br>Xatınbəyli k. |
| 22. İmarət Qərvənd kənd Soveti<br>İ m r a ə t Q ə r v ə n d k.<br>Zardaxac k.<br>Capar k. | |
| 23. Kolatağ kənd Soveti<br>K ol a t a ğ<br>Damğalı k. | |

**MARDAKERT RAYONU**
**MƏRKƏZİ – MARDAKERT ştq.**

| | |
|---|---|
| 24. Kolatağ kənd iəd<br>K o l a t a ğ k.<br>Damğalı k. | 45. Şurtan kənd iəd.<br>A ş a ğ ı Ş u r t a n k.<br>Orta Şurtan k.<br>Soyuqbulaq k.<br>Yuxarı Şurtan k. |
| 25. Qamışlı kənd iəd<br>Q a m ı ş l ı k.<br>Bağırsaq | 46. Taxtabaşı kənd iəd.<br>T a x t a b a ş ı k.<br>Yenikənd k. |
| 26. Qaraçanlı kənd iəd<br>Orta Qaraçalı k.<br>Baş Qaraçalı k.<br>Xoləzəy k.<br>İmanbinəsi k.<br>Tatlar k. | 47. Təkəqaya kənd iəd.<br>T ə k ə q a y a k.<br>Babaşlar k<br>Bozlu k. |

| | |
|---|---|
| 27. Qılınclı kənd iəd<br>Qılınclı k.<br>Alçalı k.<br>Quzeyçirkin k. | 48. Tirkeşevənd kənd iəd.<br>T i r k e ş e v ə n d k.<br>Qalaboyun k.<br>Qaraxançallı k.<br>Qazıxanlı k.<br>Zərqulu k. |
| 28. Qızılqaya kənd iəd<br>Q ı z ı l q a y a k.<br>Yuxarı Oratağ k.<br>Çopurlu k. | 49. Vəngili kənd iəd<br>Vəngili k.<br>Çormanlı k.<br>Şahmansurlu k. |
| 29. Qozlu kənd iəd<br>Q o z l u k. | 50. Yanşaq kənd iəd<br>Y a n ş a q k.<br>Yanşaqbinə k.<br>Zallar k. |
| 30. Qozlukörpü kənd iəd<br>Q o z l u k ö r p ü k. | 51. Yellicə kənd iəd<br>Y e l l i c ə k.<br>Alolar k.<br>Armudlu k.<br>Həsənlər k.<br>Kaha k.<br>Təkdam k. |
| 35. Lev kənd iəd<br>L e v k. | 52. Zar kənd iəd<br>Z a r k.<br>Bəzirxana k. Hacıdü-<br>nyamalılar k. |
| 36. Mərcimək kənd iəd<br>M ə r c i m ə k k.<br>Ağqaya k. | 53. Zəylik kənd iəd<br>Z ə y l i k k.<br>Hopurlu k.<br>Şeyinli k. |
| 37. Milli kənd iəd<br>B i r i n c i M i l l i k.<br>İkinci Milli k.<br>Üçüncü Milli k. | |
| 38. Mollabayramlı kənd iəd | |

| | |
|---|---|
| M o l l a b  a y r a m l ı  k. | |
| 39. Nadirxanlı kənd iəd<br>N a d i r x a n l ı k. | |
| 40. Narıncılar kənd iəd<br>N a r I n c ı l a r  k. | |
| 41. Sarıdaş kənd iəd<br>S a r ı d a ş k.<br>Güneypəyə k. | |

# KƏLBƏCƏR RAYONU

## Mərkəzi KƏLBƏCƏR şəhəri

| | | | |
|---|---|---|---|
| Ərazisi (kv.km) | 1122,0 | İnzibati ərazi dairəsi | 55 |
| | | Şəhər | 1 |
| Əhalisinin sayı (min nəfər) | 83,9 | Qəsəbə | 1 |
| | | Kənd | 53 |
| Respublikanın paytaxtı Bakı şəhərinədək məsafə (km) | 473 | Ərazi vahidi | 147 |
| | | Şəhər | 1 |
| Yaxın Ağdam dəmiryol stansiyasınadək məsafə (km) | 98 | Qəsəbə | 1 |
| | | Kənd | 145 |



# III BÖLMƏ

# NARINCLAR KƏNDİNİN YARANMA TARİXİ

Kəndin adı, yaranması, əhalinin məskunlaşma tarixi ilə bağlı tarixi mənbə və tədqiqat yoxdur. Bildiklərimiz ağızdan-ağıza, dildən-dilə ötürülmüş, ağsaqqal və ağbirçək sayılan yaşlı sakinlər tərəfindən söylənən şifahi məlumatlara əsaslanır. Sözün yaddaşında yaşayan soy şəcərəsi eldən-elə, arandan-dağa, qışlaqdan-yaylağa, keçə-keçə nəsillərin qanına, sümüyünə işləmişdir. Nəsil tarixi öncə ağsaqqal və ağbirçəklərin sözləri ilə yaranır, elin, dilin yaddaşına həkk olunur. Sinəsi sözlü, köksü dolu Fatma, Bacıxanım, Hava, Günəş, Zərxara, Xədicə nənələrimizdən, Məhərrəm, Hümbət İbrahim, İmran, Cümşüd, Mustafa, Bahadır, Süleyman kişi və başqa ağsaqqallardan toplanmış, atam Dədə Əjdərdə olan materialları yazıya aldıq. Əlalxüsus nəsil şəcərəsi haqqında atam Dədə Əjdərin və anam Ruqiyyə xanımın nəql etdiyi mötəbər məlumatlara istinad edilir. El ağsaqqalı atam Dədə Əjdər Narınclar və narınclılar haqqında fakt və hadisələri toplamaq üçün illərlə zəhmət çəkmişdir.

Narınclar kəndinin yaranma tarixi İsmayıl bəyin adı ilə bağlıdır. O, Qarabağ ellərindən biri olan kolanılar soyunun nümayəndəsi idi. Jurnalist-publisist Ə.Çingizoğlu və tarixçi F.Baxşəliyev kolanılarla bağlı ilk araşdırmalar aparmışlar (9).

## KOLANI ELİ

Qədim-qayım Qarabağın ünlü ellərindən biri də Kolanıdır. Kolanı adını türk dilində kolan - tirə kimi yozanlar var.

A.E.Xanaqov kolanıları Xorasanlı hesab edir. Qıpçaq soylarından biri kolan adlanırdı. (Bax: История, Узбексой ССР, Т.II. Книга 2, ст.455). Buxara əmirlərindən Sübhanqulu xan Caninin (1680-1702) divanbəyisi Əvəz bəy Kolan idi. Rəhim bəy Kolan isə ünlü qıpçaq bəylərindən sayılırdı.

Səfəvilər dönəmində Kolanı eli Qızılbaşlar məmləkətinin hər yörəsində yaşayırdı. Xorasandan tutmuş Xuzistana qədər uzanan torpaqların hansı köşəsinə boylansan, oradan kolanı əri baş qaldıracaq.

1579-cu ildə Kolanı elinin başçısı Əmin bəy idi. Əmin bəydən sonra eli Şahverdi bəy idarə etmişdi.

Səfəvilər hökuməti dönəmində, 1620-ci ildə Zəncan vilayətini Gədayi sultan Kolanı idarə edirdi.

1654-cü ildə Dərələyəz mahalının Hurmeşin kəndinin yiyəsi Səfiqulu bəy Kolanı idi. Onun vəfatından sonra oğlu Əruz xan mülklərinə yiyəlik etmişdi.

Qarabağda Tərtər və Xaçin kolanılarından ibarət iki qrup vardı. Qarabağ kolanılarından bizə ilk məlum olanlar - Hüseyn bəyin oğulları Məhəmmədxan bəy və Həsənxan bəydir. Qardaşlar XVIII yüzilin birinci yarısında Osmanlılar Qarabağın bir neçə kəndini idarə edirdilər.

Kolanı eli Gərravənd, Şıxavənd, Sırxavənd, Papravənd və başqa oymaqlara ayrılırdı.

Kolanılar Dəmirlər, İmarət Qərvənd, Çərəktar, Umudlu, Qaralar, Şıxavənd, Sirxavənd, Bruc, Əliağalı, Xaçın-Dərbətli, Çıraqlı, Hacı Qərvənd, Papravənd, Əlimədətli şenliklərində yaşayırdılar.

Kolanı mahalı xanlıq dönəmində yaranıb. Tarixən Uşacıq kəndindən Tərtər çayı boyu, Göyçə sərhəddinə qədər uzanan ərazidə məskunlaşmış kolanılar zaman-zaman Çuxur Səd, Qarabağ bəylərbəyiliyinə bağlı olmuşlar. Pənahəli xan bu camaatı birdəfəlik Qarabağa aid etdi. Kolanı başçılarından İman bəy Allahveys bəy oğlu Gərravənd ilk Qarabağ xanına xidmət etmişdi.

İbrahimxəlil xan Sarıcalı-Cavanşirin hakimiyyəti dönəmində tanınmış kolanı bəyləri: Əli bəy Sədir bəy oğlu Gərravənd, Qələndər bəy Sədir bəy oğlu Gərravənd, Lələ bəy Əmirxan bəy oğlu Gərravənd, Turab bəy Çıraq bəy oğlu Gərravənd, Teymurxan bəy Allahveys bəy oğlu Gərravənd, İsaxan bəy Allahveys bəy oğlu Gərravənd, Tanrıqulu bəy Umud bəy oğlu Gərravənd, Novruz bəy Umud bəy oğlu Gərravənd, Mirzə Həsən bəy Ata bəy oğlu Şıxavənd, Qəhrəman bəy Şərif bəy oğlu Şıxavənd, Bayraməli bəy Sirxavənnd, Kazım bəy Papravənd və başqaları.

Mehdiqulu xan Kolanı camaatına inanır, arxalanırdı. 1822-ci ildə İrana qaçarkən özü ilə Kolanı camaatından xeyli adam götürmüşdü. Qaçqınlıqda olarkən məsləhətləşdiyi ruhanilərin arasında Molla Əskər Vəli oğlu Sirxavənd-Kolanı və Molla Mustafa Mustafa oğlu Şıxavənd-Kolanı da vardı. Cilovdarı İsmayıl bəy Qəhrəman bəy oğlu Kolanı idi. Qasidi isə Əliməhəmməd Zaman oğlu idi.

Mehdiqulu xanla İrana qaçan adlı-sanlı kolanılar: Ağa bəy Həsən bəy oğlu Şıxavənd, Mirzəxan bəy Qara bəy oğlu Şıxavənd, Qaytaran bəy Qəhrəman bəy oğlu Şıxavənd və başqaları.

Mahalın ərazisində Kolanı elinə daxil olan obalar qərar tuturdular. Bu obaları sıralayaq: Gərravənd-I, Gərravənd-II, Gərravənd-III, Şıxavənd, Papravənd, Sirxavənd...

İsmayıl bəyin həyatı və fəaliyyəti XIX yüzillikdə Çar Rusiyasının işğalı, eləcə də müstəmləkə rejimi dövrünə təsadüf edir. O, irsi bəylik hüququna malik idi. Ata babaları bəylik ənənəsini davam etdirmişlər. Əhalinin sosial tərkibində bəy kateqoriyasının təsnifi müəyyən meyarlarla aparılırdı. Tofiq Mustafazadə “Qarabağ xanlığı” əsərində yazır”: Bəylər və melikləri üç əsas kateqoriyaya bölmək olar:

1) Öz rütbəsini Səfəvi şahları və Osmanlı sultanlarından almış və bu barədə müvafiq fərmanı olan irsi bəylər və məliklər.

2) Qarabağ xanlarının təliqəsi ilə kənd, mahal, məliklik və s. bağışlanması ilə birlikdə bu adı almış bəylər.

3) Hər hansı inzibati-təsərrüfat vahidini təliqə olmadan müvəqqəti yaxud irsi idarə edən bəylər”.

Tarixi ədəbiyyatda Səfəvilər və Osmanlı dönəmində kolanı elinin başçılarının kimliyi qeyd olunub. Qarabağ kolanılarının bəylərindən biri olan İsmayıl bəy adlı-sanlı şəxs idi. Onun nəsil şəcərəsindən qalan irsi mülkləri var idi. Ağdamın İsmayılbəyli kəndi onun adını daşıyır. Çar Rusiyası dövründə İsmayıl bəy nəsil şəcərəsindən qalan irsi mülkləri saxlayırdı.

İsmayıl bəy ata və ana tərəfdən bəylik hüququnun irsi daşıyıcısı idi. Dədə-baba mülkiyyətinə varis kimi vərəsəliyi çatırdı. İctimayi quruluşun sosial təbəqələşməsinə əsasən, irsi mülkiyyətində olan kənd, obaları vərəsəliklə idarə edirdilər. Kolanı İsmayıl bəy öz növbəsində, atasının mülklərinə, var-dövlətinə rəhbərlik edirdi. Bu

sahədə jurnalist-etnoqraf Ə.Çingizoğlu araşdırma materiallarının müəllifidir.

II Ağa bəy Qarabağda bin tutub, buta bağlayan Kolanı elinin Şıxavənd oymağının Ağabəyli tayfasına bağlıdır. Onun mənsub olduğu oymaq və tayfa özünü Şah İsmayıl Səfəvinin nəslindən sayırdı. Maraqlıdır ki, Kolanı elində soy duyğusu çox güclü idi.

II Ağa bəyin babası Ağa bəy XVIII yüzilliyin önlərində Qarabağın Kolanı mahalının Şıxavənd oymağında yaşamışdı. Oymaqbəyi, obabaşı idi. Şıxavənd obasını yaylaq-qışlağa, döyüşlərə aparırdı.

Ağa bəyin Həsən bəy adlı oğlu var idi.

Atası Həsən bəy Ağa bəy oğlu XVIII yüzilliyin ortalarında yaşamışdı. İbrahimxəlil xan Sarıcalı-Cavanşirə qulluq etmişdi.

Həsən bəyin Ağa bəy, Əli bəy, Məhəmməd bəy və Əhməd bəy adlı oğlanları vardı.

II Ağa bəy Həsən bəy oğlu XVIII yüzilliyin sonlarında, XIX önlərində yaşamışdı. İbtidai təhsilini molla yanında, orta təhsilini mədrəsədə almışdı. Qarabağ hakimi Mehdiqulu xan Sarıcalı-Cavanşirin hakimiyyəti dönəmində (1806-1822) Kolanı mahalının naibi olmuşdu. Qarabağda naiblər iri feodallardan, köklü hərbi-köçəri əmirlərdən təyin olunurdular.

II Ağa bəyin igidliyini, xidmətini nəzərə alan xan, Xaçın mahalında qərar tutan Aqmahı kəndini ona bağışlamışdı.

II Ağa bəy Mehdiqulu xanla bərabər İrana qaçmışdı. Bir müddət Qacarlar dövlətinə bağlı olan Dərəlyəz mahalında yaşamışdı. 1827-ci ildə qayıdıb doğma obasında yaşamışdı.

II Ağa bəy rus üsul-idarəsi dövründə mülkədar kimi kənd və rəiyyətlərini idarə etməklə güzəran keçirmişdi. Qarabağ şairlərindən Baba bəy Şakir və Qasım bəy Zakirlə dostluq edirdi.

Rus üsul-idarəsi dönəmində Kolanı mahalı Cavanşir qəzasının tərkibinə qatıldı. 1831-ci ildə Əmiraslan bəy Sarıcalı-Cavanşiri mahal naibi təyin etdilər.

Baba bəy Şakir yazırdı:

Ey Kolanı, yanıram mən sizin əhvalınıza,
Qəmər Əqrəbdə imiş, ilan çıxıb falınıza,
Mindiribdir köpəyi qısqırıban dalınıza,
Qapınızda nə ki, var, qəsd edərək malınıza
Söyərək ardınızı, sonra sizə dan gəlir…

II Ağa bəy Niftalı bəyin qızı Hüsnücahan xanımla ailə qurmuşdu. Bala bəy, İsmayıl bəy, Cəfərqulu bəy, Abbasqulu bəy və Hüseynəli bəy adlı oğlanları, Şamama xanım və Fatma xanım adlı qızları vardı.

İsmayıl bəy Kolanı

İsmayıl bəy Kolanı elinin Şıxavənd oymağının ağabəylilər tayfasına mənsubdur. Atası Ağa bəy Həsən bəy oğlu, anası Hüsnücahan xanım Niftalı bəy qızı idi.

II Ağa bəyin ikinci oğlu İsmayıl bəy 1809-cu ildə Kolanı mahalının Şıxavənd obasında anadan olmuşdu. Molla yanında oxumuşdu. Ata mülkünü idarə etməklə güzəran keçirirdi. Qarabağın böyük mülkədarlarından sayılırdı.

İsmayıl bəy Əhməd bəyin qızı Fatmanisə xanımla dünya evinə girmişdi. Ağa bəy, Rüstəm bəy, Qəhrəman bəy, Xanlar bəy adlı oğlanları, Ayna xanım adlı qızı vardı.

III Ağa bəy İsmayıl bəy oğlu 1837-ci ildə Kolanı mahalının Şıxavənd obasında dünyaya pənah gətirmişdi. Heyvandarlıqla, qismən də əkinçiliklə məşğul olurdu.

İsmayıl bəyin ikinci oğlu Rüstəm bəy 1844-cü ildə Şuşa qəzasının Çiləbörd sahəsinin Şıxavənd obasında anadan olmuşdu. Heyvandarlıqla, qismən də əkinçiliklə məşğul olurdu.

İsmayıl bəyin üçüncü oğlu Qəhrəman bəy 1847-ci ildə Şuşa qəzasının Çiləbörd sahəsinin Şıxavənd obasında anadan olmuşdu. Heyvandarlıqla, qismən də əkinçiliklə məşğul olurdu.

İsmayıl bəyin dördüncü oğlu Xanlar bəy 1865-ci ildə Şuşa qəzasının Çiləbörd sahəsinin Şıxavənd obasında anadan olmuşdu. Heyvandarlıqla, qismən də əkinçiliklə məşğul olurdu.

İsmayıl bəy Xaçın mahalında Aqmahı kəndinə, Kolanı mahalında bir neçə obaya və rəyyətə başçılıq edirdi. Sonralar qohum-əqraba və

rəiyyətlərinin bir hissəsini başına yığıb mahalın dağlıq hissəsində bir şenlik saldı. Şenlik sonralar onun adıyla İsmayılbəyli adlandı.

İsmayıl bəy ömrünün son çağlarında oğlu Xanlar bəy və vaxtsız-vədəsiz vəfat etmiş Qəhrəman bəyin oğlu Nəriman bəylə qalırdı.

İsmayıl bəyin əmisi Əlihümbət bəyin uşaqları da onun ətrafında yaşayırdılar. Bunlar: Fərzalı bəy Əlihümbət bəy oğlu və oğlanları-Sadıq bəy, Hüseyn bəy, Baxşalı bəy Əlihümbət bəy oğlu və oğlanları-Mehralı bəy, Mirzalı bəy, Əli bəy, Qurban bəy imişlər.

İsmayıl bəylə bağlı el arasında xeyli rəvayət çavlanır. İsmayıl bəy bu rəvayətlərdə öz comərdliyi, igidliyi, şücaəti və yenilməzliyi ilə rəvayət qəhrəmanına çevrilib. Onlardan biri.

"Deyirlər ki, İsmayıl bəyin Narınc adlı bir qızı olubdu. İsmayıl bəyin nökəri Rüstəm Narıncı götürüb qaçır yuxarı obalara. Bir müddət bir yerdə yaşıyıllar, onnarın iki uşağı olur. İsmayıl bəy də həmişə dağa-arana gedib gəlirmiş. Bir gün o tərəflərə gələndə gəlin uşaqlara örgədir ki, yenin yolun qırağına, babanız gələcək. Babanız gələndə sizdən soruşacaq ki, ay bala, kimsiniz? Onda deyin ki, baba, biz sənin nəvələrinik, bu meşənin başında yaşıyırıq. Bunlar belə deyəndə İsmayıl bəy düşür atdan uşaqların üzünnən öpür. Deyillər, baba, yerimiz-yurdumuz yoxdu, bizə yaşamağa yer ver. İsmayıl bəy əlin belə uzadır deyir, ay bala, Taxtabaşınnan Çıraqlı arasına qədər yeri verdim sizə". O kəndin bünövrəsi Narışdan olub, kənd ona görə Narışdar adlanıb. Narışdarda dörd-beş nəsil var: usublar, novruzdar, fərzalılar, baxşalılar.

İsmayıl bəyin qohumlarından olan Fərzalı bəy eşidir ki, İmarət Qərvənddə Zeynəb adında dul qadın var. Fərzalı bunu gətirir dədəsi Məmmədalıynan evləndirə. Zeynəbin də yanında bir oğlu olur, adı Usub olur. Onda da Usubun beş-on yaşı olardı. Fərzalı deyir, elə bu Usubu da aparım, irilənəndə quzuya göndərərəm. Atın tərkinə alır, gətirir Narışdar kəndinə. Usub böyüyəndən sonra onu Fatma adında bir qızla evləndirir, ondan da Məhərrəm, Məhəmməd, Hümmət törəyir. İndi həmin nəsil Usublar kimi tanınır. Novruzdarın da əsli Laçının Şamkəndindəndir. Novruzun atası Tahir, Tahirin də atası Məcnun olub. Novruz Güldəstəni götürüb qaçıb Laçına. Bir müddət

Laçında qalannan sonra Güldəstə ilə birlikdə gəlib Narışdarda məskən salır.

M.S.Ordubadi “Qanlı sənələr” əsərində yazır: ” Cavanşir uyezdi 3 polis sahəsinə bölünərək idarə olunmaqdadır:

1 və 2-ci sahələrdə Həsənqaya, Sərv, Yarımca, Sistula, Kaxrılar köylərini çıxdıqdan sonra yerdə qalan köylər islamlara məxsusdur. Bu iki sahə bir-birinə ilhaq və bir-birinə tabe edilib ən nüfuzlu, ən qüdrətli camaahatı islamlardan ibarətdir.

3-cü sahə isə Dağbasar köylərindən ibarət olub əksəriyyətlə varlı və sərvət sahibi olan ermənilərin əlində idi. Bu sahədə islam köyləri fəqət Dəmirli, Hacıqərvənd, Çıraqlı, Umudlu, İmarət Qərvənd,Xaçın çay boyunca Şəxavənd, Köynəpay, Əliağalı, Sırxavənd, İsmayılbəyli kimi dağlıq köylərindən ibarətdir ki, Kolanlar adlandırılmışdır.”

Kolanı elinin canlı tarixi, zəngin həyat yolu keçmiş Tapdıq Qaraşov ( 1924-cü il təvəllüdlü) İsmayıl bəylə bağlı ağsaqqallardan eşitdiyi söhbətləri nəql etdi. Ələxsus İsmayılbəyli kəndi, İsmayıl bəyin meşəsi, mülkləri, varidatı,nəvələri Musa bəy, İsa bəy, nəticələri Məstan və Ağa bəydən söhbət açdı.

Kolanı elinin canlı tarixi Tapdıq Qaraşovun verdiyi məlumata görə, 1905-1906-cı illərdə erməni-azərbaycanlı davasında Kolanı İsmayıl bəyin nəvəsi Musa bəy fəal iştirak etmişdir. Belə ki o, ermənilərə qarşı silahlı dəstə yaratmışdır. Musa bəyin rəhbərliyi altında kolanı igidləri aynalı tüfəng, türk mahuzeri ilə silahlanaraq savaşırdılar. Musa bəyin dəstəsi Xankəndi və Ağdərədə yerləşən erməni kəndlərində rəşadətlə vuruşmuşdular. Musa bəy deyərmiş görək bir patrona neçə erməni daşnakını öldürmək olar. O, el-oba arasında cəsurluğu ilə tanınırdı. Yeri gəlmişkən onun yaxın silahdaşlarından biri Dirvəli Qubadoğlu Məhəmməd olmuşdur.1905-1906-cı illərdə erməni-müsəlman münaqişəsi ilə bağlı qısa tarixi arayışa nəzər yetirək.

Rusiyada xalqlar bir birinə qarşı qoyulur, milli ləyaqətləri təhqir edilirdi. İstənilən vaxt millətlərarası münaqişə yaratmağa qadir olan çarizm 1905-1907-ci illərdə Azərbaycanda dövlət səviyyəsində hazırlanan milli qırğın törətdi. Hökumətin milli qırğın siyasətinin həyata keçirilməsində Daşnaqsütun partiyası və erməni terrorçuları

həlledici rol oynadı. Milli qırğın nəticəsində 158 müsəlman kəndi dağıdıldı.

"Böyük Ermənistan" niyyətinə düşən ermənilər Rusiyanın köməyi ilə Cənubi Qafqazda muxtariyyət almağa ümid edirdilər. Onlar hər vasitə ilə azərbaycanlıları dogma yurdlarından didərgin salmağa çalışırdılar.

Buna baxmayaraq, bir sıra kəndlərdə erməni terror dəstələrinin hücumlarının qarşısı alınmış, əhali onları geri çəkilməyə məcbur etmişdir. Şuşada törədilən milli qırğının qarşısı alınaraq döyüş azərbaycanlıların qələbəsi ilə başa çatdı.

Bütün bölgələrdə ermənilərin təcavüzkarlığının qarşısının alınması, düşmənin ciddi itkilərə məruz qalmasının səbəbləri bunlar idi:

1. Azərbaycanlı gənclərin cəsarəti və igidliyi;
2. Əfsanəvi qaçaqların ermənilərlə döyüşdə hərbi rəşadət göstərməsi;
3. H.Z.Tağıyev başda olmaqla, Azərbaycan sahibkarlarının əhaliyə ərzaq və maliyyə yardımı göstərməsi;
4. Osmanlı Türkiyəsindən və Azərbaycanın güneyindən könüllülərin köməyə gəlməsi və s.

Narınclar kəndinin və camaatının təşəkkülü İsmayıl bəylə bağlıdır. Kəndin adı İsmayıl bəyin qızı Narınc xatunun adından götürülmüşdür. Kəndin yerləşdiyi coğrafi ərazi İsmayıl bəyin mülkü olub. O, Rüstəmlə ailə quran qızına kənd ərazisini cehiz verib.

Rüstəm Kolanı elinin Qalayçılar kəndində yaşamışdır. Qalayçılar Şükür kişinin oğlu dəmirçi Surxay Boyəhmədli kənd məktəbində oxuyan uşaqlardan Məhərrəm babamın övladlarının (Əşrəf əmim və atam Əjdər) burada təhsil aldığını öyrənir. Şükür kişi öz evində söhbət əsnasında Rüstəmin onların qohumu olduğunu bildirir.

O zaman camaat qızdırma ilə əlaqədar erkən yazda yaylağa köç edərdilər.Kimin əkin yeri vardısa, başqasının taxılını biçib on dərzdən biri özünə düşürdüsə, onlar kənddə qalırdılar. Rüstəmgil də kənddə qalırdı. Uşaqlıqdan atasının az sayda qoyun-keçisini otarırdı. O, dəfələrlə heyvanları itirdiyi üçün atası onu tez-tez danlayardı. Bir dəfə itirdiyi heyvanları gecə çox axtarsalar da tapa bilmirlər. Atası tərəfindən şiddətə məruz qaldığından bir yolla qaçır ki, Narıncların

yanındakı yaylaqda olan qohum-əqrabasının yanına getsin. Yol Xacın çayı istiqamətilə gedib yolayrıcı deyilən yerdən biri Taxtabaşına, biri Kolanının yaylaqları tərəfə gedir. Rüstəm yolda bir karvana rast gəlir. Karvanda olanlar bir yeniyetmə oğlanın ağzı-burnu qan içində yol getdiyini görürlər. Karvanbaşı onun kimliyi, hara getdiyi, indiki vəziyyəti ilə bağlı sorğu-sual edir. Sağalmasına kömək edib atasına təhvil verəcəyini deyəndə o razılaşmır. Belə olduqda Rüstəmi özləri ilə gətirirlər. Onun (təxmini yaşı 15-17 yaş arası) sağlamlığı, fiziki möhkəmliyi, çevikliyi və mülayimliyi diqqəti cəlb edir.

Rüstəmin taleyində dönüş yaradan bir hadisə baş verir. Belə ki, o, möhkəm soyuqdəymədən sətəlcəm olur. Hərarəti qalxır huşsuz halda uzandığı vəziyyətdə qalır. Karvanbaşı qayıdanda onun bu halından anlaşılmazlığa düşür. Rüstəmi qan içində görüb ölmüş bilib gedirlər. Müəyyən vaxt sonra o, birtəhər özünə gəlir. Halsız, heysiz halda sürünə-sürünə Mama aşırımdan ciğır yolu ilə Qarabağa gəlir. Taxtabaşında Narıncların dəyirmanı adlanan yerdə yol haçalanır (bu məkanda Əli körpüsü deyilən yer də var). İndiki Narınclar olan əraziyə çatanda İsmayıl bəyin adamları onu bəyin yanına gətirirlər. Bəyin həyat yoldaşı onu xalq təbabəti ilə müalicə edir. Tədricən Rüstəmin səhhəti yaxşılaşır. İsmayıl bəy ondan soruşur:

- Ay bala, sən kimsən? Niyə bu vəziyyətdəsən?

Rüstəm başına gələnləri olduğu kimi danışır. Bəy ona sağalandan sonra atasının yanına yola salmaq fikrini bildirir. O, bundan imtina edib qalmağa üçün rüsxət istəyir. İsmayıl bəy və ailəsi onu yaxşı keyfiyyətlərinə görə (təmizkarlığı, qoçaqlığı, ədəb-ərkanı və s.) yanında saxlayıb müəyyən işlər tapşırırlar.

Şifahi bilgilərə görə, İsmayıl bəyin oğlu inqilabi hərəkata fəal qoşulduğundan cəzalanaraq sürgün olunur. Bu hadisədən məyus olan, xiffət çəkən bacısı Narınc Allaha duasında əhd olaraq niyyət edir ki, qardaşım salamat qayıtsın, bir nökərə ərə gedəcəm. İlahi qismətdən qardaşı vətənə döndükdən sonra Narınc əhdinə sadiq qalaraq, Rüstəmi bəyənir. Rüstəm bu məsələdən agah olduğu üçün bir-biri ilə gizli ünsiyyət qururlar. Narınc qoşulub qaçmaq qərarından sonra sığınacaqları ünvanı müəyyənləşdirirlər. Narınclardan 4 km aşağıda yerləşən qalın bir meşəlik seçilir. Həmin talada (indiki Məm-

mədalı düşən binə) bir bulaq da var idi. Burada Rüstəm bir zağada yer düzəldir. Çətinliklərə rəğmən, şərait yaratdıqdan sonra gecənin bir vaxtı Narıncı həmin yerə gətirir.

İsmayıl bəy vəziyyəti bilən kimi çapar vasitəsi ilə hökumətə şikayət edir. Pristavın axtarışı heç bir nəticə vermir.

Bir müddət sonra Rüstəm və Narınc barışıq üçün bir tədbir görürlər. Odur ki, uşaqlarından ikisini (7-8 yaşlarında) yaxşı geyindirir, başına papaq, ayaqlarına təzə çarıq, əllərinə xırda bər-bəzəkli çomaq verirlər. Binədən aşağı yolun qırağında bir tala var idi. Talada 2 m civarında iri bir soldaş qoyulmuşdu. Məmmədalı binəsindən gələn yolla Vəng tərəfdən yenişnən, indiki Narınclara tərəf gələndə kiçik bir yoxuş çıxır. Rüstəm öyrənir ki, İsmayıl bəyin köçü ordan nə vaxt keçəcək. Köç önündə bəy öz ətrafı ilə, arxasınca xanımlar, qulluqçular gedirmiş. Atların yəhəri qazağı, sürüsünü xanımların atının yəhərinin irəli və geri sağrısını örtən qırmızı, yaşıl, göy parçalardan düzəldilmiş basmalar, kənarı gözmuncuğu, qırmızı qotazlarla bəzədilmiş olurdu. Hətta uşaqlara İsmayıl bəyin atının rəngini (kürən mil qaşqa) təsvir edirlər. İsmayıl bəy həmin yoxuşdan çıxanda uşaqlar, atının ayaqlarını qucaqlayıb deyirlər.

- Ay baba, ata-anamızı bizə bağışla. Qalmağa yer-yurdumuz yoxdur.

Uşaqların bu davranışına bəy mat qalır, onları qucağına alıb sorğu-suala tutur,  vəziyyətdən halı olan Bəy kövrəlir, uşaqların onların könlünü alaraq, yaxşı, onları nəvələrimə bağışladım – deyir – dədə-baba adəti ilə, dinimizə uyğun barışıq olacaq. “Ay bala, Taxtabaşından Çıraqlı arasına gedən yeri verdim sizə”. Şad xəbərdən sevinən Rüstəm və Narınc barışığa hazırlaşırlar. İsmayıl bəy də ustalara Narınclar kəndində muxuru alacıq hazırlatdırır.

**Haşiyə**. Muxuru alacıq haqqında məlumat.

Yaylaq ev tipi olan muxuru alacığın hazırlanma prosesi mükəmməldir. Muxuru alacığın hissələri bunlardır: Təxminən 1 m diametri olan çənbərə, çənbərənin çevrəsinin içərisində çubuq keçirmək üçün dəmir ilgəklər, diaqonalın kəsişdiyi yerdə dirək keçirmək üçün dəlik olur. Təxminən 2,5-3 m uzunluqda dirəkdən, orta hesabla, 30 çubuqdan və çətəndən istifadə olunur. Qəlibləri, formasına görə, yan və baş kecə adlanır. Alacığın hündürlüyü 2.5-3m olmuşdur. Çubuqlarının uzunluğu təxminən 4.5 m olur. Muxru alaçığın çubuqları qara evin yaxud qara kecənin (iki mənada işlənmişdir. Birincisi "Böyük ev" mənasında, ikincisi isə alaçıqların içərisində qalanan ocaq keçəni qaraldır və qəlibinin rənginə görə qara ev adlanmışdı) çubuqları kimi əygiyə verilib düzəldilir. Təxminən çubuğun 1.5 m hissəsi düz saxlanılır. Evin eni nəzərə alınmaqla qalan hissəsinə qövsvari forma verilir. Alacığı tikəndə əvvəlcə dirək yerə basdırılır. Dirəyə çöşkü ağacıda deyilir. Cənbərə dirəyin başına keçirilib bərkidilir. Sonra çubuqların yuxarı ucunu cənbərənin ilgəklərinə keçirir, ayağını azacıq dərinlikdə yerə sancırlar. Bütün çubuqlar başdan cənbərəyə keçirilib qurtardıqdan sonra ayaqdan nizamlanır və möhkəm yerə sancılır. Qəlibin örtülməsi qara evdə olduğu kimidir. Yeri nəmənd xalça və kilim ilə döşənilirdi, divarına xalça asılırdı. Alacığın arxa tərəfindən yatacaq paltarı və digər ev əşyaları üçün yük yeri düzəldilir. Yük yeri nərdə ilə ayrılırdı. Muxuru alacıq varlı təbəqəyə aid ev tipi idi.

İsmayıl bəy yaylağa çıxmış Qarabağ elatlarının ağsaqqallarını, ruhanilərini məşvərət məclisinə dəvət etmək üçün tədbir tökür. Bu yığıncağın təşkili müəyyən vaxt tələb edirdi. Birincisi, o zaman (XIX yüzillik) nəqliyyat vasitəsi at idi. İkincisi, yaylağa köçərkən bir neçə istiqamətdə köç və karvan yollarının coğrafi məsafələrdə yerləşməsi. Üçüncüsü, köç yollarının çay sahillərindən, meşə ətəklərindən və dağların münasib yerlərindən boran zamanı əhalinin və heyvanların mühafizəsi üçün təbii sığınacaqları olan məkanlardan keçməsi.

**Haşiyə.**

Gənc nəslimizə unudulmaqda olan köç və karvan barədə məlumat vermək istərdim. Belə ki, yurd, yer adları olan toponimlər vətənimizin, mədəniyyətimizin və milli kimliyimizin mühüm meyarlarından biridir.

Tarixci-etnoqraf X.D.Xəlilov Qarabağ etnoqrafik əyalətinin yaylaq və qışlaq mədəniyyətini öyrənmişdir (10). Elmi araşdırmalardan qənaətə gəlinir ki, məkan adları Azərbaycan mənşəli toponimlərdir.

Qarabağ elatları yaylağa koçərkən dörd istiqamətdə köç və karvan yollarından istifadə edirdilər:

**I. Murovdağ yaylaq köç yolları:**
1) Talış kəndi – Keçəldağ – Murovdağ silsiləsi – Səbətkeçməz – Sinar – Kötüklü. 2) Həsənriz – Kötüklü yolu. Kötüklüdə yol iki qola ayrılır. a) Bir qol Qara göl yaxınlığından keçib Həmilə – Çəmən – Eşşəkmeydanı – Yalyurd –Təkyədərəsi –Ayrım kəndindən keçib Murovdağın qərbinə çatırdı; b) ikinci yol yenidən iki qola ayrılırdı: Davıtlı – Çöplügöl – Qanlıgöl ətrafından keçib Ayrım ərtafı otlaqlara çatırdı: digər yol Yanşax – Susuzlux – Maraldamdan keçib Söyütlü yaylağına çatırdı; c) Murovdağın üçüncü köç yolu Gəncədən başlanan Bənövşəli – Tanqaryoxuş – Ayrım yoludur.

**II. Yuxarı Tərtər yaylaqlarına dörd köç yolu olmuşdur:**
1) Xacnik – Dovşanlı – Taxta yolu; 2) Çardaxlı – Sərsəng – Həsənriz yolu; 3) Canyataq və ya Uluqarabəy – Hənənriz yolu. Göstərilən üç yol Tərtər çayının yuxarı axarında birləşib, Baştıbelə çatır, Dəlidağı zirvəsinə yüksəlir, Bağarsıq dərəsinə, Alagöllərə enir, İsti su terrasına çatır, bir qolu Qaraarxac yaylağına çatır, cənub-şərq tərəfdən Zəngəzur köç yolları ilə birləşir. Digər yol şimal-qərbdən Yeni Bəyazid – Şərur– Dərələyəz yaylağına çatır, cənub qolu Ayıcınqılı – Qızıltəpə – Məxtökən yaylaqlarına çatır. 4) Dördüncü Talış – Qaranlıx – Düzyurd – Meydançala – Soltanheydər – İstisu yoludur.

**III. Zəngəzur yaylaqları köç yolları:**

1) Hocaz – Ağkörpü – Qatırdaşı – Dəliçay dərəsi – Soltanheydər; 2) Ağ körpü – Çöplü göl – Qulalı – Lülpər – Soltan Heydər; 3) Mirkənd – Kilsəli – Çöplügöl – Bazarçay; 4) Gəyən – Yazılar – Gorus – Üçtəpə – Korbulaq – Şəki – Əngələvid – Bozarçay; 5) Bəsit çayın sol sahili il Xüstun yaylağı yolu; 6) a) Həkəri – Bərgüşad – Çandurçay – Qatar-Qapan dərəsi; b) Çayzəmi – Bərgüşad köç yollarldır; c) Ərövsə – Ərikli – Biçənək.

**IV. Qırxqız – Kirs – Sarıbaba, Kirs – Ziyarat rayonlarının əsas köç yolları:**

1) Bölğu – Xəlfəli – Şiran – Qırxqız. 2) Meydan – Sağsağan meşəsi – Bədirə – Qırxqız. 3) Kiçik Kirs, Kirs – Ziyarat – Çanaxçı meşəsi – Elli dağ.

XIX yüzilliyin 80-ci illərində Qarabağ etnoqrafik əyalətini araşdıran M.A.Skibitskinin əsərində yaylaq yurdlarının siyahısı verilmişdir.

## QARABAĞIN YAYLAQ YURDLARI

(M.A. Skibitskinin əsərində verilmiş siyahı üzrə) (11)

BİRİNCİ MUROV DAĞ RAYONU

| | | | | |
|---|---|---|---|---|
| Ağ çınqıl | Bədir bəy | Bəzirgan | Qapanlı | Ağ çınqıl |
| Qonur | Bədir bəy | Qanlı göl | Hinal dağ | Söyüdlü çay |
| Bədir bəy | Susuzlux | Həmzə çəməni | Qonur | Meydan çay |

## İKİNCİ  MUROV DAĞ RAYONU

| | | | | |
|---|---|---|---|---|
| Kamış | Kötüklü | Palan dağ | Murov | Cəkən yurd |
| Həmzəçəməni | Kötüklü | Qızıl arxac | Arqır bulaq | Keçəl dağ |
| Həmzəçəməni | Turan çay | Qara qayl | Şıppırlı yurd | Keçəl dağ |
| Kötüklü | Dik daş | Murov | Qaranlıx | Göy təpə |
| Davıtlı | Subatan | Tövlə talası | Çəkən yurd | Dik daş |
| Qara göl | Düz yurd | Murov | Sinar | Murov |
| Palan dağ | Sarımsaxlı | Murov | El yurdu<br>Cəkən yurd | Sinar<br>Keçəl dağ |

## BİRİNCİ BÖLGÜ YUXARI TƏRTƏR RAYONU

| | | | | |
|---|---|---|---|---|
| Sarımsaxlı<br>Çiçəkli | Köç dağ<br>Qonur yal | Ağ baba<br>Qızıl yoxuş | Alagöllər<br>Mehti bəy yurdu | Əyri çay<br>Şırşır bulaq |
| Çirikin<br>Köç daşı | Eşşək uçan<br>Yurd | Dəmirli yal<br>Xoça yurdu | Ala göllər<br>Qırmızı təpə | Dəli dağ<br>Dəli dağ<br>Çilkiz |
| Yal yurd<br>Qonur başı<br>Yuxulu | Dəli dağ<br>Mıxtökən<br>Möxtökən | Ay doğan<br>Alagöl<br>Böyük çınqıl | Qurbağalı<br>Kəndli<br>Qara arxac | Cərgə taya<br>Xırmantəpə<br>Alaqaya |
| Yelli gədik<br>Yağlı bulaq<br>Qara güney | Qala boynu<br>Çilgiz<br>İldırımvuran | Xaçın<br>Ala qaya<br>Mamayoxuş | Qara arxac<br>Qızıl təpə<br>Dəvə gözü | Ağca qız<br>Ket<br>Sarəmsaxlı |
| Ağ yataq<br>Dibçəkli | Kilsəli<br>Qırmızı qaya | Xaxın<br>Moz | Dəvə gözü<br>Dəvə gözü | Ayı çınqılı<br>Qonur |

# İKİNCİ BÖLGÜ YUXARI TƏRTƏR RAYONU

| | | | | |
|---|---|---|---|---|
| Yarıtmaz | Bol bulaq | Dəli dağ | Uzun yol | Mehtabxan |
| Bol bulaq | Qara arxac | Bağarsıq | Qız kəbir | Bağarsıq |
| Baş yurd | İsti su | Aqca qızı | Uzun yol | İsti su |
| Ket dağı | Dəli dağ | Qonur yol | Qara arxac | Ayı çınqılı |
| Gödək | Bağarsıq | Qoşa daş | Sarımsaxlı Qara ardıc | Sultah heydər Ket dağı |

# ŞİMALİ QƏRBİ ZƏNGƏZUR RAYONU

| | | | | |
|---|---|---|---|---|
| Yeddi bölük | Lülpər | Muxtar talayan | Dərə yurd | Üç təpə |
| Dəli dağ | Lülpər | Şırşır | Baş yurd | Sultan heydər |
| Dəli dağ | Lülpər | Şırşır | Sümüklü | Molla Güllü |
| Dəli dağ | Lülpər | Dərə yurd | Qonaqgörməz | Üç təpə |
| Lülpər | Alagöz | Təpəsi dəlik | Kəbirli | Qaranlıq |
| Dəli dağ | Qara göl | Ocaxlı | Kəbirli | Sultan heydər |
| Qatır daş | Həşimli | Qısırdağ | Sümüklü | Əyri su |
| Lülpər | Dəvə gözü | Südlü bulaq | Dərə yurd | Uzun yal |
| Sultan heydər | Dəvə gözü | Qısır | Qalaxçı | Qırmızı təpə |
| Dəli dağ | Arxaşan | Qısır | Qalaxçı | Pəri çınqılı |
| Lülpər | Dəvə gözü | Qonaqgörməz | Yal yurd | Yağlı Güney |
| Sultan Heydər | Dəvə gözü | Ağ daban | Yal yurd | Uzun yal Muxurtalayan |
| Lülpər | Bazarçay | Tövlə çuxur | Dərə yurd | Quzqunlu |
| Dəli dağ | Lülpər | Ağ daban | Qızıl qaya | Molla Güllü |
| Darbənd | Lülpər | Çınqıllı | Ax-yənarax | Uzun yal |
| Darbənd | Qara göl | Yurd | Dərə yurd | Uzun yal |
| Qaranlıx | Qara göl | Ağ daban | Sümüklü | Üç təpə |
| Qatır daş | Əyri çay | Ağ daban | Ağ daban | Molla güllü |
| Dəli dağ | Qızılboğaz | Ağ daban | Dərə yurd | Muxurtalayan |

| | | | | |
|---|---|---|---|---|
| Darbənd | Pəri çınqılı | Sümüklü | Ağ daban Qəlbi yurd | Qara göl Qotur-istisu |
| Yeddi bölük | Yağlı güney | Sümüklü | Ağ daban | Qızıl boğaz |
| Qülalı | Alakgöllər | Ağ daban | Sümüklü | Bazar çay |
| Gülpər | Qulalı | Sümüklü | Dərə yurd | Bazar çay |

## CƏNUBİ ŞƏRQİ ZƏNGƏZUR RAYONU

| | | | | |
|---|---|---|---|---|
| Qara göl | Mbayruxurtalayan | Fərməş təpə | Qızıl boğaz | Çalbayır |
| Ağ dərə | Balıq çay | Fərməş təpə | Yağlı güney | Çalbayır |
| Tövlə çuxur | Uzun çala | Əyri çay | Fərməş təpə | Fərməş təpə |
| Üç təpə | Beşikli yaylaq | Fərməş təpə | Kilsəli | Kilsəli |
| Qazlı göl | Yağlı güney | Canqurtaran | Oyuxlu | Kilsəli |
| Qazlı göl | Dəli çay | Kilsəli | Çalbayır | Sarı bulax |
| Üç təpə | Gümür-Kamran | Güney yurd | Yağlı guney Əyri qar | Güney yurd Çöplü göl |
| Üç təpə | Üç təpə | Sarı bulaq | Balıx çay | Kilsəli |
| Üç təpə | Üç təpə | Kilsəli | Çalbayır | Yağlı guney |
| Üç təpə | Qızıl boğaz | Kilsəli | Çalbayır | Yağlı guney |
| Üç təpə | Çöplü göl | Yağlı guney | Əyri ça | Balıx çay |
| Qannıca | İldırım su | Yağlı guney | Çalbayır | Kilsəli |
| Qızıl boğaz | Çöplü göl | Yağlı guney | Çalbayır | |
| Muxurtalayan | Çöplü göl | Yağlı guney | Guney yurd | |
| Muxurtalayan | Çöplü göl | Əyri ça | | |

# SİSYAN RAYONU

| | | | | |
|---|---|---|---|---|
| Ərikli yurd | Ərikli gədik | Sisiyli çay | Ərikli yurd | Camal qalası |
| Ərikli yurd | Salvatrı | Ərəzii | Salvatrı | Daşkəsən |
| Ərikli yurd | Salvatrı | Dəli çay | Quzucu dağ | Salvatrı |
| Ərikli yurd | Quzucu dağ | Dağ yurd | Comardı yurdu | Taxtakörpü |
| Ərikli yurd | Salvatrı | Salvatrı | Salvatrı | Dəli çay |
| Salvatrı | Salvatrı | Salvatrı | Salvatrı | Tat dərəsi |
| Ağlar yurd | Camal qalası | Qalax yurd | Daşkəsən | Dəmir dağ |
| Qopazlı | Korcalanlı yurd | Taxta | Murs | Qoşa qaya |
| Hərtiz yurd | Çiçəkli | Xocamsaflı yurd | Murs | Ağalı dərə |
| Molla yurd | Dəli çay | Murs | Qara qala | Gəmbel |
| Əlişar | Daşbaşı | Küpürssar | Qara qala | Salvartı |
| Əlişar | Qaş yurd | Əli dərəsi | Təzə qapan | |

# QAPAN RAYONU

| | | | | |
|---|---|---|---|---|
| Miski | El dərə | Əyri çay | Qala qaya | Şahbaz yurd |
| Aramlı | Qırx bulaq | Qulu vanası | Arpalı | Çiknovar |
| Göysu gözəl | Qaraun dərə | Çuxur yataq | İndi | Şahbaz yurd |
| Göy yal | Qaraun dərə | Orta çeşmə | Qızıl bağ | Naus |
| Sarımsaxlı | Əyriməz | Mikayıl yurd | Çuxur yurd | Bartaz |
| Qara qaya | Gəzbel | Xoşlu yurd | Guney yurd | Bartaz |
| Ağsaqqal | Çiçəkli | Dibəkli | Qorux yurd | Turamərik |

| | | | | |
|---|---|---|---|---|
| Ağsaqqal | Cuvarca | Xaçın yurd | Daşkəsən | Turamərik |
| Dərə yurd | Şıppırlı | Xatın yurf | Məzrə | Sırgis-Qordu |
| Qara çınqıl | Pirhəmzə | Səbətkeçməz | Muşlan düzü | Tutamərik |
| Novruz yurd | Təndirli | Gölcük | Bəybuğan | Sofu dərəsi |
| Gəzbel | Ulu bulaq | Eşşək meydanı | Çiknovar | İndi yurd |
| Novruz yurd | Alın | Yağlı dərə | Xan çalması | İndi yurd |
| Axca-ağıl | Qapıcıq | Yağlı dərə | Mal gədiyi | Çiknovar |
| Poxlu gədik | Dibəkli | Bəybuğan | Rüstəm yurdu | Ət yeməz |
| Poxlu gədik | Yağlı dərə | Bəybuğan | Tanrı qulu | Quzu kəndi |
| Təndirli | Sağ qarasu | Çiknovar | Naus | Arpalıx |
| Vana | Ulu bulaq | Çiknovar | Ət yeməz | Arpalıx |
| Sarımsaxlı | Gədəcə arxac | Hüstun | Daş-tübən | Sarımsaxlı |
| Oba dərə | Əyri çay | Göy yal | İşıxlı yurd | Sarımsaxlı |
| Pirhəmzə | Sarı dərə | Qombaq | Gümaran artaz | Karvan dərə<br>Bəybuğan<br>Əyri çay |

## BİRİNCİ QIRX QIZ RAYONU

| | | | | |
|---|---|---|---|---|
| Çicəkli | Ələkçi | Əlinənah | Meydan | Qırxqız |
| Dəlik daş | Qırx qız | Dəlik daş | Qız qalası | Qırxqız |
| Meydan | Qaranlıx | Qırx qız | Qırxqız | Meydan |
| Meydan | Əlinətək | Meydan | Qırxqız | Meydan |
| Qırxqız | Qaranlıx | Meydan | Dəlik daş | Mamırlı yal |
| Meydan | Əlinətək | Meydan | Qırxqız | Urus talası |
| Qırxqız | Əlinətək | Meydan | Qırxqız | |

## İKİNCİ QIRX QIZ RAYONU

Qırxqız
Şiran

KİRS – SARIBABA

| | | | | |
|---|---|---|---|---|
| Altun taxta | Dəvə boynu | Sarıbaba | Qızıl daş | Gopus |

KİRS – ZİYARAT

| | | | | |
|---|---|---|---|---|
| Kirs | Bala kirs | Çəmən | Göllücə | İmirli |
| Qatırxana | Bala kirs | Yelli gəldik | Ziyarat | Kirs |
| Bala Kirs | Kirs | Səkinə yurdu | Ziyarat | Qatırxana |
| Hacı bulağı | Kirs | Taqut dərəsi | Ziyarat | Kirs |
| Bala Kirs | Korpus | Köllücə | Yellicə | |

Siyahıdan məlum olur ki,yer adları Azərbaycan mənşəli toponimlərdir. Bu ona dəlalət edir ki, keçmiş zamanlardan bu torpağın sahibi biz olmuşuq. Bu mənada coğrafi yer adları milli-etnik mənsubiyyətin nişanəsidir.

Yuxarıda yazılanın davamı olaraq qeyd edim ki, İsmayıl bəy məşvərət yığıncağında ağsaqqalların, din xadimlərinin xeyir-duasını alaraq barışığa qərar verir. Rüstəm və Narınc xatuna dəvət üçün müəyyən tarix təyin olunur. Qəbul olunmuş qərarla bağlı məlumat onlara çatdırılır. Barışıq üçün 15-20 qoyun, çöngə, düyə, at götürüb ailəsi ilə biçənəklərdən gələn yolu ilə İsmayıl bəyin yanına təşrif buyurur. Bəy mal tədarükünün gətirilməsini biləndə söylənir ki, yazıqların nəyi var ki, nədə gətiriblər. Rüstəm isə mal-dövləti, mülki olduğunu, adət-ənənəyə uyğun hərəkət etdiyini bildirir. Bir sözlə, barışıqdan sonra onlar öz yerlərinə qayıdırlar.

İsmayıl bəy yenidən çağırılan ağsaqqallar toplantısında demişdi: “Onların ağırlığını burada qoymağa nə yer var, nə də adam var. Sizin məsləhətiniznən Rüstəmlə Narınca burda yer verək, tikilsinlər və sizlərədə nə lazımdısa kömək etsinlər”.

İsmayıl bəy Narınclar torpağını qızı Narınca cehiz verir və dövlət qaytanlı kitabına qeyd etdirib kömürlə nişanlayır.

Bəylik və əsilzadəlik nümunəsi göstərən İsmayıl bəy bu ədavəti sülhlə, barışıqla yoluna qoyur. İsmayıl bəy dinimizə, elin adət-ənənələrinə uyğun olaraq Allahın adı ilə bu müşgülü həll edib xeyir-dua verir. Onun bu ağsaqqallığı Dədəm Qorqut atanın dilindən səslənən bir hikmətli sözü yada salır. "Kitabi-Dədəm Qorqut"un giriş hissəsində olan yazını xatırlayaq:

"Qorqut ata Oğuz qövmünün müşğülünü həll edərdi. Hər nə işi olsa Qorqut Ataya danışmayınca işləməzlərdi. Hər nə ki, buyursa qəbul edərlərdi. Sözün tutub tamam edərlərdi".

Dədə Qorqud söyləmiş:
Allah-Allah deməyincə işlər önməz (rast gəlməz)
Qadir Allah verməyincə ər bayımaz (varlanmaz)
Əzəldən yazılmasa qul başına qəza gəlməz
Əcəl vədə irməyincə kimsə ölməz
Ölən adam dirilməz
Çıxan can geri gəlməz

Bir igidin Qaradağ yumrusunca malı olsa yığar toplar, tələb eylər, nəsibindən artığın yeyə bilməz.

Ulaşıban sular daşsa dəniz dolmaz.
Təkəbbürlük eyləyəni Allah sevməz.
Könlün uca tutan ərdə dövlət olmaz.
Kül təpəcik olmaz
Qara eşşək başına üyən ursan qatır olmaz.
Qaravaşadan geyirsən qadın olmaz.
Yapa-yapa qarlar yağsa yaza qalmaz.
Əski pambıq bez olmaz.
Qaraqoca qıymayınca yol alınmaz.
Qız anadan görməyincə öyüd almaz.
Oğul atadan görməyincə süfrə yaymaz
Oğul atanın yetiridir.
İki gözünün biridir
Dövlətli oğul qopsa, ocağının gözüdür.
Dövlətsiz oğul qopsa, ocağının küridir.
Oğul dəxi neyləsin, baba ölüb mal qalmasa?
Baba malından nə fayda, başda dövlət olmasa?

Dövlətsiz(lər) şərrindən Allah saxlasın xanım sizi! Dədə Qorqud sözünün, nəsihətinin İsmayıl bəyin əməllərində əks olunması gələcək nəsillər üçün bir örnəkdir. Bu mənada İsmayıl bəyin ədavəti, kin-küdurəti, qisası barışıqla əvəz etməsi, səxavət və xeyirxahlığı, sözünə, vədinə sadiqliyi, elin adlı-şanlı biliciləri ilə məsləhətləşməsi, qüsura, xətaya yol vermiş gəncləri Qorqut ata müdrikliyi ilə həll etməsi Narınclar eli üçün ağsaqqallıq etalonudur.

İsmayıl bəyin bu yaxşı əməl və öyüd-nəsihətindən ibrət alaraq xoşbəxt həyat sürürlər. İsmayıl bəy və el-obanın ağsaqqal-ağbirçəklərini xeyir-duası alqışları ilə Allah təala bu ailəyə çoxuşaqlı külfət nəsib etdi. "Kitabi-Dədə Qorqud" dastanında bu məqam necə həmahəng səsləşir. Bayburanın oğlu Bamsı Beyrək boyunda bəyan olunur:

"İç oğuz, Dış oğuz bəyləri Bayındır xanın söhbətinə toplanmışdı. Qalın oğuz bəyləri üz göyə tutdular. Əl qaldırıb dua elədilər.

- Allah-təala sana bir oğul versin – dedilər. Ol zamanda bəylərin alqışı alqış, qarğışı qarğış idi. Duaları müstəcab olurdu"

Bax, İsmayıl bəy də millətimizin bəylik ənənələrini yaşadan ağzı dualı el ağsaqqalı idi.

Rüstəmin övladlarından bizə məlum olanı Məmmədalı adında babamız olmuşdur. Onun həyat yoldaşı vəfat etdiyindən uşaqları yetim qalır. Bundan sonra o iki dəfə evlənir. Evləndiyi qadınlar dözməyib qısa müddətdən sonra gedirlər. Bunun səbəbi var-dövlətin zənginliyi, uşaqların tərbiyəsi və qayğısına qalınması ilə bağlı idi. Məmmədalının həyat yoldaşı Zeynəb nənə danışırmış ki, o qapıya düşəndə çöldə iri, paxır qazanlar, itlərin əldən düşməsi, uşaqların natəmizliyi, buzovların anasının yanında olması, ev-eşiyin bərbad vəziyyətdə olması, kişinində heydən düşməsi halına rast gəldim.

Atam Əjdər kişinin dediyinə görə Hümbətalının arvadı Günəşin atası Oruc Məmmədalıgildə qalardı. Oruc onun bu acınacaqlı vəziyyətindən çox mütəsir olur. Məmmədalı və Fərzalı vəziyyəti olduğu kimi danışırlar. Oruc bu hal-qəziyədən sonra deyir: Mən bir qoçaq adam tanıyıram. O, Həşimbəyin evinin ağır yükünü çəkir, həm də bir sürü mal-qarasını saxlayır. Həşim bəyin (Oruc onun evindədə

qalarmış) bacısı qızı və çox cavan olmasından evlənməyə razılıq verməz.

Xülasə, Oruc bu evliliyin alınması üçün bir tədbir tökür. O, fikrini belə ərz edib demişdi ki, Fərzalının adına elçi gedib gəlini evə gətirək. Gətirəndən sonra vəziyyəti ona başa salarıq. O, söz-söhbət olacağı ucbatından geri qayıtmaz. Bacıxanım qocamızın söylədiyinə görə Fərzalı qəddi qamətli, boylu-buxunlu, yaraşıqlı görkəmi olub. Qolları bir az uzunuymuş. Onun göy mahud çuxazı və bir boz atı varmış. Fərzalı səliqəli geyinib Orucla Həşim bəy gilə gedirlər. Hal-əhval tutub çörək kəsdikdən sonra Fərzalı çölə çıxır. Oruc tanışlıq vermişdi ki, Fərzalı İsmayıl bəyin nəvəsidir. O, Məmmədalının tək evil olmasını, mülkü və sərvəti haqqında danışdıqdan sonra məsələni açır. Oruc bəyə danışır ki, Fərzalı xanımı görüb bəyənib. Səni yaxşı tanıdığıma görə bu işi mənə həvalə ediblər. Həşim bəy cavabında deyir ki, Oruc yaşlaşmışam, bu vaxtımda yalan danışmaq yaraşmaz. Zeynəbin əri rəhmətlik Məmməd qan qohumum olmasına baxmayaraq halallığına, qoçaqlığına, etibarına görə biz onu əziz bilmişik. Heyif ki, o çox cavan öldü. Zeynəb ərə getməyəcəyinə arvadlara demişdi. Qoy arvadlar desin, razı olsa etirazım yoxdu. Qadın xeylağı söhbəti Zeynəbə dedikdə o belə cavab verir ki, Məmmədin ona mehriban münasibətindən onun yadigarı olan Usubu oturub saxlayacam. Bu işdəm ötrü bir neçə gün burda qalır. Qadınlara çatdırır ki, Fərzalı onu və oğlunu yaxşı saxlayacaq. Nəhayət Zeynəb razılaşır. Səkkiz yük mal, camış, at, altı öküzlə bunları yola salırlar. Həmin gün axşam çağı Məmmədalı gilə gəlib çatdılar.

Zeynəb tavalarda suyu ocaqda qaynadaraq evi bütün çirkabdan təmizlədi. Uşaqların başın qayçıyla qırxıb xurcununda gətirdiyi sabunla çimizdirib bir yorğanın altına yığır. Məmmədalı kişi axşam üstü meşədən mal-qarasını çıxarıb evə gəlirdi. Zeynəb işi təfsilatı ilə biləndən sonra qaçır. Oruc kişi dil ağız tökərək, bəydən ayıb olar deyərək qaytarır.

Zeynəb nənə Məmmədalı kişinin saqqalını, başını, dırnaqlarını sahmana salıb hamamlayır. Farmaşlarından pal-paltarını töküb geyindirir. Məmmədalı kişi bu qayğıya sevinərək Oruca minnətdarlığını bildirir. Bu münasibətlə heyvan kəsdirib şadyanalıq verir.

Zeynəb çətinliklər müqabilində səbr göstərərək mehr-məhəbbətini ərinə, yetimlərə salarıq ev-eşik sahibi alırlar. Anam Ruqiyyə xanımın Fatma qocamdan eşitdiyinə görə Zeynəbə el arasında yeddi cibli ləqəbini vermişlər. Belə ki, o, xeyir-bərəkətli, səxavətli, qayğıkeş, diləyə gələni əliboş qaytarmayan, ailəcanlı, qohum-əqraba yanında hörmətli, imanlı bir xanım olmuşdur. (Nəsildə Zərxara nənəm və anam Ruqiyyə Zeynəb qocamma çəkib-müəllif)

Zeynəb nənəmizin gənclərə bu örnək xasiyyətləri islam inancından irəli gəlir. İlahi qanuna görə əgər kişi qadının gözəlliyinə, yaxud malına görə evlənərsə, həmin istədiyinin öhdəsinə buraxılar. Amma əgər dininə görə evlənərsə, Allah ona gözəllik və mal da qismət edər. Qadınların ən üstünü o qadındır ki, çox uşaq dünyaya gətirə bilsin, iffətli olsun və öz ərini sevsin; öz qohumlarının yanında əziz, ərinin müqabilində isə təvazükar olsun; öz əri üçün həmişə bəzənsin, başqalarından isə həya saxlasın; ərinə tabe olsun və onun qarşısında təkəbbürlük etməsin; pis işlərdən çəkinsin; hər işdə ərinə razılığını bildirsin.

Müasir gəncliyə üzümü tutub bildirmək istəyirəm ki, müqəddəs öyüd-nəsihətə, məsləhətlərə laqeyid yanaşma taleyimizə sağalmaz yaralar vurur. Aşağıdakı Allah kəlamını ömür yolunda rəhbər tutsunlar.

Allah buyurur: "Sizin üçün onlarla ünsiyyət edəsiniz deyə, öz cinsinizdən zövcələr xəlq etməsi, aranızda (dostluq) sevgi və mərhəmət yaratması da Onun qüdrət əlamətlərindəndir. Həqiqətən bunda (bu yaradılışda) düşünən bir qövm üçün ibrətlər vardır!" (ər-Rum surəsi, ayə21)

Bəli bu bəyənilmiş xüsusiyyətlər Zeynəb nənəmizi Allah yanında savab, camaat arasında isə şan-şövkətli edir. Yeri gəlmişkən biz ibrətamiz hikmətli hədisi qeyd edək:

"Qadın öz ərinin evini səliqəyə salmaq məqsədilə bir şeyi yerbəyer edərsə Allah-taala ona öz nəzərini yetirər və Allah-taala nəzər yetirdiyi kimsəyə əzab verməz".

İlahi qismətdən Məmmədalının Zeynəbdən üç oğlu olmuşdur. Oğlanları Ələsgər, Adgözəl və Ələsdan olmuşlar. O, həddən artıq uşaqlara qayğı göstərərək böyüdüb ərsəyə çatdırır.

Zeynəb nənə öz oğulluğu Kərbalayı Baxşalının qızı Fatmanı Usubla evləndirərək təsərrüfat sahibi edir.

Hal-hazırda Quba rayonun Dağ Susay kəndinin sakinləri Məmmədin qətl törətməsi faktını təsdiq edirlər. Onun bu hadisədən sonra indiki Dağıstandan keçərək Qarabağda məskunlaşdığını bildirirlər. Atasının Usub adını daşıdığını qeyd edirlər. Gülsabah adında bir bacısıda varmış. Məmmədin qardaşı Məmmədzahir axtarış aparmaq üçün yola düşür. Soraqla Dağıstandan Oğuza ordanda Qarabağa səfər edir. Axtarışa baxmayaraq qardaşının yerini müəyyənləşdirə bilmir.

Məmmədin Zeynəbdən bir övladı olur. Məmməddə atası Usubun adını oğluna qoyur. Məntiqlədə bu hal Məmmədin Qubanın Dağ Susay kəndindən gəldiyini sübut edir.

Kənd əhlinin dediyinə görə Usubun 1900-cü illərin əvvəllərində 100 (yüz) cöngəsi olur. (Məmməd vəsiyyətində Zeynəbə bir inək, qalan varidatını isə Usuba miras qoyur). Usubun var-dövlətinin belə zəngin olmasının maraqlı tarixcəsi var. Bu barədə ayrıca bəhs olunacaq.

İndi isə Zeynəb nənəmizin əri, Usub babamızın atası ulu babamız haqqında xüsusi dayanmaq istəyirəm. Onun Qarabağa gəlməsi hekayəti bir ədavət üstündə baş verir. Belə ki, Məmmədin atasını, qohum-əqrabasını gecə ikən qətlə yetirirlər. Hadisə vaxtı Məmməd bacısı ilə xalasıgildə olurlar. O vaxtı onlar azyaşlı idilər. Məmməd 17 yaşına çatanda gizli olaraq özünə bir xəncər düzəltdirir. Atamın dediyinə görə Zeynəb qocamın Günəş, Fatma nənəmizə, Usub babamıza danışdığına əsasən gecənin birində düşmənlərini xəncərdən keçirir (xəncər çıxdı qan düşdü). O, əvvəlcə Dağıstana qaçmış, oradan Xacın kolanısı olan Əliağalı kəndinə gəlir. Qaldığı evin sahibi dolanışıq və işləmək ehtiyacını, mülayim, xoşsifət və bacarığına görə ona hörmət-izzət qoyardılar. Məmməddə qarşılığında kürək, şana, oxlov, dörd ayaq düzəldərək sənətkarlıqla məşqul idi.

**Məmmədin İmam Əli (ə) pəncəsinin hasarını hörməsi**

Qeyd olunan ərazinin başçısı Cavad ağa yüzbaşılara Əli (ə)-nın pəncəsinin ətraf hasarının çəkdirilməsi tapşırığını verir. Bu işin öhdəsindən gələn bir daş ustası tapmağı bildirir. Çox gəzib soraqlasalarda hörgü ustası tapılmır. Axtarışdan məlum olur ki,

Əliağalıda bir mahir sənətkar var. Onu aparmağa gələndə Məmməd yolda bir narahatlıq, təşviş keçirir. Məmməd Cavad ağa ilə görüşəndə xoşməramlı niyyət öyrənəndə xatırcəmlik yaranır. Ədəb-ərkanla bəy sağ olsun yox deməyə ixtiyarım çatmır. Səriştəli olsa belə təvazökarlıqla hörgü xoşunuza gəlsə qalar, gəlməsə söküb əvvəlki vəziyyətinə salaram. Cavad ağa razılaşandan sonra işə başlayır.

Məmməd gəzərək ağ sal daşların yerini müəyyənləşdirir. Qaya daşları yanaraq aralarını zolaqla sıvamaqla bir-birinin üstünə geydirir. Hasar başa çatanda Cavad ağa faytonla gəlib işə baxır. Bəyəndiyini bildirərək Məmmədin yanına gətirilməsini tapşırır. Zəhmətinin haqqı olaraq bir qızıl dişi dana verir.

**Əli (ə) pəncəsinin İlahi ərmağanı (halal maya)**

Məmməd babamız damazlıq dananın başına çatı bağlayıb saxlayır. Yeri olmadığı üçün yem (ot, alaf) ucbatından Əliağalıdan Tərtər çayı istiqamətinə yola düşür. Sözün qısası çarəsiz qalaraq Tərtər çayının meşələrində saxlamağa məcbur olur. Kolanı mahalının Gərravənd oymağının adlı sanlı nümayəndəsi Həşim bəy obanın bütün məsələlərinin həllində səlahiyyətli şəxs idi. Bir müddət sonra Həşim bəyin adamları bunu şübhəli adam kimi tutub aparırlar Bəy halı olandan sonra mal sərkərdanı çağırtdırıb deyir dananı aparın qoşun mallara saxlan yaxşı baxmalarını tapşırır. Məmməd xahiş edir ki, gedim maldarlıq işinə ordada damazlığıma baxım. Bəylər olan yerdə heç bir heyvan növü və b. çirkləndirici vasitələr saxlanmazdı. Odur ki bəyin at saxlanan yerinə dananı göndərir, ev-eşik işlərini tapşırırlar. O, boylu buxunlu, sağlam, dilli-dilavər olub. O danasına və atlara xüsusi qayğı göstərərmiş. Bəy bir dəfə atını minərkən görür at həmişəki kimi deyil. Çox təmiz və sığallıdır. At saxlayan bir gün sərkərə deyir ki (qorxuram atlara birşey olsun) kimsə eləbil at saxlanan yerə gəlir. Deyir ki, gecə güdərsən ayrı gözətçidə qoyur. Məmmədin olduğunu bilib deyirlər. Bəy Məmməddən soruşanda düzün deyir məqsədi danaya baxmaq olduğunu deyib atları o tumarlayırmış. Onun xidmətini, təmizliyi barədə bəyin ailəsi razılıqla danışırlar. Xanım bəyə deyir ki, nə vaxtsa Məmmədin adamları onu aparacaqlar. Heç kim belə etibarlı iş görməyib. Həşim bəy Məmmədi bacısı qızı Zeynəblə evləndirir.

Məmməd babamızın vəfatı

Qeyd etdik ki, Məmmədin Usub adlı övladı olub. Usubun uşaq vaxtı atası qızdırmadan rəhmətə gedir. Zeynəb qəbri üstdə söz verir ki “Səni unutmayacam və xəyanət etməyəcəm”.

Damazlıq dananın bərəkəti

Kəlbəcər rayon Əsrik kəndindən Kəbəni ziyarət etmiş bir hacı ev inşa etdirmək istəyir. Hacı Məmmədi gətirmək üçün sifariş göndərsə də o razılıq vermir. Deyir ki, bəyin icazəsi olmadan heç yana getmərəm. Axı mən həmdə ev ustası deyiləm. Hacı bəydən rüsxət alaraq Məmmədi özü ilə aparır. (düyəsini də yanı ilə götürür). O, mahir ustalıqla evi tikib başa çatdırır. Hacı Məmmədə boz rəngli erkək dana bəxşiş edir. “Məmməd bu da düyənin kələsi” deyərək sağollaşır. Məmməd babamız Allaha əl açıb dua edir ki “Ya Rəbbim mənə hər şey vermisən. Bu dünyanın südünü halal birini də haram maya ilə mayalandıracam. Bunlardan hansı uyuşsa o yolu gedəcəm. Allah kərəminə halal yaxşı mayalanaraq qatıq olur.

Yaşlı adamlar Usub kişinin xeyli mal qarasının, atının, yüz cöngə və düyəsinin olduğunu danışırdılar. Atam söyləyir ki, eşitdiyimə görə (Günəş nənə, Tamam nənə, Mikayıl kişi, Qorçulu Həsənin verdiyi xəbərə əsasən) qayanın altında Quzey barmağı yolunda subay malın arxacı olub.

Usub kişi el arasında adlı-sanlı, hörmətli bir şəxs idi. Onun dəfni şəriətlə el qaydasında keçirilib. Baş daşı Kəlbəcərin İstisu tərəfindən gətirilib. Böyük oğlu babam Məhərrəm kişi, ömür gün yoldaşı Fatma qocam kəndin sayılıb seçilən söz sahibi olmuşlar.

1918-ci il azərbaycanlıların soyqırım hadisələrində Usub kişi kəndi tərk etmək istəməyib. İsmayıl kişi (Sadıq kişinin oğlu) bildirib ki, kənddə qalan yoxdur. Nəhayət, Usub kişi Kəlbəcər yolu ilə Qoturlu kəndində seyid Cəlal, seyid Müseyib ağagilə getməyi qərara alır. Yəhər yurdunu keçəndə Əsəd bəyin oğlanları Usub babanın atlarının yaxşısını tutmaq üçün köçün qabağını kəsir. Uzun danışıqdan sonra Usub baba deyirki “Yol üstəyik. Arvad uşaqları qorxutmayın. Binələrdə düşəcəyik. Gəlin orda atı verərəm”. Onlar bu şərtlə razılaşmırlar.

Seyid Müseyib kişi onları hörmət izzətlə qarşılayıb mal-qaranı yerləşdirirlər. Orda malı oğurlamaq və öz həyatları ilə bağlı təhlükəli

hadisələr baş verib. Bir dəfədə Seyid Camal onların üstünə silah çəkərək deyirki "birdə belə etsəniz hamınızı qıracam. Camaat 8 aydan sonra kəndə qayıdır.

1918-ci il erməni-azərbaycanlı münaqişəsində belə bir əhvalat baş verib. Kənd əhlinin tamamilə çıxdığını yoxlayan zaman məlum olur ki, Minə nənə ilə İbrahim kişi orda öz evlərində qalıb. Tez onları götürüb gəlirlər. Qızıl yoxuşu keçib, otlaqlara tərəf dərəni keçəndə Minə qoca cəhrəsinin qaldığını deyir. Minə nənəyə nə qədər desələrdə fikrindən dönmür. Məhərrəm babam cəhrəni gətirir. Minə qoca özü ilə aparmaq istəsədə Usub kişi razı olmur. Razılaşmır deyə nənə minən atın tərkinə bağlayırlar. Xeyli yol gedəndən sonra keçid çətin olduğundan at büdrəyir. Cəhrə dərə aşağı düşüb yumalanır. Buda xatirələrdə qalan maraqlı bir hekayətdir.

# IV BÖLMƏ

## NARINCLAR ELİNİN NƏSİL ŞƏCƏRƏSİ

Rüstəm və Narınc evliliyindən çox uşaq olub, ancaq bizə təkcə Məmmədalı kişinin adı məlumdur. Məmmədalı bir neçə dəfə ailə qurmuşdur.

**Məmmədalının oğulları bunlardır:**
1.Fərzalı
2.Kərbalayi Baxşalı
3.Rüstəm
4.Mehralı
5.Mirzalı
6.Ələsgər-Zeynəbdən
7.Adıgözəl-Zeynəbdən
8.Ələsdan-Zeynəbdən
9.Usub-Məmmədalının oğulluğu, Zeynəbin əri Məmməddən olandır.

**Məmmədalının qızları:**
1.Günəş
2.Gülbahar
3.Bahar

**Məmmədalı oğlu Fərzalının övladları aşağıdakılardır:**
1.Bəndalı
2.Hümbətalı
3.Əmirqulu
4.Sadıq
5.Nəsib
6.Güldəstə

Fərzalı kişinin Mapəri və Mirəstə xanımlarla ailə qurduğu məlumdur. Bəndalı, Hümbətalı və Nəsib Mapəridən olanlardır.

Əmirqulu, Sadıq, Güldəstə Mirəstədən olanlardır. Mapəri Zəngəzur mahalından (Laçın rayonu) olmuşdur.

Nəzər Heydərov yazır: "Qarabağdan keçib Zəngəzura gedən adam Lısaqor gədiyindən sola burulub Saxsağanlı dağına qalxanda gözünün qabağında Zəngəzurun (inqilabdan əvvəlki Zəngəzur mahalına Ermənistan SSR-nin Sisyan, Goruş, Qafan və Mığrı rayonları Azərbaycan SSR-nin isə Zəngilan, Qubadlı və Laçın rayonları daxil idi) insanı heyran edən gözəl mənzərəsi açılır" (12).

Atamın dediyinə görə İpək, Kalafalıq, Ərdəşəvi, Biçəniz, Axnəzər Mapari qojama görə Narınclara dayi düşürlər. Mapəri qocam namuslu, qoçaq, ər tərəfinin namını verməyən, gəlinlərin ağbirçəyi və tərbiyəçisi olmuşdur. Mapəri nənənin maraqlı əhvalatlarından birinə görə iməclik vaxtı nehrə çalxadanda gəlinlərin gəlinlərin birinin iştirak etmədiyini görəndə çatmanı çəkib deyirmiş "a köpək qızı, görmürsən burda iş görürlər, ayrıseçkilik qoyursan". O dünyasını dəyişəndən sonra Zeynəb nənə qardaşı qızı Mirəstəni oğulluğu Fərzalıya alır. Ondan Əmirqulu, Sadıq, Güldəsdə olur.

**Baxşalının övladları:**

1.Fərəc - Minədən olan
2.Abdulla - Minədən olan
3.Duraq - Qarateldən olan
4.Bəşir - Qarateldən olan
5.Fatma - Usubun həyat yoldaşı
6.Xeyrənsə - Ağdam r/n Çuxurməhlə kəndinə ərə gedib.
7.Maytavan - Qarateldən olan
8.Gövhər - Qalayçılara ərə gedib

**Rüstəmin övladları:**

1.Məhəmməd
2.Astan
3.Əliş (cavan vaxtı vəfat edib)
4.Gülnisə

**Mehralının övladları:**
1.Ağca – Kolanı Dirvəllər Hüseynalıya ərə gedib
2.Xanım – Qalayçılar yüzbaşı Temirlə ailə qurub
3.Gülənbər – Astanın həyat yoldaşı
4.Gülxanım – Əmirqulunun həyat yoldaşı

**Mirzalının övladları:**
1.Əbdüləli
2.Qərib
3.Əfkər

**Ələsgərin övladları** (Həyat yoldaşı Bəsti Kəlbəcərin Otaylar kəndindən olub)
1.Əli
2.Zeynəb

**Adıgözəlin övladları** (Həyat yoldaşı Gilə Ələyçi qızıydı) Ələsgərin ölümündən sonra Bəstini alır)
1.İsmayıl
2.Bəyim

**Adıgözəlin oğlu İsmayılın övladları:**
1.Yaşar
2.Əmir
3.Elman
4.Ramiz
5.Şərqiyə
6.Əntiqə

**Ələsdanın övladları:**
1.Əmirastan
2.Astan
3.Şeyda
4.Bənövşə
5.Ağca
6.Güleyşə (Tamam)

Şeyda Bərdənin Qılınclı kəndinə, Bənövşə Narınclara, Güleyşə Əliağalı Babaya, Ağca Ağdamın İlxıcılar kəndindən Məhəmmədə ərə gedib.

**Usubun övladları:**
1.Məhərrəm
2.Məhəmməd
3.Hümbət
4.Mədəd (çox cavan rəhmətə gedib)
5. Məmməd (çox cavan rəhmətə gedib)
6.Maya
7.Zəhra
8.Gülbəs
9.Nərgiz
10.Teyfə
11.Xədicə

Maya nənənin övladları Zümrüd, Savad, Tavad, Şamaxı, Qacay və Həsəndir.

Zəhra nənənin övladları Süleyman, Muradxan, Mirzə, Gülxas, Laləzar və Simuzərdir.

Nərgiz nənənin övladları Talış, Baxşeyiş və Xanlardır

Teyfə nənənin övladları Xuraman, Zərqələm və Gümüşdür

Xədicə nənənin övladları Əjdər, Hamayıl, Bulqar və Fulyadır.

Məmmədalı babamızın qızı Günəş Qalaycılar Alı kişi ilə ailə həyatı qurub. Bu evlilikdən Temir, Abbas, Məşədi Abış adında övladları olub. Günəş nənə Məşədi Abışa qardaşı Kərbalayı Baxşalının qızı Göhəri (Afayatı) alıb və Gülhəyat adında bir qızı olub. Gülhəyatın anası vəfat edib. Maytavanı bacısının yerinə Abışa ərə verirlər. Qənimət, Hümbət adlı övladları olub. Qənimət, Hümbət Gülhəyatın ata bir ana ayrı qardaşlarıdır. Gülhəyat Qaraycılar Muxtara ərə gedib.

**Muxtarın övladları** (Gülhəyatın uşaqları):
1.Nəmət müəllim
2.Süleyman
3.Aydın
4.Qacay
5.Əli
6.Zöhrə
Temirin Abbasın həyat yoldaşı Zallar Sarayın qızı (qardaşı Telman kişi) olub.

**Abbasın övladları:**
1.Nübar
2.Suru
Nubar Azad oğlu Səfiyarla (Əliağalı) ailə qurub. Telman adında oğlu olub. Surunu Temir oğlu Süleyman alır. Sonra Zallar Musaya ərə gedib. İldırım adlı oğlu Bərdə Qəhrəmanlı (Təzəkənd) kəndində ferma müdürü işləyirdi.

**Temirin övladları:**
1.Nəriman
2.Salman
3.Süleyman
4.Züleyxa
5.Tavat
Qənimətin həyat yoldaşı Tavat, əmisi Temir yüzbaşının qızıdır. Qənimətin Gülzardan Xanım adlı qızıda olub.

**Qənimətin övladları:**
1.Ənvər
2.Qənbər
3.Famil
4.Çingiz
5.Sayad
6.Fənar
7.Saray
Fərzalı oğlu Bəndalı Güllü nənə ilə ailə həyatı qurub.
**Bəndalının övladları:**

1.Musa
2.Əhməd
3.Mustafa
4.Növrəstə – Qərvənd kəndinə ərə gedib.
5.Mədinə – Narınclar Rüstəmin oğlu Məhəmmədə ərə gedib.
6.Bacıxanım – Narınclar Abdullaya ərə gedib
7.Zöhrə – Qərvənd Məşədi Allahqulu oğlu Muxtar bəyə ərə gedib. Uşaqları Gülxara, Şahmar Səfər ana ayrı qardaşlardır.

**Bəndalı oğlu Musanın övladları:**
1.Musa
2.Qosdan
3.Qumru
4.Firuzə
5.Tamella
6.Pakizə
Qumru nənənin yoldaşı İsa kişi olub. Onun atası Xəlil kişi Abdulla babanın xalası oğludur. İsa kişinin anası Hamar nənədir.

**İsa kişinin övladları:**
1.Allahverdi
2.Xəlil
3.Cəil
4.Cəmil
5.Qaragöz
6.Bəsti
7.Sitarə
8.Çiçək

**Bəndalı oğlu Əhmədin övladları:**
1.Mətləb - Narıncdan
2.Mamed - Bəyimdən
3.Şəfiqə - Bəyimdən

**Əhməd oğlu Mətləbin övladları:**
1.Vaqif
2.Firdovsi
3.Feruz
4.Almara
5.Reyhan

**Əhməd oğlu Mamedin övladları:**
1.Əlizadə
2.Əlizamin
3.Habil
4.Vəkil
5.Arifə
6.Pərvanə
7.Gülbəniz

**Musa oğlu Mustafanın övladları:**
1.Vaqif – Tamaradan
2.Akif – Tamaradan
3.Arif – Tamaradan
4.Zöhrə – Tamaradan
5.Əfqan – Tamaradan
6.Vidadi – Tamaradan
7.Səyarə - Zərifdən
8.Adil – Zərifdən
9.Sevda – Zərifdən
10.Gültəkin – Zərifdən

**Musa oğlu Qostanın övladları:**
1.Oqtay
2.Azər
3.Azadə
4.Nəzakət
5.Afaq

**Fərzalı oğlu Hümbətalının övladları:**
1.İsa – İkinci Dünya müharibəsində həlak olub.
2.Mürsəl – Müharibədə həlak olub.
3.Fərman – Müharibədə həlak olub.
4.Bahadur – Müharibə iştirakçısıdır.
5.Hümbət – Müharibədən geri qayıtmayıb.
6.Mehriban – Kolanı Əlişlə ailə həyatı qurub.
7.Minə – Narınclar Əliyə ərə gedib.
8. Gövhər – Qərvənd Salmana ərə gedib.O, vəfat edəndən sonra Nəsib kişinin qızı Ülkər onun yerinə Salmanla ailə həyatı qurub.

**Hümbətalı oğlu Bahadırın övladları:**
1.Telman
2.Sitarə
3.Yusif
4.Kamil
5.Səyyarə

**Fərzalı oğlu Əmirqulunun övladları:**
1.Fərzalı
2.İsmayıl
3.Mikayıl
4.Sadıq
5.Gülzar
6.Püstə

**Əmirqulu oğlu Fərzalının övladları:**
1.Süleyman
2.Muradxan (İkinci Cahan müharibəsinin iştirakçısı olub, geri qayıtmayıb)
3.Mirzə
4.Gülxas
5.Saləzar
6.Simuzər

**Fərzalı oğlu Süleymanın övladları:**
1.Kamilə
2.Tapdıq (yol qəzasında həlak olub)
3.Arif
4.İradə

**Süleyman oğlu Arifin övladları:**
1.Sədaqət
2.Tural
3.Muradxan

**Fərzalı oğlu Mirzənin övladları:**
1.Elxan
2.Fərzalı
3.Esmira

**Mirzə oğlu Elxanın övladları:**
1.Orxan
2.Əlibəy
3.Mirzə

**Mirzə oğlu Fərzalının övladları:**
1.Günay
2.Fərid
3.Aynur

Mirzə kişinin qızı Esmira xanım və həyat yoldaşı Fərman həkimdilər. Xalqa, el-obaya ləyaqətlə xidmət edirlər. Fuad və Murad adında övladları var.

**Əmirqulu oğlu İsmayılın övladları:**
1.Kərəm – Ballıdan
2.Şura – Ballıdan
3.Eldar – Ballıdan
4.Mamed – Güllüdən
5.Əfqan – Güllüdən
6.İsmixan – Güllüdən
7.Diləfruz(Tonu) – Güllüdən
8.Bəsdi – Güllüdən
9.Afərin – Güllüdən
10.Atlaz – Güllüdən

**İsmayıl oğlu Kərəmin övladları:**
1.Valeh
2.Əbülfət
3.Bakir
4.Müşviq
5.Sevil

**İsmayıl oğlu Şuranın övladları:**
1.Elxan
2.Nuridə
3.Rahilə
4.Şərafət
5.Şərəf
6.Elnur

**İsmayıl oğlu Eldarın övladları:**
1.Elburus
2.Tamaşa
3.Zərifə
4.Familə
5.Tərbiyə

**İsmayıl oğlu Mamedin övladları:**
1.Babək
2.Nubar
3.Seyla
4.Şahnaz
5.Koroğlu

**İsmayıl oğlu Əfqanın övladı:**
1.Ələddin

**İsmayıl oğlu İsmixanın övladları:**
1.Sevda
2.Arzu
3.Nərminə
4.İsmayıl
5.Gülnar

**Əmirqulu oğlu Mikayılın övladı:**
1.Qənirə

Atamın söyləməsinə görə Əmirqulunun 1-ci arvadı Gülxanım vəfat edib. Gülxanım Mehralının qızıdır (əmisi qızı). 2-ci arvadı Tamam. Tamam Kəlbəcər rayonunun Otaqlar (kənd) qızıdır. Əmirqulu rəhmətə getdikdən sonra Tamam atası evinə qayıdır. Əmirquludan Tamamın bir övladı olur. Əmirqulu qardaşı Sadıqın adını oğluna qoyur. Tamam Nadirxanlı Məşədi Bəxtiyara gedir. Sadıqı qardaşı Fərzalı döyür və o, anasının yanına gedir. Məşədi Bəxtiyarın oğlu (Tamamın oğulluğu) Həbibin qızını alır. Ondan bir

qızı olur. 1942-ci ildə II Dünya müharibəsinə gedir. Əsgərlər Mahaçqalada düşürlər. Qardaşı İsmayıl onların kəndindən Baxşalını tanıyır. Get-gəlləri olduğuna görə onlar bir-birini tanıyırlar. İsmayılla Baxşalı görüşündə bir-birindən soruşurlar. Baxşalı deyir ki: “bəs Sadıq da burdadır”. İki qardaş orada bir-biri ilə görüşürlər. Armavirdə bunları böləndə ayrı düşürlər. Buna etiraz edirlər ki, bir yerdə getsinlər. Ancaq bu alınmır. Üç-dörd aydan sonra Rastov ilə Xarkov arasında görüşürlər. Döyüş vaxtı qaça-qaç düşür. Bu vaxtı Sadıq paltarını orada töküb qaçır. Sonra ismayıl Nadirxanlı Baxşalıdan öyrənir ki, Sadıq öz əcəli ilə vəfat edib. Deyirlər ki, özümüz basdırdıq.

Əmirqulu qardaşı Sadıqın arvadı Hürünü alır. Onların İsmayıl və Mikayıl adlı övladları olur.

Gülzar Qərvənd Məhəmmədə ərə gedib. Püstə Qərvənd Süleymana gedir. Süleymandan Nəcibə adlı qızı olur.

**Fərzalı oğlu Sadıqın övladları:**

1.Balış
2.Nubar

**Fərzalı oğlu Nəsibin övladları:**

1.Məmmədəli
2.Hüseyn
3.Həsən
4.Züleyxa
5.Narınc
6.Ülkər

Atamın söylədikləri: “Balış əsli Otaqlar kəndindən olan Ələsdana ərə gedib. Altı oğlu və iki qızı olduğunu bilirəm. Ələsdan qoçaq adam olub, münasib varidatı olub. 1930-cu illərdə Narınclar kəndinə gəlib. Ələsdan qayınlarına qarşı xeyirxaqlıq göstərib”.

Barış xala ərinin vəfatından sonra ağır vəziyyətdə dolanırdı. Uşaqların hərəsinə bir ad qoyurdu. O çox dilli-dilavər adam idi. Böyük qızı Savad Ağdamda yaşayırdı. Kiçik qızı Navad Füzuli rayonundan

olan Camal adlı oğlana ərə getmişdi. Onlar hamının xeyir-şərinə yarıyırdılar.

Onu qeyd edim ki,Ələsdan kişi 1936-cı ildə  xeyli mal-qarasını kolxoza təhvil verir. Məhərrəm babam Ələsdanın külfəti çox olduğuna görə ailəsini taxıl və geyimlə təmin edirdi. Şirasdan gözü qırmızı və etibarlı adam idi. Şirasdan briqadir və təvtiş komissiyasının sədri işləyəndə ondan heç bir nalayiq hərəkət, oğurluq, səhlənkarlıq görmədim. Allah ona rəhmət etsin.

Nubar Əliağalı Məhəmmədlə ailə qurmuşdu.Müharibə dövründə Qarabağda aclıq, səfalət olduğundan kənddən qıraq yerə ərə gedən qızlar ailəlikcə Narınclara gəlirlər (Nubarda gəlir). Ər arvad Narınclar qəbirsanlığında dəfn olunur. Nubarın qızı Bəyistan əvvəl xalası oğlu Şirasdana, boşanandan sonra Bəyəhmədlidən olan Əsgərlə ailə qurur. Əsgərdən övladı olmayıb. Şirasdanla ailəlikdən iki oğlu və üç qızı olur. Oğlu Savalan (Vilayət) Tərtərli xanımla evlilikdən üç uşağı olur.Sonra o atasının əmisioğlu Musanın qızı Filyanı alır. Ondan iki uşağı olur.

Nəsib kişinin qızı Züleyxa Usub oğlu Məhəmmədə, Ülkər Qərvənd Salmana, Narınc Bəyəhmədli Söylədдinə, Əhmədə, Mikayıla ərə gedib. Söylədдindən İslam, Əhməddən Mətləb, Mikayıldan Qənirə və Xanım adlı övladları olur.

Züleyxa bibinin övladı olmayıb. O, əri tərəfinin namını verməyən, evdar, təmizkar, qonşularla yaxşı, qonaq yanında ərinin adını uca tutan, kişi rəftarlı bir xanım-xatın insan idi. Boydan uca, sarıyanız, göyçək, uzun xurmayı saçı vardı. Gözəl geyinər, həmişə qızıl toqqa vurardı.

Ülkər Qərvəndə əmisi qızı Göhər öləndən sonra onu Salman kişiyə ərə verirlər. 1941-ci ildə onların Rüstəm adlı oğlu kolxoz sədri işləyir. Onlar çətin şərait ucbatından Narınclar gəlir. 1950-ci ildən sonra yenə Qərvəndə geri qayıdır. Bu səbəbdən Tamam, Sona xala, Səfər, Məhəmməd və b. Narınclara gəlir. Salman mehriban ailə başçısı və qonaqpərvər bir adam idi. Ülkər mama atası evində olanda Soltan bəy onların alacıqlarına gələrək erməni aparan malın üstündə kobudluq edir. Ülkər mamam onun üstünə çatma çəkmişdi. Onun

uşaqları Şahmalı, Səmiyyəddin, Ərşad, Rəmiyyəddin, Adilə, Afikə idi.

Nəsib kişi çar Nikolayın hakimiyyəti dövründə yüzbaşı, Azərbaycan Cumhuriyyətində dövlət qulluğunda olub. Şuşa xəstəxanasında vəfat etdiyindən bildiyimizə görə Mirzə Həsən qəbirstanlığında dəfn olunub. Xəstə olanda Fatma qojam və Məhəmməd əmim onu yoluxub. Atam Əjdər müəllim Şuşada işləyəndə Nəsib kişinin qəbrini tapmayıb. Allah rəhmət etsin.

Nəsib kişinin Sayat, Mina, Mənsumə və Hilal adında həyat yoldaşları olub. Sayat və Mina Qaralar qızı olub. Qaralar əvvəllər Dövşanlının yerində olub. Erməni təcavüzü nəticəsində kənd dağılaraq 5-6 nəfər adam qalmışdır.Onların ağsaqqalı Şahmar kişi idi.

Mənsumə Ələhcidə (Laçın rayonu) Şahverdinin qızı idi. Soltan bəy Mənsumənin qardaşı Mustafanı öldürtdürür. O, Mənsuməni almaq istəyirmiş. Ona görə bacısını dostu Nəsibin evində qoyur. Bir müddət qaldıqdan sonra Nəsib onunla ailə qurur. Ondan övladı olmur.

Hilal Boyəhmədli qızıdır. Kənddə Hilal qojam bizimlə qonşu idi. Ağbəniz, saçlı, gümrah xanım idi. Bir sarı yabısı vardı. Onu minib Boyəhmədlidə yaşayan qohum-əqrabasından meyvə-tərəvəz, taxıl gətirərdi. 1970-ci illərdə Həsən kişinin (oğulluğu) Çərəkdarda vəfat edir.

Hilal qojamdan Hüseyn, Narınc, Züleyxa, Ülkər, Sayatdan Həsən əmim, Minadan Məhəmmədəli anadan doğulub.

Nəsib kişinin övladları yaxşı olub.Məhəmmədəli 1919-cu ildə Azərbaycan Cumhuriyyəti zamanında Ağdam rayonunun Kolanı mahalında məsul vəzifədə işləyib. Bu vaxt bir münaqişəli vəziyyət yaranır. Belə ki, dağdan Kolanıya gedərkən Cındırlıpir deyilən yerdə Məmmədəlini düşmənlər güllə ilə vururlar. Bacısı Narınc və İmran kişi çaya düşərək gəlib kəndə xəbər çatdırırlar. Elə ovaxtdan həmin yer Məmmədəli vurulan adlanır. Onun öldürüldüyü yer dağlıq, meşəlik, təpəlik, dərə və sivri qayalıq olub. Qacaqlar öncədən onlar keçən ərazini mühasirəyə alaraq, keçəndə onları atəşə tuturlar. Məmmədəlini vuran kimi uzun tellərindən tutub yuxarı təpənin üstünə çıxarıb

qətlə yetirirlər. Həmin an Narınc özünü uçurumdan çaya tullayır. İmran kişi atama deyib ki,Əşdər müəllim məndə yaralansamda özümü çaya doğru atdım. İstədim çay aşağı gedəm ancaq fikirləşdim ki, kəndə tərəf qaçım. Bu atışmada yaralılar qaçır. Qardaşı Hüseyn cökə ağacının arxasından qarşı tərəfə cavab atəşi atanda qacaqlar ona bildirirlər ki, Hüseyn bizim sənlə işimiz yoxdur, atma. Atışma gedişatında Hüseyn güllə ilə vurulur və meyit çay aşağı düşür. Kənd əhli Məmmədəli və Hüseyni islam şəriəti üzrə dəfn edirlər. Onuda qeyd etmək yerinə düşər ki, Abdulla kişi onların qanını başqa adam vasitəsilə alır. Allah onlara rəhmət etsin.

Güldəstə Laçın rayonunun Ələkçi kəndindən olan Novruzla ailə qurub. Soltan bəy onu döyüb qovduqdan sonra Narınclar kəndinə pənat gətirir.

**Novruzun övladları:**

1.Əziz
2.İmran
3.Süleyman
4.Nəriman
5.Gözəl
6.Sona

**Novruz oğlu əzizin övladları:**

1.Kamran
2.Kamal
3.Minaya
4.Gülxara

**Novruz oğlu İmranın övladları:**
1.Camal (Pəridən)
2.Əmrah (Pəridən)
3.Fəxrəddin (Səriyədən)
4.Tahir (Səriyədən)
5.Rasta (Pəridən)
6.Gövhər (Pəridən)
7.Adilə (Səriyədən)
8.Xalidə
9.Əminə

**Novruz oğlu Süleymanın övladları:**
1.Zərqələm (Teyfədən)
2.Gumuş (Teyfədən)
3.Validə (Püstədən)

**Əziz oğlu Kamranın övladları:**
1.Vüqar (Qüdrətdən)
2.Hüsniyyə (Qüdrətdən)
3.Hikmət (Qüdrətdən)
4.Şəlalə (Qüdrətdən)
5.Gülşən (Qiymətdən)
6.Əlövsət (Qiymətdən)

**Əziz oğlu Kamalın övladları:**
1.Bayram
2.Rövşən
3.Novruz
4.Qəndab
5.Tükəzban
6.Çiçək
7.Nərgiz
8.Səmərqə

**İmran oğlu Camalın övladları:**
1.Nəriman
2.Telnaz
3.Gülnaz
4.İlqar
5.Dağbəyi
6.Qoşqar
7.Duman
8.Muğan
9.Jalə

**İmran oğlu Əmrahın övladları:**
1.Mehman
2.Solmaz
3.Şəhla
4.Almaz
5.Rəsmiyyə
6.Zülfiqar
7.Əhliqar
8.Səməd
9.Ayaz

**İmran oğlu Fəxrəddin övladları:**
1.Mahir
2.İmran
3.Anar
4.Roza
5.Əli
6.Mirəli

**İmran oğlu Tahirin övladları:**
1.Niyaməddin
2.Güldəsdə
3.Elməddin
4.Zöhrə

**Baxşalının oğlu Fərəcin övladları:**
1.Paşa
2.Muxtar
3.Tamam
4.Şamama
5.Sona

Fərəc oğlu Paşanın həyat yoldaşı Firəngiz Kəbirli-Hüsülu qızıdı.
**Fərəc oğlu Paşanın övladları:**
1.Fatma
2.Samara
3.Semnarə
Atamın xatirələrinə görə, Fatma Beyləqanın Murtulu nəslindən olan Hibi kişinin oğlu Orucla ailə həyatı qurmuşdu. İkinci Cahan müharibəsi dövründə babam Abdullanın kirvəsi olduğu üçün onun yanına gəlib qoyuna gedirdi. Çox dinc, halal kişi idi. O zaman bizim kənddə kotan və başqa alətləri olduğu üçün taxıl bol idi. Oruc Güney qavinda ağac aşır, bərk əzilir. Qardaşım Əşrəfin dostu idi. Həkimə aparsam da əlac olmadı. Oruc kişi vəfat etdi.Vahid adlı oğlunu 2014-cü il avqust ayında Rayanın oğlu Bəxtiyarın toyunda tapdım. Onunda Əli adında bir oğlu var. Yoldaşı Qərvənd Əvəz Hümbətovun qızı Mənsurədir. Fatma 2001-ci ildə Bərdənin Kətəlparaq kəndində dəfn olunub. Firəngiz bibim 1993-cü ildə Hüsülüdə dəfn olunub.
Samara Əliağalıda mənimlə orta məktəbdə oxuyub. Əliağalı Şura müəllimə ərə gedib. Uşaqları Zabil, Habil, Qabil, Fazilə, Nuridə Yevlaxın Samux kəndində olurlar. Semnarə Hüsülüyə xalası oğluna ərə gedib. Murad adında oğlu var.

Fərəc oğlu Muxtarın həyat yoldaşı Ayna Kəlbəcərin Başlıbel seyidlərindən olan Seyid Dadaşın qızıdır.
**Fərəc oğlu Muxtarın övladları:**
1.Əvəz
2.Təhməz (1990-cı ildə Pirin dağında şəhid olub)
3.Bəhmən
4.Rəfiqə

Abdulla kişinin həyat yoldaşı Bacıxanım.
**Baxşalı oğlu Abdullanın övladları:**
1.İbrahim
2.Cümşüd
3.İnqilab
4.Səkinə
5.Səmaya
6.Zərxara
7.Tamara

**Abdulla oğlu İbrahimin övladları:**
1.Sabir (Gülüstandan)
2.Hidayət (Gülüstandan)
3.Kərim (Gülüstandan)
4.Dilən (Gülxarədən)
5.Melik (Gülxarədən)
6. Nəzakət (Gülxarədən)
7.Rəhman (Gülxarədən)

**İbrahim oğlu Sabirin övladları:**
1.Qabil
2.Zəminə
3.Nailə
4.Zabilə
5.Cəmilə
6.Sara

**İbrahim oğlu Hidayətin övladları:**
1.İlya
2.Fəridə
3.Zemfira
4.Taleh
5.Xoşqədəm
6.Nəsibə
7.Təranə

8.Qələm
9.Aynurə
10.Roza
11.Ələmdar

**İbrahim oğlu Kərimin övladları:**
1.Sədaqət
2.Nazilə
3.Natiq
4.Səlim
5.Namiq
6.Fazilə

**İbrahim oğlu Dilənin övladları:**
1.Xəqani
2.Gülnarə
3.Nigar
4.Anar

**İbrahim oğlu Melikin övladı:**
1.Jalə

**İbrahim oğlu Rəhmanın övladları:**
1.Şəbnəm
2.Nərgiz

**Abdulla oğlu Cümşüdün övladları:**
1.Yelmar
2.Qəhrəman
3.Şahlar
4.Məleykə
5.Seyran

**Cümşüd oğlu Yelmarın övladları:**
1.Esmira
2.Fariz

**Cümşüd oğlu Qəhrəmanın övladları:**
1.Vəfa
2.Şəhla

**Cümşüd oğlu Şahların övladları:**
1.Odxan
2.Banuçiçək

**Abdulla oğlu İnqilabın övladları:**
1.Xatirə
2.Şakir
3.Yeganə
4.Sənaye

**İnqilab oğlu Şakirin övladları:**
1.Kənan
2.Orxan
3.Xədicə

**Baxşalı oğlu Duraqın övladları:**
1.Sultan
2.Ələkbər
3.Xəlil
4.Calal
5.Şükür
6.Zərniyar
7.Gülüstan
8.Abuzər

**Baxşalı oğlu Bəşirin övladları:**
1.Novruzəli
2.Həşim
3.Qəşəm
4.Budaq
5.Cəfər
6.Tükaz
7.Telli
8.Ballı

Novruzəli 1939-1945-ci ildlər İkinci Dünya müharibəsinə gedib gəlməyib. Həyat yoldaşı Şamama əmisi Fərəcin qızıdır. Şamamanın anası Pəri Kərəmlidəndir. Zeynəbin qardaşı qızı Rəhimin bacısı-Əsgərin mamasıdır.

**Bəşir oğlu Novruzəlinin övladları:**
1.Qonca
2.İdris
3.Mürşüd
4.Güloba

**İdrisin övladları:**
1.Çingiz
2.Güloba
3.Dilşad
4.Gündüz
5.Elgiz
6.Aytac
7.Gülnaz

**Mürşüdün övladları:**
1.Müşviq
2.Aybəniz
3.Gülbəniz
4.Pənah
5.İlhamə

**Rüstəm oğlu Məhəmmədin övladları:**
1.Hüseyn

2.Xosrov
3.Gülnar
4.Fatma

**Rüstəm oğlu Astanın övladları:**
1.Aydın
2.Gülgəz
3.Şavahah

**Mirzalı oğlu Əbdüləlinin övladları:**
1.Surxay
2.Mirzalı
3.Qəmzə

**Mirzalı oğlu Əfkərin övladları:**
1.Suraya
2.Gülaya
3.Ovsandıq

**Mirzalı oğlu Qəribin övladları:**
1.Yunus
2.Aydın
3.Srovka

**Ələsgər oğlu Əlinin övladları:**
1.Əsgər
2.Əkbər
3.Sovet
4.Zümrüd
5.Məleykə
6.Məxluqə
7.Püruzə

Xüsusi olaraq qeyd edirəm ki, Mirzalı oğlu Əbdüləlinin qızı Qəmzə kolanı Ələsdanla ailə həyatı qurub.

**Ələsdanın övladları:**

1.Kamal
2.Buluş
3.Sümbül

**Ələsdan oğlu Kamalın övladları:**
1.Zahid (Birinci Qarabağ müharibəsində şəhid olub)
2.Zöhrab
3.Məlahət
4.Elmira
5.Hökumə
6.Esmira (Allah rəhmət etsin)
7.Yetər (Allah rəhmət etsin)

**Adgözəl oğlu İsmayılın övladları:**
1.Yaşa
2.Əmir
3.Elman
4.Ramiz
5.Şərqiyə
6.Əntiqə

**Ələsdanın oğlanları vəfat edib.**
Qızlarının övladları çoxdur.
1.Güleyşə
2.Şeyda
3.Ağca

**Usub oğlu Məhərrəmin övladları:**
1.Əşrəf
2.Əjdər
3.Zakir
4.Səltənət
5.Məhruzə
6.Fitat
7.Yusif

**Məhərrəm oğlu Əşrəfin övladları**:
1.Stambul
2.Ulduzə
3.Nadir
4.Lətafət
5.Ruxsarə
6.Sədrəddin

**Məhərrəm oğlu Əjdərin övladları:**
1.Malik
2.Xaliq
3.Nizami
4.Aynurə

**Məhərrəm oğlu Zakirin övladları:**
1.Adil
2.Aytəkin
3.Məzahir
4.Mahir
5.Vəsilə
6.Qoşqar

**Məhərrəm oğlu Yusifin övladları:**
1.Zibəndə
2.Elşən
3.Eyzangül
4.Murad
5.Akifə

**Usub oğlu Məhəmmədin övladları:**
1.Yaqub
2.Zakir
3.Şövkət

**Usub oğlu Hümbətin övladları:**
1.Ruqiyyə
2.Bünyad
3.Qanboy
4.Çingiz
5.Həcər
6.Kifayət
7.Raya
8.Dilşad

**Hümbət oğlu Bünyadın övladları:**
1.Akim
2.Elnurə
3.Bəxtiyar
4.Füzuli

**Hümbət oğlu Çingizin övladları:**
1.Elmir
2.Hümbət
3.İntizar
4.Orxan
5.Zərxara

**Hümbət oğlu Qanboyun övladları:**

1.İntiqam
2.Ceyran
3.Cənnət
4.Səkinə

# V BÖLMƏ

## NARINCLAR HAQQINDA ÜMUMİ MƏLUMAT

Kənd rayon mərkəzindən 76 km dağətəyi maili düzənlik ərazidə yerləşir. İşğala qədər Narınclar kəndinin əhalisinin sayı 650 nəfər olmuşdur. Hazırda kənd əhalisinin sayı 558 nəfər, 162 ailədən ibarətdir.

Narınclar kəndi şimaldan Kəlbəcər rayonu, cənubdan Ağdərə və Ağdam rayonları, Qərbdən Laçın rayonu ilə əhatə olunmuşdur. Ağdərə rayonunun Vəngli, Qozlu kəndlərinin ərazisi ilə əhatələnmişdir. Mülayim iqlimi, zəngin təbiəti, təsərrüfat üçün əlverişli şəraiti var.

**Kənddə aşağıdakı inzibati binalar mövcud olub.**

Məktəb, kənd sovetinin iki mərtəbəli binası, klub, tibb məntəqəsi, poçt, kənd kitabxanası, keçmiş sovxozun inzibati idarə binası, yem anbarı - 2, mağaza və un, duz anbarı, İmam evi, qara mal tövləsi - 2 ədəd  At tövləsi-1 subay mal tövləsi -5, Pendir və süd məntəqəsi, "Pirin dagında" Ay doğanda - 1, Kaha və Zagalar - 4 ədəd, Qazı bulağından çəkilmiş 3000 metirlikdən su kəməri çəkilmişdir.

Kəndin 150 hektarında Taxta düzü adlanan ərazisi elat köçünün müvəqqəti gecələməsi üçün ayrılmışdır.

Narıncların əhalisinin əsas məşquliyyəti heyvandarlıq, tütünçülük olub. Xırmanlarda qədim yazısı olan dəyirman daşı aşkar edilmişdir. Ermənilər bu tapıntını Hollandiyaya aparıblar. Narıncların Taxtabaşında olan qədim dəyirmanı Laçın, Kəlbəcər kəndlərini təmin edirdi. Buradan eləcədə yüksək gərginlikli elektrik xətti keçirdi. Bütün qonşu rayonlara maşın yolları vardı. Narıncların əvvəl Qaratəpə (Bərdə) sonra isə İmişli rayonunun Məmmədli qəsəbəsində qışlaq yeri olub. Hazırda  Kürdəmir rayon mərkəzinə yaxın ərazidə Narınclar camaatı üçün yeni qəsəbə salınmışdır. Məmmədli qəsəbəsindəki qışlaq yerində məskunlaşan vaxtdan Muradxanlı İriləşdirilmiş Neft Mədəninin rəisi Dünyamalı Əliyev və qaraj müdiri Bəhram müəllim narınclılara diqqət və qayğı göstərmişlər.

2020-ci ildə 44 günlük müharibədə Azərbaycan ordusunun və şəhidlərin qanı hesabına Qarabağ işğaldan azad olundu. Allahın izni ilə Narınclılar öz doğma yurdlarına qayıdandan sonra yeni quruculuq

işlərinə başlayacaqlar. Gələcəkdə kənddə heyvandarlıq, əkinçilik arıçılıq, meşə emalı zavodu, daş və qum karxanası, turizm üçün turş su sanatoriyası sahəsində xeyli işlər görülə bilər.

Kəndin qəbirstanlığı Yavın dalı, Xırmanın yerin üstü, hasarlı, mərmər baş daşlı idi. Qarabağın hörmətli və nüfuzlu seyid nəsli, peyğəmbər, imam övladı Məşədi Seyid Rza ağanın məqbərəsi ziyarətgah idi. Qardaşım Malik müəllim gənc nəslin təlim-tərbiyəsi üçün öz ərizəsi ilə kənddə pedoqoji fəaliyyətə başlayır. Malik müəllim Ağanın türbəsini təmir etdirir və işıq çəkdirir. Axşamlar Ağanın ruhunu şad etmək üçün işığı yandırar, səhərlər söndürərdi. Bir qayda olaraq işğala qədər bu savab işi məhəbbətlə yerinə yetirir. Allahdan hər ikisinə rəhmət diləyir, ruhları şad, məkanları cənnət olsun. Ruhlarına fatihə.

Köhnə məktəb binası 2 mərtəbəli, Yeni məktəb binası 1 mərtəbəli (avadanlıqla təmin olunmuş) lahiyə əsasında inşa edilmişdir.

Kiçik kənd olmasına rəğmən, yarandığı tarixdən etibarən üzü bəri hamı bir-birinə hörmət bəsləyir, hər kəs öz yerini, danışığını, rəftarını bilirdi. Gənc nəsil hər hansı bir məsələni həll edərkən ağsaqqaldan, ağbirçəkdən məsləhət alırdı. Ağsaqqalların xeyir duası ilə işə başlardı. Kənd sakini kimi bir kənd sakini sevdiyi yerdə ev-eşik salmamışdan öncə adlı-sanlı ağsaqqallardan məsləhət, xeyir-dua alardı. Bu ənənənin əsasını İsmayıl bəy qoymuşdur. Narınclarda hər bir ailənin daşdan tikilmiş evi və həyətyanı torpaq sahəsi var idi. Evlər 1 və 2 mərtəbəli olmaqla, özünəməxsus memarlıq xüsusiyyətlərinə malik idi.

Narınclar camaatının gözəl xüsusiyyətləri dədə-babalarımızın genində Kolanı nəslinin irs xüsusiyyətlərini daşıması ilə bağlıdır. Heç təsadüfi deyil ki, insanları öyrənəndə, onun nəslini araşdırmağa başlayanda kimdir? kimlərdəndir? suallarını veririk. Bu sualların verilməsi səbəbsiz olmayıb, elmi əsaslara söykənir. Təbii olaraq hər bir şəxsin genində valideynlərinin, babalarının irisi əlamətləri saxlanılır. Məlum olduğu kimi, kolanı İsmayıl bəyin qızı Narınc Xatun İsmayılbəyli kəndindən Narınclara gəlin köçmüşdür. Bu evliliyin timsalında əcdadlarımızın əlamətləri nəsildən nəsilə ötürülmüşdür. Bu yanaşmanı elmi-məntiqi şəkildə əsaslandırmaq üçün genetik anlayış-

lardan istifadə edək. Buraya genetik məlumatın saxlanması (xromosomlar), ötürülməsi, realizə olunması və dəyişilməsi aiddir. Açar sözlər aşağıdakılardır.

1. İrsiyyət – orqanizmlərin əcdadlarına məxsus əlamət və xüsusiyyətlərini gələcək nəsilə ötürülməsidir.
2. Əlamət – canlıların və onların ayrı-ayrı hissələrini bir-birindən anatomik, morfoloji və fizioloji cəhətdən fərqlənməsidir.
3. Gen – DNT-nin bir hissəsi olub, xromosomda yerləşir. Əlamətin nəsildən-nəsilə ötürülməsini təmin edir.

**Narınclar kəndinin toponimləri**

Unudulmaqda olan coğrafi yer adlarını gənc nəslə tanıtmaq zəruridir. Hər bir toponim vahidləri milli-etnik mənsubiyyəti və tarixi yaddaşı ehtiva edir.

**Coğrafi yer adları**

1. Məşədi Seyid Rza ağanın yurdu
2. Məmmədalı binəsi.
3. Blanqoyulan 1 yalı 2 yalı yol yurd.
4. Kərdənlər (1-ci, 2-ci Şirin düşən)
5. Pirin dağının başına düşən yol, orda yenir Bacıxanım yol (Sarı yol)
6. Xamqayanın dalı, orta yalın başından keçir yol yurda (Duzdağ-Ağqaya, Qurban bəyin yurdunun dalı) orda yola aşan yol, Qızıl yoxuş (Qətil ağacı), Sırğavənd yurdunun suyu yuxarı Dəllək bulağı, Dikdaş, Çıraqlının güneyinin başı ilə Cümşüd bəyin yurdu, (Taxta pusu yol) Ağqayanın başı üstə mil ilə, Qırmızı Güneyin mili ilə yenir. Çıraqlının məktəbin yanından Sümüdüllü qəbirstanlığına qayıdır. (Taxta çayının axarı. Məmmədalı binəsi suyu. Dəyirmanın yanı aşağı).

Əhəng quyusu, Malqırılan (aşağı, yuxarı), Dəflər, Doqqazlı, Bəşirin daşağıl, Əjdər tikdirən ictimai tövlə, Daşağıl, Əfkənin yeri, Taxtalar, yasavullar düşən təpə, Qarayorğanlar, Durağın yurdu, Usubun cola yurdu, Sarı yoxuşun yolu, Xamqayanın yurdlar üzü, Keçəsallanan, Xamqayanın kənd üzü, Hürü qaçan saga, Yalın boğaz, Dübəyin daşı, Yalın dalı, Gülmalı ölən dərə, Darı yeri, Darı yerinin təpəsi, Gəlin uçan, Dərə bicənək, Bulağın dərəsi, Aşıq Səlimin yurdu,

Yavın dərəsi, Göyxırrar, Ala palıdlıq, Qanqallı, Tahirlərin yurdu, Qaracoranlı, İsgəndərin yurdu, Ağqayanın döşü, Əhəng yanan, Böyük soyuq bulaq, Soyuq bulağın körpüsü, Məhəmməd kişinin yeri və armudu, Batgağlı, Darı yerinə keçən yol və orada Usubun çaybiçənəyi, Dəyirman talası, Hümbətalı tutan tala, Quzey bulağı, Göyqumun dərəsi-təpəsi, Yalbiçənək, Məhərrəmin yeri, Durağın sarı armudu, Şərikli çəpər, Novruzçalan, Fərəcin çalası, Molla Ələsgər yurdu, Kolavat, Dəyirmanın üstü, Ələstanın kartof yeri (balaca çaladır), Xədicənin yurdu, Qaracanlı qayasının Sarı yol arasında Sarı yol (At yurdu, Zəhranın yurdu, Əşrəfin at yeri).

Ələsdanın və Məhərrəmin kolavatı (at, taya yeri), Dəyirmana sarı birinci, ikinci, üçüncü gərdən, Dəyirmanın üstdəki əkin yeri, Həzrət Əlinin körpüsü, Yelli yal, Qərvənd böyük düzü Hüseynin yeri, Dam yeri, Muxtarın yeri, Dübəkli (o üz, bu üz), Çoban yurdu, Qırmızı güney, Qayanın dalı, Meşənin ağzı.

**Bulaq adları**

1. Məşədi Seyid Rza ağanın bulağı
2. Məmmədalı binəsindən Məmmədalı bulağı
3. Soyuq bulaq
4. Ağabəyim bulağı
5. Pirin dağına çatanda Sarıbulaq
6. Yurdda – Yuxarıkı bulaq
7. Aşağı bulaq (Durağın yurdunun ərazisi)
8. Nəsibin bulağı
9. Usubun bulağı
10. Pirin dağının döşündə Çınqıllı bulağı
11. Bacıxanımın bulağı
12. Qurban bəyin bulağı
13. Aşıq Səlim bulağı
14. Şırranın bulağı
15. Dəllək bulağı
16. Süleyman bəyin bulağı
17. Yelliyal (yuxarı) bulağı
18. Qazı bulağı
19. Türvəndənin bulağı

20. İsgəndərin bulağı (Qaracoranlı yerində)
21. Qayıbın bulağı
22. Qırmızı Güneyin bulağı
23. Çoban yurdunda Çoban bulağı
24. Darı yerinin bulağı
25. Böyük Düzün bulağı
26. Mayanın bulağı
27. Novruzçalan bulağı
28. Sızqa bulaq
29. Hümbətalı talasının bulağı
30. Göy qumun bulağı
31. Yalbiçənəyin başında bulaq
32. Narınclar bulağı
33. Dəyirman talası bulağı
34. Quzeybarmağı bulağı
35. Əli bulağı
36. Qazı bulağı (Kəndə Qazı bulağından su kəməri gəlirdi)

Köç yolu Narınclardan Sarı yelə, Dəli dağa, yol ayrıcından Taxtabaşına oradan yaylaqlara çıxır.

## Dağlar

1. Qoca yurd
2. Qaracanlı qayası
3. Pirin dağı
4. Ağqaya
5. Qırxqız




*Narınclar kəndinin ümumi görüntüsü (1990-cı il)*

# NARINCLARIN DƏRMAN BİTKİLƏRİ VƏ XALQ TƏBABƏTİ

Narınclar kəndinin bitki örtüyü xalq təbabəti baxımından müalicəvi əhəmiyyətə malik idi. Aşağıda tanış olacağınız materiallar buna dəlalət edir.

Qarağat, Cır alma, Xımı, Nərgiz, Quzuqulağı, Göbələk, Qısı, Çay çiçəyi, Ayı döşəyi, Boymadərən, Pişik otu (Validon), Quşəppəyi, Qantəpər, Qanqal, Qırxbizik, Çobanyastığı, Qandalaş, Əvəlik, Pülpül, Mamır, Ular (Vələs)

**FISTIQ.** Zəkanı artırır, ağlı itiləşdirir. Şam fistığı ilə yeyildikdə mədəni gücləndirir. Qabığı yandırılıb külü içilsə, böyrək və sidik kisəsi daşlarını tökür.

Yaşıl qabığını yemək ağız yaralarını sağaldır.

**QIZILGÜL.** Ağrıyan gözə qızılgül suyu çəkdikdə ağrı kəsilir. Suyu içildikdə əhval-ruhiyyəni yaxşılaşdırır. Bayılmalara suyu çox xeyirlidir. Mürəbbəsi mədəni qüvvətləndirir.

**ƏMƏKÖMƏCİ.** Toxumları qaynadılır, suyuna qənd əlavə edilərək şərbəti hazırlanır. Bu şərbətdən içdikdə qanlı yaraları sağaldır.

**QIJI (ayıdöşəyi).** Ürək döyünməsini sakitləşdirir, bağırsaq qurdlarını tökür.

**ALMA.** Ürəyi qüvvətləndirir, təngnəfəsliyi, ürək döyünməsini aradan qaldırır, qanı artırır. Çəyirdəyi acqarına yeyildikdə bağırsaq qurdlarını tökür.

**QOZ.** Yaşıl qabığının suyu sıxılıb buruna çəkildikdə qanaxmanı kəsir.

Eyni su sızanaqlara çəkilsə, onları dərhal qurudur.

Qoz, əncir və sədəf çiçəyi birlikdə yeyildikdə bütün zəhərlənmələri zərərsizləşdirir.

Quru qabığı yandırılıb külü balla qarışdırılır. Əldə olunan pasta dişlərə sürtülsə, onları ağardır, parladır.

Qoz ağacı kölgəsində yatmaq iflicə və qəfləti ölümə səbəb olur.

**ŞAM AĞACI.** Qabıqlarını sirkə ilə qaynadıb qarqara etmək diş ağrısını kəsir, bəlğəmi qovur.

Yarpaqları əzilib yara üzərinə qoyulsa şəfa verir.

Yarpaqları və qabığı qaynadılıb içildikdə qara ciyər ağrısı azaldır, toxumları göy öskürəyi kəsir.

**ŞAM FISTIĞI.** Şam fıstığı insanı kökəldir, zəifliyin və halsızlığın qabağını alır. Ağ ciyər vərəminə və iltihabına, qan tüpürməyə və öskürəyə qarşı çox qüvvətlidir.

Balla qarşıdırılıb pastası yeyilsə, böyrək və sidik kisəsi iltihablarına şəfa verir.

**ŞAM SAQQIZI.** Şam saqqızı – 10 qram

Un – 5 qram

Qara bibər – 5 qram (döyülmüş halda)

Badam yağı – lazımi qədər

Hamısı birlikdə qaynadılır. Yumurta ağı çalınaraq məhlul halına salınır, babasil üzərinə qoyuluur. Yaranı dərhal qopardır. Başqa yaralara çəkildikdə də sağaldır, ancaq ağrı yaradır.

**BÖYÜRTKƏN.** Çox yeyilsə, gözlərə xeyirdir, babasilə qarşı faydalıdır. Kökünü qaynadıb içmək öd kisəsinin daşını tökür, saçları artmağa qoymur, gözə işıq verir.

**BALDIRĞAN.** Baldırğanı dəmləyib içmək sinədəki və ağ ciyərlərdəki qanı, səfra və bəlğəmi qovur, təngnəfəsliyi, öskürəyi aradan qaldırır.

**VƏZƏRİ TOXUMU.** Yeyildikdə və ya təpiməsi başa qoyulduqda, saçın tökülməsinin qarşısını alır.

Vəzəri toxumu, duz və sudan ibarət təpitməni çiban üzərinə qoyduqda xəstəliyi sağaldır.

Yeyildkdə baş ağrısını kəsir, bağırsaq qurdlarını tökür.

**PAXLA.** Paxla yemək sinə xəstəliklərini sağaldır, öskürəyi kəsir. Qanı durmayan yaralar zamanı ikiyə bölərək yaranın üstünə qoyduqda qanı laxtaladır.

Paxla insana yuxu gətirir.

**BAL.** Bal bütün xəstəliklərin dərmanıdır. ibn Sina deyir: - Bal mədəyə, gözə, ürəyə qüvvə verir: - bal şərbətinin qarqarası ağız və boğaz xəstəliklərini sağaldır;

- bal şərbəti içmək damarları açır, sinəyə xeyirdir, – sarılığı müalicə edir, qarına yığılan suları çəkir; – müxtəlif sızı və ağrıları yox edir; – bədəndəki yanmış qanı, bəlğəm və safrani qovur;

- damarlara dağılaraq bədəndəki rütubəti azaldır, melanxoliya xəstəliklərini sağaldır.

- soyuqdan yaranan bütün xəstəliklərə qarşı şəfalıdır;

– nar suyuna qarışdırılıb gözə sürmə kimi çəkilməklə gözə su enməsinin qabağını alır, gözün işığını artırır; – digər yetmiş iki dərdə dərmandır.

**ANDIZ KÖKÜ.** Bu ağacın toxum və yarpaqlarını qaynadaraq suyu ilə çimmək bədəni möhkəmlədir, tərləməyin qarşısını alır.

Ardıc qatranı isə barmaqlarda əmələ gələn ekzema, ləkə və iltihablı yaraları sağaldır.

**ARMUD.** Armud yemək zökəm və tumovu kəsir, mədəni qüvvətləndirir – həzmi asanlaşdırır. Tumundan (çəyirdəyindən) 10 qram acqarına içilsə, bağırsaq qurdlarını tökür.

**ARPA.**Ekzema və qaşınmalara qarşı çox xeyirlidir. Arpa sirkə ilə qaynadılır, mayesi qaşınan yerə sürtülür. Suyu içildikdə sidik yandırmasını aradan qaldırır.

Üzüm salxımları arpada saxlandıqda uzun müddət xarab olmur.

Ayı piyi sədəf xəstəliyinə (dəmrov) sürtülsə, şəfa verir.

Yumurta ağına ayı qanı qarışdıraraq daz başa sürtülsə, yenidən tük bitir.

**NOVRUZGÜLÜ.** Bu bitki çox faydalıdır. Novruzgülü içəridə olan yeli, qara ciyər və böyrək xəstəliklərini sağaldır, habelə yanmış qani, safra və bəlğəmi çıxarır, iflic, qarabasma və vurğunluğu sağaldır.

5 qram novruzgülünü yeməklə qulunc, bağırsaq yeli və sancısından dərhal xilas olmaq mümkündür.

**AYRIQOTU.** Kökünü qaynadaraq icmək böyrəkdəki daşları tökür, qan qusmağın qarşısını alır, ələlxüsus haymoriti sağaldır.

**HEYVA.** Heyva çiçəkləri və badamdan hazırlanmış pasta yeməkdən sonra 1 qaşıq yeyildikdə ürəyə qüvvət, qəlbə fərəh verir.

**YEMİŞAN.** Yemişanın suyu şəkərlə içildikdə başağrısını dərhal kəsir. Təpitməsi şiş üzərinə qoyulduqda şişi alır, bu xəstəliklərini sağaldır, safranın artmasını dayandırır. mədəni qüvvətlənidirir.

**CİRƏ.** Yeməkdən sonra bir çay qaşığı cirə suyu və ya qaynanmış cirə suyundan bir stəkan içilsə, ciyərin, dalağın, böyrəyin, bətnin, sidik qovuğunun tıxanıq damarlarını açır, bəlğəmi, susuzluğu kəsir, bədəndəki zəhəri neytrallaşdırır.

Cirədən sürmə düzəldib gözə çəkilsə, gözdəki pərdəni qaldırar.

Qaynadaraq şəkərlə içilsə, üzə gözəllik verir, rəngi açır, köksü yumşaldır, təngnəfəsliyi, öskürəyi aradan qaldırır, daxili ağrıları kəsir.

**GAVALI, QAYSI.** Bu meyvələr ağ qan cisimciklərini artırır, dolayısilə qanın tərkibini pozur. Odur ki, yedikdən sonra hökmən sirkə və bal qarışığından hazırlanmış şərbət içərlər (bir stəkan).

**YABANI BÖYÜRTKƏN.** Meyvələri gözə çox xeyirlidir. Göz xəstəliklərini də sağaldır. Yaralara, ələlxüsus, qanqrenə xeyir verir.

**İTBURNU.** İtburnunun mənfəəti sayılmayacaq dərəcədə çoxdur. Meyvələri S vitamini ilə zəngindir. İtburnu dəmləyərək içmək faydalıdır. Mürəbbəsini hazırlamaq və hər gün on qram içmək məsləhətdir; qocalmanın qarşısını alır.

**ZİRƏ.** Zirəni qaynadıb suyunu içdikdə qazı qovur ürəkbulanmasının və qusmanın qarşısını alır, mədəni qızışdırır, həzmi asanlaşdırır, hıçqırığı kəsir,

Toxumu və bitkisi qaynadılaraq içilsə, sidiyi qovur, qarın ağrısını və bel üşüməsini sağaldır.

Ət bişirərkən içinə bir qədər zirə əlavə olunsa, ət tez bişir.

Yağı yel və ağrı olan üzvlərə çəkildikdə sağaldır, laxtalanmış qanı əridir.

Qaynanmış suyu ilə üzü yumaq sifəti gözəlləşdirir.

**BAĞAYARPAĞI.** Vərəmə, çibana, ağız yaralarına qarşı istifadə olunur.

Suyu bağırsaq iltihabını kəsir, babasil və ağ ciyər qanamalarını sağaldır.

Kökünü və ya yarpağını qaynadıb suyu ilə qarqara etmək diş ağrısını kəsir.

**SİRKƏ.** Yara və yanıqlar zamanı pambığı sirkəyə batırıb yaraya çəkmək çox xeyirlidir.

Qanamanı kəsir, iştahanı açır, mədəyə qüvvət verir.

**SOĞAN.** Baş soğan orqanizmi gücləndirir, sarılığın qarşısını alır, bədəndəki daşları tökür.

Suyunu buruna damcılatmaq baş ağrılarını, qulağa damcılatmaq qulaq cingildəməsini və iltihabını aradan qaldırır.

Suyu sürmə kimi gözə çəkilsə, göz sulanmasını sagaldır. Göy öskürəyə, təngnəfəsliyə qarşı xeyirlidir.

**SARIMSAQ.** İyulda və avqustda yetişən bitkisinin kökü xüsusilə faydalıdır. O, qan təzyiqini aşağı salır, antibiotik olduğu üçün bir çox mikrobları məhv edir, həzmi asanlaşdırır. Mədə və bağırsaq qurdlarını salan ən təsirli dərmandır.

Qandakı qlükoza səviyyəsini tənzim edir, insanı şəkər xəstəliyindən qoruyur, qəbizliyin qarşısını alır.

**RAZYANA.** Martın əvvəlindən iyuna qədər hər gün 15 qram yedikdə, insanı o il bütün xəstəliklərdən qoruyur.

Toxumları bal ilə pasta halında yeyildikdə və ya suyu ilə gözləri sildikdə görmə qabiliyyətini artırır. Yazda ilan yuvasından çıxarkən gözlərinin açılması üçün razyananı üz-gözünə sürtür.

**ÇOBANYASTIĞI.** Bağırsaq şişləri və iltihabları zamanı çobanyastığını qaynadıb çoxlu içmək lazımdır.

Bu həm də sarılığa, sidik yanmasına kömək edir, böyrəklərdəki daşı salır.

**KƏLƏM.** Qaynadılıb suyunu içmək səs qısıqlığını açır.

Acı paxla suyu ilə toxumları içildikdə bağırsaq qurdlarını tökür.

**NANƏ.** Cövhərinə az miqdarda sirkə əlavə edərək içdikdə daxili qanamaları kəsir.

Çeynədikdə diş ağrısını sakitləşdirir.

**KEŞNİŞ.** 10 qram keşniş qurusu yemək ürəyi qüvvətləndirir. Keşniş kəklik əti ilə yeyildikdə qanlı ishalı kəsir.

Bal və zeytun yağı ilə yeyildikdə örə və süd yarasını sağaldır.

Qaynadılıb şərbətini içməklə baş gicəllənməsindən xilas olmaq mümkündür.

**KƏKLİKOTU.** Çay kimi dəmləyib içdikdə yel xəstəliyini sağaldır. Zirə və sirkə ilə qaynadıb qarqara etdikdə diş ağrısını kəsir.

Qaynanmış suyu ekzemani sağaldır, içildikdə mədəni bəlğəmdən tamamilə təmizləyir.

Qaynanmış suyu bal ilə içilsə, bağırsaq qurdlarını tökür.

**DAZIOTU.** Bu bitki çox mənfəətlidir.

Zeytun yağı ilə məhlulunu hazırlayıb yaraya çəkməklə yaranı sağaltmaq mümkündür.

7 qram dazıotu bal ilə pasta şəklində yeyilsə, qanlı tüpürcəyi, təngnəfəsliyi, qarın və bətn ağrılarını kəsir, bağırsaqdakı qurdları tökür, bəlğəmi dəf edir.

Suyuna sirkə əlavə edib başa sürtdükdə baş ağrısını kəsir.

**YARPIZ.** Salat kimi yeyilsə, iştahı açır, mədə zəifliyini aradan qaldırır

Müntəzəm olaraq çox miqdarda yeyilsə və üstündən pendir suyu içilsə, elefantiazis (fil) xəstəliyinin qarşısını alır. Suyu içildikdə cüzam xəstəliyinə qarşı fayda verir: Çeynədikdə ağız və boğaz iltihabını kəsir. İylədikdə burun iltihabını açır.

Əncirlə birlikdə yedikdə təngnəfəsliyi aradan qaldırır. Qaynadılaraq içdikdə mədəni qüvvətləndirir, qusma və ürək bulanmasını dayandırır.

Zəhərli heyvanlar adamı çaldıqda, yarpız qaynadılır, suyu içilir.

Yarpiz suyu içmək nəticəsində bətndəki ölü uşağı salmaq mümkündür.

Suyu bal və bir az duz ilə içilərsə, melanxolik xəstəlikləri sağaldar.

Yarpızın qurusu yandırılaraq külü ilə dişlərin dibi ovulsa, dişlər möhkəmlənir.

**YASƏMƏN.** 30 qram yasəmən suyu mərsin yarpağının suyu ilə içilsə, bəlğəm və afranı qovur, damarları açır. Həmin tərkib yel və bətn xəstəliklərinin sağalmasına kömək edir.

**KARTOF.** Adamı kökəldir, qanı artırır. Sinəni hər cür sortlik və öskürəkdən qoruyur. Çiy kartof əzilərək yanıq və şiş üzərinə qoyulsa, fayda verir.

Böyrəyə çox xeyirlidir. Kartof suyu ilə saçı yuduqda tükləri möhkəmləndirir.

## VI BÖLMƏ

# NARINCLAR ELİNİN ADƏT-ƏNƏNƏLƏRİ

### Xalq oyunları

Xalqımızın min illərdən bəri süzülüb gələn ən gözəl milli dəyərlərindən biri də xalq oyunlarıdır. Müasir dövrün yetkin nəslinin nümayəndələri bu oyunları, yəqin ki, çox yaxşı xatırlayırlar. Xalq oyunları bizə mehribanlığı, səmimiliyi, birliyi, cəsarəti, ən əsası isə əsil uşaq kimi böyüməyi öyrədib. İndi də o illərin xatirələri canlandıqca oyun zamanı saatların su kimi axıb keçməsi, həyət-bacanı başına alan şən səs-küy, cəmi bir neçə dəqiqə çəkən umu-küsülük, dəcəlliklər yada düşür.

Uşaqların bu gün meyillərini saldıqları əksər kompüter oyunları onlarda bir çox zərərli keyfiyyətlərin formalaşmasına gətirib çıxarır. Bu oyunlar, ilk növbədə, uşaqların milli dəyərlərdən uzaqlaşmasına səbəb olur. Digər bir tərəfdən isə, elektron oyunlara meyillilik uşaqları sağlam mühitdən, yaşıdları ilə birgə əylənməkdən kənarlaşdırır. Onlar günün böyük bir hissəsini ya kompüter qarşısında, ya da onlar üçün o qədər də faydalı olmayan cizgi filmlərini izləməklə keçirirlər. Bu isə uşaqlarda istər fiziki, istərsə də, mənəvi çatışmazlıqlar yaradır. Böyüdükcə eqoistləşən belə uşaqların mehriban, səmimi, cəsarətli, aktiv, zəkalı olmadıqlarının şahidi oluruq. Onlar hətta oynamaq üçün çölə çıxdıqda belə, zərərli kompüter oyunlarında gördüklərini təkrarlamağa çalışır, belə gərgin oyunların təsiri altında daha çox zor tətbiq etmək istəyir, yaşıdlarını incidir, oyun zamanı problemlər yaradırlar.

Müasir valideynlər uşaqlara, onların asudə vaxtlarını necə və harada keçirmələrinə laqeyd qalmaqla öz uşaqlıq illərinə xas maraqlı xalq uşaq oyunlarını övladlarına öyrətməyə cəhd göstərmirlər. Beləliklə də, xalq oyunlarımız unudulur, onların yerini mentalitetimizə zidd olan mənasız və heç bir faydalı keyfiyyət aşılamayan yad məşğuliyyətlər tutmağa başlayır. Axı “gizlənqaç”ı (gizlənpaç), “qəcəmədaş”ı (beşdaş), “əlimqaldı”nı (qaçdı-qovdu), “aşıq-aşığ”ı, “bənöv-

şə”ni, “ağac-ağac”ı, “dirədöymə”ni (qayışagirmə, cızığagirmə), “ortayagirmə”ni, “yeddi ağac”ı, “palazagirmə”ni və başqa maraqlı oyunlarımızı necə unutmaq olar?! Bu oyunların hər birində uşaqlara faydalı ola biləcək maraqlı xüsusiyyətlər var. Bəzilərini yada salaq. Məsələn, bir zamanlar çox məşhur olan **“gizlənqaç” (gizlənpaç) oyunu.** Bu maraqlı oyun zamanı bir uşaq müəyyən olunmuş yerdə əlləri ilə gözünü bağlayır, “Alma saraldı, gözüm qaraldı” deyir, digərləri isə qaçıb gizlənirlər. Gözünü bağlayan gözlərini açaraq gizlənən uşaqlardan birini tapmalıdır. Yeri müəyyən olunan uşaq həmin yerə birinci gəlsə, oyun bitir. Və həmin gözlərini yuman uşaq təkrarən gözlərini bağlamalı olur. Əks halda, birinci tapılan uşaq gözlərini bağlamaqla oyunu davam etdirir. Bu oyun uşaqlara çeviklik, zirəklik, qaydalara əməl etmək və ayıqlıq aşılayır.

Başqa bir oyun – **“bənövşə” oyunu**. Bu oyun zamanı bir-birindən 10-15 metr aralı əl-ələ verib sıra ilə üz-üzə duran iki dəstə uşaq sözlə deyişir. Sonra “bənövşə, bəndə düşə, bizdən sizə kim düşə?”, “sizdən bizə adı gözəl, özü gözəl ...” deyilir. Adı çəkilən uşaq qarşı tərəfdəki əl-ələ verən dəstəni yarıb keçməklə özü ilə bir nəfəri dəstəsinə gətirməlidir. Yarıb keçə bilməsə, özü rəqib dəstədə qalır. Oyunçuları tükənən dəstə uduzmuş sayılır. Bu oyun uşaqlardan daha çox inam, fiziki güc və təəssüblük tələb edir.

**“Qəcəmədaş” (beşdaş) oyunu**nda isə hər iştirakçı bir əlinə altı ədəd kiçik daş yığıb, bir daşı yuxarı atmaqla ovcundakı digər beş kiçik daşı yerə tökür, sonra həmin daşı yenə yuxarı atıb, o, aşağı enənədək yerdəki daşları əvvəl bir-bir, sonra isə birlikdə yığmalıdır. Şərt yerdəkini yığmaqla yanaşı, havadakı daşı da yerə düşməyə qoymamaqdır. Sonra oyun daş yuxarı atıldıqca digər daşları ikinci əlin barmaqları arasından o yana keçirməklə davam etdirilir. Hərəkətləri dəqiq və qüsursuz icra edənlər qalib sayılırlar.

**“Aşıq-aşıq” oyunu** da maraqlı xalq oyunlarımızdandır (İzah). Bu oyun xüsusən payızda oynanılır. Yaxşı aşıq oynayanlar hətta bir metrlik məsafədən çırtma ilə öz aşığını başqa aşığa tuşlayıb vurmaqla və ya aşığı aşırmaqla udur. Aşıqlar ağır olsun deyə, bəzən içini oyub qurğuşun tökürlər. Aşığın “alçı” durması üçün onu ayaqqabının altına böyrü üstə qoyub hamar yerə sürtməklə cilalayırlar. Yaxşı

cilalanan aşıq, necə atsan, “toxan” yox, mütləq “alçı” durar. Belə aşıqlara “telan” deyərdilər.

**“Dirədöymə” (qayışagirmə) oyunu**nda cəsarət, ağrıya dözmək, həm də cəldlik tələb olunur. İki dəstədən (3-5 nəfərlik) biri cızığın – yerə çəkilmiş geniş dairənin içərisində, digəri isə çölündə durur. İçəridəki oğlanların hər birinin ayağı altında qayış olur və onu qoruyurlar. Kənardakılar əllərindəki toqqalı qayışla içəridəkiləri vurur, ayaq altdakı qayışı ələ keçirməyə cəhd edirlər. Ağrıya dözənlər qayışı buraxmır, üstəlik, bayırdakının vurduğu qayışdan tutub onu içəri çəkməyə çalışırlar.

**“Ağac-ağac” oyunu**. 15-20 metrlik məsafəyə ağac sancır, uşaqlar əllərindəki ağacla onu nişan alıb atırlar. Kim ağacı vurub yıxsa, o, udmuş sayılır. Bu oyun uşaqlardan dəqiqlik və diqqət tələb edir.

“Əlimqaldı” (qaçdı-qovdu) oyunu da maraqlı uşaq oyunlarımızdandır. Bu oyun zamanı püşk atılır, püşk kimə düşsə, o, uşaqların arxasınca düşür. Və əlini kimə toxundursa, oyun həmin iştirakçıya keçir. Bu dəfə ikinci uşaq digərlərinin arxasına düşür… Oyun, beləcə, uşaqlar yorulanadək davam edir.

Başqa bir xalq oyunumuz olan **“palazagirmə” oyunu** da “əlimqaldı”ya bənzəyir. Bu oyunda uşaqlardan birinin üzərinə palaz örtülür, başqa biri gəlib onu vurur. Əgər oyunçu onu vuranın adını düz tapsa, növbə adı tapılana keçir. Tapa bilməsə, oyunda qalır.

Göründüyü kimi, xalq oyunlarımız çox maraqlıdır. Biz onların, sadəcə, bir neçəsi haqda məlumat verdik. Nənə-babalarımızı dinləmək kifayətdir ki, bu oyunlar haqqında saatlarca danışıb söhbət etsinlər. Ancaq biz nədənsə buna laqeyd yanaşır, övladlarımızı milli dəyərlərdən uzaq mühitdə böyüdürük. Unuduruq ki, bunu müasir dövr bağışlasa da, gələcək bağışlamayacaq…

**Dirədöymə**

Dirədöymə Azərbaycanda əsasən bayramlarda və digər el şənliklərində geniş yayılmış qədim oyun növüdür.

Bu oyunu uşaqlarla yanaşı cavanlar da oynayırlar. "Dirədöymə" oyunu Naxçıvanda "Cızıq tutması", Muğan bölgəsində "Cızıqdançıxma", Bakıda "Qayışçapdı" ("Qayışaldı"), Göyçayda "Turaoynu" ("Tuladöydü") və s. adlarla məlumdur.

Uşaqlar iki dəstəyə ayrılıb, bir dairəvi cizgi çəkir və qürrə atırlar. Qürrə nədir. Qürrə hansı dəstəyə düşsə o dəstə mərəyə (dairəyə) girir. Uşaqlar hərəsi ayağının altına bir toqqa qoyur. Dairədən kənarda qalanlar toqqanı götürməyə çalışırlar. Dairədəkilər isə ayaqla vurur, toqqaları götürməyə yol vermirlər. Dairənin içərisində olanlar kənardakılardan birini ayaqla vursa, dairədəki uşaqlar kənara çıxır, kənardakılar dairəyə girirlər. Kənardakı oyunçu içəridəkilərdən birini əli ilə tutub dairədən çıxara bilsə, onu bir nəfərə həvalə edib saxladır və yiyəsiz qalmış toqqanı götürməyə cəhd edir. Bu zaman içəridəkilər həm öz toqqalarını, həm də çöldəki yoldaşlarının toqqasını qorumalı olurlar. Yaxud əksinə, içəridəkilər çöldəkilərdən birini fəndlə tutub dairəyə salsalar, dəstələr yerlərini dəyişməli olurlar. Dairədən kənardakı uşaqlardan biri toqqanı ələ keçirsə, dairənin içərisində olan uşaqları toqqa ilə vurur, ayaqları altındakı toqqaları kənara çıxarıb götürməyə çalışırlar. Hansı dəstə toqqaları tamam ələ keçirsə qələbə qazanır. Dairədəkilər, ayaqlarından biri cızıqdan çıxmamaq şərti ilə çöldəkilərdən birini digər ayağı ilə vurana qədər çöldəkilər içəridəkiləri toqqa ilə döyürlər.

Narınclar elində xalq oyunları olan “gizlənpaç”, “bənövşə”, “aşıq-aşıq”, “beştaş”, “dirədöymə”, “palazagirmə” yerli koloritlə geniş vüsət tapmışdır. Uşaqlar, gənclər bu oyun növlərini həvəslə oynayaraq mənəvi və fiziki sağlam həyat tərzi sürürdülər. Bu da onların asudə vaxtının təşkilində xüsusi əhəmiyyət kəsb edirdi. Çox təəsüflər olsun ki, çağdaş bigisayar, rəqəmsal qloballaşan dünyada milli adət-ənənələrimiz, o cümlədən xalq oyunları və tamaşaları unudulmaq üzrədir. Qədim el oyunları kompyuter oyunları ilə əvəz olunmuşdur, internetdən, sosial mediadan, şəbəkələrdən elmi informasiyalar üçün tariximizi, dövlətçiliyimizi, mədəniyyətimizi tanımaq və tanıtdırmaq

üçün ictimai paylaşmlardan istifadə etməliyilk. Telefon və internetdən asılılığın genofondumuz üçün zərərli təsirlərdən də unutmamalıyıq. Bu zərərli vərdiş telefon və internet asılılığı yaratmışdır. Fikrimcə, bu problemə ictimai diaqnoz qoymaq vaxtıdır (bəlkədə vaxtı keçmişdir). İnternet asılılığı adı ilə qoyulan bu sosial xəstəlik diaqnozu bütün yaş qrupları üzrə total yayılmışdır. Odur ki, dövlət və cəmiyyət olaraq sağlam nəsil naminə bu problemin həlli yolunu tapmalıyıq.

Kitabın yazılmasında məqsədimiz bir ziyyalı olaraq el-oba irsimizdən, adət-ənənələrimizdən irəli gələn milli-mənəvi dəyərləri təqdim etmək,  irsi-geneoloji xüsusiyyətlərin daşıcıyısı olan nəsil şəcərəsi tədqiq edərək yeni nəsillərə armağan etməkdir. Düşünürəm ki, əsərimiz qan yaddaşımızın mənəvi keyfiyyətlərini gənc nəslə çatdıraraq onları zəmanəmizin səciyyəvi zərərli vərdişlərindən qorumaq üçün bir maarifləndirmə vasitəsi ola bilər.

## Narınclar kəndində Novruz adətləri

Novruz bayramı şimal yarımkürəsində astronomik yazın başlanğıcı, gecə-gündüzün bərabərliyi günündə (martın 20, 21, 22-də) keçirilir. Bayramadək göyərdilən səməni yazın gəlişinin, təbiətin canlanmasının və əkinçiliyin simvoludur. Adətlərdən biridə bayram ərəfəsi ev-eşik tökülərək təmizlənir, ağartma işləri aparılırdı. Novruz bayramının özəl adət-ənənələri, oyunları, şənlikləri, kulinariyası olub. Azərbaycanda Novruzun yaranma mərhələlərini əks etdirən dörd element – su, od, yel və torpaqla bağlı ənənəvi su çərşənbəsi, od çərşənbəsi, yel çərşənbəsi və torpaq çərşənbəsi qeyd olunur.

Minilliklər boyu Novruz el şənliyi, bayramı milli-mənəvi sərvətimiz kimi Azərbaycanın hər guşəsində qeyd olunur. Xüsusilə kəndlərimizdə Novruz adətləri özünəməxsus tərzdə keçirilərək nəsildən-nəsilə ötürülməkdədir. Narınclar kəndində bu el şənliyi toy-bayramla keçirilirdi. Novruz adət-ənənələri, inancları xüsusi zövqlə yaşanırdı.

Narınclar camaatının hər bir ailəsində səməni göyərdilirdi. Novruz süfrəsi şirniyyatlarla dolu olan evlərin qapıları açıq olar, qohum, qonşu qarşılıqlı bayramlaşardılar.

Kənddə tonqal qalamaq üçün hazırlıq görülür, gün batana yaxın ocağın üstündən tullanıb deyərdilər:

Ağırlığım, uğurluğum
Bu tonqala tökülsün

Narınclar kəndində uşaqlar qapılardan papaq, yaylıqlar atanda, evdəkilər şirniyyat, çərəz, meyvə qoyardılar. Eyni zamanda, sacda qovurğa qovrulur, şirniyyatlar, milli xörəklər süfrəyə düzülərdi. Xüsusilə bayram aşı ayrıca bişirilərdi. Narınclar kənd sakini Həcər Hümbət qızı nəql edir ki, gündüzdən 10-12 qız bir evə yığışırdıq. Parçadan şar hazırlayıb dağın başından atırdıq. Yeniyetmə qızlarla birgə iynəni pambıqla saplayıb mis qabdakı suya bir qız, bir oğlan niyyəti ilə salınırdı.

İlaxır çərşənbədə qapı pusmalar olduğundan, xoş sözlər danışılırdı. Hər ailədə çərşənbə günü yumurta boyanaraq uşaqlara verilirdi. Maraqlı adətlərdən daha biri: qız-gəlinlər çaya, axar su üstünə, bulaq başına gedərək su gətirər, suyu həyət-bacaya səpərlər. Bir sözlə, səməni göyərtmək, qulaq falına çıxmaq, papaq atmaq tonqaldan tullanmaq, yumurta döyüşdürmək, qonaq getmək və s. Novruzun adətlərini gənclərimiz unutmamalıdır.

Ustad Seyid Məhəmmədhüseyn Şəhriyar "Heydərbabaya salam" poemasında Novruz adətlərini poetik boyalarla qələmə alıb.

Bayram idi, gecə quşu oxurdu,
Adaxlı qız bəy corabın toxurdu.
Hərkəs şalın bir bacadan soxurdu,
Ay nə gözəl qaydadı şal sallamaq,
Bəy şalına bayramlığın bağlamaq.

Şal istədim mən də, evdə ağladım,
Bir şal alıb tez belimə bağladım.
Qulamgilə qaçdım şalı silladım,
Fatma xala mənə corab bağladı,
Xan nənəmi yada salıb ağladı.

Bayram olub, qızıl palçıq əzərlər,
Naxış vurub otaqları bəzərlər.
Taxcalara düzmələri düzərlər,
Qız-gəlinin fındıqçası, hənası,
Həvəslənər anası, qaynanası.

Baxıcının sözü, sanı, kağızı,
İnəklərin bulaması, ağızı.
Çərşənbənin girdəkanı, mövizi,
Qızlar deyər : "Atıl-matıl, çərşənbə,
Ayna təkin bəxtim açıl, çərşənbə."

Yumurtanı göyçək, güllü boyardıq,
Çaqqışdırıb sınanların sayardıq,
Oynamaqdan bircə məğər doyardıq?

Narınclar kəndində Novruz bayramının müəyyən oyun növləri olan Kos-kosa, Dirədöymə, Qursaqtutma, Cıdır, "Papaq" ,"Güc sınağı" və Bənövşə oyunları təmtəraqla qeyd olunurdu.

# VII BÖLMƏ

# NARINCLAR SOVET DÖNƏMİNDƏ

Məlumdur ki, 1918-ci ilin yazında Cənubi Qafqaz hökumətinin Osmanlı imperiyasına müharibə elan etməsi və azərbaycanlıların mart soyqırımına məruz qalması Azərbaycan Cumhuriyyətinin yaranmasını labüd etdi. Milli Şuranın 1918-ci il mayın 28-də Tiflisdə qəbul etdiyi "İstiqlal Bəyannaməsi" ilə Azərbaycanın dövlət müstəqilliyi elan olundu. Və XIX əsrin əvvəllərində itirilmiş dövlətçiliyimiz bərpa olundu.

1918-ci il sentyabrın 15-də Azərbaycan türk ordusu həlledici hücuma keçərək Bakıya daxil oldu. Sentyabrın 17-də Milli hökumət Gəncədən Bakıya köçdü. 1919-cu il yanvarın 15-də Zəngəzur, Şuşa, Cavanşir və Cəbrayıl qəzalarının daxil olduğu Qarabağ general-qubernatorluğu yarandı.

Bu dövlət cəmi 23 ay yaşasa da, sosial-iqtisadi sahədə, ordu quruculuğunda, xarici siyasətdə, erməni təcavüzünə qarşı mübarizədə, mədəni quruculuqda tarixi uğurlar əldə etdi.

1920-ci il 28 aprel işğalı nəticəsində XI Qızıl ordu Milli Azərbaycan hökumətini devirərək Bakıda sovet hakimiyyətini qurdu. Qızıl ordu üsyanlarla, ciddi müqavimətlə qarşılaşsa da, işğal ərazilərini genişləndirərək respublika üzrə, Sovet hakimiyyətini qururdu.

Sovet hakimiyyəti iqtisadiyyatın bütün sahələrində milliləşdirmə prosesini həyata keçirirdi.Kənd təsərrüfatı sahəsində torpağın, malqaranın, təsərrüfat alətlərinin, qoşqu qüvvələrinin milliləşdirilməsi üçün tədbir görüldü.

Azərbaycan İnqilab Komitəsinin torpaq haqqında 1920-ci il 5 may tarixli dekretinə əsasən, torpaq üzərində xüsusi mülkiyyət ləğv olundu. Bütün xan, bəy və vəqf torpaqlarının müsadirə edilməsi nəticəsində mülkədar torpaq mülkiyyəti aradan qaldırıldı. İnqilab Komitəsinin 1920-ci il mayın 15-də meşələrin, suların, yeraltı sərvətlərin dövlət mülkiyyəti olması haqqında dekret imzaladı. Bu dekretə əsasən, Ağdərənin bütün meşə zolaqları, suları milliləşdirilərək dövlət mülkiyyətinə verildi.

1920-ci il noyabr 4-də Ağdərə kənd fəallarının yığıncağı keçirildi. Toplanışda torpağın və təsərrüfat alətlərinin milliləşdirilməsi müzakirə oldu. Bu dövrdə qoşqu vasitəsi kimi öküzlərdən, atlardan, xışdan, kotandan, arabalardan, arpa-buğdanın hasil olması üçün çindən, oraqdan, vəldən və başqa bəsit alətlərdən istifadə olunurdu.

Mövzunun mahiyyətini anlamaq üçün dövrün dövlət siyasətinə nəzər yetirməliyik. Aqrar sektorda sovet təsərrüfat sisteminin təşkili üçün tədbirlər həyata keçirilirdi.1920-ci ilin yayından Azərbaycanda hərbi kommunizm siyasəti tədbiq olunmağa başladı. Azərbaycan İnqilab Komitəsi taxıl ticarətinin inhisara alınması haqqında fərman verdi. Sentyabr ərzaq zopalağı tədbiq olundu. Artıq taxıl, yem və mal-qaranın kəndlilərdən möhkəm qiymətə alınmasına başlandı. Sentyabrın axırlarında ümumi icbari əmək mükəlləfiyyəti həyata keçirildi. "Kartoçka sistemi" yəni ərzaq payı verilməsi yaradıldı. Azərbaycanda saxlanan sovet ordu hissələrinin ərzaqla təmin edilməsi kəndlilərin vəziyyətini ağırlaşdırırdı.

Kəndlilərin vəziyyətinin ağırlaşmasına gətirib çıxaran hərbi kommunizm uğursuzluqla nəticələndi.1921-ci il 17 may tarixli "Bütün növ ərzaq inhisarının ləğv edilməsi haqqında" dekretlə zopalağı ləğv edildi. 1922-ci ilin yazından etibarən canaq vergisini (1 "Canaq"=7-8 kq və ya 20 girvənkə buğda ) ərzaq vergisi ilə əvəz olundu. Bununla da yeni iqtisadi siyasətə (YİS) keçildi.

Ağdərə kəndlərində 1920-ci il avqustun 22-də kənd təsərrüfatı artelinin, avqustun 24-də isə kommunalların yaradılması barədə Nizamnamə qəbul edildi. Fərdi kəndli təsərrüfatlarını yoxsulları sosializm quruluşuna cəlb etmək üçün kooperativləşdirmə,kredit verilməsi, vahid kənd təsərrüfatı vergisi, Yoxsul Fondunun yaradılması tədbirlərindən istifadə edirdilər.

ÜİK (b) P və XKS-nin 1927-ci il tarixli qərarına əsasən kolxozların yaradılmasına başlanıldı. Ağdərə rayonunda kollektivləşmənin faizi 1934-cü ildə 67, 0, 1937-ci ildə 91,7, 1940-ci ildə 99,1, 1941-ci ildə 99,8-ə olmuşdur.

Narınclar kəndində kollektiv təsərrüfat (kolxoz) 1937-ci ildə yaradılmışdır. Həmin ildən kolxoz sədri, 1955-ci ildən isə kənd sovet sədri təyin olunmuşdur.

**Narınclar kəndinin kolxoz sədrləri**

1. Həsən Məmmədov – 1937-1940-cı illər
2. Əli Məmmədov – 1940-1945-ci illər
3. Səfiqulu Cəfərov – 1945-1946-cı illər
4. Məhərrəm Məmmədov – 1946-1947-ci illər
5. Həsən Məmmədov – 1947-1951-ci illər
6. Mustafa Fərzəliyev – 1952-1959-cu illər
7. Əjdər Məmmədov – 1959-1963-cü illər
8. Bahadur Fərzəliyev – 1963-1964-cü illər
9. Cümşüd Baxşəliyev – 1964-1969-cu illər
10. Hidayət Baxşəliyev – 1969-1974-cü illər
11. Cümşüd Baxşəliyev – 1974-1976-cı illər

Sovxoz direktorlarından Zakir Məmmədov, Qabil Baxşəliyev, Hidayət Baxşəliyev, Kərim Baxşəliyev və Çingiz Məmmədovun adlarını çəkə bilərik.

2002-ci ildə sovxozun ləğvi və bazar iqtisadiyyatına keçid aqrar sahədə köklü dəyişiklərlə nəticələndi. Aqrar islahatın həyata keçirilməsi üçün hüquqi baza yaradıldı.”Dövlət aqrar islahatı” komissiyası yaradıldı və “Torpaq islahatı” haqqında qanun qəbul edildi. Bu baxımdan Narınclar camaatının sosial həyatında yeni aqrar münasibətlər formalaşdı.

Narınclar kəndində kənd sovet sədri vəzifəsində Bahadur Fərzalıyev, Həsən Rüstəmov, Hidayət Baxşəliyev, Simuzər Məmmədova, Gündüz Fərzalıyev işləmişlər.

## Faşist Almaniyasının SSRİ-yə hərbi təcavüzü. Narınclar övladlarının ön və arxa cəbhədə iştirakı

1941-ci il iyunun 22-də Almaniya SSRİ-yə hücum etdi. "Barbarossa" əməliyyatına görə, alman ordusu ildırım sürəti ilə Sovet ordusuna ağır zərbələr endirməli, qışa qədər Arxangelsk-Həştərxan xəttinə çıxmalı idi.

Azərbaycan özünün sərvətləri, Qərb və Şərq arasındakı əlverişli coğrafi mövqeyinə görə Almaniyanın işğalçılıq planında xüsusi yer tuturdu. Almaniya Bakı neftindən istifadə etməklə bütün Şərqi zəbt edəcəyinə ümid bəsləyirdi.

Müharibənin ilk illərində Hitler Almaniyası geniş əraziləri işğal etdi. Azərbaycanın hər yerində olduğu kimi, Narınclar kəndində əli silah tuta bilən oğullar orduya səfərbər olundular. Müharibədə iştirak etmiş Narınclar övladlarının siyahısını dərc edirik.

1. Məmmədov Hümbət (qayıtdı)
2. Fərzəliyev Musa (qayıtdı)
3. Baxşəliyev Xəlil (qayıtmayıb)
4. Fərzəliyev Bahadur (qayıtdı)
5. Baxşəliyev Cəlal (qayıtmayıb)
6. Baxşəliyev Cəfər (qayıtdı)
7. Əliyev Qənimət (qayıtdı)
8. Baxşəliyev Ələkbər (qayıtmayıb)
9. Baxşəliyev Novruzəli (qayıtmayıb)
10. Rüstəmov Aydın (qayıtmayıb)
11. Rüstəmov Hüseyn (qayıtmayıb)
12. Fərzəliyev İsmayıl (qayıtdı)
13. Fərzəliyev Mikayıl (qayıtdı)
14. Fərzəliyev Muradxan (qayıtmayıb)
15. Əmirov Hüseyn (qayıtmayıb)
16. Bayramov Qaçay (qayıtmayıb)
17. Fərzəliyev Əhməd (qayıtmayıb)
18. Mirzəliyev Surxay (qayıtdı)
19. Fərzəliyev İsa (qayıtmayıb)
20. Fərzəli Hümbət (qayıtmayıb)
21. Fərzəliyev Fərman (qayıtmayıb)
22. Fərzəliyev Mürsəl (qayıtmayıb)

23. Fərzəliyev Mustafa (qayıtdı)
24. Fərzəliyev Sadiq (qayıtmadı).

Siyahıdan göründüyü kimi, 15 nəfər Narınclar övladı şəhid olmuşdur. Bildiyimizə görə Günəş nənəyə, Qızbəs nənəyə (oğlu Xəlilə görə) qara kağız gəlmişdi. Məhz buna görə də dövlətdən maliyyə yardımı alırdılar. Günəş nənənin 5 övladı müharibə iştirakçısı idi. 4 övladı cəbhədən qayıtmadı. Ana üçün bu dərdin necə ağır olduğunu təsəvvür etmək çətin deyil.

Mustafa Fərzəliyev diviziyada komsomol təşkilatının birinci katibi, polkun mirzəsi vəzifəsində xidmət göstərmişdir.

Babam **Hümbət Usub oğlu Məmmədovun** şanlı döyüş yolu Berlində Reyxstaqda başa çatmışdır və o, 9 may 1945-ci ildə Qələbə gününü burada qeyd etmişdir.



***Hümbət Məmmədov və həyat yoldaşı Zərxara xanım***

Hümbət Məmmədov 1910-cu ildə Narınclar kəndində zəhmətkeş ailədə anadan olmuşdur. O, halal əməyi ilə qoyunçuluqla məşğul olmuş, Zərxara nənəmlə birgə 8 övlad böyüdüb ərsəyə çatdırmışdır.

Babam gənclik illərində qoçaqlığı, zəhmətsevərliyi, kənd işlərində fərasəti, el-obanın həyatında faydalı əməyi ilə sevilirdi. O, 1926-cı ildə 16 yaşında atasnı itirir. Yeniyetmə yaşından ömrünün sonuna qədər həyatın hər çətinliyindən, acısından, müharibənin əzablı yollarından mətin iradə ilə keçmişdir. Onun ömür salnaməsi gənc nəslə şərəfli, örnək bir həyatdır.

Müharibənin ilk günündən Azərbaycan xalqı SSRİ-nin başqa xalqları ilə birlikdə faşist işğalçılarına qarşı mübarizəyə qalxdı. 1941-ci ildə azərbaycanlılardan ibarət 402-ci və 223-cü, 1942-ci ildə 416-cı və 271-ci milli atıcı diviziyaları yaradıldı. Müharibə illərində Azərbaycandan cəbhəyə 640 min nəfər, o cümlədən 10 min qadın getmişdi.

Hümbət Məmmədov 1941-ci ilin payızında könüllü olaraq cəbhəyə getmək üçün Ağdərə hərbi komissarlığına ərizə verdi. Hərbi komissarlıqdan Şəmkirə hərbi təlim kursuna, sonra da Rostov vilayətinə göndərilir. Döyüş yolu Qafqazın Mozdok rayonundakı savaşlardan başlayıb. O, 416-cı Taqanroq diviziyasının tərkibindəki süvari dəstəsində döyüşüb.

Mozdok döyüşlərində 416, 402, və 223-cü Azərbaycan diviziyaları iştirak edirdi. Bu diviziyaların təşkilinə ehtiyac hansı zəruriyyətdən yarandı? Qafqaz cəbhəsi mühüm siyasi və hərbi-strateji əhəmiyyət daşıyırdı. Hitler Almaniyası bir tərəfdən, alman ordusunda yanacaq böhranını aradan qaldırmaq, digər tərəfdən Qafqazı tutmaqla Yaxın və Orta Şərqdəki işğalçılıq planlarını həyata keçirməyə şərait yaratmaq istəyirdilər. Qafqazı işğal etmək üçün faşist ordusunun qərargahı "Edelveys" adlanan xüsusi plan işləyib hazırlamışdı. Bu plana görə, faşistlərin "A" qrup Ordusu Qərbdə Novorosiysk və Tuapse istiqamətində Qara dəniz sahilinə çıxıb, Cənubi Qafqazın içərilərinə hücum etməli, Şərqdə Qroznı, Mahaçqala və Bakını tutmalı, mərkəzdə isə Qafqaz sıra dağlarının aşırımlarından keçərək Tbilisi, Kutaisi və Suxumi üzərinə yeriməli idilər. SSRİ-nin müttəfiqləri olan ABŞ və İngiltərənin isə Qafqazla bağlı "Vilvet" planı var idi. Bu plana görə Sovet ordusu Qafqazdan çıxarılıb Stalinqrada aparılmalı, Qafqazda isə almanlara qarşı ingilis-amerikan qüv-

vələri vuruşmalı idi. Onlar bu üsulla Qafqazı, xüsusilə Azərbaycanı SSRİ-dən ayırmaq istəyirdilər.

Qafqazı tutmaq üçün faşist komandanlığı 3 ordu ayırmışdı. Almanların piyada ordusu Sovet ordusunun piyada hissələrindən 1,4 dəfə, top və minomyotu 2 dəfə, tankları 9,3 dəfə,təyyarələri isə 8 dəfə çox idi.

1942-ci ilin iyulunda faşistlərin Şimali Qafqazda rus ordusunun müdafiə mövqelərini yarıb irəliləməsi Cənubi Qafqaz respublikalarının müdafiəsi üçün əlavə diviziyalar təşkil etməyi zəruri etdi.

Azərbaycan milli diviziyaları polad iradə, mətanətlə qəhrəmanlıq nümunələri göstərərək döyüşçüləri qələbəyə ruhlandırırdılar. Misal üçün Sovet İttifaqı Qəhrəmanı Qafur Məmmədovun adını iftixar hissi ilə çəkmək olar.

## Hümbət Məmmədovun təltifləri

Tarixdən məlumdur ki, Qafqazda hərbi rəşadət göstərən əsgər və zabitə Sovet İttifaqı Qəhrəmanı kimi fəxri ad verilmiş, döyüşçülər orden və medallarla təltif edilmişdir. Qafqaz döyüşlərində qəhrəmanlığı əbədiləşdirmək məqsədilə 1944-cü il 20 may tarixində "Qafqazın müdafiəsi uğrunda" medalı təsis edildi.

Azərbaycanın şanlı oğullarından biri olan babam Hümbət Usub oğlu Məmmədov Qafqazdan Berlinə qədər igidliklər göstərərək şöhrət qazanmışdır. Onun şəxsi qəhrəmanlıq nümunəsi yüksək qiymətləndirilmişdir. Hümbət Məmmədov və diviziyanın tərkibində döyüşən Azərbaycan oğullarının adları gələcək nəsillər üçün vətənimizə sədaqət nümunəsi kimi yad ediləcəkdir.

Hümbət Usub oğlu Məmmədov **“Qafqazın müdafiəsi uğrunda”** medalı ilə təltif edilmişdir.



Hümbət Usub oğlu Məmmədov **“İgidliyə görə”** medalları ilə təltif olunmuşdur.






Hümbət Məmmədova Böyük Vətən müharibəsinin 20 illiyi, eləcə də 30 illiyi ilə əlaqədar Fərqlənmə Nişanı verilmişdir.





*Yadigar...*

Hümbət Məmmədov Taqanroq diviziyasında hər kəsin, o cümlədən zabit heyətinin də hörmət və rəğbətini qazana bilmişdir. Komandiri Aslanov babama yadigar olaraq təqdim etdiyi foto-şəklinin arxa tərəfinə “Unudulmaz cəbhə dostum Hümbətə Aslanovdan. Bakı, 1966” qeydini yazaraq babama olan rəğbətini ifadə etmişdir. Hümbət Məmmədov bu yadigarı bir ömür boyu göz bəbəyi kimi qorumuşdur. (Həmin fotonu diqqətinizə təqdim edirik)



**Unudulmaz cəbhə dostum**
**Hümbətə Aslanovdan**
**Bakı 1966**



**Hümbət Məmmədov qızı Ruqiyyə xanımın xatirələrində...**

Atam Hümbət Məmmədov 1941-ci ilin iyun ayında Alman faşistlərinin SSRİ-yə basqını zamanı könüllü olaraq dayısı oğlu Xəlillə birlikdə müharibəyə getmişdir. Döyüş yolu Şimali Qafqazdan Mozdoka, oradan Berlinə qədər davam etmişdir. Süvari atlı alayında və 416-cı Taqonrok diviziyasında xidmət etmişdir.

Atamın keçdiyi döyüş yolu ilə bağlı xatirələr xalqımızın gəncləri üçün əsil vətənpərvərlik nümunəsidir. Bu gün gənclərimizin Qarabağda göstərdikləri qəhrəmanlıq nümünəsi ilə gözəl səsləşir.

Atam bizə müharibə haqqında çox danışmağı sevməzdi. Bu barədə sual verəndə çöhrəsindəki kədəri görməmək mümkün deyildi. Ata qayğısı ilə əlini çiynimə qoyaraq söylərdi ki, qızım, heç vaxt müharibə dəhşətləri görməyəsiniz. Obrazlı olaraq müharibəni "Qırmızı güllə" adlandırırdı. Lakin döyüş yoldaşları ilə bağlı şirin xatirələri də mənimlə paylaşırdı.

Atam Şəmkirdən (ümumi hərbi təlim məşqi) başlamış, Şimali Qafqaz, Ukrayna, Polşadan keçən, Berlinə qədər çatan döyüş yolundan söhbət açardı. Dayısı oğlu Xəlil haqqında hər zaman dərin nisgilli söhbətlər edirdi: "Qızım, Xəlil pəhləvan cüssəli, sücaətli idi, alman faşizminə qarşı rəşadətlə döyüşüb. Həmişə yoldaşlarını irəliyə doğru, zəfər çalmağa səsləyirdi. Ancaq amansız döyüşlərin birində o,

vətən yolunda həlak oldu”. Uzun illər Qubadlıda, Sabirabadda hərbi komisar işləmiş Şahmalı Rəhimov da atamın döyüş yoldaşı olmuşdur.

Nizami, oğlum, babanın adını tarixə, kitaba salmağınla onun ruhunu şad etdin və gələcək nəsillərə bir qəhrəmanlıq səlmanəsi təqdim etmiş oldun. Bununla bağlı dərin qürur hissi keçirirəm.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan Cənab İlham Əliyevin rəhbərliyi ilə Şanlı Ordumuz Qarabağımızı düşmən tapdağından azad etdi. Oğul, yeganə arzum odur ki, Narınclar da azad olunsun və baban Hümbət Məmmədov haqda yazılan bu kitabla atamın məzarını ziyarət edim. Deyim ki, ay ata, qoy ruhun şad olsun ki, dədə-baba torpağımıza qayıtdıq.

## Hümbət Məmmədovun xidmət etdiyi 416-cı Taqanroq diviziyası haqqında

416-cı Diviziya 1942-ci ilin əvvəlində Ucar-Göyçay-Şəmkir zonasında və Ələtdə təşkil edilib, sentyabr ayında Şimali Qafqaz cəbhəsinə göndərilmişdir. Diviziya oktyabr ayında Maxaçqala istiqamətində düşmənin hücumlarına qarşı vuruşmuş, sonra Terek çayı sahilində döyüş xəttini tutmuşdur.

Faşistlərin Qafqazdan qovulmasına yönəlmiş ümumi hücum əməliyyatında 1942-ci ilin noyabrında 416-cı diviziyanın hissələri fəal iştirak etmişlər, dekabrın son günlərində Mozdok ətrafında gərgin və uğurlu döyüşlərdən sonra Azov dənizi sahillərinə çatmış və dərhal döyüşlərə qatılmışdır. Həmin dövrdə diviziyanın komandiri general-mayor Tərlan Əliyarbəyov olmuşdur.

1943-cü ilin avqustunda Taqanroq şəhərinin azad edilməsinə görə diviziyaya «Taqanroq» fəxri adı verilmişdir. 1944-cü il yanvarında 5-ci zərbə ordusunun tərkibində Dnepr çayını keçərək onun qərb sahilinə çıxmışdır. Bu günlərdə misilsiz qəhrəmanlıq göstərdiklərinə görə 8 döyüşçü Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşlər. Odessa şəhərinin azad edilməsindən sonra 416-cı diviziyanın alaylarının məşhur Yassa Kişinyov döyüş əməliyyatinda Moldaviyanın azad edilməsində böyük rolu olmuşdur. 1945-ci ilin yanvarında

diviziya Varşavanın azad edilməsində iştirak etmiş və Oder çayının qərb sahilinə çıxmışdır.

Berlinə birinci daxil olan hissələr içərisində 416-cı diviziyanın 1373-cü alayı da (komandir, general-mayor Heybət Heybətov) var idi.

Brandenburq qapılarının üstünə mayın 2-də qələbə bayrağını bu alayın zabiti A.Məcidov sancmışdır. Bu zaman diviziyanın komandiri general-mayor D.Sizryanov, Gərargah rəisi general-mayor H.Zeynalov, siyasi şöbənin rəisi polkovnik R.Məcidov olmuşlar.

Qeyd olunan milli diviziyalardan başqa, 151-ci, 271-ci, 275-ci, 295-ci, 319-cu, 230-cu qarışıq milli tərkibli diviziyalarında da xeyli sayda azərbaycanlı döyüşçüləri düşmənlə mübarizədə qəhrəmanlıq göstərmişlər. Bu diviziyaların əksəriyyəti respublikamızda təşkil edilmişdir. Sovet ordusunun digər diviziya və alaylarında da azərbaycanlılar xidmət etmiş və sücaət göstərmişlər. Ümumilikdə İkinci Dünya Müharibəsində azərbaycanlıların sırasından 12 nəfər diviziya komandiri, 32 nəfər isə alay komandiri olmuşdur.



***416-cı diviziyanın döyüşçüləri 2 may 1945-ci ildə Branderburq qapıları qarşısında.***



***Azərbaycanın rəhbəri Heydər Əliyev respublika nümayəndələri ilə birlikdə Taqanroq şəhərinin xilaskarlarının şərəf memorialının açılışında.***

***Məhz Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Rusiyanın Taqanroq şəhərinin Sambek təpəsində ucaldılmış Şöhrət Memorialı 1980-ci il mayın 7-də açılmışdır. Memorial 1943-cü ildə Taqanroqun alman faşistlərindən azad edilməsində iştirak etmiş 130-cu və 416-cı Azərbaycan atıcı diviziyalarının döyüşçülərinin xatirəsinə ucaldılmışdır.***

***Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığı ilə 2011-ci ildə Azərbaycan hökumətinin vəsaiti hesabına Memorial büsbütün yenidən qurulmuşdur. Prezident İlham Əliyev Rusiyanın Rostov vilayətində "Sambek yüksəklikləri" - Böyük Vətən müharibəsinin yeni hərbi-tarixi muzey kompleksinin açılışı ilə bağlı avqustun 31-də "Rossiya-24" və "Rossiya-1" telekanallarının reportajlarında yayımlanan müsahibəsində demişdir: "Rostov vilayətini azad etmiş 416-cı Taqanroq atıcı diviziyasının döyüşçülərinin 90 faizindən çoxu əslən Azərbaycandan idi. 416-cı Taqanroq diviziyası təkcə Rostovu deyil, bütün Rostov vilayətini, o cümlədən Taqanroq şəhərini azad edib, bundan sonra diviziyaya Taqanroq adı verilib".***

***Rostov vilayəti qubernatorunun müavini İqor Quskov Böyük Qələbənin 67-ci ildönümü və Şöhrət Memorialının açılışı münasibətilə keçirilən mitinqdə demişdir: "Bizim üçün ikiqat bayramdır, çünki bu gün yanımızda Azərbaycan Respublikasından olan dostlarımız vardır. Mən həlak olmuş əsgərlərin xatirəsinə, şücaətinə belə münasibət göstərdikləri üçün Azərbaycan Prezidentinə və hökumətinə minnətdarlıq dolu sözlərimi ifadə etmək istəyirəm".***

## 416-cı Taqanroq divizisiyanın yaradılmasında xalqımızın görkəmli oğlu Əziz Əliyevin əvəzsiz rolu

*Azərbaycan xalqının görkəmli oğlu, dövlət və elm xadimi, tarixi şəxsiyyət Əziz Əliyevin Böyük Vətən müharibəsində xüsusi rolu olmuşdur. Öz qəhramanlığı ilə tarixə düşən 416-cı Taqanroq diviziyasının təşəkkülündə də onun xüsusi əməyi vardı. Belə ki, Azərbaycanlılardan ibarət olan məhşur 416-cı Taqanroq atıcı diviziyasının tərkibində igidlik göstərən dağıstanlılar Əziz Əliyevin gərgin əməyi və dəstiyi nəticəsində təşkil olunmuş I Dağıstan könüllü suvari eskadronunun döyüşçüləri idi.*

*Xalqımızın görkəmli ziyalısı Əziz Əliyevin Dağıstan Vilayət Partiya Komitəsinin birinci katib olması (1942-1948-ci illər) İkinci Dünya Müharibəsi illərinə təsadüf edirdi. Faşizm kimi ümumbəşəri bəla ilə mübarizədə əlindən gələni əsirqəməyən Əziz Əliyev bu hadisələrin bütün şahidlərinin, o cümlədən, babam Hümbət Məmmədovun xatirəsinə həkk olunmuşdur. Babam hər zaman Ə.Əliyevi ehtiramla yad edir, onun faşizmlə mübarizədə və xüsusən 416-cı Taqanroq diviziyasının təşkilində, müharibə illərində Bakı neftinin müdafiəsində əvəzsiz rolundan böyük fəxarət hissi ilə söhbət açardı və Əziz müəllimi insanpərvərlik, vətənpərvərlik, cəfakeşlik, qayğıkeşlik və digər bir çox yüksək insani keyfiyyətləri özündə birləşdirən bir insan olaraq gənclərimizə gözəl bir nümunə olduğunu hər zaman vurğulayırdı. Düşünürəm ki, doğma Narınclar haqda hazırladığımız kitaba Əziz Əliyev haqda, onun şərəfli həyatı və fəaliyyəti haqda, vətənpərvərliyi sayəsində gördüyü işlərlə bağlı məlumatın yerləşdirilməsi kitabın dəyərini və tarixi əhəmiyyətini, sanbalını artırır. Bu gün erməni faşizmi üzərində qələbə Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə əldə olundu. Düşmənlə mübarizədə barışmazlıq və qətiyyət kimi keyfiyyətləri ilə, Vətən və millət sevgisi ilə hər kəsə nümunə olan Prezident Cənab İlham Əliyev atası Heydər Əliyevdən və babası Əziz Əliyevin irsini daşıyaraq milli-mənəvi dəyərləri özündə yaşadır.*



*Əziz Məmməd Kərim oğlu Əliyev*
*Azərbaycann dövlət və elm xadimi, tibb elmləri doktoru, professor*

Bəşəriyyət tarixində II Dünya müharibəsi faciələr və kataklizmlər törətmişdir. 1941-1945-ci illər Böyük Vətən Müharibəsində faşist Almaniyasının təcavüzünə qarşı Sovet İttifaqı xalqlarının qəhrəmanlığı ön cəbhə və arxa cəbhədə tarixin yaddaşına həkk olunmuşdur. Bu müharibədə xalqların fədakarlığı ilə yanaşı görkəmli tarixi şəxsiyyətlərin rolu danılmazdır. Gənc nəsil arxa cəbhədə qələbənin təminatında dərin iz qoymuş dövlət xadimlərini tanımalıdır. Məhz belə şəxsiyyətlər sırasında Əziz Əliyev görkəmli yer tutur.

Bu unudulmaz şəxsiyyətin 1998-ci il mayın 14-də keçirilmiş 100 illik yubiley tədbirində Ümummilli lider Heydər Əliyevin etdiyi nitqindən bir parçanı diqqətinizə çatdırırıq: “Bir neçə gün əvvəl, mayın 9-da biz alman faşizmi üzərində qələbənin 53-cü ildönümünü qeyd etdik. Biz cəbhədə vuruşmuş, arxada qələbəni təmin etmiş, faşizmin qarşısını kəsə bilmiş insanlara indiki nəslin bəslədiyi hissləri bir daha və dönə-dönə ifadə etdik. Belə görkəmli insanlardan biri də Əziz Əliyev idi.

Bəli, vaxt gələcək və onun həmin dövrdəki fəaliyyətinin təfərrüatı da aşkara çıxarılacaqdır. Lakin, məsələn, mənə məlumdur ki, o, görkəmli Azərbaycan yazıçıları Süleyman Rüstəm, Mirzə İbrahimov, Süleyman Rəhimov və bir çox başqaları ilə birlikdə orada necə cəsarətlə və ağılla iş aparırdı. Ancaq faşist qoşunları Dağıstan sərhədlərinə yaxınlaşan kimi, - orada son dərəcə mürəkkəb vəziyyət yaranmışdı, - Dövlət Müdafiə Komitəsinin qərarı ilə Əziz Əliyev Dağıstana göndərildi. Dağıstanlılar 1942-ci ilin sentyabrında onların respublikasında vəziyyətin necə olduğunu yaxşı bilirlər. Orada əvvəllər yaşamamış, işləməmiş olan bu adam oraya gəldi və qısa müddətdə bu çoxmillətli diyarı öz ətrafında sıx birləşdirməyə, hamını öz ətrafına toplamağa və onları Dağıstanın müdafiəsinə, deməli, həm də Zaqafqaziyanın, Bakı neftinin müdafiəsinə qaldırmağa müvəffəq oldu. Bu, böyük iş idi və o, həmin işi gördü. Bu işi o, özünün qeyri-adi insani keyfiyyətləri, istedadı, ağıl-zəkası sayəsində həyata keçirdi.

Açığını deyək ki, o vaxtlar Əziz Əliyev Azərbaycanın dövlət xadimləri arasında ali təhsili olan, ziyalılığı, zəngin elmi biliyi ilə fərqlənən bir neçə adamdan biri, bəlkə də yeganə adam idi. Bütün bu keyfiyyətlər qısa müddətdə Dağıstanda vəziyyəti sabitləşdirməkdə, bu respublikanın xalqını Qafqazın müdafiəsi üçün birləşdirməkdə ona kömək etdi. Dağıstanlılar Əziz Əliyev başda olmaqla və bizim ordumuzla, o vaxtkı sovet ordusu ilə birlikdə çox böyük vəzifəni yerinə yetirdilər. Onlar Qafqazı müdafiə etdilər, faşist qoşunlarını irəliləməyə qoymadılar, Bakı neftini xilas etdilər.

Təbii ki, bütün bunlar ali komandanlığın, qoşunların, Qafqazın müdafiəsinə səfərbər edilmiş bütün şəxslərin çox böyük, qəhrəmancasına fəaliyyətinin nəticəsi idi. Lakin, Əziz Əliyev başda olmaqla, dağıstanlıların töhfəsi də çox böyük və sanballı olmuşdur.”

XX əsrdə Azərbaycan xalqının dünyaya bəxş etdiyi görkəmli şəxsiyyətlərindən biri olan Əziz Məmməd Kərim oğlu Əliyevin Dağıstan Muxtar Respublikasının rəhbəri kimi müharibə illərində fəaliyyəti xüsusi qeyd olunmalıdır.

Əziz Əliyevin rəhbərliyi altında üç istiqamətdə əməli fəaliyyət göstərilir:

1. Arxa cəbhəni hərbi rejimə keçirmək.
2. Partizan dəstələrinin yaradılması.
3. Könüllü ordunun təşkili

Tarixdə şəxsiyyətin rolunu nəzərə alsaq, Əziz Əliyevin müharibə illərində fəaliyyəti nümunəvidir. Əziz Əliyev çoxsaylı xalqların və etnik qrupların yaşadığı Dağıstan əhalisinin həmrəyliyini möhkəmləndirdi, milli-etnik münaqişələrin, xəyanətin, fərariliyin, təxribatın qarşısını aldı. O, istirahətin nə olduğunu bilmədən fəaliyyəti ilə əhalini aclıqdan, səfalətdən xilas etdi. Əziz Əliyev müdrik dövlət xadimi kimi Dağıstan xalqını Stalin repressiyasından, eləcə də Qazaxıstan, Sibir çöllərinə sürgün olunmağdan qurtardı. Eyni zamanda, Azərbaycan və Dağıstan xalqlarının dostluğunun təşəkkülündə bu şəxsiyyətin tarixi xidmətləri unudulmamalıdır. Yaşlı nəslin nümayəndələri Əziz Əliyevi ehtiram və minnətdarlıqla yad edirlər.

Dağıstan Respublikasının deputatı Maqomed Səid oğlu Qurbanovun dediklərindən: "Dağıstan xalqlarının köçürülmə planının qarşısı məhz Əziz Əliyevin sayıqlığı, böyüklüyü nəticəsində alındı. O, Stalini şəxsən inandıra bildi ki, dağıstanlılar düşmənə qarşı vuruşmaq üçün 25 minlik könüllülər dəstəsi yaradıb. O, Moskvadan qayıdan kimi, bütün millətlərdən olan ağsaqqalları toplayıb, onlara konkret tapşırıqlar verdi. 25 min əvəzinə 30 minlik könüllülər dəstəsi topladı ki, bu könüllülər Qara Qarayevin rəhbərliyi altında birləşdilər".

Beləliklə, dağıstanlıların sürgünü baş tutmadı. Əziz Əliyev sonrakı illərdə Dağıstanda böyük yüksəlişə səbəb olacaq işlər gördü. Milli kadrların yetişdirilməsində misilsiz xidmətlər göstərdi. Elmi müəssisələrin fəaliyyəti tənzimləndi. Azərbaycandan elmi kadrlar dəvət olundu. İndi Dağıstanda bir çox müəssisələr Əziz Əliyevin adı ilə bağlıdır.

Əziz Əliyevlə bir yerdə işləmiş, sonralar isə Dağıstan Vilayət Partiya Komitəsinin birinci katibi olmuş M.C.İ.Umaxanov öz xatirələrində yazır: "1942-ci ilin oktyabrında Əziz Əliyevin təşəbbüsü ilə Dağıstanda Qara Qarayevin komandanlığı altında milli süvari eskadronu təşkil olundu. Öz döyüş yolunu Mozdokun şərqindəki İşşerskaya stansiyasından başlayan eskadron zəfər yürüşünü Berlində başa vurdu. 416-cı Taqanroq diviziyasının tərkibində zərbə tağımı

sifətilə vuruşan dağıstanlı süvarilər çox məsul döyüş əməliyyatlarını şərəflə yerinə yetirdilər. O vaxt diviziya komandirinin Vilayət Partiya Komitəsinin birinci katibinə göndərdiyi məktubda belə yazılmışdır:

"Dağıstanlı döyüşçülər bizim sıralarımızda əzmlə, şücaətlə vuruşurlar. Diviziyanın şanlı zəfər yollarında sizin süvarilər qəfil hücuma keçməklə, düşmən arxasında gözlənilməz reydlər etməklə fərqlənmişlər."

Əziz Əliyevin bu uğurlu fəaliyyəti İ.Stalinin diqqətindən yayınmır və yüksək qiymətləndirilirdi. İ.Stalinin aşağıda əmri dediklərimizə əyani sübutdur.

**Ali Baş Komandanın əmrindən**
**23 oktyabr 1943-cü il**

Ordu generalı Talbuxinə

4-cü Ukrayna cəbhəsinin döyüşçüləri uzun sürən gərgin döyüşlərdən sonra düşmənin şiddətli müqavimətini qıraraq və onu ağır itkiyə məruz qoyaraq, oktyabrın 23-də Melitopol şəhərini və dəmiryol stansiyasını ələ keçirmişlər.

Polkovnik Paşkovun 91-ci atıcı diviziyası, general-mayor Sızranovun 416-cı Taqanroq atıcı diviziyası xüsusilə fərqlənmişlər.

Bundan sonra həmin hərbi hissələr "91-ci Melitopol atıcı diviziyası" adlandırılsın.

416-cı Taqanov atıcı diviziyası alman işğalçılarına qarşı mübarizədə ikinci dəfə fərqləndiyinə görə "Qırmızı Bayraq" ordeni ilə təltif olunur.

**Ali Baş Komandan**
**Sovet İttifaqı Marşalı İ.Stalin**
**23 oktyabr 1943-cü il**

91-ci atıcı diviziya 416-cı Taqanov atıcı diviziyasının tərkibində təşkil olunmuşdu. 416-cı atıcı diviziyanın tərkibində qəhrəmanlıqlar göstərən dağıstanlılar Əziz Əliyevin məhsuldar və gərgin əməyinin səyi nəticəsində təşkil olunmuş 1-ci Dağıstan könüllü süravi eskadranonun döyüşçüləridir (13).

Ə.Əliyev müharibə dövründə incəsənət və ədəbiyyatın əhəmiyyətli təsirini gözəl bildiyindən, təbliğat-təşviqat vəsitəsi kimi istifadə olunmasına, xalqların milli mədəniyyətlərinin inkişafına yüksək qayğı göstərirdi. Teatr, musiqi, təsviri incəsənət və bədii özfəaliyyət sahələrinin inkişafına ciddi töhvələr vermişdir.

1942-1948-ci illər Dağıstan tarixində baş verənlər Əziz Əliyevin ömür kitabına şərəflə yazılıb.

Müasir Azərbaycan gəncliyinin şəxsiyyətyönümlü vətəndaş kimi formalaşmasında görkəmli dövlət, ictimai və elm xadimi Əziz Əliyevin həyat yolu ibrətamizdir. Əziz Əliyevin həyatı və fəaliyyəti ilə tanışlıq gənc nəsildə Vətənə məhəbbət, dövlətçilik sevgisi, doğma Azərbaycanımızın qədir-qiymətini bilməkdə faydalı nümunələrindəndir.



**Ümummilli lider Azırbaycan Respublikasının Prezidenti Heydər Əliyevin görkəmli dövlət və elm xadimi Əziz Əliyevin 100 illiyinə həsr olunmuş təntənəli yubiley gecəsində nitqi:**

1998-ci il may ayının 14-də dövlət səviyyəsində Əziz Əliyevin anadan olmasının 100 illik yubileyi keçirilərkən yubiley tədbirində çıxış edən prezident Heydər Əliyev Əziz Əliyevin zəngin həyat yolunun və dəyərli yaradıcılığının bizə məlum olmayan məqamlarının incəliklərindən ətraflı söhbət açmışdı.

Görkəmli dövlət, ictimai elm xadimi Əziz Əliyevin 100 illiyinə həsr olunmuş təntənəli yubiley gecəsində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi:

Bugünkü təntənəli yubiley gecəsi Azərbaycan və Dağıstan xalqlarının görkəmli oğlu Əziz Əliyevin nurlu şəxsiyyətinə, onun 100 illik yubileyinə həsr olunmuşdur. Eyni zamanda, bugünkü mərasim Dağıstan və Azərbaycan xalqlarının dostluq və qardaşlıq bayramıdır.

Biz son illər bu möhtəşəm sarayda Azərbaycan xalqının görkəmli şəxsiyyətlərinin yubileylərini təntənə ilə qeyd etmişik. Bu, çox gözəl ənənədir, bugünkü nəsillərin öz tarixi keçmişinə, görkəmli şəxsiyyətlərinə hörmət və ehtiramını, təşəkkür və minnətdarlığını ifadə edir. Ancaq bugünkü təntənəli yubiley gecəsinin fərqi vardır. Bu da ondan ibarətdir ki, biz Əziz Əliyevin 100 illik yubileyini qeyd edirik, eyni zamanda, Dağıstan və Azərbaycan xalqlarının çoxəsrlik dostluq, qardaşlıq tarixinə yeni gözəl, parlaq səhifələr yazılır.

Aprelin 27-də Dağıstanda, Mahaçqalada Əziz Əliyevin 100 illik yubileyinə həsr olunmuş təntənəli mərasim keçirilmişdir. Azərbaycanın yüksək səviyyəli nümayəndə heyəti də orada iştirak etmişdir. Bu gün biz Dağıstanın yüksək səviyyəli, çox mötəbər nümayəndə heyətini Azərbaycanda qəbul edirik, Əziz Əliyevin yubileyini birlikdə qeyd edirik, eyni zamanda Azərbaycan və Dağıstan xalqlarının dostluq, qardaşlıq bayramını keçiririk.

Mən bütün Azərbaycan xalqı adından Dağıstan xalqına hörmət və ehtiramımızı bildirərək, Dağıstan Respublikasının Baş naziri Xizri Şıxsəidovun rəhbərliyi ilə bu gün Azərbaycana gəlmiş Dağıstan nümayəndə heyətini səmimi-qəlbdən salamlayıram, onlara "xoş gəlmisiniz” deyirəm, Dağıstan və Azərbaycan xalqlarının dostluğunun sarsılmaz olduğunu bir daha bəyan edirəm.

Dağıstan xalqına və Dağıstan nümayəndə heyətinə dərin hörmət bəsləyərək və deyəcəyim sözləri onların da dinləməsini arzu edərək, nitqimin qalan hissəsini hamımız üçün aydın olan rus dilində davam edəcəyəm.

Hörmətli qonaqlar, bizim dostlarımız!

Ümidvaram ki, siz mənim Azərbaycan dilində dediklərimi olduğu kimi başa düşdünüz. Mənim dediklərimi olduğu kimi başa düşməyiniz üçün rus dilində danışacağam, yəqin ki, həmvətənlərim məni düz başa düşəcəklər. Azərbaycanda rus dilini, demək olar, hamı bilir, ona görə də hesab edirəm ki, məni başa düşəcəklər.

Bugünkü təntənə, Əziz Əliyevin 100 illiyinə həsr olunmuş, Dağıstanda və Azərbaycanda keçirilmiş yubiley tədbirləri xalqlarımız, ölkələrimiz, dövlətlərimiz arasında, insanlar arasında olan səmimi, dostluq münasibətlərini bir daha nümayiş etdirir. Əziz Əliyev özünün çoxcəhətli fəaliyyəti, humanizmi və qayğıkeşliyi sayəsində Dağıstan və Azərbaycan xalqlarının sarsılmaz dostluğunun simvollarından birinə çevrilmişdir.

O, dövlət xadimi, nazir, çətin illərdə Azərbaycanın rəhbərlərindən biri idi.

Burada Əziz Əliyevin həyat yolu haqqında çox sözlər deyildi. Mən daha çox, daha yaxşı, daha dolğun danışa bilərəm, çünki onu şəxsən tanıyırdım, bir çox illər onunla birlikdə olmuşam. Özü də mənim bildiklərimin bir çoxunu bəlkə də heç kim bilmir. Ancaq bununla belə, vaxtınızı almayacağam, hesab edirəm ki, deyilənlər tamamilə kifayətdir. Mən yalnız bəzi məqamlar üzərində dayanacağam.

Mən əminəm ki, Əziz Əliyev, - bu aylar ərzində dəfələrlə deyildiyi kimi, - Azərbaycan xalqının görkəmli nümayəndələrindən biridir. O, lap əvvəldən qeyri-adi insan idi. Onun tərcümeyi-halına diqqət yetirin. İrəvanda rus gimnaziyasında təhsil almaq və oranı qızıl medalla bitirmək, gənc ikən kömək üçün milyonçu Hacı Zeynalabdin Tağıyevə müraciət etmək, ondan bu köməyi almaq və bütün dünyada məşhur olan Hərbi Tibb Akademiyasında ali tibb təhsili almaq üçün Peterburqa getmək - gənclik illərində bunu heç də hər kəs bacarmazdı, heç də hər kəs bu qədər məqsədyönlü ola bilməzdi.

Başqa sözlə, bu qeyri-adi istedadı İlahidən gələn insan özünün məqsədyönlüyü, fədakarlığı, zəhmətsevərliyi, biliklərə can atması sayəsində çox şey qazanmış, hərtərəfli insani keyfiyyətlər əldə etmişdir. O həm həkim, həm alim, həm də səhiyyə təşkilatçısı idi. O, dövlət xadimi, nazir, çətin illərdə Azərbaycanın rəhbərlərindən biri, XX əsrin ən ağır illərində Dağıstanın birinci rəhbəri idi. Moskvada, sonra isə Azərbaycanda məsul işdə çalışmışdı. Ancaq eyni zamanda, onun həyatı heç də asan keçmirdi, maneələrlə, çətinliklərlə, özünə qarşı edilən bir çox haqsızlıqlarla rastlaşırdı. Amma bunların hamısını aradan qaldırır və yolundan dönmürdü.

Bizim üçün xüsusi əhəmiyyəti olan odur ki, Azərbaycan xalqının oğlu Əziz Əliyev yüksək bacarığını, fayda vermək qabiliyyətini yalnız təkcə öz respublikasında, ölkəsində nümayiş etdirməmişdir. O, müharibə illərində İranda çox məsul işi uğurla yerinə yetirmiş, Dağıstanın rəhbəri kimi son dərəcə məsuliyyətli vəzifənin öhdəsindən çox gözəl gəlmiş, Moskvada - tərkibində yaşadığımız Sovetlər İttifaqı kimi bir dövlətin paytaxtında müvəffəqiyyətlə çalışmışdır.

Bizim xalqımız üçün bunun xüsusi əhəmiyyəti var, ona görə ki, xalqımız, Azərbaycanın ən yaxşı oğulları təkcə öz ölkəsində deyil, həm də başqa ölkələrdə, respublikalarda layiqli yer tuta bilir. Bu, hər bir azərbaycanlının qəlbində çox böyük iftixar hissi doğurur.

İkinci Dünya müharibəsi bəşər tarixində ən ağır müharibədir. Böyük Vətən müharibəsi faşizmə, cəhalətə, təcavüzə qarşı müharibə idi. Faşizmə qarşı vuruşanlar, qələbənin təmin olunması işinə öz töhfəsini verənlər, öz fəaliyyəti ilə bu qələbənin çalınmasına kömək edənlər, şübhəsiz, ən yüksək qiymətə və ən yüksək hörmətə layiqdirlər.

Bəli, faşist qoşunları Sovet İttifaqına hücuma keçdikdən sonra qısa bir vaxtda çox irəliləmiş və Qafqaz dağlarının ətəklərinə, Dağıstanın həndəvərinə çatmışdılar. Dağıstan istisna olmaqla, bütün Şimali Qafqaz faşist qoşunları tərəfindən işğal edilmişdi. Onlar Bakıya can atır, Bakı neftini ələ keçirmək istəyirdilər. Bu, baş tutsaydı, müharibənin nəticəsi bəlkə də başqa cür olardı. Sovet ordusu, vətənin müdafiəsinə qalxan insanlar kütləvi qəhrəmanlıq

göstərdilər. Bir neçə gün əvvəl, mayın 9-da biz alman faşizmi üzərində qələbənin 53-cü ildönümünü qeyd etdik. Biz cəbhədə vuruşmuş, arxada qələbəni təmin etmiş, faşizmin qarşısını kəsə bilmiş insanlara indiki nəslin bəslədiyi hissləri bir daha və dönə-dönə ifadə etdik. Belə görkəmli insanlardan biri də Əziz Əliyev idi.

Əziz Əliyev ön xətdə, Dağıstanda olmuşdur

Onun qismətinə olduqca çox çətin vəzifələr düşmüş və o, bu vəzifələrin öhdəsindən uğurla gəlmişdir. 1941-ci ilin yayında, Sovet İttifaqına faşistlərin hücumu başladıqdan az sonra sovet qoşunları İrana daxil oldular. Əziz Əliyev Azərbaycan nümayəndələrinin böyük bir qrupuna başçılıq etdi və İranda mürəkkəb şəraitdə xüsusi missiyanı yerinə yetirdi.

Bəli, vaxt gələcək və onun həmin dövrdəki fəaliyyətinin təfərrüatı da aşkara çıxarılacaqdır. Lakin məsələn, mənə məlumdur ki, o, görkəmli Azərbaycan yazıçıları Süleyman Rüstəm, Mirzə İbrahimov, Süleyman Rəhimov və bir çox başqaları ilə birlikdə orada necə cəsarətlə və ağılla iş aparırdı. Ancaq faşist qoşunları Dağıstan sərhədlərinə yaxınlaşan kimi, - orada son dərəcə mürəkkəb vəziyyət yaranmışdı, - Dövlət Müdafiə Komitəsinin qərarı ilə Əziz Əliyev Dağıstana göndərildi. Dağıstanlılar 1942-ci ilin sentyabrında onların respublikasında vəziyyətin necə olduğunu yaxşı bilirlər. Orada əvvəllər yaşamamış, işləməmiş olan bu adam oraya gəldi və qısa müddətdə bu çoxmillətli diyarı öz ətrafında sıx birləşdirməyə, hamını öz ətrafına toplamağa və onları Dağıstanın müdafiəsinə, deməli, həm də Zaqafqaziyanın, Bakı neftinin müdafiəsinə qaldırmağa müvəffəq oldu.Bu, böyük iş idi və o, həmin işi gördü. Bu işi o, özünün qeyri-adi insani keyfiyyətləri, istedadı, ağıl-zəkası sayəsində həyata keçirdi.

Açığını deyək ki, o vaxtlar Əziz Əliyev Azərbaycanın dövlət xadimləri arasında ali təhsili olan, ziyalılığı, zəngin elmi biliyi ilə fərqlənən bir neçə adamdan biri, bəlkə də yeganə adam idi. Bütün bu keyfiyyətlər qısa müddətdə Dağıstanda vəziyyəti sabitləşdirməkdə, bu respublikanın xalqın Qafqazın müdafiəsi üçün birləşdirməkdə ona kömək etdi.Dağıstanlılar Əziz Əliyev başda olmaqla və bizim ordumuzla, ovaxtkı sovet ordusu ilə birlikdə çox böyük vəzifəni

yerinə yetirdilər. Onlar Qafqazı müdafiə etdilər, faşist qoşunlarını irəliləməyə qoymadılar, Bakı neftini xilas etdilər.

Təbii ki, bütün bunlar ali komandanlığın, qoşunların, Qafqazın müdafiəsinə səfərbər edilmiş bütün şəxslərin çox böyük, qəhrəmancasına fəaliyyətinin nəticəsi idi. Lakin Əziz Əliyev başda olmaqla, dağıstanlıların töhfəsi də çox böyük və sanballı olmuşdur.

Sonra Əziz Əliyev Moskvada işlədi. Daha sonra, 50-ci ildə onu yenidən Azərbaycana qaytardılar, burada Nazirlər Soveti sədrinin müavini işlədi, bir il sonra isə bütün vəzifələrdən çıxardılar, partiya cəzası verdilər, beləliklə də, əslində, ona qarşı cinayət etdilər. Mən bunu xatırlayıram.

İndi deyə bilərik ki, onun çox çətin, ancaq, eyni zamanda xoşbəxt taleyi olubdur. O, öz həyat yolunda bir çox çətinliklərlə, maneələrlə rastlaşmış, ancaq onları aradan qaldırmışdır.

Ədalətsizliklə qarşılaşmış, amma ruhdan düşməmişdir.

Əziz Əliyev İrəvanda anadan olmuş və artıq 1918-ci ildə özü və bütün ailəsi soyqırımına, deportasiyaya məruz qalmışdır. O, ermənilərin Azərbaycan xalqına qarşı törətdikləri soyqırımını çox gənc yaşında özü görmüş və doğma diyarını tərk edərək Naxçıvana, oradan da Bakıya köçməyə məcbur olmuşdur. O çalışır, çox iş görürdü, əvəzində, 40-cı ildə ona töhmət elan edirlər ki, guya Tibb İnstitutunu antisovet ünsürlərdən, millətçilərdən və sairdən təmizləməmişdir.

O, müharibə vaxtı İranda, Dağıstanda nə qədər böyük iş görmüş, Moskvada müvəffəqiyyətlə işləmiş, sonra vətənə qayıtmışdı. Bir il sonra isə onu işdən çıxarmışdılar ki, guya valideynlərinin sosial mənşəyini, bacısının İranda olmasını gizlətmişdir. Bu paradoks indi artıq bizə məlumdur.

Böyük dövlət xadimi mənə danışırdı ki...

O, 1938-ci il repressiyasından möcüzə nəticəsində xilas olmuşdur. Onu sonralar, 50-ci illərin əvvəlində repressiya etdilər. İşdən çıxarıb Ortopediya və Bərpa Cərrahiyyəsi İnstitutunun direktoru təyin etdilər, amma tezliklə bu vəzifədən də çıxardılar. Professoru, elmlər doktorunu, bu qədər xidmətləri olan bir insanı Sabunçu xəstəxanasına adi həkim göndərdilər və o, üç il orada işlədi. Bu, onun

o vaxtkı rejimin, bilavasitə Mircəfər Bağırov tərəfindən həyata keçirdiyi repressiyalara məruz qaldığı dövr idi.

Əziz Əliyevin heç bir günahı yox idi. Hamı yaxşı bilirdi ki, əri kimi, özü də İran təbəəsi olan böyük bacısı 1938-ci ildə, İran təbəəli azərbaycanlılar buradan çıxarılan vaxt İrana köçməyə məcbur olmuşdu. Bu, məlum idi və heç kim bunu gizlətmirdi. Onun isə boynuna qoyurdular ki, bu faktı gizlətmişdir.

Onun ailəsinin sosial mənşəyi də məlum idi. 1926-cı ildə o, Kommunist Partiyasına daxil olmuş, yüksək vəzifələrdə işləmiş, SSRİ, Azərbaycan, Dağıstan ali sovetlərinin deputatı seçilmişdi və sairə. O, müharibə zamanı necə hünər göstərmişdir. 1951-ci ildə isə birdən-birə deyirlər ki, guya o, özünün sosial mənşəyini gizlətmişdir. Onu repressiyaya məruz qoymaq üçün, sadəcə olaraq, nəyəsə öcəşmək lazım idi.

Repressiyadan mən də əziyyət çəkmişəm

Deməliyəm ki, mən özüm də bu repressiyadan əziyyət çəkmişəm. O vaxt mənim Əziz Əliyev ilə qohumluq münasibətlərim yox idi və bu gün geniş ictimaiyyətə bəlkə də ilk dəfə deyəcəyəm ki, mərhum həyat yoldaşım Zərifə xanımla 1948-ci ildə tanış olmuşdum. Az sonra mən Leninqrada oxumağa getdim. 50-ci ildə oradan Bakıya qayıdandan sonra, şübhəsiz ki, öz ailə həyatımı qurmaq, evlənmək fikrində idim. Ancaq mənim mənzil-məişət şəraitim buna imkan vermirdi - anam və qardaşlarımla İçərişəhərdə zirzəmidə kirayədə yaşayırdım. Şərait yox idi və mən mənzil almağımı gözləyirdim.

1952-ci ildə mən ikiotaqlı mənzil aldım. Lakin o vaxt mənə Əziz Əliyevin ailəsi ilə ünsiyyətdə olmaq qadağan edilmişdi. Xatirimdədir, 1951-ci ildə Əziz Əliyev işdən çıxarıldıqda Zərifə xanımla biz görüşdük və o mənə dedi: "Deyəsən, biz bir daha görüşə bilməyəcəyik, çünki atamı işdən çıxarıblar və ona qarşı siyasi ittiham irəli sürüblər. Sən isə dövlət təhlükəsizliyi orqanlarında işləyirsən və bu, sənə zərər gətirə bilər. Odur ki, deyəsən, bizə birlikdə olmaq qismət deyilmiş". Mən, əlbəttə, etirazımı bildirdim və münasibətlərimiz davam etdi.

Bundan az sonra, - həmin vaxtlar Əziz Əliyevin ailəsini isə izləyir və onu həbsə almaq üçün fəal məşğul olurdular - ovaxtkı dövlət

təhlükəsizliyi naziri general Yemelyanov məni yanına çağırıb bu sözləri dedi: "Sən cavan və bacarıqlı işçisən. Leninqradda çox yüksək təhsil alıbsan, təhsili uğurla başa çatdırıbsan, sənin gələcəyin var. Ancaq sən Əziz Əliyevin ailəsi ilə bütün əlaqələri kəsməlisən, yoxsa biz səni işdən çıxarmalı olacağıq”. Orqanlarda işlədiyimə və məsələnin nə yerdə olduğunu bildiyimə görə ondan belə ittihamlar üçün nə kimi əsaslar olduğunu soruşdum.O məni danlayıb dedi: "Sən hələ cavansan və başa düşmürsən. Yoldaş Mircəfər Bağırov göstəriş verib və biz onu yerinə yetirməliyik”.

Aradan bir il keçdi. Mənim əlaqələrim qeyri-leqal xarakter aldı, əks halda, başqa cür mümkün deyildi. Bir ildən sonra, 1953-cü ilin əvvəllərində general Yemelyanov yenidən məni yanına çağırdı və qəti şəkildə xəbərdarlıq etdi: "Əgər sən öz əlaqələrini kəsməsən, onda nəzərə al ki,işdən çıxarılacaqsan, həm də nəinki işdən çıxarılacaqsan, eyni zamanda, ciddi şəkildə cəzalandırılacaqsan”. Artıq o vaxt bilirdim ki, hər şey ona doğru gedir ki, Əziz Əliyevi həbs etməli, onun ailəsini isə Mircəfər Bağırovun göstərişi ilə buradan sürgün etməli idilər.

Amma Allah kömək etdi. 1953-cü ilin martında Stalin öldü, həmin ilin yayında isə Mircəfər Bağırovu əvvəlcə işdən çıxardılar, sonra da həbs etdilər. Bütün bu müddətdə Əziz Əliyev Sabunçuda həkim işləyirdi və onu öz əvvəlki vəzifəsinə - Ortopediya və Bərpa Cərrahiyyəsi İnstitutunun direktoru vəzifəsinə yalnız 1954-cü ilin martında qaytardılar. Bundan sonra mən, necə deyərlər, azadlığa çıxdım və 1954-cü ilin noyabrında öz ailə həyatımı qura bildim.

Həyat, bax, belədir...

Qohum olduğumuz illərdə mən Əziz Əliyev ilə çox yaxından ünsiyyət saxlayırdım. Açığını deyim ki, bütün burada deyilənlərlə yanaşı, o, həm də olduqca gözəl insan idi. Bir insan kimi, bir ata kimi olduqca gözəl adam idi. Sadə, məhrəm, ağıllı həmsöhbət olan bu insan tarixdən, ədəbiyyat və incəsənətdən çox şey bilirdi. Azərbaycanda və Dağıstanda işlədiyi illərdə o, elm xadimləri ilə çox sıx təmasda olurdu. Bütün tibb professorları onun dostları idi, onların çoxunu o hazırlayıb irəli çəkmişdi. Azərbaycan incəsənəti və ədəbiyyatının Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Bülbül,

Niyazi, Səməd Vurğun, Süleyman Rüstəm, Qara Qarayev və bir çox başqaları kimi görkəmli xadimləri ilə onun çox yaxın, mehriban və ailəvi münasibətləri vardı. Bütün bunlar ona görə olurdu ki, o, çox ziyalı bir adam idi, yüksək səviyyədə savadlı, mədəni adam olduğuna görə həmişə məhz bu mühitlə təmasda olmağa çalışırdı. Həmin adamlar da onunla yaxın olmaq istəyirdilər. O, hər cəhətdən gözəl insan idi.

Əlbəttə, o, vaxtilə məruz qaldığı repressiyalara görə son illərdə çox həyəcan keçirirdi. Lakin bununla yanaşı, Əziz Əliyev ona qarşı ədalətsizlik edərək repressiya törədənləri də, onların özlərinin nə kimi cəzalar çəkdiyini də görmüşdür. O, nəinki Mircəfər Bağırovun tutulduğunu, həm də 1956-cı ildə Bakıda onun və digər cinayətkarların məhkəmə prosesini də görmüşdür.

Müttəhimlər kürsüsündə Mircəfər Bağırovla birlikdə həmin general Stepan Yemelyanov da əyləşmişdi, o Yemelyanov ki Əziz Əliyevlə əlaqə saxladığıma görə mənə iki dəfə xəbərdarlıq etmiş və məni danlamışdı. Ona 25 il həbs cəzası kəsdilər. Görün tale necə olur. Sonralar, 70-ci illərdə mən MK-nın birinci katibi işləyərkən Yemelyanov öz cəzasını çəkib Bakıya qayıtdı və mənə məktub yazaraq ona bəzi şəxsi işlərində kömək göstərməyi xahiş etdi. Həyat, bax, belədir.

Bütün bunları ona görə deyirəm ki, öz təəssüratlarımı bölüşmək istəyirəm, həmçinin bildirmək üçün ki, keçmişdə bizim çox xoş, yaxşı münasibətlərimiz olubdur, biz onları qiymətləndirməli və unutmamalıyıq. Amma keçmişdə çox ağır hallar da olubdur. Biz elə hallara gərək heç zaman yol verməyək. Xalqımız XIX və XX əsrlər ərzində, 1918-ci ildə soyqırımlarına məruz qalıbdır. Sonra Ermənistanda yaşamış azərbaycanlıları 1948-ci ildən etibarən Stalinin xüsusi qərarı ilə və yenə də Mircəfər Bağırovun iştirakı ilə zor gücünə Azərbaycana deportasiya etmişlər. Birinci deportasiya əsrin əvvəllərində başlamışdır. 1918-ci ildə Əziz Əliyevin ailəsi soyqırımına məruz qalaraq deportasiya edilmişdir. Onun orada qalan nəsilləri 1948-1953-cü illərdə köçürülmüşlər. Ermənistanda qalanlar isə 1988-ci ildə Ermənistanla Azərbaycan arasında münaqişə

başlandıqda gözümçıxdıya salınmış, məhv edilmiş, zorla aradan çıxarılmışlar.

20-ci, 30-cu, 40-cı, 50-ci illərin repressiyaları totalitar sovet rejiminin bütün sovet xalqına qarşı, xüsusən Azərbaycan xalqına qarşı törətdiyi ən ağır cinayətdir. 37-38-ci illərdə Azərbaycan xalqının məruz qaldığı repressiyalar, zənnimcə, heç bir respublikada olmayıbdır. Azərbaycanın ən görkəmli elm və mədəniyyət, təhsil xadimləri məhv edilmişlər. Bunu da unutmaq olmaz. Bununla birlikdə belə hallar bir daha təkrar edilməməlidir.

Bu gün Azərbaycan müstəqil respublikadır

İndi biz azad insanlarıq. O illərdə çalışan, Azərbaycanın elmini, təhsilini, səhiyyəsini, iqtisadi potensialını və sənayesini yaratmış insanlar Azərbaycanın bugünkü müstəqilliyinin bünövrəsini qoymuşlar. Biz onları unutmamalıyıq, onları xatırlamalı, onların xidmətlərini lazımınca qiymətləndirməliyik. Bu adamlar arasında Əziz Əliyev də var.

Mən artıq dedim, Əziz Əliyev kimi görkəmli insanlar Dağıstan və Azərbaycan xalqları arasında dostluğun və qardaşlığın möhkəmlənməsinə çox böyük töhfə vermişlər. İndi bu işə biz də öz töhfəmizi verməliyik. Ona görə ki, heç nə bir yerdə donub qalmır, hər şey inkişafda, hərəkətdədir. Həyatımızın indiki dövrü keçmişdəkindən - biz bir dövlətin, bir ölkənin tərkibində olduğumuz dövrdəkindən fərqlidir. İndi Azərbaycan müstəqil dövlətdir. Respublika olan Dağıstan, eyni zamanda, Rusiya Federasiyasının bir hissəsidir. Bizim Dağıstanla olan münasibətlərimiz - Rusiya ilə dostluq münasibətləri deməkdir. Biz Rusiya, rus xalqı ilə həmişə dostluq və mehriban münasibətlər şəraitində yaşamışıq. İndi də bu cür münasibətlər şəraitində yaşayırıq. Biz Azərbaycan ilə Rusiya Federasiyası arasında dostluq və əməkdaşlığı gələcəkdə də möhkəmləndirəcəyik.

Azərbaycan xalqına bəslədiyi çox böyük hisslərə, Əziz Əliyevin xatirəsinə göstərdiyi diqqətə görə Dağıstan xalqına bir daha ən dərin minnətdarlığımı bildirirəm.

Heydər Əliyev irsinin layiqli davamçısı Prezident İlham Əliyevin Əziz Əliyevin 110 və 120 illiyi münasibıti ilə verdiyi Sərəncamlar xüsusi qeyd olunmalıdır. Bu Sərəncamlar Əziz Əliyevin Azərbaycan xalqı üçün etdiyi xidmətlərə bir töhvə oldu.

**Azərbaycanın görkəmli dövlət və elm xadimi**
**Əziz Əliyevin 110 illik yubileyinin keçirilməsi haqqında**
**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

2007-ci il yanvar ayının 1-də Azərbaycanın görkəmli dövlət və elm xadimi Əziz Məmmədkərim oğlu Əliyevin anadan olmasının 110 illiyi tamam olur.

Azərbaycan xalqı qarşısında mühüm xidmətlərini nəzərə alaraq Əziz Əliyevin 110 illik yubileyinin dövlət səviyyəsində keçirilməsini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Əziz Əliyevin 110 illik yubileyinə həsr olunmuş tədbirlər planı hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 5 dekabr 2006-cı il

**Azərbaycanın görkəmli dövlət və elm xadimi**
**Əziz Əliyevin 120 illik yubileyinin keçirilməsi haqqında**
**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

2017-ci il yanvarın 1-də Azərbaycanın görkəmli dövlət və elm xadimi Əziz Məmmədkərim oğlu Əliyevin anadan olmasının 120 illiyi tamam olur.

Əziz Əliyev müxtəlif məsul vəzifələrdə çalışaraq dövlət idarəçiliyinin təkmilləşdirilməsində səmərəli fəaliyyət göstərmiş, respublikada səhiyyə sisteminin və tibb təhsilinin formalaşdırılmasına layiqli töhfələr vermişdir. Onun İkinci Dünya müharibəsi illərində apardığı işlər mühüm hərbi-siyasi əhəmiyyətə malikdir. Azərbaycan və Dağıstan xalqları arasında dostluq və qardaşlıq əlaqələrinin daha da möhkəmləndirilməsi Əziz Əliyevin adı ilə sıx bağlıdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və Azərbaycan xalqı qarşısında böyük xidmətlərini nəzərə alaraq görkəmli dövlət və elm xadimi Əziz Əliyevin 120 illik yubileyinin yüksək səviyyədə keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Əziz Əliyevin 120 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsinlər.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 18 noyabr 2016-cı il

**Heydər Əliyev Ocağı**

Görkəmli şəxsiyyətlər xalqımızın zəkasını, elmini, mədəniyyətini, mənəviyyatını dünyaya nümayiş etdirirlər. Adamların mənəvi aləmi təkcə əməkdə, ictimai fəaliyyətdə deyil, həmçinin ailədə formalaşır.
(Heydər Əliyev)

Hər bir insan üçün onun valideynləri, onun anası əzizdir, müqəddəsdir.
(İlham Əliyev)



Bu hikmətli kəlamlardan aydın olur ki, hər bir insan bir el-obanı, nəsli, ailəni təmsil edir. Öz xalqının zəngin keçmişini, mədəni irsini dünyaya tanıtdıran insan mənsub olduğu milləti təmsil edir.

## Gəlin ocağa gələr!

Heydər Əliyev ailəsinin timsalında tariximizin, mədəniyyətimizin, milli dəyərlərimizi əhatə edən mənəvi zənginliyimizin keşiyini çəkərək nəsillərə ərmağan edən bir ocaq gördük. Bu ocağın ziyası keçmiş, inidi və gələcəyə körpü salır. Bu ailənin hər bir üzvü qəlbi Azərbaycanla döyünür. Azərbaycanı tanımaq və tanıtdırmaq üçün mədəni irsimizin tədqiqi, təbliğində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xanımı, Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyət Fondunun prezidenti, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini, ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın müstəsna xidmətləri var. Elimizdən gələn bir atalar sözü yada düşür "Gəlin ocağa gələr". Həqiqətən də, ailə dəyərlərini və dövlət idarəçiliyində mənəviyyat meyarlarını özündə birləşdirən Mehriban xanım Əliyevaya xalqda hüsn-rəğbət yaratmışdır. Onun əsas fəaliyyəti Azərbaycan mədəniyyətinin zənginliyini ümumbəşəri dəyərlər kontekstində tanıtdırmaqdır. Heç təsadüfi deyildir ki, Mehriban xanımın anası ədəbiyyatşünas, tənqidçi, tərcüməçi, Azərbaycan Yazıçılar Birliyinin üzvü, filologiya elmləri doktoru dünyaşöhrətli şərqşünas-alim və elm xadimi Aida xanım İmanquliyeva elmi fəaliyyətində Şərq və Qərb dəyərlərinin qarşılıqlı təsirini araşdıran yaradıcılıq üslubunda sintez edən ilk Azərbaycan alimidir. Mehriban xanımın atası görkəmli alim Arif Paşayev Azərbaycanda aviasiya üzrə ali təhsilin çağdaş səviyyədə tərəqqi etməsində ciddi uğurlara imza atan, gənclərin yüksək təlim-tərbiyə alması, yurda, el-obaya bağlı vətənpərvərlik ruhunda tərbiyəsinə xüsusi fikir verən nüfuzlu rəhbər və ağsaqqaldır.

El-oba irsimizin təməlində ailə tərbiyəsnin insanın şəxsiyyət kimi təşəkkülündə başlıca rol oynayır. İnsanın şəxsiyyətində irsi genetika, ailə, məktəb və mühitin xüsusi çəkisi vardır. Məhz bu ailənin təməlində milli-mənəvi kodeksimizin prinsipləri dayanır.

## MEHRİBAN XANIM ƏLİYEVA

**Azərbaycan Respublikasının Birinci Vitse-Prezidenti, birinci xanım, Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyət Fondunun prezidenti, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini, ISESCO-nun xoşməramlı səfiri**





***İlham Əliyev və Mehriban Əliyeva Şuşada Yuxarı Gövhərağa məsçidində***

Mehriban xanım Əliyeva həm də mədəniyyətimizin, incəsənətimizin, tarixi irsimizin böyük hamisi və təbliğatçısıdır. Təsadüfi

deyil ki, Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu, eyni zamanda, milli mədəniyyətimizin qorunması və inkişafı istiqamətində genişmiqyaslı fəaliyyət göstərir, eləcə də Azərbaycanın zəngin tarixi və mədəni irsi dünya ictimaiyyətinə çatdırılır. O cümlədən ölkəmizin və zəngin mədəniyyətimizin təbliğində UNESCO platformasından geniş istifadə olunması təqdirəlayiq haldır.

Bu məqamda vurğulamaq yerinə düşər ki, Mehriban xanım Əliyevanın səyləri sayəsində Azərbaycan-UNESCO əlaqələri yeni səviyyəyə yüksəlib. Məlum olduğu kimi, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva mədəniyyət, təhsil və idman sahələrində geniş fəaliyyət göstərir. Mehriban xanım Əliyeva 1995-ci ildən etibarən rəhbərlik etdiyi Azərbaycan Mədəniyyət Fondunun xətti ilə təşkil etdiyi müxtəlif səpkili tədbirlər vasitəsilə ölkəmizin mədəni irsinin beynəlxalq səviyyədə təbliğinin, onun mühafizəsinin təmin olunması, gələcək nəsillərə çatdırılması sahəsində böyük xidmətlər göstərib. Onun zəngin mədəniyyətimizin qorunub saxlanılması və təbliği sahəsində çoxşaxəli fəaliyyəti beynəlxalq səviyyədə yüksək dəyərləndirilib. Belə ki, Mehriban xanım Əliyeva Azərbaycanın zəngin mədəniyyətinin qorunması, öyrənilməsi və tədqiqində xidmətlərinə görə UNESCO tərəfindən 2004-cü ilin sentyabr ayında qurumun şifahi və musiqi ənənələri sahəsində Xoşməramlı Səfiri adına layiq görülüb. Ümumiyyətlə, Mehriban xanım Əliyevanın Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması, zəngin mədəniyyətimizin beynəlxalq miqyasda təbliği, görkəmli elm və incəsənət xadimlərimizin tanıdılması məqsədinə xidmət edən fəaliyyətinin əhatə dairəsi kifayət qədər genişdir. İndiyədək UNESCO baş qərargahında Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Azərbaycana həsr olunmuş müxtəlif tədbirlər təşkil edilib. Görkəmli alim, akademik Yusif Məmmədəliyevin, Azərbaycan ədəbiyyatının tanınmış siması Mir Cəlal Paşayevin 100 illik yubileylərinin UNESCO səviyyəsində qeyd edilməsi deyilənlərə misaldır. Mehriban xanım Əliyeva bu qəbildən olan tədbirlərdə şəxsən iştirak edir. 2006-cı il oktyabrın 21-də Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva UNESCO-nun 60 illiyinə həsr olunmuş "Sivilizasiyalararası dialoq" həftəsi çərçivəsində

“Azərbaycan: mədəniyyətlərin və sivilizasiyaların qovuşuğunda” adı altında keçirilən Azərbaycan günü ilə bağlı tədbirə qatılıb. 2011-ci il aprelin 19-da UNESCO-nun baş qərargahında respublikamızın müstəqilliyinin 20-ci ildönümü münasibətilə “Azərbaycanın gənc istedadları” adlı möhtəşəm konsert proqramı təşkil olunub. Eyni zamanda, 2011-ci il aprelin 19-dan 29-dək UNESCO-nun baş qərargahında Azərbaycan xalçalarının sərgisi keçirilib. Mehriban xanım Əliyeva 2011-ci il oktyabrın 26-da UNESCO-nun baş konfransının 36-cı sessiyası çərçivəsində təşkil olunan “UNESCO-nun dünya mədəniyyəti və dayanıqlı inkişafda rolu nədən ibarətdir?” mövzusunda Liderlər Forumunda iştirak edib. 2013-cü il iyulun 18-də UNESCO-nun baş qərargahında respublikamızın UNESCO-ya üzv olmasının 20 illiyi ilə əlaqədar təntənəli tədbir keçirilib. Tədbir çərçivəsində Azərbaycan hökuməti tərəfindən 20 illik yubiley münasibətilə təşkilatın daxili həyətində yerləşdirilmiş daş at və daş qoç abidələrinin, eləcə də Azərbaycanda daş sənətinə həsr edilmiş sərginin açılış mərasimi baş tutub. Tədbirdə UNESCO-nun baş direktoru İrina Bokova və UNESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva çıxış ediblər. Tədbir iştirakçılarına Azərbaycanda daş sənətinin tarixini əks etdirən kitablar paylanıb. 2013-cü il oktyabrın 22-də UNESCO-nun baş qərargahında Heydər Əliyev Fondunun təşəbbüsü və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə böyük Azərbaycan mütəfəkkiri Seyid Yəhya Bakuviyə həsr edilmiş Beynəlxalq simpozium keçirilib. Eyni zamanda, 2013-cü il oktyabrın 22-də UNESCO-nun baş qərargahında Heydər Əliyev Fondunun və Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə “Azərbaycan - tolerantlıq məkanı” adlı foto-sərginin açılışı baş tutub. Sərgidə Heydər Əliyev Fondunun “Tolerantlığın ünvanı - Azərbaycan” layihəsi çərçivəsində Azərbaycana dəfələrlə yaradıcı səfərlər etmiş dünya şöhrətli fotoqraf Reza Deqatinin ölkəmizdə dini tolerantlığı əks etdirən fotoşəkilləri sərgilənib. 2014-cü il iyunun 2-də UNESCO-nun baş qərargahında Heydər Əliyev Fondunun dəstəyi ilə “Əsrlərdən bəri qorunub saxlanılan ənənəvi təamlar” adlı Azərbaycan mətbəxi həftəsi təşkil olunub. 2014-cü il sentyabrın 15-18-də UNESCO-nun baş qərargahında Heydər Əliyev Fondunun, Mədəniyyət və Turizm Nazirliyinin və Azərbaycanın UNESCO

yanında Daimi Nümayəndəliyinin təşkilatçılığı ilə Qobustan həftəsi keçirilib, Qobustanın UNESCO-da tanıtımı çərçivəsində Fərəc Qarayevin "Qobustan kölgələri" baletinin nümayişi və Qobustanın qayaüstü rəsmlərinin fotoşəkillərindən ibarət sərginin açılışı baş tutub. Yeri gəlmişkən, onu da vurğulayaq ki, Mehriban xanım Əliyevanın UNESCO səviyyəsində çoxşaxəli fəaliyyəti yüksək dəyərləndirilir. Mehriban xanım Əliyeva dünya mədəniyyətinə qayğı və diqqətinə, həmçinin Azərbaycanın mədəni irsinin yaşadılması sahəsindəki töhfələrinə görə 2008-ci ildə qurumun keçmiş baş direktoru Koiçiro Matsuura tərəfindən gümüş xatirə medalı, 2010-cu ildə baş direktor İrina Bokova tərəfindən Qızıl Motsart medalı ilə təltif edilib.

Bunlarla yanaşı, Azərbaycanın maddi və qeyri-maddi mədəni irs nümunələrinin UNESCO-nun müvafiq siyahılarında yer alması əlamətdar haldır. Məlumdur ki, Azərbaycan uzun illər ərzində həm respublika daxilində, həm də ölkə hüdudlarından kənarda dünya irs abidələrinin qorunması istiqamətində məqsədyönlü dövlət siyasəti həyata keçirir. Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun dəstəyi ilə ayrı-ayrı Avropa ölkələrində, həmçinin İslam coğrafiyasında beynəlxalq əhəmiyyət daşıyan bir sıra abidələr bərpa edilərək onlara ikinci həyat verilib. Ötən il UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının Bakıda keçirilməsi ümumdünya irs obyektlərinin qorunması məsələsində Azərbaycanın xidmətlərinin beynəlxalq səviyyədə yüksək dəyərləndirildiyini təsdiqləyir. Bu fakt dünyanın mədəni-turistik xəritəsində Azərbaycanın mövqeyini əhəmiyyətli dərəcədə möhkəmləndirir. Sessiyada Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzinin UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsi barədə qəbul edilən qərar Azərbaycan xalqının dünya mədəniyyətinə xüsusi töhfəsinin beynəlxalq səviyyədə növbəti təsdiqidir. Yeri gəlmişkən, Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzinin UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsi münasibətilə Azərbaycan xalqına təbrik ünvanlayıblar. Dövlət başçısı təbrikində xüsusi olaraq nəzərə çatdırıb ki, Şəkinin tarixi mərkəzində keçmişimizi özündə təcəssüm etdirən Şəki Xan Sarayı, karvansaraylar, məscid və minarələr, qədim körpülər, sənətkarlıq

emalatxanaları və yaşayış evləri bu gündən etibarən təkcə xalqımızın deyil, bəşəriyyətin mədəni irsi hesab olunur. "Son illər Azərbaycanın mədəni irsinin dünya səviyyəsində tanıdılması və qorunması istiqamətində çoxsaylı layihələr həyata keçirilmişdir. Qeyd edilməlidir ki, bu fəaliyyətlər beynəlxalq təşkilatlarla, xüsusən dünya mədəniyyəti, təhsili və elminə məsul olan UNESCO ilə sıx əməkdaşlıq şəraitində gerçəkləşdirilir. Təsadüfi deyil ki, "İçərişəhər, Qız qalası və Şirvanşahlar Saray Kompleksi", "Qobustan Qaya Sənəti Mədəni Landşaftı" UNESCO-nun Ümumdünya İrs Siyahısında, həmçinin xalqımızın qeyri-maddi mədəni irsinin 13 nümunəsi UNESCO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısında yer alır. Bu hadisələr Azərbaycan xalqının ümumbəşər mədəniyyətinə verdiyi töhfənin beynəlxalq miqyasda bir daha etirafıdır", - deyə Prezident İlham Əliyevin xalqımıza ünvanladığı təbrikində vurğulanır. Şübhə yoxdur ki, gələcəkdə həyata keçirilən məqsədyönlü dövlət siyasəti sayəsində Azərbaycanda UNESCO-nun mədəni irs siyahısına daxil olan abidələrin sayı daha da artacaq. Respublikamızda beynəlxalq səviyyədə tanınmalarının növbəsini gözləyən çoxlu sayda mədəniyyət abidələri var. Atəşgah, Naxçıvandakı mavzoleylər, Xəzər sahilindəki müdafiə qurğuları və digər abidələr bu qəbildəndir.

Bunlardan başqa, muğam sənətinin qorunması və yüksək səviyyədə təbliği məqsədilə tədbirlərin görülməsi də tarixi əhəmiyyətə malik olan strateji məsələdir. Bu tədbirlər sırasında Heydər Əliyev Fondunun dəstəyi ilə muğam mərkəzlərinin yaradılmasının önəmini xüsusi qeyd edə bilərik. 2008-ci il dekabrın 27-də Bakıda dənizkənarı Milli Parkda Beynəlxalq Muğam Mərkəzi istifadəyə verilib. Eyni zamanda, Fondun dəstəyi ilə regionlarda da bir neçə muğam mərkəzi yaradılıb. Bakıda istifadəyə verilən Beynəlxalq Muğam Mərkəzi ilə yanaşı, Ağcabədidə, Füzulidə, Ağdamda inşa olunan Muğam mərkəzləri də ölkəmizdə muğamın inkişafında mühüm rol oynayır. Xatırladaq ki, Heydər Əliyev Fondu 2005-ci ildən "Azərbaycan muğamları" layihəsini uğurla həyata keçirir. Layihə çərçivəsində 24 virtuoz muğam ustadının ifaları toplanmış "Qarabağ xanəndələri" musiqi albomu böyük maraqla qarşılanan ilk və uğurlu iş olub. Fond tərəfindən 2008-ci ildə hazırlanan "Muğam ensiklopediyası" qədim musiqi irsimizin qorunması və inkişafı yolunda sanballı nəşr kimi dəyərləndirilir. Heydər Əliyev Fondunun muğamın qorunması və

təbliği istiqamətindəki növbəti uğurlu layihələri "Azərbaycan muğamı" interaktiv audiovizual multimedia toplusu və "Muğam aləmi" nəşridir. Heydər Əliyev Fondunun bir sıra dövlət qurumları ilə birgə təşkil etdiyi Respublika muğam müsabiqəsi və 2009-cu ildən keçirilən Beynəlxalq Muğam Festivalı həm Azərbaycanda muğam sənətinə üz tutan gənclərin sayını xeyli artırıb, həm də milli muğam musiqimizi dünyaya tanıdıb. Təsadüfi deyil ki, 2010-cu ildə Kanadanın Niaqara şəhərinin meriyası və ənənəvi olaraq hər il keçirilən Beynəlxalq Niaqara Musiqi Festivalının rəhbərliyi tərəfindən 26 avqust tarixi Beynəlxalq Azərbaycan Muğamı Günü və İpək yolu üzərində yerləşən ölkələrin musiqisi günü elan olunub. Beləliklə, məhz Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın diqqət və qayğısı nəticəsində muğamımız kiçik konsert salonları səviyyəsindən çıxarılaraq UNESCO səviyyəsinə qaldırılıb, muğama layiq olduğu beynəlxalq status verilib (14)

# VIII BÖLMƏ

# NARINCLARDA TƏHSİL

Narınclar kəndinin təhsil tarixi müəyyən mərhələlərdən keçmişdir. İlk vaxtlar ibtidai təhsil (I-IV siniflər) dövrü olmuşdur. O dövrdə Bahadur müəllim, Əmir müəllim, Xanlar müəllim, Yunis müəllim, Surxay müəllim, Böyükkişi müəllim, Firudin müəllim, Cəlal müəllim pedaqoji fəaliyyətlərində uşaqların təlim-tərbiyəsində bilik və bacarıqlarını əsirgəməmişdir. Eyni zamanda ixtisas fənni üzrə müəllim çatışmazlığı olmuşdur.

Narınclarda ilk dəfə olaraq pedaqoji fəaliyyətə şuşalı Əbdüləli müəllim başlamışdır. Sovet quruluşunun yeni quruculuq dövründə ucqar kəndlərdə məktəb, təhsil sahəsində ciddi problemlər mövcud idi. Narınclar kəndinin təhsil həyatında 1930-1950-ci illər gənc nəslin formalaşmasında əhəmiyyətli rol oynamışdır.

1960-1990-cı illər təhsil dövrü əvvəlki illərlə müqayisədə ciddi irəliləyişlərlə müşayət olunmuşdur. Belə ki, orta məktəb üzrə təhsil müddəti 7 illik, 8 illik, 10 illik və 11 illiyə qədər artmışdır. Yuxarıda qeyd olunan dövr ərzində Narınclar kəndinin uşaqları orta ixtisas və ali təhsil üzrə tam kursu bitirərək diplom almışlar. Cəmiyyətin müxtəlif sahələrində peşələri üzrə bilik və bacarıqları ilə irəli çəkilmişlər. Narınclar kəndindən bu illər ərzində görkəmli ziyalılar və mütəxəsislər yetişmişdir.

Şuşa Kənd Təsərrüfat Texnikumunda Narınclar kəndindən olan gənclər baytarlıq və zootexnik ixtisasları üzrə təhsil almışlar. Onlar təhsillərini bitirdikdən sonra dədə-baba yurdlarına qayıdaraq el-obaya xidmət göstərmişlər. Narınclar kəndi üzrə ilk ali təhsil alan Əjdər Məhərrəm oğlu Məmmədov, heç təsadüfi deyil ki, Şuşa Kənd Təsərrüfatı Texnikumunda müəllimlikdən direktor vəzifəsinə qədər yüksəlmişdir. Qadınlar arasında ilk pedaqoq, maarifçi-qadın anam Ruqiyyə Məmmədova olmuşdur.



***Əjdər Məmmədov Şuşa Kənd Təsərrüfatı Texnikumunun laboratoriyasında təcrübə məşğələ zamanı***

Əjdər müəllimin pedaqoq olaraq yetişdirdiyi Narınclar kəndindən olan mütəxəsislərin adlarını qeyd edək:

Baxşalıyev Sabir
Baxşalıyev İnqilab
Baxşalıyev Dilən
Baxşalıyev Çingiz
Məmmədov Qanboy
Mirzəliyev Fərrux
Fərzəliyev Əbülfət
Mirzəliyev Tofiq
Tahirov Kamal
Məmmədov Əşrəf
Baxşalıyev Hidayət
Məmmədov Yusif

Əjdər müəllim təhsil sahəsində işlədiyi dövrdə respublika üzrə minlərlə gənclərin öz sahələrində yüksək səviyyədə kadrların hazırlığında bilavasitə rol oynamışdır. Eyni zamanda texnikumun direktoru vəzifəsində çalışarkən SSSR üzrə ümumittifaq respublikaların Kənd Sovet texnikumları ilə əlaqələr yaradaraq bu təhsil müəssisəsini tanıtmışdır. Latviya, Estoniya, Litvadan olan nümayəndə heyətini (kənd təsərrüfatı texnikumlarının əməkdaşları) Şuşaya dostluq görüşünə dəvət olunmuşdur. Onlar da, texnikumun tədris üzrə təcrübə mübadiləsini respublikalarında yaymışdılar. Əjdər Məmmədov Qazaxıstanda xam torpaq sahələrində zəngin təcrübə toplamışdır.

İndi isə bu dövr üzrə səciyyəvi təhsil sənədləri ilə tanış olaq.

**Azərbaycan Respublikası Təhsil Nazirliyi Yuxarı Kəlbəcər rayonu 29 saylı Narınclar kənd orta məktəbi üzrə, məktəb müəllimlərinin hesaba alınması haqqında**

**KİTAB**
**1961-1962 – 1997-1998**
№16

Azərbaycan SSR Maarif Nazirliyi Məktəblər idarəsi Məktəb müəllimlərinin və inzibati-pedoqoji heyətin hesaba alınması haqqında

Mardakert rayon Nareştar məktəbi
Kitab başlamışdır 01.sentyabr. 1948-1961-ci il

**1961-1962-ci il Tədris ilinə aid**

1. Ağalarov Camal
2. İbrahimov Şura
3. Talıbov Sarış (Direktor)
4. Fərzəliyev Bahadur 1919
5. Haqverdiyeva Zərxanım
6. Baxşəliyeva Xurşud

**1962-1963-cü tədris ilinə aid**

1. Ağalarov Camal
2. İbrahimov Şura
3. Baxşəliyeva Xurşud
4. Talıbov Sarış (Direktor)
5. Fərzəliyev Bahadur 1919
6. Haqverdiyeva Zərxanım
7. Hüseynova Osan Bahadur qızı

**1963-1964-cü tədris ilinə aid**

1. Talıbov Sarış (Direktor)
2. Ağalarov Camal
3. İbrahimov Şura
4. Baxşəliyeva Xurşud
5. Məmmədov Zakir (1936)
6. Haqverdiyeva Zərxanım
7. Hüseynova Osan Bahadur qızı

**1964-1965-ci tədris ilinə aid**

1. Talıbov Sarış (Direktor)
2. Ağalarov Camal
3. Baxşəliyeva Xurşud
4. Məmmədov Zakir (1936)
5. İbrahimov Şura
6. Haqverdiyeva Zərxanım
7. Fərzəliyev Bahadur (1919)
8. Tahirov Kamran 1935

**1965-1967-ci il tədris ilinə aid**
**Orta ixtisas təhsili**

1. Talıbov Sarış (Direktor)
2. Ağalarov Camal
3. Məmmədov Zakir 1936
4. Haqverdiyeva Zərxanım
5. Fərzəliyev Bahadur 1919
6. Tahirov Kamran 1935
7. Hüseynova Osan Bahadur qızı
8. Baxşəliyeva Xurşud

**1967-1968-ci ilinə aid**

1. Baxşəliyev Dilən APİ 1-ci kurs
2. Baxşəliyeva Xurşud APİ 1-ci kurs

**1969-1970-ci ilinə aid**

1. Baxşəliyev Dilən APİ 1-ci kurs
2. Baxşəliyeva Xurşud APİ 1-ci kurs

**19670-1971-ci ilinə aid**

1. Baxşəliyev Dilən APİ 1-ci kurs
2. Baxşəliyeva Xurşud APİ 1-ci kurs

**1972-1973-cü ilinə aid**

1. Cəfərov Cəfər
2. Baxşəliyev Yelmar  Bakı Pedaqoji inistutu
3. İsmayılov Polad

**1974-1975-ci ilinə aid**

1. F.Telman Axundov aid A.P.D.U

**1975-1977-ci ilinə aid**

1. Məmmədov Əlicabbar Ali
2. Məmmədova Ulduzə

**1977-1978-ci ilinə aid**

1. Məmmədov Əlicabbar Direktor
2. Məmmədov Zakir

**1979-1980-cı ilinə aid**

1. Fərzəliyeva Səyyarə Ali
2. Tahirov Kamran pensiya
3. Məmmədov Zakir Direktor

**1980-1981-ci ilinə aid**

1. Baxşəliyeva Xatirə

**1982-1983-cü ilinə aid**

1. Məmmədova Amalya
2. Məmmədov Nadir

**1983-1984-cü ilinə aid**

1. Məmmədova Amalya
2. Məmmədov Nadir

**1984-1986-ci ilinə aid**

1. Məmmədov Zakir Direktor

2. Məmmədov Çingiz

**1987-1988-cı ilinə aid**

1. S.M. Çingiz Direktor
2. M.Sərfinaz
3. M.Malik

**1988-1989-cı ilinə aid**

1. F. Akif
2. Məmmədova Aytəkin
3. Rüstəmov Arzu

**1989-1991**

1. Fərzəliyeva Nuridə
2. İbrahimov Namiq Xurşud
3. M. Raya

**1995-1996**

1. M. Nizami

**1997-1998**

1. M.Ruqiyyə
2. M.Malik Direktor

Narıştar kənd 7 illik məktəbin direktoru

**Əmr kitabları**
**1961-1986 30/IV**
**7 illik**

**Əmr kitabı**
**Bu kitab 45 (qırx beş) səhifədən ibarətdir**
**Nareşdar kənd 7 illik məktəbin direktoru /Talıbov S./**

**Əmr №19**
**30.IV.1986**
Nareştar kənd 8 illik məktəb
Bu kitab 174 səhifədən ibarətdir.
Direktor Məmmədov
Əlövsət Tahirov adına 29 saylı orta məktəb

Kəlbəcər rayon Narınclar kəndi
29 avqust 1997
Əmr kitabında qaytanlanmış və nömrələnmiş 128 səhifə vardır.
M.D. Məhərrəmov
26.VIII.1997

**Əmr kitabı 1999**
**Əmr 353 01 oktyabr 1999**
Məktəb direktoru M.M səhhəti iə əlaqədar olaraq müalicə getdiyi üçün Direktor vəzifəsindən azad olunsun.
D. M.Malik
81 səhifə

**Məktəb müəllimlərinin hesaba alınması haqqında kitab**

| | | | |
|---|---|---|---|
| 1. | 1961-1962 | 7 | orta |
| 2. | 1962-1963 | 7 | orta |
| 3. | 1963-1964 | 7 | orta |
| 4. | 1964-1965 | 8 | orta |
| 5. | 1965-1966 | 8 | orta |
| 6. | 1966-1967 | 8 | orta |
| 7. | 1967-1968 | 8 | orta |
| 8. | 1968-1969 | 8 | orta |
| 9. | 1969-1970 | 8 | 6 orta; 2 Ali |
| 10. | 1970-1971 | 8 | 3 orta; 5 Ali |
| 11. | 1972-1973 | 11 | 6 orta; 5 Ali |
| 12. | 1974-1975 | 9 | 3 orta; 6 Ali |
| 13. | 1975-1976 | 10 | 3 orta; 7 Ali |
| 14. | 1976-1977 | 9 | 3 orta; 6 Ali |
| 15. | 1977-1978 | 2 | 2 Ali |
| 16. | 1978-1979 | 9 | 4 orta; 5 Ali |
| 17. | 1979-1980 | 8 | 2 orta; 6 Ali |
| 18. | 1980-1981 | 6 | 2 orta; 4 Ali |
| 19. | 1981-1982 | 7 | 2 orta; 5 Ali |
| 20. | 1982-1983 | 8 | 2 orta; 6 Ali |

| | | |
|---|---|---|
| 21.1983-1984 | 6 | 2 orta; 4 Ali |
| 22.1984-1985 | 10 | 4 orta; 6 Ali |
| 23.1985-1986 | 9 | 3 orta; 6 Ali |
| 24.1987-1988 | 8 | 4 orta; 4 Ali |
| 25.1988-1989 | 11 | 4 orta; 7 Ali |
| 26.1989-1990 | 16 | 9 orta; 7 Ali |
| 27.1990-1991 | 18 | 10 orta; 8 Ali |
| 28.1991-1992 | 16 | 8 orta; 8 Ali |
| 29.1992-1993 | 16 | 9 orta; 7 Ali |
| 30.1993-1994 | 17 | 12 orta; 5 Ali |
| 31.1994-1995 | 17 | 12 orta; 5 Ali |
| 32.1995-1996 | 17 | 12 orta; 5 Ali |
| 33.1996-1997 | 17 | 12 orta; 5 Ali |
| 34.1997-1998 | 17 | 11 orta; 6 Ali |

Onuda qeyd etmək istərdim ki, Narınclar kənd orta məktəbinin direktoru vəzifəsində 1987-1996-cı illər Çingiz Məmmədov, 1996-1997-ci illər Məzahir Məmmədov, 1997-1999-cu illər Malik Məhərrəmov, 1999-2011-ci illər Zakir Məmmədov , 2011-ci ildən isə üzü bəri Muğan Novruzov işləyir. Muğan Novruzov müsabiqə yolu ilə direktor vəzifəsinə keçmişdir. Malik Məhərrəmov məktəb direktoru vəzifəsində çalışarkən şəhid Əlövsət Tahirovun adının məktəbə verilməsi üçün çox çalışmışdır.Nəticədə Narınclar 29 saylı tam orta məktəbə rəsmi olaraq Əlövsət Tahirovun adı verilərək xatirəsi əbədiləşdirilmişdir.



***Qarabağ müharibəsi veteranı Malik Məhərrəmov və şəhid Əlövsət Tahirovun atası Kamran Tahirov***

2011-ci ildən etibarən Narınclar kəndinin təhsil ənənələrinin davamı olaraq gələcəyimizin kadrları olan övladlarımız ali təhsil ocaqlarında müxtəlif peşələrə yiyələnmişlər.Belə ki, 11 nəfər Narınclar kənd məktəbinin yetirməsi olan abituriyentlər Bakı Dövlət Universitetinin, Azərbaycan Dövlət Pedoqoji Universitetinin, Gəncə Dövlət Universitetinin, müvafiq ixtisasları üzrə təhsil almışlar. Hal-hazırda Narınclar kəndinin məzunları ixtisasları üzrə öz bilik və bacarıqlarını gənc nəslin təhsilinə sərf edirlər.

Narınclar camaatı üçün Kürdəmir rayon ərazisində yeni qəsəbə salınmışdır. 2019-cu ildən 564 ailəlik qəsəbədə narınclıların məskunlaşdırılması üçün şərait yaradılmışdır. Narınclar kənd orta məktəbi də qəsəbənin yaxınlığında 500 metrlik məsafədə, Ağdam 153 saylı tam orta məktəbin nəzdində fəaliyyət göstərir.






*Narınclar kənd orta məktəbinin kollektivi*

# IX BÖLMƏ

## NARINCLARIN QARA GÜNLƏRİ

Rusiyanın köməyi ilə Ermənistan Azərbaycana qarşı açıq müharibəyə başladı. Azərbaycan özünümüdafiə qüvvələri lazımi silah və sursatla təchiz olunmasa da rus-erməni hərbi birləşmələrinə qarşı qəhrəmanlıq və şücaət göstərirdilər. Qarabağ müharibəsində Azərbaycan silahlı qüvvələri bir sıra uğurlu əməliyyatlar keçirmişdi. Yeri gəlmişkən, qeyd edim ki, işğal günlərini kampaniya xarakterli təbliği ilə mübarizə ruhunu yüksəldə bilmərik. Kütləvi informasiya vasitələri, mədəniyyət və incəsənət əsərlərimiz qəhrəmanlıq və şərəfli tariximizi təşviq etməklə milli ruhun dirçəlişinə xidmət edərlər.

Vətənin bu ağır anlarında qeyrətli və cəsur narınclılar kəndin müdafiəsinə qalxdılar.Avtomat beşatılan və ov tüfəngləri ilə silahlanan narınclılar bir müddət kəndi qorudular.

Müdafiə nazirinin əmri ilə 844 saylı batalyon nəzdində kənd sakinlərindən ibarət könüllü özünümüdafiə dəstəsi təşkil olundu.

1. Məmmədov Çingiz – komandir
2. Məhərrəmov Malik – müavin
3. Baxşəliyev Gündüz – müavin
4. Tahirov Tahir
5. Fərzəliyev Akif
6. Məmmədov Adil
7. Quliyev Yelmar
8. Baxşəliyev Səlim
9. Baxşəliyev Təhməz
10. Məmmədov Nadir
11. Baxşəliyev Ramiz
12. Baxşəliyev Qabil
13. Baxşəliyev Nurəddin
14. Baxşəliyev Araz
15. Quliyev Zahib
16. Novruzov İlqar

17. Rüstəmov Bəylər
18. Novruzov Soltan
19. Fərzəliyev İsmixan
20. Əliyev Kamran
21. Fərzəliyev Valeh
22. Məmmədov Məzahir

Azərbaycanın Milli Qəhrəmanı, polkovnik-leytenant, əfsanəvi komandir Şirin Mirzəyev Narınclar könüllü özünümüdafiə dəstəsini etibarnaməsi ilə silahlarla, patronla, geyimlə təmin edirdi.

Çingiz Məmmədov Şirin Mirzəyevlə bağlı bir xatirəsini bölüşür:

"Məlum olduğu kimi, Ağdərədə yerləşən erməni silahlı qüvvələri Sırxavənd yolu ilə Xacın çayından keçib Xankəndinə gedirdilər. Şirin Mirzəyev də mənə dedi ki, Müdafiə Nazirliyi ilə danışıb, Vənglə Sırxavənd yolunu açmaq üçün bütün qüvvələri Narınclara cəmləyəcəm. Narınclar istiqamətindən hücüm edib Vənglə Sırxavənd-Ağdam yolunda yerləşən erməni kəndlərini çıxardıb yolu nəzarətə götürüm. Bununla da Ağdərədən Xankəndinə gedən erməni quldurlarının qarşısı alınırdı. Əfsanəvi alay komandirinin şəhid olması ilə bu plan həyata keçmədi. O, 18 iyun 1992-ci ildə Sırxavənd istiqamətində aparılan döyüş zamanı minaya düşərək, həlak oldu.



**Azərbaycanın Milli Qəhrəmanı**
**Şirin Mirzəyev**

Əslən Şuşanın Mirzələr kəndindən olan Şirin Mirzəyev 1947-ci il yanvar ayının 5-də Xankəndində dünyaya göz açmışdır. Nizami adına beynəlmiləl orta məktəbi bitirdikdən sonra hərbi xidmətə yola düşmüşdür. Bir müddət Bakıda yerləşən Daxili Qoşunlar alayında xidmət etdikdən sonra 1967-ci ildə Leninqrad (indiki Sankt-Peterburq) şəhərindəki Ali Siyasi Hərbi məktəbə qəbul olub. 1971-ci ildə hərbi təhsilini müvəffəqiyyətlə başa vurub, təyinatla İrəvana göndərilib. Beş il orada xidmət etdikdən sonra Bakıya qayıtmışdır. Daha sonra 1976-cı ildə öz sinif yoldaşı Flora Qasımova ilə ailə qurur. Bu evlilikdən onların iki uşağı dünyaya gəlir.

1988-ci ildə Moskvada Hərbi Siyasi Aakdemiyada təhsil alaraq, Daxili Qoşunlar alayında 15 illik xidmət yolu keçmişdir. 1991-ci ildə qəlbində alovlanan Vətən məhəbbəti, vətənə xidmət arzusu onu Ağdama çəkib gətirdi. Özü də elə bir vaxtda ki, onun kimi peşəkar hərbçilərə vətənin böyük ehtiyacı var idi. 1991-ci ilin oktyabr ayında bütün maneələrə və təqiblərə baxmayaraq, polkovnik-leytenant Şirin Mirzəyev respublikamızda ilk nizami özünümüdafiə batalyonunu

min-bir əziyyətlə yaratdı. Bu, o dövr üçün çox zəruri bir addım idi. Artıq 1992-ci ilin may ayında üç tabordan ibarət alay yaradıldı. Ş.Mirzəyev Ağdam rayonunun həm hərbi komissarı, həm də alay komandiri kimi məsul vəzifələri çox bacarıqla yerinə yetirirdi. 1992-ci il mart ayının 28-də Şirin Mirzəyevin və onun tərəfdarlarının səyi nəticəsində respublikada 1ci olan tabor yaradıldı və ürəyi Vətən sevgisilə çırpınan podpolkovnik Şirin Vəli oğlu Mirzəyev Ağdam rayon ərazi özünümüdafiə taborunun komandiri seçildi. O, 18 iyun 1992-ci ildə Sırxavənd istiqamətində aparılan döyüş əməliyyatı zamanı minaya düşərək həlak olub. 1993-cü il fevral ayının 5-də Şirin Mirzəyevin şəxsi təşəbbüsü ilə yaradılmış tədris taboru ləğv edildi. Ölümündən sonra 1994-cü ildə "Azərbaycanın Milli Qəhrəmanı" adı ilə təltif edilib.

**Döyüş yolu**

Ş.Mirzəyevin yolu respublikada örnək göstərilə biləcək bir döyüş yoludur. Belə ki, onun sərkərdəlik qabiliyyəti nəticəsində Fərrux, Pircamal, Qazançı, Ballıqaya, Qaraşlar, Bəşirli, Sırxavənd, Ağbulaq, Dəhraz, Naxçıvanik kəndləri erməni quldurlarından azad edildi.

1990-1991-ci illərdə Qarabağda ermənilərin təxribatları artdığından könüllü hərbi birləşmənin yaradılması artıq zəruri olmuşdu. Məhz buna görə də 1991-ci ilin avqustunda Ş. Mirzəyev Ağdama yollanır. Artıq 1992-ci ilin may ayında üç tabordan ibarət alay yaradılır. Təcrübəsi nəzərə alıb, Ağdam əlahiddə özünümüdafiə taborunun komandanlığı onun öhdəliyinə verilir.

Onun komandir seçilməsindən sonra 1200-dən çox gənc könüllü olaraq ordu sıralarına yazılır. Ş.Mirzəyev Ağdam rayonunun həm hərbi komissarı və həm də alay komandiri kimi məsul vəzifələri yerinə yetirir. Bir komandir kimi Ş.Mirzəyev həmişə ön cəbhədə döyüşür, hətta, ucqar yerlərə silahların çatdırımasına belə özü rəhbərlik edir. Vaxtilə könüllülük prinsipi ilə gələn döyüşçülər ilk vaxtlar bir qədər ərköyünlük edir. Ş.Mirzəyevin özünün şəxsi nümunəsi, hərbi intizama ciddi riayət etməsi, hər bir əsgərə fərdi qayğısı və tələbkarlığı sayəsində bütün nöqsanlar aradan qaldırılır. 1992-ci il iyunun 18də komandirlik etdiyi alayla birlikdə yenidən ön cəbhəyə

yollanır. Tankları yerləşdirdikdən sonra hazırlıq üçün arxa cəbhəyə qayıdarkən avtomobili minaya düşür və o, şəhid olur.

Hərbi jurnalist İbrahim İbadoğlu Şirin Mirzəyevin həyatından bəhs edən "Sərkərdə" kitabının müəllifidir.

Narınclar könüllü dəstəsi kəndin müdafiəsini təşkil etmək üçün tədbirlər gördülər. Kəndin Dəflər adlanan yerində, Aydoğanda, Xamqayanın döşündə, Qətl ağacının dibində, Göyqum adlanan hissələrində səngərlər qazılmışdır.

Yerli camaat da könüllü təşəbbüslə kəndin müdafiəsində iştirak edirdi. Azərbaycanın ərazi bütövlüyünün qorunması və vətənimizin erməni işğalçılarından təmizlənməsində Narınclar kəndi şəhidlər vermişdir. Əlövsət Tahirov, Zahid Tahirov, Baxşəliyev Təhməz Azərbaycan uğrunda qəhrəmanlıq göstərərək şəhid olmuşlar.

Onu da qeyd edim ki, erməni quldurları kənd ərazisində bir neçə cinayətlər törətmişlər. Beləki, 1990-cı ilin may ayında Famil kişinin Alaqaya istiqamətində tutaraq 10 gün müddətində girov götürülür. Ermənilər sovxozun 400 baş qoyununu da aparırlar. 1991-ci il oktyabrın 7-də 100-ə yaxın qoyun otaran çoban Cəfər kişini vururlar. Şavahat kişi isə 1 ay Vəngdə girov saxlanılır. Əjdər Məmmədov girovun geri alınmasında fəal iştirak edir. 1992-ci ilin martında Bazarkənd tərəfdə Ucbacalıda Dəflər adlı yerdə Ələkbər kişi qoyun otardığı yerdə güllə ilə vurulur. O,11 gün qarın altında qaldı.

Narınclar kəndi uğrunda gedən döyüşlərdə Təhməz Muxtar oğlu Baxşəliyev şəhidlik zirvəsinə yüksəlmişdir.



**Şəhid Təhməz Muxtar oğlu Baxşəliyev**

Təhməz Muxtar oğlu Baxşəliyev Narınclar kəndində anadan olub.1991-ci ildən Qarabağ müharibəsinin iştirakçısı olmuşdur. 1991-ci il 16 oktyabrda 844 saylı hərbi hissənin Narınclar könüllü batalyon dəstəsinə üzv olub. Ağdərə rayonunun Qozlu kəndindən Narınclar kəndinə edilən hücum zamanı şəhid olmuşdur. Qızğın döyüş gedişatında şəhidimizin nəşi 8 gün neytral zonada qalmışdır. 8 gündən sonra döyüş yoldaşları nəşini götürüb və Narınclar kənd qəbirsanlığında dəfn ediblər.

Narınclar kəndinin qəhrəman övladlarından 1-ci Qarabağ müharibəsi zamanı və 2020-ci il 27 sentyabrdan başlayan Azərbaycanın Böyük Vətən Müharibəsində şəhid və qazi olanlar çoxdur.

Birinci Qarabağ müharibəsində Narınclar kəndinin övladları Qarabağın müxtəlif döyüş bölgələrində döyüş yolu keçərək qəhrəmanlıq və hərbi rəşadət göstərmişlər. Onlardan şəhid Əlövsət Tahirov, Natiq Abdullayev və Zahid Tahirov qəhrəmancasına savaşaraq canlarını vətən yolunda fəda etmişlər.



## Şəhid Əlövsət Kamran oğlu Tahirov

O, ömrünün cəmi 23 baharını yaşaya bildi. Əlövsət Kamran oğlu Tahirov 18 oktyabr 1969-cu ildə Ağdərə rayonunun Narınclar kəndində ziyalı ailəsində anadan olmuşdur. Bir yaşında ikən anasını itirmiş, nənə və ata himayəsində böyümüşdür. 1975-1983-cü illərdə Narınclar kənd orta məktəbində əla qiymətlərlə oxuyub. 1984-cü ildə Şuşa şəhər texniki peşə məktəbinə qəbul olmuş, 1986-cı ildə həmin məktəbi əla qiymətlərlə bitirib, kəndə qayıdıb. 1987-ci ildə Sovet ordu sıralarına çağırılmışdır. 1989-cu ildə hərbi çağırışı başa vurub vətənə qayıtmışdır. 1990-cı ildən Bakıda yaşayıb və işləyib. 1991-ci ildə Nizami rayon hərbi komissarlığı tərəfindən könüllü ordu sıralarına getmişdir. Onun döyüş yolu 1991-ci ilin oktyabr ayında Xocalı ətrafında gedən döyüşlərdən başlayır. Ə.Tahirov Malıbəyli kəndinin müdafiəsi zamanı həyatını təhlükəyə ataraq 11 (on bir) nəfər döyüşçü yoldaşını mühasirədən azad etmişdir. O, Kərkicahanda, Malıbəylidə, Umudluda, Meşəli və Şuşada gedən döyüşlərdə bacarıqlı pulemyotçu kimi ad qazanmışdır. Kərkicahan ətrafında gedən döyüşlərdə axıra qədər onun pulemyotunu erməni quldurları susdura bilməmişlər. 27 gün onun pulemyotu düşmənə sarsıdıcı zərbə vurur. Hətta erməni cəlladları Əlövsətin başına qiymət

kəsmişdilər. Əlövsət 27 gün orada qaldıqdan sonra Ağdama bacısı Gülşən giləgəlir. Bacısına söhbət edir ki, Allah məni elə bil ki, yenidən həyata qaytardı. Bacısı ağlayır, yalvarır ki, Əlövsət, daha orduya qayıtma. Ancaq Vətən, torpaq qeyrəti bir an belə onu rahat buraxmayır.Valideynləri qardaş-bacıları və qohum-əqrabası ilə çoxdan görüşməyən Əlövsət Bakıdan birbaşa Şuşaya yola düşür. O, Şuşada bir neçə gün döyüşdükdən sonra Şuşanın Daşaltı kəndinə gedirlər. Onlar "Daşaltı əməliyyatı"na başlayırlar. 1992-ci ildə yanvarın 26-da sübhçağı iki qrup, bundan bir neçə saat sonra isə üçüncü qrup hərəkətə gəlir. Nəhayət, müəyyən olunmuş vaxtda topdan atəş açılır...

Təəccüblüsü odur ki, mərmilərin heç biri kəndə düşməyib. Əsgərlər hücuma keçirlər.

Az sonra kəndin aşağı hissəsindən iki maşın "qara geyimlilər" onlara yaxınlaşır və ...

İllər keçir ... Bu faciənin komandanlığın səriştəsizliyindən və yaxud hansısa xəyanətkarlığından törədildiyi hələ də məlum deyil.

Yalnız o, məlumdur ki, bu müsibətlərin həqiqi düyünləri açılmır. Eyni zamanda, günahsız qurbanların adları biganəliklə unudulurlar. 701 №li hərbi hissənin onun adına verdiyi döyüş xasiyyətnaməsində oxuyuruq...

Əlövsətin həmin döyüşdə şəhid olduğu günü xalası Qüdrət ürək ağrısı ilə belə xatırlayır: "O vaxtlar kəndimizi hələ erməni quldurları yandırmamışdılar. Kəndə gediş-gəliş yox idi. Tahirov Fəxrəddin xəbər gətirdi ki, deyirlər ki, Əlövsət orduda yoxdur. Kənd camaatı, qohum-əqrəba yığışıb hərə bir fikir söylədilər ki, "Daşaltı əməliyyatı"ndan 1 (bir) nəfər salamat qaçıbdır. Hamı dedi ki ,Əlövsət qoçaq və çevikdir. Heç vaxt ələ keçməz. Ancaq ağladım və dedim ki, ot kökü üstə bitər. Əlövsətin babaları Baxşəliyev Ələkbər, Xəlil,Cəlal hər üçü Böyük Vətən Müharibəsində fədəkarlıqla döyüşüb və həlak olmuşdular. Onların anası Qızbəs nənənin gözləri ömrünün axırına kimi yollarda qaldı. Həmişə deyirdi ki, balalarım gələcəkdir.

Ancaq.....

Əlövsət Tahirov da babaları kimi şəhid oldu. Yanvarın 26-da şəhid olduğu gündən 5 gün sonra qardaşları Rasimin və Fikrətin

köməkliyi ilə ermənilərə tonlarla benzin və solyarka verildikdən sonra meyiti Daşaltıdan geri alındı. Onunla birlikdə 5 (beş) sahibsiz meyit də ermənilərdən geri alındı. Həmin vaxtı Əlövsəti öz kəndimizə gətirmək istəyirdik. Ancaq Ağdam Rayon İcra hakimiyyəti və bütün Ağdam camaatı və Gözəl xalamın oğlu Tağıyev Yaqub Usub oğlu Ağdamın Ətyeməzli kəndində yaşadığı üçün orada dəfn etdirmək istəyirdi.

Sonra isə onunla birlikdə götürülən 5 (beş) nəfər sahibsiz meyidi və Əlövsəti Ağdam Şəhidlər Xiyabanında dəfn etdilər.

"Daşaltı əməliyyat"ına döyüşə gedərkən tankın üstündə oxuya-oxuya gedən də Əlövsət Tahirovdur. Göstərdiyi şücaətlərə görə komandanlıq tərəfindən dəfələrlə mükafatlandırılmışdır. Əlövsətin adı oxuduğu Kəlbəcər rayon 29 saylı Narınclar kənd orta məktəbinə verilib, büstü də qoyulmuşdur. Həmin vaxtı büstün qoyulmasında və şəhid Əlövsət Tahirovun adının məktəbə verilməsində Məmmədov Malik Əjdər oğlunun çox böyük əziyyətləri olmuşdur, o, dəfələrlə rayon rəhbərliyinə bu barədə müraciət etmişdir.

Şuşanın "Daşaltı əməliyyatı"nda faciəli surətdə şəhid olmuş Əlövsət Tahirova dayısı Araz ürək yanğısı və ağrısı ilə belə bir şeir ithaf etmişdir.

Vətənin üstünü duman alanda,
Özünü səngərə atdı Əlövsət.
Vətənin ürəyi bilib Şuşanı,
Özünü odlara atdı Əlövsət.

O, bilib vətənin ağır dərdini,
Natəvan dərdini,Vaqif dərdini.
Şuşanın möhtəşəm qala səddini,
Özünün ürəyi sandı Əlövsət.

Seçdi qar içində özünə səngər,
Xarı bülbül oylağında bərələr.
Tutuldu alova düzlər, dərələr,
Əlinə pulemyot aldı Əlövsət.

O, neçə düşməni nişan da aldı,
Düşmənin canına üşütmə saldı.
Neçə şəhidlərin qisasın aldı,
Ürəkdə əbədi qaldı Əlövsət.

Əbədi atanın qəlbində qaldı,
Ananın məzarı od tutub yandı.
Ana qucağına balasın aldı,
Bir şirin xəyalla yatdı Əlövsət.

Köməyə dostları çata bilmədi,
Düşmən gülləsindən qaça bilmədi.
Daşaltı sirrini aça bilmədi,
Bu sirri içində qaldı Əlövsət.

Dar gündə görərək eli-vətəni,
Qeyzlə haraya çatdı Əlövsət.
Çalışdı məhv edə qarı düşməni,
Eşq ilə səngərə yatdı Əlövsət.

Hər zaman atıldı şanlı döyüşə,
Quldur yağılarla gəldi döş-döşə.
Haqqa məhəbbətlə baxdı həmişə,
Özünü odlara atdı Əlövsət.

Qaldı gözlərində arzusu-kamı,
Səhəri gəlməmiş düşdü axşamı.
Ona əhsən deyir el-oba hamı,
Qızıl qan gölündə batdı Əlövsət.



**Şəhid Zahid Kamal oğlu Şükürov**

Zahid Kamal oğlu Şükürov 1969-cu il avqust ayında Ağdərə rayonunun Narınclar kəndində anadan olmuşdur. 1976-1985-ci illərdə orta məktəbdə oxuyub. 1986-1988-ci illərdə Şuşa Kənd Sovet Texnikumunda təhsilini davam etdirib. Hərdi xidmətdə Almaniyada olub və polis məktəbində oxuyub. Azərbaycana gələndən sonra Ağdərə rayonunun Sırxəvənd polis şöbəsində işləyib. Hər kəsin hörmətini qazanmışdır. Düşmənimiz olan ermənilərə qan uddururdu. Vəng kəndində ermənilərə dəyərli olan heykəli partlatmışdı. 1992-ci il fevral ayının 20-də Ağdam rayonunun Fərrux və Cinli kəndində gedən döyüşlərdə qəhrəmancasına şəhid oldu.



**Şəhid Natiq Xurşud oğlu Abdullayev**

Natiq Abdullayev 1965-ci il noyabrın 18-də Narınclar kəndində anadan olmuşdur. Narınclar kənd orta məktəbində VIII sinifi bitirdikdən sonra Sırxavənd peşə məktəbində mexanizatorluq sənətinə yiyələnib. 1986-1988-ci illərdə Xabarovsk diyarında hərbi xidmət keçib. Əsgərlik partiya üzvlüyünə qəbul edilib. Azərbaycan Kənd Təsərrüfatı Akademiyasının Zootexnik ixtisasına qəbul olub. II kursdan qiyabi təhsilə keçib. 1993-cü ilin oktyabrında işlədiyi Yevlax rayon hərbi polisindən leytenant rütbəsində Qarabağ müharibəsinə yollanıb. Natiq Abdullayev Abdal-Gülablı, Tapqara-qoyunlu, Tərtərin kəndlərinin müdafiəsində rəşadətlər göstərib. Abdal-Gülablı kəndi uğrunda gedən döyüşdə əsgər yoldaşlarını mühasirədən xilas edib.

Natiq Abdullayev 1994-cü ilin 18 iyununda şəhidlik zirvəsinə yüksəlib. Şəhid qardaşımızın taleyində 18 rəqəmi xüsusi numeroloji məna daşıyır. Belə ki, doğum günü 18, hərbi xidmətə çağırışı 18, tərxis olunması 18, şəhid olunması 18-i tarixinə düşür. Bu da İlahinin bir qisməti. 1991-ci ildə Süsən Fərrux qızı Abdullayeva ilə ailə həyatı qurmuşdur. Bu nigahdan onların Nuranə və Cavid adında övladları dünyaya gəlmişdir.

# X BÖLMƏ

# QARABAĞIN GÖRKƏMLİ AĞSAQQALLARI VƏ TANINMIŞ ŞƏXSİYYƏTLƏRİ

## Məşədi Seyid Rza ağa Hacı Seyid Manaf ağa oğlu

Soy-kökü, nəsil şəcərəsi seyidlik xəttindən gələn Məşədi Seyid Rza elm xadimi və Qarabağ Seyid ocağının görkəmli şəxsiyyətlərindən biri olmuşdur.

Hacı Seyid Manaf ağanın Seyid Güləndam xanım Seyid Şahbəndə ağanın qızı ilə nigahından Seyid Rza, Seyid Muxtar, Seyid Əli, Seyid Züleyxa xanım, Seyid Gülyetər xanım adında övladları olmuşdur.

Seyid Rza ağa 1851-ci ildə Zəngəzur qəzasının Seyidlər obasında dünyaya göz açmışdır. Atasının hikmətli öyüd-nəsihətləri və davranışları onun bir din xadimi kimi yetişməsində dərin təsir buraxmışdır. Seyid Manaf ilə bağlı nəticəsi Seyid Əlinin dilindən misallar gətirək.

Seyid Manafın bədəni yara tökdüyündən əziyyət çəkirdi. Həkimlər çarə tapa bilmirlər. Seyid Manaf xidmətçisi Kolanı İbrahimi yanına çağırır. Tapşırır, bu gecə üst evə bir sənək su və çimmək üçün təknə, abgərdən gətir. Taxta darvazanın arxadan cəftəsini vurma, yəni açıq qoy. Sübh namazı vaxtı yanıma gəlmə. Kolanı İbrahim kişi nəql edir ki, ağanı həmin suda çimizdirirlər, yara-xorası tökülmüşdü. Necə deyərlər, dərdi verən dərmanda verir.

Seyid Manaf 149 yaşı olanda bir ildən sonra cümə axşamı dünyasını dəyişəcəyini bildirir. Seyid Əli Kolanı Salman kişinin verdiyi məlumata əsasən, ağanın vəfat etmə tarixcəsini danışdı. Məşədi Seyid Rza İranda, İraqda dini təhsilini davam etdirir. O, Məşhəd şəhərində İmam Rza (ə) nın məzarını ziyarət edir. İmam Rza (ə) ziyarətinin fəziləti haqqında bizə hədislər gəlib çatmışdır.

Şeyx Sadıqdan nəql olmuş hədis: İmam Rza (ə) Məmunun əli ilə özünün necə öldürülməsini bəyan etdikdən sonra buyurur:

“Hər kim məni qürbətdə, uzaqdan məzarımı ziyarət etsə, Qiyamət günü üç yerdə onun yanına gəlib onu nigarançılıqdan və izdirabdan xilas edərəm, birincisi, insanların əməl kitabları sağdan və soldan

onlara verilən zaman, ikincisi, insanlar Sirat körpüsündən keçən zaman, üçüncüsü isə əməlləri tərəziyə qoyulan zaman."

Məşədi Seyid Rza 1913-cü ildə Cavanşir qəzasının Şıxavənd obasına axund təyin olunmuşdu.

Məşədi Seyid Rza Qönçə xanım Dərbənd bəy qızı və İsmayılbəyli nəslindən olan Zabitə xanım ilə ailə həyatı qurmuşdu. Seyid Məhəmməd ağa, Seyid Məmməd ağa, Seyid Miri ağa, Seyid Zəhra xanım, Seyid Humay xanım adında övladları olmuşdur.

El-oba içində nüfuzlu din xadimi Məşədi Seyid Rza Çar hökuməti dövründə Ağdam Qəzasının 18 kəndi birləşdirən Kolanı mahalına qazi təyin edilmişdir. O, sonradan Xoruzlu-Kəbirli Qəzasına (Tərtər rayonu) dəyişilmişdir. Çoxlu mal-qarası olduğuna görə Məşədi Seyid Rza Soltanbud meşəsinə yaxın Hüsənli kəndinə köçür. Hər ilin yazında Narınclar kəndinin yaxınlığında yerləşən "Hacı Seyid Manaf yurdu"na "Qızıl yoxuş" adlanan yurdunda məskən salırdı. Həmişə deyərdi ki, yaylaqda rəhmətə gedəcəyəm. 1950-ci ildə elə Narınclar kəndində Allah dərgahına qovuşdu. Məşədi Seyid Rzaya atasının yanında Suma Güllücə kəndində məzar qazıldı. Ancaq, Narınclar camaatı ağanın qardaşı Məşədi seyid Muxtardan xahiş etdilər ki, Əhli-Beyt (ə) övladı bu kənddə dəfn olunsun və məzarı ziyarətgaha çevrilsin. Məşədi Seyid Muxtar kənd əhlinin xahiş-minnətini nəzərə alaraq Narınclar torpağında dəfn olunmasına razılıq verir.

Məşədi Seyid Rzanın məzarı Narınclar torpağında el-oba üçün ziyarətgaha çevrilir.

Qardaşım Malik Məhərrəmov axşamlar Məşədi Seyid Rzanın türbəsinin işığını yandırar, səhərlər söndürərdi.

## Seyid Kazım ağanın törəmələri

Bu soyun ulu babası Seyid İman Xəlifədir. Seyid İman Xəlifə Təbriz civarındakı Kuhkəmər kəndində yaşayırıb. Bu kənddən Qarabağa gəlib. Qarabağın dağlıq (Keştasf, Keştək, Mağavuz, Zaris və başqa) bölgələrinə Xəlifə təyin olunub.

Seyid İman Xəlifənin Seyid Şahbəndə adlı oğlu olub.

Seyid Şahbəndə Seyid İman Xəlifə oğlu Keştasf bölgəsində anadan olmuş və mədrəsə təhsili almışdı.

Seyid Şahbəndə Xəlifənin Seyid Şahverdi adlı oğlu vardı.

Seyid Şahverdi Seyidlər obasında böyümüşdür. Mükəmməl mədrəsə təhsili almışdı. Bir neçə bölgəyə xəlifə təyin olunmuşdur. Xəlifəlik-Səfəviyyə təriqətinin mürşidləri tərəfindən şəcərə ilə təyin olunan dini-dünyəvi vəzifə idi. Xəlifələr elin nizam-intizamına, dini qayda-qanunlara riayət edilməsinə və digər işlərə cavabdeh sayılırdılar.

Seyid Şahverdi Xəlifə 1624-cü ildə Əli və Şirin Əziz bəy oğulları Xəlilfə Otuzikidən Xaçın mahalının Mağavuz nahiyəsindəki Kündür (Əliqulu kəndi) adlı yurd yerini 3 Təbriz tüməninə almışdılar.

Seyid Şahverdi Xəlifənin oğlunun adı Seyid Şahbəndə olub.

II Seyid Şahbəndə Seyid Şahverdi Xəlifə oğlu Seyidlər obasında doğulmuşdur. Mükəmməl mədrəsə təhsili almışdı. Bir neçə bölgəyə xəlifə təyin olunmuşdu.

II Seyid Şahbəndə xəlifənin Seyid Həsən adlı oğlu vardı.

Seyid Həsən II Seyid Şahbəndə xəlifə oğlu təxminən 1740-cı ildə Seyidlər obasında anadan olmuşdu. Mükəmməl mədrəsə təhsili almışdı. Bir neçə bölgəyə xəlifə təyin olunmuşdu.

Seyid Həsən xəlifənin Seyid Alı Xəlifə. Seyid Xıdır Xəlifə, Seyid Şahverdi Xəlifə, Seyid Zeynalabdin, Seyid Cəfər, Seyid Xudabəndə adlı oğulları vardı.

Seyid Həsən xəlifənin oğlu Seyid Şahverdi Xəlifə təxminən 1762-ci ildə Qaraçorlu mahalının Seyidlər obasında anadan olmuşdur. Mükəmməl mədrəsə təhsili almışdır. Mahalın xəlifəsi vəzifəsini icra etmişdir.

Seyid Şahverdi Xəlifənin Seyid Məhəmməd, Seyid İshaq, Seyid Kazım, Seyid Musa, Seyid İsa adlı oğulları vardı.

Seyid Şahverdi Xəlifənin oğlu Seyid Kazım ağa 1800-cü ildə Qaraçorlu mahalının Seyidlər obasında anadan olmusdu.

Seyid Kazımın Seyid Qədim, Seyid Manaf, Seyid Abdulla adlı oğulları vardı.

Seyid Qədim Seyid Kazım oğlu 1819-cu ildə Qaraçorlu mahalının Seyidlər obasında doğulmuşdu.

Seyid Kazımın ikinci oğlu Seyid Manaf 1821-ci ildə Qaraçorlu mahalının Seyidlər obasında anadan olmuşdu. Müqəddəs Məkkəyi-mükərrəmi ziyarət etmişdi.

Hacı Seyid Manaf ağanın özü, qohumları əsl seyid olduqlarından, rus üsul-idarəsi dönəmində vergidən azad olunmuşdu.

Hacı Seyid Manaf 1924-cü ildə vəfat edib, törəmələri Mirmanafov soyadını daşıyırlar.

Hacı Seyid Manaf ağa Seyid Güləndam xanım Seyid Şahbəndə ağa qızı ilə ailə qurmuşdu. Seyid Rza ağa, Seyid Muxtar ağa, Seyid Əli ağa adlı oğulları, Seyid Züleyxa xanım, Seyid Gülyetər xanım adlı qızları vardı.

Seyid Rza 1851-ci ildə Zəngəzur qəzasının Seyidlər obasında anadan olmuşdu. İranda, İraqda dini təhsil almışdı. Xorasan torpağını, Məşhədi-müqəddəsi ziyarət etmişdi.

Məşədi Seyid Rza ağa 1913-cü ildə Cavanşir qəzasının Şıxavənd obasına axund təyin olunub, 1950-ci ildə vəfat edib.

Məşədi Seyid Rza ağa Qönçə xanım Dörbənd bəy qızı və İsmayılbəyli nəslindən olan Zabitə xanım ilə ailə qurmuşdu. Seyid Məhəmməd ağa, Seyid Məmməd ağa, Seyid Miri ağa adlı oğulları, Seyid Zəhra xanım, Seyid Hümay xanım adlı qızları vardı.

Seyid Məmməd ağa Məşədi Seyid Rza ağa oğlu 1917-ci ildə Cavanşir qəzasının Xoruzlu-Kəbirli kəndində dünyaya gəlib, 1992-ci ildə Tərtər rayonunun Hüsənli kəndində vəfat edib.

Seyid Məmməd ağanın Seyid Əli ağa, Seyid Rza ağa, Seyid Əkbər ağa adlı oğlanları, Seyid Fatma xanım, Seyid Səkinə xanım, Seyid Zeynəb xanım, Seyid Sitarə xanım, Seyid Ümmülbanu xanım adlı qızları vardı.

Hacı Seyid Manaf ağanın ikinci oğlu Seyid Muxtar ağa 1856-cı ilda Zəngəzur qəzasının Danbulaq kəndində anadan olmuşdu. O da Xorasanda, Məşhədi-müqəddəsi ziyarət etmiş, 1965-ci ildə dünyasını dəyişmişdir.

Məşədi Seyid Muxtar ağa 1965-ci ildə vəfat edib.

Məşədi Muxtar ağa Gülü Həsən qızı ilə ailə qurmuşdu. Seyid Ələsgər ağa, Seyid Məhəmməd ağa, Seyid İdris ağa, Seyid Mehdi ağa, Seyid Mahmud ağa, Seyid Əkbər ağa, Seyid Ənvər ağa adlı oğulları, Seyid Xurşid xanım, Seyid Məleykə xanım, Seyid Minayə xanım, Seyid Səkinə xanım, Seyid Şövkət xanım, Seyid Züleyxa xanım adlı qızları var. Seyid Ələsgər ağa Məşədi Muxtar ağa oğlu 1884-cü ildə doğulmuşdu. Seyid Ələsgər ağa 1993-cü ildə vəfat edib.

Seyid Ələsgər ağa Seyid Zəhra xanım Məşədi Seyid Rza ağa qızı ilə ailə qurmuşdu. Seyid Məhsul ağa, Seyid Rəsul ağa, Seyid Əli ağa, Seyid Adil ağa adlı oğulları, Seyid Balış xanım, Seyid Buluş xanım adlı qızlan var.

Seyid Rəsul ağa Seyid Ələsgər ağa oğlu 1946-cı ildə Bərdə rayonunun Qahrəmanlı kəndində anadan olub.

Seyid Rəsul ağa Məşədi Ofelya Qurban qızı ilə (1951-2016) ailə qurub. Seyid Rza ağa adlı oğlu, Gülnur xanım adlı qızı var.

Seyid Rza ağa Seyid Rəsul ağa oğlu Mirmanafov 1974-cü ildə Bərdə rayonunun Qəhrəmanlı kəndində doğulub. 1991-1996-ci ildə Bakı İslam Universitetində təhsil alıb.

Kazım ağanın üçüncü oğlu Seyid Abdulla ağa 1851-ci ildə Şuşa qəzasının Zəngəzur sahəsinin Seyidlər obasında anadan olmuşdu.

Hacı Seyid Manaf ağanın üçüncü oğlu Seyid Əli ağa 1866-cı ildə Zəngəzur qəzasının Seyidlər obasında doğulmuşdu. Pak Xorasan torpağını, Məşhədi-müqəddəsi ziyarət etmişdi.

Məşədi Seyid Əli ağa Seyid Balış xanım Hacı Seyid Kazım ağa qızı ilə ailə qurmuşdu. Seyid Füğara ağa adlı oğlu, Seyid Xanım adlı qızı vardı.

Seyid Füğara ağa Məşədi Seyid Əli ağa oğlu 1909-cu ildə Cavanşir qəzasının Suma kəndində dünyaya gəlmişdi.

Seyid Füğara ağanın Seyid İsa ağa adlı oğlu, Seyid Pəri xanım, Seyid Səkinə xanım, Seyid Mina xanım və Seyid Balış xanım adlı qızları var (15).



**Seyid Füğara ağa**

Məşədi Əli ağanın (Hacı Seyid Manaf ağanın oğlu) oğlu Seyif Füğara baba 1909-cu ildə Ağdam rayonunun Suma kəndində anadan olmuşdur. Rəvayətə görə, Məşədi seyid Əli ağanın həyat yoldaşı hamilə olarkən Hacı seyid Manaf ağa yuxusuna girir. Nəvəsinin adını Füqara qoyulacağını, eləcə də nəfəsini ona verəcəyini bildirir. Muhəmməd peyğəmbərin (Allahummə salli alə Muhəmmədin və ali Muhəmməd) nəslinin davamçısı olan seyidlərin nümayəndələrindən biri seyid Füqara ağanın çoxsaylı kəramətləri elin yaddaşında silinməz iz buraxıb. Seyid Füqara ağanın kəramətləri cürbəcür hadi-sələrlə xatırlanır. Allahın izni ilə bu olaylar el-obanın ağaya olan hörmətini, sevgisini artırdı.

Seyid Füqara babanın Suma kəndində yerləşən ocağı xəstələrə məlhəm, dərdi-səri olanların dua və diləklərinin hasil olduğu ziyarətgaha çevrilmişdi. Yaxın-uzaq ellər ağanın ocağını ümid, inam yeri bilirdi. Buraya gələnlər üçün bu ocaq iman, mənəvi saflıq, rahatlıq, təmizlənmə örnəyi idi. Sovetlər birliyindən Azərbaycanın rayon və kəndlərindən niyyət tutub ziyarətə gələnlərin pənah yeri idi.

Seyid Füqara babamız əlində çəlik, qarşısına çıxanı çəlikləyər və pul paylayardı. Ağa nurlu, təbəssümlü, saf cöhrəsi və məsum uşaq qəlbi ilə insanlara xeyir-dua verərdi.

DİN-nin Bərdə regional Tibbi xidmətin rəisi polis polkovnik-leytenantı Həbib Məmmədov nəql edir: 1976-77 ci illər idi. Səhər gördüm ki, bir neçə nəfər çeçen ocağa gəlib. Sən demə, onlar niyyət tutublar, gecə yuxularına babamız, bizim ocaq girib. Niyyətləri qəbul olduqdan sonra axtara-axtara gəlib babanın ocağını tapıblar.

Ağaya nəzir deyib qurban kəsilməsi üçün gətirilən heyvanları ağa kəsərkən ayaqların bağlatmazdı, eləcə kəsərdi. Heyvanın boğazı kəsiləndə heç tərpənməz və sakitcə dayanardı. Ruhi xəstə olan adamları gətirib ağanın evində bir gecə yatızdırdıqdan sonra şəfa tapırdılar. Ağaya nəzir deyib niyyəti həyata keçəndə qurban dediyi heyvanı gətirib kəsmədikdə, həmin heyvan qaçıb özü ağanın evinə gəlirdi.

Qudurmuş it tutduğu adam gəlirdi Seyid Füqara ağanın yanına. Öz barmağını azca kəsib, çörəyə qanını batırıb həmən adama verirdi. O insan o çörəyi yedikdən sonra həkimə heç bir ehtiyac qalmırdı. (Fazil Adaş oğlu). Kərbəlayi Bəxtiyar gənclərin adından Allahım Nizami müəllimi Seyid Füqara ağanın cəddinə xatir dünya və axirətdə bütün çətinlik və sıxıntılardan qorusun duasını etdi.

Hal-hazırda Seyid Füqara ağanın ocağının varisi oğlu Seyid İsadır. Seyid İsanın oğlu Miryaqub da bu ocağın nümayəndəsidir. Atam seyid Fuğara babanın kəramətlərindən deyir ki, ağaya nəzir deyib qurban kəsilməsi üçün gətirilən heyvanları ağa kəsərkən ayaqların bağlatmazdı eləcə kəsərdi. Heyvanın boğazı kəsiləndə heç tərpənməz və sakitcə dayanardı. (Ama halbu ki, heyvanı heç bağladıqda belə tərpənir qaldı ki onun 280asin bıçaqla kəsəsən). Dəli olmuş adamları gətirib ağamın evində bir gecə yatızdırırdılar onlar səhər durduqda ağıllı insan olurdular.

Ağaya nəzir deyib niyyəti həyata keçəndə qurban dediyi heyvanı gətirib kəsmədikdə həmin heyvan özü qaçıb ağanın evinə gəlirdi



***Sağdan Seyid Füğara ağanın oğlu Seyid İsa,***
***ortada Nizami Əjdəroğlu,***
***soldan Seyid Füğara ağanın nəvəsi Miryaqub***



**Seyid Məmməd Məşədi Seyid Rza oğlu Rzayev**

Seyid Məmməd 1917-ci ildə Xoruzlu-Kəbiridə anadan olmuşdur. Atasından İslam dininin əsaslarını və Şəriəti öyrənmişdir. Gənclik illərindən ədəb-ərkanı, təlim- tərbiyəsi el-oba təəssübkeşliyi, xeyir-bərəkəti, duz-çörəkli səxavəti ilə tanınıb. Eyni zamanda, Tərtər rayonunun Hüsənli kəndində yerləşən Seyid ocağı ellərin dərd-sərini, müşküllərini anıb üz tutduqları duaların qəbul olunduğu sevinc, hüzur ünvanıdır. Allahın yardımı ilə bu ocaqdan pay alanlara maddi və mənəvi nemətlər qismət oldu. Seyid Manaf ocağına munis olanlar arzu-diləyinə, muradına çatardı. Seyid Məmməd "Quran"ı oxuyub məna verərdi. Ağa gənc nəsilə, insanlara öyüd-nəsihət verərək məsləhət görərdi ki, insan 3 ünvan görməlidir.

1. Elm arxasında gedib bilik sahibi olmalı
2. Yaxşı dəyərli məclislərdə olmalı
3. Ağsaqqallar elm adamları ilə ünsiyyətdə olmalı

Seyid Əli 3 ünvanı görməyən insan palçığa batmış, elə bataraqda bu dünyadan gedəcəyini bildirirdi.

Seyid Əli kişi Ağanın bir neçə kəlamətlərindən söhbət açır: Ağa ot yığılmış 8 maşının qabağında at üstündə dağdan arana yola düşür. Güney gavında daş yolu kəsdiyindən, Narınclı Əli kişi yolda qalır. Yolu açmaq üçün traktor gətirmək lazımdır. Seyid Məmməd ağanın atını tuturlar. Daşdan yapışmasıyla ətrafdakı adamlar da köməyə gəlir Daş qaldıranda dəyirman daşı kimi fırlanaraq dərə aşağı Xaçın

çayına düşür. Əli kişi ağanın əlindən öpərək deyir ki, Cəddinə qurban olum, inandım sənə.

Bir dəfə Çıraqlıya düşəndə axşam itlərin bərk hürüşməsindən Ağa çölə çıxır. O təmkinini pozmadan oğrulara: mən Seyd Məmmədəm, nə lazımdırsa verim, ancaq oğurluq etməyin, xeyir tapmarsınız. Bilin ki, onsuz da heyvanlar qapıya qayıdacaq. Oğru cavabında: Ağanın yurdu Zağalar kəndinin altı və Turş suyunun üstə yerləşir. O, Çıraqlıya düşmür, bizi aldadırsan, deyərək, inəyi buzovla birgə aparırlar. Alaqaya oğurluq mal getmək istəmir. Tazı dağı deyilən yerdə oğrular inəyə ağac vururlar. Quyruğun tolundan tutub dartırlar. Bu əsnada inəyin fırlatması ilə tol qoparaq oğrunun qarnına dəyir, qılçı qırılır. Ancaq inəyi yenə aparırlar, Ağa ala qayanı aşanda soraq edir. Ocağa gələn qonaq deyir ki, malı oğurlayan 6 aydan sonra həlak olur.

Seyid Məmmədin Qarabağda çoxsaylı dostları vardı. Seyid Məmməd Ağanın dostları islam imanlı, düz ilqarlı, əhd-peymana vəfalı, duz-çörəyə sadiq şəxslər olmuşlar. Belə nümunəvi dostluğun rəmzi çox hörmətli Kolanı Molla Yolçu kişi olmuşdur. Kolanı Molla Yolçu kişi Seyid Vahid seyid Nazim ağa elmi təlim tərbiyə almışdı. Kolanı Molla Yolçu yanğılı səsi ilə Mərsiyə oxuyarkən dinləyənləri duyğulandırırdı.

Seyid Məmməd Qarabağ hadisələri başlayandan çox narahatlıq keçirirdi. Həyatı boyu dağdan arana, arandan dağa, təbiət qoynunda, el-oba ilə mənalı ömür sürən ağanın ovqatı sönmüşdü. Seyid Məmməd ağa camaata ürək-dirək, təsəlli versə də, ürəyində el dərdi, yurd həsrəti çəkirdi.

Seyid Məmməd Pəri xanım Seyid Şirin qızı ilə ailə həyatı qurmuşdur. Bu nigahdan Seyid Əli, Seyid Rza, Seyid Əkbər, Seyid Səkinə, Seyid Qəmər, Seyid Zeynəb, Seyid Fatma, Seyid Sitarə, Seyid Ümmulbanu adında övladları anadan olmuşdur.

1992-ci il oktyabrın 27-sində ömür-gün yoldaşı seyid Şirinin qızı, adlı-sanlı Seyid şəcərəsindən olan Seyid Məmməd ağa dünyasını dəyişdi.



**Seyid Əli Məmməd oğlu Rzayev**

Seyid Əli Rzayev 1948-ci ildə Kəlbəcər rayonunun Böyük Ağca kəndində anadan olmuşdur. 1966-cı ildə Ağdam rayonu Qərvənd kənd orta məktəbini bitirib. 1973-cü il Şuşa Kənd Təsərrüfatı texnikumuna daxil olub. 1976-cı ildə oranı müvəffəqiyyətlə bitirib. Tərtər rayonunun Hüsənli kəndində 1976-1986-cı illər ərzində ferma müdiri işləyib. 1986-cı ildən 1998-ci ilə kimi yem briqadiri vəzifəsində çalışıb.

1998-ci ildən etibarən aqrar islahatlar keçirilir. Kənd təsərrüfatı sahəsində özəlləşdirmə tədbirləri həyata keçirilir. Bazar iqtisadiyyatı şəraitində kəndli-fermer təsərrüfatlarının inkişafına diqqət göstərilir.

Seyid Əli ağa hal-hazırda kəndli-fermer təsərrüfatına rəhbərlik edir.

Seyid Əli ağa 1974-cü ildə Mələk Hüseyn qızı Abdullayeva ilə ailə həyatı qurmuşdur. Bu nigahdan Mutalib, Suliddin, Ələmdar, Yeganə adında övladları var.

Mələk müəllimə 45 il ərzində riyaziyyat fənnini gənc nəsilə tədris etmişdir.

Seyid Əli Seyid ocağının nümunəvi ənənələrini əməlləri ilə davam etdirir. O, gənclik illərindən üzü bəri el-oba üçün faydalı işlər görür. Seyid Əli ağa ən çox qan düşmənlərini barışdıran işləri ilə yaddaşlarda iz qoyub. Təbii ki, bu xeyirxahlıq Seyidlik xəttindən irəli

gəlir. Seyid şəcərəsinin mayasına, qan yaddaşına hopan dəyərlər, tarixin sınaqlarından şərəflə çıxıb.



***Seyid Əli Rzayevdən xalqa xatirə***



***Seyid Əli və Nizami Əjdəroğlu***



**Seyid Mirməmməd Mütalib oğlu Rzazadə**

Seyid Mirməmməd Rzazadə 1999-cu il aprelin 10-da Tərtər rayonunun Hüsənli kəndində anadan olmuşdur. Babası Seyid Əli ağa tərəfindən seyidlik nişanəsi olan Mirməmməd adı verilərək hamının sevimlisi oldu. 2016-cı ildə İdris Hüseynov adına Hüsənli kənd orta məktəbi bitirib. 2016-cı ildə Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasına daxil olmuşdur. 2020-ci ildə oranı bitirərək sosial iş ixtisasına yiyələnmişdir.2020-ci ildən Vətən qarşısında hərbi xidmət borcunu yerinə yetirir.

Babası Mirməmmədin imanı, saflığı, əməlisaleh olması, dürüst və etibarlığı barədə söhbət açır. Seyid Əli ağa Mirməmmədi ocağın varisi təyin edib



**Seyid Rza Seyid Rəsul oğlu Mirmanafov**

Seyid Rza Mirmanafov 1974-cü ildə Bərdə rayonunun Qəhrəmanlı kəndində anadan olmuşdur.

Tələbə yoldaşı Azərbaycanın Milli Qəhrəmanı Mirzə Quliyev öz vəsaiti hesabına Seyid Rzanı Həcc ziyarətinə göndərmişdir.

Seyid Rza hazırda Ağdam rayonunun Cümə məscidinin İmam müavini işləyir.

Seyid Rza 2008-ci ildə Seyid Məmməd ağanın qız nəvəsi Nuranə ilə ailə həyatı qurmuşdur. Bu nigahdan Fatimə, Zəhra, Rüqəyya adında övladlar anadan olmuşdur.



**Usub Məmməd oğlu Məmmədov**

Usub Məmməd oğlunun həyatı haqqında məlumatlarımız çox azdır. XIX yüzilliyin ikinci yarısı ilə XX əsrin birinci rübündəki dövr arasında yaşaması qənaətinə gəlirik.

Usub Məmmədovun ata tərəfdən əsil-nəcabəti Quba əyalətindən, anası isə Kolanı elindən idi. Onun gənc yaşında Qarabağa gəlişi bir nifaq əsasında baş verir. Məhəmmədin ən yaxınlarını, qohum-əqrəbasını gecə ikən qətlə yetirirlər. Hadisə olanda azyaşlı Məmməd bacısı ilə xalasıgildə olurlar. Məmməd 17 yaşına çatanda qisas niyyəti ilə gizli bir xəncər düzəltdirir. Atamın dediyinə görə, Zeynəb qocamın Günəş, Fatma nənəmizə, Usub babamıza danışdığına əsasən, gecənin birində düşmənlərini xəncərdən keçirir (xəncər çıxdı qan düşdü). O, Xacın kolanısı olan Əliağalı kəndinə pənah gətirir. Qaldığı evin sahibi dolanışıq və işləmək ehtiyacını təmin edirdi. Eyni zamanda mülayim, xoşsimalı, mehriban, ədəb-ərkanlı rəftarı və işgüzarlığına görə hörmət-izzət sahibi idi. Məhəmməd kişi bu qayğının qarşılığında kürək, şana, oxlov, dördayaq və s. məişət alətləri düzəldərək sənətkarlıqda ad-san qazanmışdı.

Məhəmməd babamızın möminlərin əmiri imam Əli (ə) pəncəsinin hasarını hörməsinin maraqlı tarixçəsi var. Belə ki, Cavad ağa

yüzbaşılara imam Əli (ə) pəncəsinin ətraf hasarının çəkdirilməsi işini bacaran mahir daş ustası tapmağı tapşırır. Çox gəzib soraqlasalar da hörgü ustası tapılmır. Nəhayət, Əliağadan pərgar bir sənətkar olduğunu eşidirlər. Məmmədi aparmağa gələndə yolda narahatlıq, təşviş keçirir. O, Cavad ağa ilə görüşəndə, xoşməramlı niyyətini öyrənəndə xatircəmlik yaranır. Ədəb-ərkanla razılıq verir. Təvazökarlıqla bildirir ki, hörgü xoşunuza gəlsə qalar, gəlməsə, söküb əvvəlki vəziyyətinə salaram. Cavad ağa razılaşır sonra məsuliyyətlə işə başlayır.

Məmməd gəzib ağ sal daşların yerini tapır. Qaya daşları yararaq aralarını zolaqla sıvamaqla bir-birinin üstünə geydirir. Hasar başa çatanda Cavad ağa faytonla gəlib işə baxır. Bəyəndiyini bildirərək Məmmədi yanına şağırtdırır. Ona əməyinin qarşılığında bir qızıl dişi dana verir.

Məmməd kişinin alın təri ilə gördüyü savab iş özünə və gələcək nəsillərə halal maya qoydu. İlahi lütf ilə bu halal maya İmam Ili (ə) adını daşıyan məkanın daş ustası olmağından irəli gəlir. İmam Əli (ə) haqqında Həzrəti Muhəmməd Peyğəmbərin (s) iki hədisini misal gətirək. Həzrəti Muhəmməd Peyğəmbər (s) kəlamlarında buyurur: "Mən elmin şəhəriyəm, Əli onun qapısıdır." "Mən kimə ağa olmuşamsa, Məndən sonra Həzrət Əli ona ağa olacaqdır".

İmam Əli (ə) pəncəsinin halal mayası olan damazlıq dananı ot-ələf olmaması ucbatından Əliağalıdan gedib Tərtər çayının meşələrində saxlamağa məcbur olur.

Kolanı mahalının Qərravənd oymağının adlı-sanlı nümayəndəsi Həşim bəyin adamları şübhəli adam kimi aparırlar. Bəy vəziyyətdən halı olandan sonra mal sərkardanına dananı mallara qoşaraq yaxşı baxmağını tapşırır. Məmməd xahiş edir ki, damazlığına görə maldarlıq işinə baxım. Bəylərin maldarlıq təsərrüfatında başqa heyvan növü saxlanmazdı. Odur ki, at ilxısı saxlanan yerə dana göndərilir. Məmməd kişi bəyin ailə təsərrüfatına rəhbər təyin olunur. Eyni zamanda, atlara və damazlıq danasına xüsusi qayğı göstərir. Həşim bəy bir dəfə atını minərkən atının təmişəkindən fərqli - çox təmiz, sığallı-tumarlı olduğunu görür. Atlara baxana deyir ki, kimsə eləbil at saxlanan yerə gəlir. Tapşırır ki, gecə güdərsən, ayrı gözətçi də qoyarsan. Məm-

mədin olduğunu bəy soruşanda niyyətinin danaya baxmaq olduğunu deyir. Onun dürüst, saf qəlbli, iş bacarığı bəyin ailəsini cəlb edir. Xanım bəyə deyir ki, nə vaxtsa Məmmədin adamları onu aparacaqlar. Onun düz ilqarına, etibarına görə Həşim bəy Məmmədi bacısı qızı Zeynəb xanımla evləndirir.

Həşim bəyin təsərrüfatında işləyən vaxtda da damazlıq xeyir bərəkətli olur. Belə ki, Kəlbəcər rayon Ənik kəndindən kəbəni ziyarət etmiş bir hacı ev tikdirmək istəyir. Hacı Məmmədi gətirmək üçün sifariş göndərsə də o, razılıq vermir. Deyir, bəyin icazəsi olmadan heç yerə getmərəm.  Hacı bəydən rüsxət alaraq Məmmədi özü ilə aparır (düyəsini yanı ilə götürür). O, mahir ustalıqla evi tikib başa çatdırır. İşinin müqabilində Hacı Məmməd babamıza erkək boz dana bəxşiş edir. Məmməd kişi bu da düyənin kələsi deyərək xudahafizləşir. Babamız Allaha əl açıb dua edir ki, “Ya Rəbbim! mənə hər şey vermisən. Bu düyənin südünü halal, birini də haram maya ilə mayalandıracam. Bunlardan hansı uyuşsa o yolu gedəcəm” Allahın lütfünə halal mayalanaraq qatıq olur.

Allah (cc) sonsuz mərhəməti ilə ruzi verəndir. Rəbbim hər insana məsləhət bildiyi yolla ruzi, nemət bəxş edir. Damazlığı Məmməd babamız övladı Usuba əmanət edir. Zeynəb nənəmiz bu halal ruzi ilə övladını böyüdüb ərsəyə çatdırır. Usub kişi atasından vərəsə qalan bu halal maya ilə var-dövlət sahibi olur. Yaşlı adamlar Usub kişinin xeyli mal qarasının, atının, yüz cöngə və düyəsinin olduğunu nəql edirdilər. Atam dədə Əjdərin dediyinə görə (Günəş nənə, Tamam nənə, Qorçulu Həsənin verdiyi xəbərə əsasən), qayanın altında Quzey barmağı yolunda subay malın arxacı olub.

Usub kişi el-obaya, yurduna bağlı, adlı-sanlı bir ağsaqqal idi. 1918-ci il mart soyqırımı hadisələrində Usub baba kəndi tərk etmək istəməyib. İsmayıl kişi (Sadıq kişinin oğlu) bildirib ki, kənddə qalan yoxdur. Usub kişi Kəlbəcər yolu ilə Qoturlu kəndində - seyid Cəlal, seyid Müseyib ağagilə getməyi qərara alır. Səhər yurdunu keçəndə Əsəd bəyin oğlanları Usub babanın atlarının yaxşısını tutmaq üçün köçün qabağını kəsir. Uzun danışıqlardan sonra Usub baba deyir: “Yol üstəyik. Arvad-uşağı qorxutmayın. Binələrdə düşəcəyik. Gəlin, orda atı verərəm.” Onlar bu şərtlə razılaşmırlar. Malı oğurlamaq və

həyatları ilə bağlı təhlükəli hadisələr baş versə də seyid Müseyib ağa mal-qaranı yerləşdirirlər. Seyid Camal onların üstünə silah çəkərək, bir də belə etsəniz hamınızı qıracam - deyir. Camaat səkkiz aydan sonra kəndə qayıdır.

Zeynəb nənənin məsləhəti və xeyir-duası ilə övladı Usub Kərbalayi Baxşalının qızı Fatma ilə ailə qurur. Bu evlilikdən Məhərrəm, Məhəmməd, Hümbət, Məmməd, Maya, Zəhra, Gülbəs, Nərgiz, Teyfə, Xədicə adında övladları olmuşdur. Usub Məmməd oğlu Məmmədov 1926-cı ildə vəfat etmişdir. Narınclar kənd qəbiristanlığında dəfn olunmuşdur.



## Fatma Usub qızı Məmmədova

Fatma nənəm haqqında Əhməd Cəfərzadə "Dağlara karvan gedir" adlı kitabında məlumat verib. Nənəmin söylədiyi rəvayətlər əsasında kitabda maraqlı məlumatlar var.

Həlim təbiətlı qadın olan nənəm usaqlarının bir qismini erkən itirib.

Babam mal-qara sahibi olub. Nökər-nayibi olsa da, nənəm özü də çox zəhmətkeş qadın olmuş, uşqalarını da əməyə alışdırmışdır.

Nənəm çox uşaq, övladcanlı bir qadın olub. Nəsildə hamının hörmətini qazanıb.

Fatma nənə 1970-ci il noyabrın 11-də vəfat edib.



**Maya Usub qızı Bayramova**

Burdan bir atlı getdi,
Atın oynatdı, getdi.
Gün kimi işıq saçdı,
Ay kimi batdı, getdi...

Maya nənə haqqında aşağıdakı məlumatı əldə etmişik. O, Laçın rayonunun Haqnəzərli kəndindən olan Muxtar baba ilə ailə qurmuşdu. Muxtar kənd əhalisinin hörmətini qazanmış bir adam idi. O səbəbdən ona Muxtar baba deyirdilər. Onların səkkiz övladı dünyaya gəlmişdi. Onlar dörd oğul və bir qız övladlarını erkən itirmişdilər. Maya bibim də bacıları kimi təssərrüfat işləri ilə məşgul olmuş, həm də kolxozda çalışmışdır.Bibimin əri dəyirmançı idi. Dəyirman kənddən xeyli aralıda idi. Müharibə vaxtı dəyirmana buğda aparan gənc qadınları heç vaxt tək buraxmayan bibimi kənddə hamı sevirdi. O, qaçaq-quldurdan qorunmaq meşəlikdən keçib, dəyirmana gedər, sonra yenə kəndə dönərdi. Həm də səxavətli bir qadın kimi tanınan bibimin evinin yanındakı bulağa Maya bulağı deyərdilər. Bibim 1973-cü ilin qışında Əlağalıda yaşayan qızı Tavatın evində rəhmətə getmişdi. Qardaşları onun nəşini doğulduğu Narıclar kəndinə gətirib orda dəfn etmişdilər.



**Fərzalı Əmirqulu oğlu və Zəhra Usub qızı Fərzəliyeva**

Zəhra mamam kəndin axar-baxarlı bir yerində yaşayırdı. Ərinin vəfatından sonra övladlarını böyüdən bu qadın həm sağıcı işləyər, həm də həyətyanı sahələrindəki kiçik təsərrüfatını idarə edərdi.Mülayim, mehriban bir qadın olan bibim qohum-əqrəbaya pay qoyanda heç kimi unutmazdı.

Altı övlad böyüdən bibimin övladlarından Muradxan Böyük Vətən müharibəsində həlak olub. O biri övladları bu gün həyatda olmasalar da, uşaqları sağdır.Bibim haqqında anam sevgi ve nisgil dolu xatirələr danışır.



***Zəhra Usub qızı, qızı Simnaz Fərzalı qızı,***
***kürəkəni Surxay, nəvələri Şəmşir, Şamil, Sədaqət***



**Abdulla Kərbəlayi Baxşalı oğlu Baxşəliyev**

Abdulla Baxşəliyev 1873-cü ildə Narınclar kəndində anadan olub.

Narınclar kəndinin xeyir-bərəkətli, çörəkli, dost-tanışlı, səxavətli, geniş qəlbli, kölgəli, təsərrüfatcıl, mal-qoyunlu, yataqlı, adlı-sanlı ağsaqqallarından biri Abdulla kişi olub. Abdulla baba Qarabağ və İrəvan el-obalarında sayılıb-seçilən hörmətli şəxs kimi tanınıb. Onun xeyirxahlığı, comərdliyi, qonaqpərvərliyi dillər əzbəridir.

Abdulla kişinin Narınclar elinin adına fəaliyyəti, əməyi ilə çox dəyərli iz qoyub. Bu baxımdan bir neçə fakta nəzər yetirək. Bu real hadisələr onun şəxsi keyfiyyəti ilə bağlı təsəvvür yaradır.

1914-1918-ci illər ərzində Abdulla kişinin Aşağı Qərvənd kəndinin Yeddigöz adlı yerdə ferması var idi. O, öz zəhməti ilə maldarlıq təsərrüfat qurmuşdu.

Abdulla kişinin həyatında dövlət xadimi Mixail Kalininlə şəxsi münasibətlərinin olmasının maraqlı tarixcəsi var. M. Kalinin siyasi fəaliyyəti ilə bağlı Azərbaycanda olmuşdur. Qismət elə gətirir ki, Abdulla kişinin qonaqpərvərliyindən onların şəxsi tanışlığı yaranır. M. Kalinin Abdulla kişinin bir günlük qonağı olur. Abdulla kişinin duz-çörəyə verdiyi dəyər, səxavəti, saflığı M.Kalininə xoş gəlir. O, Abdulla kişiyə imzalı gizli bir sənəd verir. Bacıxanım nənə sənədi

kürkün içinə tikərək saxlayır. Yeri gəlmişkən bu əhvalatı Bacıxanım nənə Hidayət kişiyə nəql edib. Sovet (Şura) hakimiyyəti qurulanda bolşeviklər Abdulla kişini həbs edirlər. Bacıxanım nənə M.Kalininin verdiyi həmin sənədi təqdim edir və Abdulla kişi həbsxanadan azad olunur. Allah etdiyi yaxşı əməlin nəticəsində Abdulla kişini çətinlikdən qurtarır.

Məlum olduğu kimi 1941-1945-ci illər Böyük Vətən Müharibəsində arxa cəbhədən ön cəbhəyə maddi yardımlar edilirdi. Abdulla kişini müharibəyə 150 min manat məbləğində maliyyə vəsaiti ayrılması Narınclar camaatına xətir-hörmət gətirdi. İ.Stalinin şəxsi imzası ilə Abdulla Baxşəliyevin adına təşəkkür teleqramı göndərilməsi xüsusi qeyd olunmalıdır.

Abdulla Baxşəliyev qabaqcıl kənd təsərrüfatı işçisi olmuşdur. Moskvada keçirilən ölkə üzrə Kənd Təsərrüfatı sərgisinin iştirakçısı olub. 1948-1948 və 1953-cü illərdə 2 dəfə Moskvada keçirilən sərginin iştirakçısı kimi, apardığı Qarabağ qoçu və motalı 1-ci yeri tutub. Onun qabaqcıl təcrübəsini öyrənib (qoyunçuluq, tərəkəməçilik) kənd təsərrüfatı sahəsində tətbiq edirdilər. Narınclar Abdulla kişinin adına görə həmişə hörmətlə qarşılanır.

Övladları İbrahim, Cümşüd və İnqilab ata adına ad-san qatıblar. Abdulla babamın ömür-gün yoldaşı Bacıxanım nənə imanlı, hicablı, ağzı yaşmaqlı, abır-ismətli, qan yatıran, barışıq yaradan, qüsurları ört-basdır edən, şifahi xalq ədəbiyyatını bilən el ağbirçəyi olmuşdur. Bacıxanım nənənin qız övladları da özü kimi mənəvi keyfiyyətləri ilə nümunə olmuşdur.

Abdulla Baxşəliyevin Narınclar camaatı üzərində nəsillərə nümunə olan böyük əməyi olmuşdur. Belə ki, Narınclar camaatının üzü bəri bu günə qədər heyvandarlıq təsərrüfatının saxlanması, çörək qazanması, el-obanın adlı-sanlı olmasında Abdulla Baxşəliyevin xüsusi rolu olmuşdur. İndiki və gələcək nəsillər bunu unutmamalı və ənənəni davam etdirməlidirlər.

Abdulla Baxşəliyev 1953-cü ildə vəfat etmişdir. Narınclar qəbirsanlığında dəfn olunmuşdur. Allah rəhmət eləsin. Amin!


ПАСПОРТ

Действителен по ... бессрочный

1. Имя, отчество, фамилия

2. Время и место рождения 1873 г.

3. Национальность

4. Социальное положение

5. Постоянное местожительство

6. Отношение к военной службе

7. Собственноручная подпись владельца паспорта

ЖГА № 744033

9. Кем выдан паспорт

10. На основании каких документов выдан паспорт

Начальник ... милиции

Нач. паспортного стола

Дата выдачи

ЖГА № 744033

*Abdulla Baxşəliyevin pasportu. Doğum tarixi 1873-cü il*



*Abdulla Baxşəliyevin Moskvada*
*Kənd Təsərrüfatı Sərgisində çəkilmiş fotosu*



**Bacıxanım Bəndalı qızı Baxşəliyeva**

Bacıxanım Baxşəliyeva 1881-ci ildə Ağdərə rayonu Narınclar kəndində anadan olmuşdur.

Bacıxanım nənə zəngin, ibratamiz ömür yolu keçmişdir. Gənclər üçün örnək həyat yaşamışdır.

Onun yaşadığı mühitdə qızların təhsilə cəlb edilməsində çətinliklər var idi. Qızlar təhsildən, maariflənmədən təcrid olunmuşdu. Bacıxanım nənə təhsil almasa da dünya görüşü, ədəb-ərkanı, xanım-xatınlığı ilə xoş təsir bağışlayırdı.

Bacıxanım Baxşəliyeva məişət təsərrüfatında valideynlərinin qayğısını çəkirdi. O, kiçik yaşlarından zəhmətə,əməyə alışmışdı.

Yaşlı insanlar onu sinəsi ağız ədəbiyyatı ilə zəngin, söz-söhbətli insan kimi xatırlayır. Eyni zamanda, xoşagəlməz halları barışla həll edərdi. (Düşünürəm, bu sətir indi necədə aktual səslənir – N.M.)

Bacıxanım Bəndalı qızı zahiri və daxili gözəlliyi ilə heyranedici təbiətə malik idi.O, ağzı yaşmaqlı, təqvalı qəlb nümunəsi idi. Bu xanımda bir təbiət saflığı var idi.

Bacıxanım nənə nəinki öz nəvələrinə, el-obanın gənc nəslinə öyüd-nəsihət verər, evdarlığı öyrədərdi. Taleyin qismətinə bax ki, mən də Bacıxanım nənənin işıqlı simasının, hikmətli sözlərinin şahidi olmuşam. Bu, məndə iftixar hissləri doğurur.

Bacıxanım Baxşəliyeva Abdulla baba ilə ailə həyatı qurur.Bu nigahdan yeddi övladı dünyaya gəlir. O, həyatın bütün çətinlik-lərində,sınaqlarında yoldaşına dəstək olur.

Bacıxanım nənənin süfrəsi hamıya SSRİ Ali Sovetinin sədri M.Kalinin bu halal süfrənin qonağı olmuşdu.

Anam Bacıxanım nənədən ona danışdığı bir vaqiəni nəql edir. Bacısının əri Muxtar bəy öz bəy dostları ilə bir evdə yaxşı qarşlanmır. Onlar nənəmgilə gələsi olurlar. Nənəm yaxşı süfrə açaraq qoyun kəsdirir. Abdulla babam evdə olmur. Muxtar bəy bu iltifatdan çox məmnun olur. Ona bir qızıl kəmər hədiyyə edərək, deyir ki, Bacıxanım, halal olsun sənə, məni dostlarımın yanında xar etmədin.

Təbii, nənəmlə baglı çox yazmaq olar. Bircə onu deyim ki, bu cür insanlar, onların əməlləri bizim keçmiş, indi, gələcək sərvətimizdir.

Bacıxanım Baxşəliyeva 1977-ci ildə haqq dünyasına qovuşur.



***Bu fərməş Bacıxanım nənənin qızı Zərxaraya bəxşiş edilmişdir.***



***Bu gərdənbaşı Bacıxanım nənədən qızı Zərxaraya, Zərxara nənəmdən də qızı Dilşad xanıma qalıb***



**Musa Dilən oğlu Məmmədov**

Musa Məmmədov 1893-cü ildə Ağdərə rayonun Narınclar kəndində anadan olmuşdur. Dilən kişinin Musa və Qasım adında iki övladı olub. Anası Ayna xanım Ağdamın Yusifli kəndindəndir. Anasının Ağdam rayonunun Kolanı kəndində qohumları yaşayırdı. Musa kişi uşaq vaxtı Narınclar kəndindən Yusifli və Kolanı kəndlərinə ana qohumlarına gəlir. Usub kişi qardaşı oğlunu dayısının yanından Narınclar kəndinə gətirir. Buna baxmayaraq, Musa kişi yenidən Kolanı kəndinə qayıdır.

Musa Məmmədov Kolanı kəndində maldarlıqla məşqul olub. Öz halal zəhməti ilə çörək qazanıb. Musa kişinin oğlu Elşad atası haqqında xatirələrini bölüşdü.

1972-ci ildə Musa kişi, oğlu Elşadla Şuşaya bizə gəlmişdi. Qalayçılar kəndində Musa kişi ilə bağlı bir əhvalat diqqətimi cəlb etdi. Musa kişi Qalayçılar kəndində Kazım kişinin dükanında alış-veriş edəndə anası Züleyxa xala onu Usub babaya oxşadır. Züleyxa xala oğluna deyir ki, elə bil Usub əmindi. Kazım kişi Usub babanın çoxdan vəfat etdiyini bildirir. Bu onu göstərir ki, Musa Məmmədov Usub babaya çox oxşayırdı. Musa Məmmədov 1942-ci ildə Gözəl Muxtar qızı ilə ailə həyatı qurub. Bu nigahdan Zəkiyyə, Şəhriyar, Famila, Şəhla, Bəsti, Cəmilə, Elşad adında övladları var.

Elşad Musa oğlu Məmmədov Dilbər xanım İsayeva ilə (Qazax rayonu Aşağı Əskipara kəndi) ailə həyatı qurmuşdur.

Musa Məmmədov 1981-ci ildə vəfat etmişdir.



**Məhərrəm Usub oğlu Məmmədov**

Məhərrəm Məmmədov 1898-ci ildə Ağdərə rayonu Narınclar kəndində anadan olmuşdur. O, atasına heyvandarlıq sahəsində kömək edirdi. Yaşlı insanların dediyinə görə, Usub kişi çox varidat sahibi olub. Məhərrəm baba təsərrüfat işlərində xüsusi bacarığı ilə fərqlənirdi. Onun yeniyetməlik çağı Çar Rusiyasında siyasi çevrilişlər dövrünə düşür. 1917-ci ilin fevralında çarizm devrilir. Müvəqqəti hökümət hakimiyyəti ələ alır. Bu dövrdə Usub kişi kənddə fərdi (təkcə) təsərrüfat sahibi idi. Bu təsərrüfatda 100 cöngə bəslərdi, mal-qoyun sarıdan var-dövlət sahibi idi. Babamın zehin açıqlığı, hesabdarlığı, qavrayışı atasının təsərrüfat işlərində çox faydalı idi. Bu da heç təsadüfi deyil. Belə ki, Qalalı Abduləli və Xanlar müəllimdən ibtidai təhsil almışdır. Xanlar müəllim bacısı Mayagildə qalırdı. Məhərrəm babam işləməklə yanaşı, təhsilə də vaxt ayırırdı. Eyni zamanda, arıçılıq, sınıqçılığı və digər təsərrüfat peşələri üzrə xüsusi bacarığa malik idi.

1926-cı ildə atası Usub kişi vəfat edir. Qardaşı Hümbət Məmmədovun müharibəyə getməsi Məhərrəm babamın məsuliyyətini daha da artırır. Məhərrəm babamın qardaşı və dayısı oğlu Xəlil kişini Soyuqbulaqda yola salır.

Anası Fatma nənə ilə birlikdə ailənin güzəranı, atasından qalan iri maldarlıq təsərrüfatının idarə olunması, bacı qardaşlarının təlim-tərbiyəsi Məhərrəm babanın üzərinə düşür. Fatma nənənin evdarlığı, əməksevərliyi, qeyrət-namusla ailə qayğıkeşliyi, övladlarında ata ocağına bağlılığı örnəkdir.

Ailə qurandan sonra da, qohum-əqrabaya xeyirxahlığını əsirgəmədi. Onun etdiyi yaxşı əməllər, comərdliyi, işinə məsuliyyəti, tələbkarlığı və digər şəxsi keyfiyyətləri elin yaddaşında qalıb. Müharibə vaxtı camaatın qayğısı indi də danışılır. Müharibə illərində əsgər ailələrinə maddi və mənəvi dayaq olub.

1933-cü ildə ailə həyatı quran Məhərrəm Məmmədov övladlarının təlim tərbiyəsinə xüsusi diqqət yetirir. Onlara orta ixtisas və ali təhsil verir. Atam Narınclar kəndi üzrə ilk ali təhsilli mütəxəssis kadrdır. Məhərrəm babamın uzaqgörənliyi övladların xoşbəxt gələcəyini təhsildə görməsi idi. O, Gəncədə oğlunun adını Kənd Təsərrüfatı instistutuna qəbul olanların siyahısında görəndə sevincdən gözləri yaşarır. İnistutdan birbaşa tələbə yataxanasına gəlir. Oğluna tapşırır ki, məndən sonra bacı-qardaşlarını sənə əmanət edirəm.

1953-cü ildə ömür-gün yoldaşı Səkinə nənəmin vəfatından çox sarsılır. Səkinə nənəm dədə-baba dostumuz Vəliyəddin müəllimgildə (Ağdamın Ətyeməzli kəndi) rəhmətə getmişdi. Nənəmin Vəliyəddin müəllim və həyat yoldaşı Məleykə nənə ilə xatirə şəkli durur.



**Məhəmməd Usub oğlu Məmmədov**

Məhəmməd əmim Kəlbəcərin Böyük Ağca kəndində dini təhsil alıb. Kənddə təbib kimi də tanınan əmim təsərrüfatla da məşğul olub. Gözəl bağ-bağça salan əmim kolxozda briqadir, ferma müdiri işləyib. Əmim iki dəfə ailə qurub. Birinci həyat yoldaşından övladı olmasa da, ikinci ailəsindən üç uşağı olub: Yaqub, Zakir, Şövkət. Gözəl ailə, ev-eşik, sahibi olan əmim savadına, təşkilatçılıq bacarığına və qonaqpərvərliyinə görə nüfuz və hörmət sahibi olmuşdur. Anam danışır ki, o vəfat edəndə kənddə Boz at kimi tanınan atının gözündən yaş gəlirmiş.







***Məhəmməd Usub oğlu Məmmədovun indiyə qədər qorunub saxlanmış, özünün oxuduğu Müqəddəs "Quran" kitabı***



## İmran Novruz oğlu Tahirov

İmran Tahirov 1900-cü ildə Narınclar kəndində anadan olub. Ailədə 6 uşaq olublar (4 oğlan, 2 qız)

Oğlanlar: Əziz, İmran, Nəriman, Süleyman

Qızları: Gözəl, Sona

Anaları: Güldəstə (Fərzalılar)

Atası Novruz kişi əslən Laçın rayonu Şamkənd sovetliyi Ələkçi kəndindəndir.

İş fəaliyyəti: Kənd təsərrüfatı ilə məşğul olub. Əsasən kolxozun ətlik, qoyunçuluq briqadiri işləyib uzun müddət.

Həyat yoldaşı Tahirova Səriyyə Rüstəm qızı 1932-ci ildə Kəlbəcər rayonu Qaraçanlı kəndində anadan olub. 1952-ci ildə Narınclara gəlin köçüb. Tanınmış arıçı Rüstəmin qızıdır.

İmran kişi 1983-cü ildə vəfat edib.

4 oğlu: Camal, Əmrah, Fəxrəddin, Tahir

5 qızı: Gövhər, Rasta, Əminə, Xalidə, Adilə olub.



**İbrahim Abdulla oğlu Baxşəliyev**

İbrahim Abdulla oğlu Baxşəliyev 1900-cü ildə Narınclar kəndində dünyaya gəlib. Uşaqlıq, cavanlıq illəri, həyatı Narınclar kəndində keçmişdir. Narınclar, Qocayurd, Soltanheydər, Dəlidağ, Murad təpə, Barıtlı çayı ətrafı yaylaqlarda qoyunçuluqla məşqul olub.

1954-cü ildə Moskvada keçirilən kənd təsərrüfatı sərgisinin iştirakçısı olub. Atam deyir ki, sərginin aparıcısı akademiyada təhsil alarkən tələbə yoldaşım sinif nümayəndəsi, Şamaxıdan olan İqbal Hüseynovu mənə oxşatdığından tanış olublar. İqbal Hüseynov rus dilini yaxşı bildiyi üçün dayıma çox hörmət etmişdir.

Mən İmişlidə İbrahim kişi ilə kəndin tarixi mövzusunda fikir mübadiləsi aparmışam.

İbrahim kişi uzun ömür yaşayıb. O, yeddi övlad atası olub. Kənd işğal olunandan sonra Bərdə rayonunda məskunlaşıb. İbrahim kişi 2002-ci il iyulun 29-da Bərdədə salınmış qaçqın şəhərciyində dünyasını dəyişmişdir. Vəsiyyətinə əsasən, Qərvənd qəbirsanlığında basdırılan həyat yoldaşı Gülxara nənənin məzarı yanında dəfn olunub.



**Xədicə Usub qızı Məmmədova**

Xədicə Usub qızı Məmmədova 1902-ci ildə Narınclar kəndində doğulub, dini təhsilli, dindar bir xanım olub.

O, həyat yoldaşını erkən itirib. Dörd övladının təlim-tərbiyəsi ilə təkcə məşğul olub. Övladlarını boya-başa çatdırmaq üçün, necə deyərlər, kirpiyi ilə od götürmüşdür. Kənd təssərrüfatının elə bir sahəsi yoxdur ki, bu qadın orada çalışmasın. Bu nəcib xanım xeyriyyəçiliklə də məşgul olub.O, Alaqayalı Seyid Səkinə xanımla birlikdə öz vəsaitləri hesabına Vənglə Narınclar arasındakı yolun ən çətin hissəsini təmir etdiriblər. Onlar dağı yardıraraq həm yolu qısaltdırmış, həm də xeyli rahat bir hala gətirtmişdilər.

Xədicə Məmmədova evinin yanındakı bulağı da düzəltdirib, kənd camaatının istifadəsinə verdirmişdi.

Xədicə nənənin Əjdər, Hamayıl, Bulqar, Filya adında övladları anadan olmuşdur. Molla Əjdər kişi Qarabağda el-obanın hüzr məclislərini aparıb.

Ağır həyat bibimin xarakterini kobudlaşdırmamışdı. Ötkəm, məğrur bir qadın kimi tanınan bibim qohum-əqrabaya, ehtiyacı olanlara qarşı çox qayğıkeş və nəvazişkar olmuşdur. O da nənəm kimi İmişli torpağında uyuyur. (2009)



**Həsən Nəsib oğlu Məmmədov**

Həsən Məmmədov 1911-ci ildə Narınclar kəndində anadan olub. Orta məktəbi də burada oxuyub.

Narınclar kəndinə kolxoz sədri təyin olunub. Bir müddət sonra onu Ağdərə rayonu Çərəktar kəndinə Sovet sədri təyin ediblər. Onu yenidən Narınclar kəndinin kolxoz sədri seçiblər. Sırxavənd və Ballıqaya kəndlərində kolxoz sədri işləyib. Daha sonra Kəlbəcər rayonunun Zülfüqarlı kəndinə təzədən Çərəktar kəndinə kolxoz sədri seçilib. Ordan da təqaüdə çıxıb.

Həsən kişinin övladları Rəşid, Araz və Qüdrət xanımın əmək fəaliyyəti Narınclar kəndi ilə bağlı olub.

17 övladı olub (9-u oğlan, 8-i qız) 80 nəvəsi, 178 nəticə, 55 kötücəsi var.

1991-ci ildə Çərəktar kəndində ürək tutmasından vəfat edib, Ata yurdu Narınclar kəndində dəfn olunub.



**Səkinə Abdulla qızı Məmmədova**

Səkinə Məmmədova Narınclar kəndində 1912-ci il anadan olub.

Səkinə Məmmədova yeddi övlad böyüdüb ərsəyə çatdırmışdır. O, həyatı boyu çalışqan, əməksevər, xeyirxah, səxavətli, bir xanım olmuşdur.

Səkinə xanım xoşxasiyyət, mülayim təbiətli, mərhəmətli, kövrək qəlbli insan kimi yaddaşlarda qalmışdır. Bir ana olaraq öz zəhməti ilə balalarını saxlayır, onların tərbiyəsinə xüsusi diqqət yetirərmiş. Ev işlərini görməklə yanaşı gəbə, kilim, hana toxuyardı.

Səkinə Məmmədova kolxoz işlərində fəal iştirak edərdi. Yaşlı insanlar deyirlər ki, müharibə dövründə Səkinə xanım ehtiyacı olan ailələrə yardımlar edirdi. Belə ki, əsgər ailələrinə, aclıqdan əziyyət çəkən adamlara həmişə yağ, pendir, un, çörək göndərərdi.

Səkinə xanım sözün əsl mənasında el-oba adamı idi. Səkinə nənə dədə-baba yolunu, adət-ənənəni yaşadan xanım xatun bir insan olmuşdur.

Səkinə nənəm ailəsinə, qohumlarına can yandıran , cömərd, ələxsus Böyük Vətən müharibəsi zamanı arxa cəbhədə qayğıya ehtiyacı olanlara dayaq dururdu.

Səkinə Məmmədova 1953-cü ildə haqqın rəhmətinə qovuşur.

Ətyeməzli kəndində Vəliyəddin müəllimin evində dünyasını dəyişir.





***Səkinə nənəmin evində saxlanılan qədim at çulu.***
***Anası tərəfindən atam Əjdər müəllimə yadigar qalıb***





***Səkinə nənəmin əl işi. İki çeşnidə olan toxunma corablar.***



*İsmayıl Fərzəliyev və Güllü Fərzəliyeva*

## İsmayıl Əmirqulu oğlu Fərzəliyev

İsmayıl Farzəliyev 1915-ci ildə Ağdərə rayonu Narınclar kəndində anadan olub. Kolxozçu kimi bütün faydalı işlərdə çalışıb; ot çalımında, yığımında, əkin işlərində zəhməti çox olub. Nizami Gəncəvinin bu cəhətdən bir hikmətli şeiri yada düşür:

Narınclar kəndində dənli bitkilərdən buğda, arpa, xalq arasında (peyğəmbər buğdası) adlandırılan qarğıdalı becərilirdi. İsmayıl kişi də öz növbəsində, şum aləti olan kotan işində valla taxıl döyümündə iştirak edib. O, qoyunçuluq təsərrüfatında çoban olub. Həyat yoldaşı Qumru nənə ilə birgə kolxozda çalışırdılar. İsmayıl Fərzəliyev əmək fəaliyyətinə görə ordenlə təltif edilmişdi. İsmayıl Fərzəliyevin Ballı Bəşir qızı ilə birinci nikahından Kərəm, Şura, Eldar adında övladları, Güllü Məhəmməd qızı ilə ikinci nikahından Diləfruz, Atlas, Bəsti, Məhəmmədəli, Əfqan, İsmixan, Afərin adında övladları olub. İsmayıl Farzəliyev 2002-ci il noyabrın 17-də vəfat etmişdir. Yevlax rayonunun Malbinəsi Kənd qəbiristanlığında dəfn olunmuşdur. Qumru Fərzəliyeva 1981-ci ilin ayın 28-də vəfat etmişdir. Narınclar kənd qəbiristanlığında dəfn edilmişdir.



**Səmayə Abdulla qızı Rüstəmova**

Səmayə Rüstəmova 1915-ci ildə Narınclar kəndində anadan olmuşdur. Uşaqlıq və gənclik illərində zəhmətkeş, işgüzar, evdar xanım olaraq yaddaşlarda iz qoymuşdur. Səmayə xanımın xüsusi toxuma qabiliyyəti ilə seçilib. Zərxara nənəmin dediyinə görə, həlim təbiətli, xoşxasiyyət, dilli-dilavər, ailəcanlı Səmayə nənə xalası oğlu Hüseyn kişi ilə ailə həyatı qurmuşdur. Bu nigahdan Həsən adında bir övladı olmuşdur. İkinci Dünya müharibəsinin iştirakçısı olan Hüseyn kişi cəbhədən qayıtmır. Məsləhət görürlər ki ailə qur, gəncsən, bir övladın var. O, yoldaşından sonra ailə qurmayacağını bildirir.

Səmayə Abdulla qızı 1953-cü ildə dünyasını dəyişib, Narınclarda dəfn olunub.



*İsa Cabbarov və Qumru Cabbarova*

## İsa Xəlil oğlu Cabbarov

İsa Cabbarov 1917-ci il aprelin 5-də Ağdam rayonu Əliağalı kəndində anadan olub. Narınclar elinin təsərrüfat həyatında qoyunçuluq aparıcı yer tuturdu. Belə ki, yun, ət və süd məhsulları kimi sahələrdə istehsal qoyunçuluğu əsas heyvandarlıq sahəsinə çevirir. Camaatın tələbatının ödənilməsi üçün bu sahə köçəri, yarımköçəri təsərrüfat kimi saxlanılmışdır. Heyvandarlıq təsərrüfatı yayqış, otlaq-örüş sahələrində dağlıq və dağətəyi zonalarda inkişaf etmişdir. İsa Cabarovun kolxozun üzvü kimi qoyunçuluq təsərrüfatının inkişafında əməyi olmuşdur. Halal əmək və məsuliyyətlə çörək qazanan İsa kişi Narınclar camaatının hörmətini qazanmışdır.

İsa Cabbarov Qumru Musa qızı ilə (1928-ci il martın 13-də Narınclar kəndində anadan olmuşdur) ailə həyatı qurmuşdur. Bu nikahdan Allahverdi, Xəlil, Cəlil, Cəmil (1990-cı il aprelin 29-da Ağdam rayonu Əliağalı kəndində elektrik cərəyanı vurması nəticəsində dünyasını dəyişib), Qaragöz, Sitarə, Bəsti, Çiçək adında övladları olub.

İsa Cabbarov 1992-ci il noyabrın 1-də Ağdərə rayonunda minaya düşərək həlak olub. Qumru Cabbarova 1989-cu il sentyabrın 29-da Kəlbəcər istiqamətində vertolyotda rəhmətə gedib.



**İsmayıl Adıgözəl oğlu Fərzəliyev**

İsmayıl Fərzəliyev 1918-ci ildə Ağdərə rayonunun Narınclar kəndində anadan olmuşdur, kənddəki Savad kursunda oxumuş, Şuşada hesabdarlıq üzrə məktəb bitirmişdir.

İsmayıl kişi qoruqcu, briqadir, hesabdar, ferma müdiri işləyib.

İsmayıl Fərzəliyev işgüzarlığı, əməksevərliyi, tələbkarlığı ilə ad-san qazanıb.

O, Qumru Məmməd qızı ilə ailə həyatı qurmuşdur. Bu nigahdan Yaşa, Əntiqə, Şərqiyyə, Ramiz, Əmir və Elman adında övladları olmuşdur.

İsmayıl Fərzəliyev 2019-cu ildə, ömür gün yoldaşı Qumru nənə isə 2016-cı ildə vəfat edib.



*Bahadur Fərzəliyev və Tamara Fərzəliyeva*

## Bahadur Hümbətalı oğlu Fərzəliyev

Bahadur Fərzəliyev 1919-cu ildə Narınclar kəndində anadan olub.

O, ibtidai təhsilini Savad kursunda almış, Şuşada pedoqoji texnikumun ibtidai sinif müəllimi ixtisasını bitirmişdir. Əmək fəaliyyətini məktəb direktoru, kənd sovet sədri, kolxoz sədri kimi məsul işlərdə davam etdirmişdir. Uzun müddət rəhbər vəzifəsində çalışmışdır. Eyni zamanda, gənc nəslin maariflənməsində bilik və bacarığını əsirgəməmişdir.

Bahadur Fərzəliyev Tamara xanımla ailə həyatı qurmuşdur. Bu nigahdan Telman, Sitarə, Yusif, Səyyarə, Kamil adında övladları dünyaya gəlmişdir. Tamara Fərzəliyeva 1931- ci ildə Narınclar kəndində anadan olmuşdur. 945-ci ildə Narınclar kənd məktəbində 7 illik orta təhsil alıb. Tamara Fərzəliyeva 5 övlada tərbiyə verərək, onları təhsilli, ziyalı olaraq böyüdüb ərsəyə çatdırmışdır.

Sitarə xanım tibb məntəqəsində çalışıb. O, çox istiqanlı və qohumcanlı insan idi. Sitarə xanımın övladları: Məqsəd, Qoşqar, Jalə. Səyyarə müəllimə Narınclar kənd orta məktəbində riyaziyyat fənnini tədris edir. Yoldaşı Akif müəllim dil-ədəbiyyat fənnindən dərs deyir. İqbal, Vüsal, Xəyal, Özal adında övladları var. Bir müəllim ailəsi kimi ədəbli, əxlaqlı, böyüyün yolunu saxlayan övladlar tərbiyə etmişlər.

Bahadur Fərzəliyev 2011-ci il 28 martda vəfat edib.



**Tavat Muxtar qızı Rüstəmova**

Tavat Muxtar qızı Bayramova 1920-ci ildə Ağdərə rayonunun Narınclar kəndində anadan olub. Narınclar natamam orta məktəbində ibtidai təhsil alıb. 1935-ci ildə Səfiyar kişi ilə ailə həyatı quraraq Kolanıya gəlin köçüb. Narınclara qayıdaraq kolxozda işləyib.

Tavat bibimin oğlu Sevindik çox tərbiyəli, zəhmətkeş, gözəl ailə başçısıdır. Elmir Sevindik oğlu da əsil nəcabətinə hörmət edən övladdır.

Tavat bibi 1996-cı il fevralın 14 vəfat edib. Bərdə rayonunun Soğanverdilər kənd qəbirsanlığında dəfn olunub.



### Mustafa Musa oğlu Fərzəliyev

Mustafa Fərzəliyev 1924-cü ildə Narınclar kəndində kolxozçu ailəsində doğulub. Narınclar, Sırxavənd, Manikli kəndlərində orta təhsil alıb. Təhsildən sonra hərbi xidmətə gedib. Bakıda Salyan kazarmasında əsgərlikdə olub. Polkun silah-sursatının, ərzaq təminatının uçotunu qeydə alan mirzə vəzifəsini daşıyıb.

Qismət elə gətirir ki, Mustafa Fərzəliyevin atası Musa kişi də müharibəyə çağrılır. Müharibədən sonra Yevlaxda Mustafa kişi atasıyla rastlaşaraq kəndə qayıdırlar. Ağdam Pedaqoji Texnikumunda müəllimliyi bitirib, ancaq müəllim müəllim işləməyib.

Ağdərə Rayon Partiya Komitəsində bir neçə il təlimatçı vəzifəsində çalışıb. Partiya Komitəsi Umudlu kəndində geri qalmış kolxoza sədr göndərib. Sonra Narınclara kolxoz sədri gəlib. Bir müddət Qozluda,Vəngdə və Narınclarda ferma müdiri işləyib. 1968-1969-cu ildə Çərəkdar kəndində kolxoza sədr təyin olunur. Sədrlik etdiyi müddətdə kolxozun əmək məhsuldarlığı yüksələrək anbarda taxıl ehtiyatı fondu yaradır.

Büro iclasında rayon partiya komitəsinin I katibi Mustafa kişiyə qarşı bir ifadə işlədir. Belə ki, I katib tapşırır ki, Fərzəliyev, zəif təsərrüfatı olan bir kolxoza 20 ton taxıl hazırlığı göndər. Mustafa kişi: "Tərtər çayı daşıb. Çərəkdarın körpüsünü dağıtdığından çətinliyimiz

var”, - deyəndə katib deyir ki, mən bilmərəm, dalına al keçir. Mustafa kişi katibin üzünə: hambala sən oxşayırsan. Boynunun yoğunluğuna bax deyir! Bu hadisədən sonra kolxoza komissiya gəlir, amma heç bir nöqsan tapa bilmirlər. Bunra sonra Narınclarda ferma müdiri işləyir. Akif müəllim atasıyla bağlı maraqlı əhvalat danışdı: 1954-cü ildə İmişli rayonun Telişli kəndi ərazisində Narınclara yer verirlər. Telişli kəndinin kolxoz sədri Ayaz deyir ki, sizə yer verməyəcəm! Mübahisəli vəziyyət yarananda Mustafa kişi təmkinlə məsələni həll etmək istəyir. Razılaşma olmayanda Mustafa kişi ferma müdiri Əşrəf əmim və İbrahim kişi Azərbaycanın MK-nin I katibi İmam Mustafayevin qəbuluna gedirlər. Bakıya gəlməzdən əvvəl yataqlardan quzu leşlərini Qaz-53 kabinəsinə yığıb MK-nin binasının qabağında saxlayırlar. İ.Mustafayevin qəbuluna düşürlər. İ.Mustafayevə zəng gəldiyindən, qapıdan çıxır. İ.Mustafayev bunlara vacib işi çıxdığından getməli olduğunu bildirir. İbrahim kişi cavab verir ki, yoldaş Mustafayev qoyun “işim var”ı qanmır. Deyir nə qoyun? Mustafa kişi deyir, aşağı baxın. İ.Mustafayev geri qayıdıb məsələni ətraflı öyrənəndən sonra, nümayəndə heyəti göndərilərək yer ölçülür.

Mustafa Fərzəliyev XXII Partiya Qurultayına nümayəndə seçilib. Moskvada kənd təsərrüfatı sərgisinin iştirakçısı olub. Mustafa kişi el-oba təəssübkeşi, işgüzar, cəsarətli, adlı-sanlı ağsaqqal kimi yaddaşlarda iz qoyub.

Övladları və nəvələri onun adını hörmətlə qoruyub saxlayırlar.

Mustafa Fərzəliyev 1991-ci ildə Narınclar kənd qəbirsanlığında dəfn olunur.



## Cümşüd Abdulla oğlu Baxşəliyev

Cümşüd Baxşəliyev 1925-ci ildə Narınclar kəndində doğulmuşdur.

Narinclar və Ağcakənddə orta təhsil almışdır. Məlum olduğu kimi, o dövrdə ucqar kəndlərdə təhsil üçün normal şərait yox idi. Əsasən Savad kurslarında ibtidai təhsil verilirdi.

Cümşüd Baxşəliyev Gəncədə muhasibatlıq uçotu üzrə ixtisas kursu keçmişdir. O, Narınclar kəndində müəllim, muhasib, kolxoz sədri, qoyunçuluq üzrə ferma müdiri vəzifələrində işləyib. El-oba arasında ad-san qazanıb.

Cümşüd kişi tarixi rəvayətləri, əhvalatları, dini hədisləri səlis nitqlə maraqla danışardı. Bir tarixçi kimi rəhmətliklə çox söhbətlərimiz olub.

Cümşüd Baxşəliyev Fatma xanımla ailə həyatı qurmuşdur. Bu nigahdan Məleykə, Yelmar, Qəhrəman, Şahlar, Seyran adında övladları olmuşdur.

Cümşüd Baxşəliyev 2000-ci ildə fevralın 29-da İmişli qış yatağında öz camaatının yanında dünyasını dəyişdi. Tərtərin Hüsənli kəndində qədim nəsil şəcərəsinə malik seyidlərdən olan Məşədi Seyid Rzanın oğlu Seyid Məmməd ağanın yanında (onun hasarında) dəfn olunub.



**Savad Muxtar qızı Bünyətova**

Savad Muxtar qızı Bünyətova 1926-cı ildə Narınclar kəndində anadan olmuşdur. Bu kənddə ibtidai təhsil almışdır.

Savad nənə 17 yaşında Faiz Əşrəf oğlu Binyətovla ailə həyatı qurmuşdur. Bu nigahdan Əfqan, Surət, Həcər, Xanlar, Nigar, Vaqif, Cəmilə, Gülçöhrə, Faiq və Vidadi adında övladları doğulmuşdur. "Qəhrəman Ana" qızıl medalı ilə təltif edilmişdir.

Savad Məmmədova ailə qurduğu Kürdəmirin Qarabucaq kəndində əmək fəaliyyətinə başlamışdır. O, Bolşevik sovxozunda at, dəvə üzrə briqadir işləmişdir.



## Zərxanım Feyzulla qızı Haqverdiyeva

Haqverdiyeva Zərxanım Feyzulla qızı, 1926-cı ildə Bakı şəhərində anadan olub. O vaxtkı Çaparidze rayonu 25 nömrəli məktəbdə orta məktəbi oxuyub, 2 illik Müəllimlər İnstitutunu bitirib. Böyük Vətən müharibəsində iştirak etmək üçün müraciət edib, dəvət alsa da, təhsilin müharibə iştirakçısı ilə müqayisədə, öndə olduğu nəzərə alınaraq onun müəllimə kimi işləməsi üçün qərar qəbul olunub və Ramana qəsəbəsində, Ələt qəsəbəsində müxtəlif illərdə müəllimə kimi fəaliyyət göstərib.

Atası Haqverdiyev Feyzulla dövrünün ziyalısı olub. Əli Bayramlı pambıq zavodunun direktoru işləyirdi. 1937-ci ilin qışında Bağırovun göstərişilə güllələnib. Üç oğlan, bir qız, ana himayəsində uzun müddət yaşaya bilməyiblər, çünki ana ərinin güllələnməsi xəbərindən sonra çox az yaşamışdır. Bununla da üç azyaşlı qardaşı saxlayıb böyütmək yükü Zərxanım nənənin və dayısı – o vaxtlar respublikanın Baş baytarı işləyən Manafov Miribrahimin çiyinlərinə düşür.

Dövrün tələbinə uyğun olaraq, dağ rayonlarında və kəndlərində savadlı, təhsilli kadrların olmaması səbəbilə 1950-ci ildə onu Laçına dil-ədəbiyyat müəllimi kimi yollayırlar, bir müddət sonra oradan respublikanın ən ucqar kəndlərindən biri olan Narınclara təyinat alır və ömrünün sonuna - 1996-cı il may ayının 8-nə qədər orada yaşayır. 4 övladı Tapdıq (1954), Kamilə (1957), Arif (1958), İradə (1961)-ci il.



**Zərxara Abdulla qızı Məmmədova**

Cənnətin ən gözəl güllərini,
Ayağının altına əkin anamın,
Əridin gözlərimin qaralarını,
Ağarmış saçlarına çəkin anamın.

Zərxara Məmmədova 1927-ci ildə Narınclar kəndində anadan olub.

Zərxara xanımın uşaqlığı, gəncliyi, bir sözlə, həyatı doğma yurdu Narınclar kəndi ilə bağlı olmuşdur. Xeyir-şər yaraşığı olan nənəmin õz əli ilə toxuduğu yun corab, kilim, gəbə, rəşmə, sicim, örkən və tikmələrdən ibarət nümunələr övladları tərəfindən indiyə qədər qorunub-saxlanır.

Nənəm ağır və şərəfli bir həyat yolu keçib. Müharibədə yaralanan babam müəyyn qədər əmək qabiliyyətini itirdiyi üçün ailənin bütün ağırlığı onun üstünə düşmüşdü.

Həzi Aslanov adına kolxozda anbardar işləmiş, ailə təssərrüfatını idarə etmiş, 8 uşaq böyüdüb tərbiyə etmiş, onlara təhsil verə bilmişdir.

1981-ci ildə babam Məmmədov Hümbət Yusub oğlu vəfat edəndən sonra da öz mətanətini itirməmiş, övladlarına həm ata, həm ana olmuşdur. O, övladlarını saxlamaq üçün zəhmətə qatlaşaraq ot

yığımında və tütün yığıminda da iştirak etmişdir. Allah ona əziyyətinin bəhrəsini görməyi qismət etmişdir. Valideynlərinin əməyini itirməyərək, övladları onların dəyərini uca tutdular. Butün ömrünü Ağdərə rayonunun Narınclar kəndində keçirən bu qadın ömrünün son illərində vətən həsrəti ilə yaşadı. 2012-ci ildə dünyasını dəyişərək İmişli rayonunun Telişli kənd qəbirstanlığında dəfn olunmuşdur. Heyf ki, torpaqlarımızın azad olunduğu günü görmədi. Onun haqqında olan fikirlərimi nənəmin öz bayatıları ilə tamamlayıram:

Ata kişmiş kimidi,
Civə düşmüş kimidi.
Ata qızın tacıdı,
Qız ata möhtacıdır.

Dağ başında qar mənəm,
Gün vursa, ərimərəm.
Qəbrimi yol kənarında qazın,
Qəribəm, çürümərəm.

Dağların lalasıynan,
Gülüynən, lalasıynan.
Bir qardaşımız ölüb,
Yanında bir cüt balasıynan.

Dağları gəzdim gəldim,
Güllərin üzdüm, gəldim.
Sizi gəzib tapmadım,
Əlimi üzdüm, gəldim.

**Zərxara xatunun toxuma əl işləri**



*Zərxara nənəm tərəfindən*
*Ruqiyyə xatuna cehiz verilən qədim xurcun*



*Zərxara nənəmin nadir əl işi olan xalça*
*anam Ruqiyyə xatuna cehiz vermişdir*



*Zərxara nənəmin əl işi olan yüküstü örtük*



*Zərxara nənəmin əl işi olan bədii tikmə nümunəsi*



**Süleyman Fərzəli oğlu Fərzəliyev**

Süleyman Fərzəliyev 1928-ci ildə Narınclar kəndində anadan olmuşdur.

Narınclar kənd orta məktəbində ibtidai təhsil almışdır. Təsərrüfata aid olan bütün işlərdə fəal iştirak etmişdir. Hər işdə bacarığı və qoçaqlığı ilə tanınırdı. Əmək və zəhməti ilə işlərin öhdəsindən gəlirdi.

Süleyman Fərzəliyev çoban, xam ata baxmaq, ot yığımı, taxıl biçini, maldarlıqda ferma müdiri işləmişdir. Tapdıq, Kamilə, İradə, Arif adında övladları doğulmuşdur.

Süleyman kişinin nəvələri təhsil və fəaliyyətində el-obasının, Qarabağın adına layiq olmuşlar.

Süleyman Fərzəliyev  2020-ci il yanvarın 23-də  tarixində vəfat etmişdir.



**Talış Məhəmməd oğlu Məmmədov**

Talış Məmmədov 1928-ci ildə Nannclar kəndində anadan olub. İbtidai və orta təhsilini Narınclar kənd orta məktəbində alıb.

Onun uşaqlıq hayatı və gənclik dövrü çox keçməkeşli keçmişdir. Sovet dövrünün qanlı-qadalı illəri, cəza tədbirləri bu ailənin taleyindən yan keçməmişdi. Anası Nərgiz xanım qayınatası Kərbəlayı Lətifə görə körpə övladları ilə birlikdə sürgün həyatı yaşamışdır. Babası Kərbəlayı Lətif və atası Məhəmməd kişi repressiya qurbanı olmuşdur.

Talış Məmmədov Məhərrəm babam və Məhərrəm əmimin himayəsində diqqət və qayğı görmüşdür. Bir zillətlə, müşküllə anası Talışı qucağında Azərbaycana gətirir. İki övladı isə tələf olur. Usub kişinin övladları - Məhərrəm, Məhəmməd və Hümmət babam ana-balanın qayğısına qalırlar. Repressiya dövrünün ağır şərtlərinə görə Hümmət babam gecə ilə gizli hər cür təminatını ödəyirdi. Çünki, heç kim bilməməli idi ki, Kərbəlayı Lətifin gəlini ilə nəvəsi kənddə yaşayır. Məxfi minvalla Talış Məmmədov böyüyüb ərsəyə çatdırılır. Bunlara rəğmən Məhərrəm babam bu işə görə Şuşa türməsində həbsdə yatıb. Nərgiz xanım erkən vəfat etdiyinə görə Talış Məmmədovun saxlanması Fatma nənəmiz və övladlarının nəzarətində

olur. Bu yaxın qohumluq əmanətinin öhdəsindən məsuliyyətlə gəlirlər. Ağsaqqal və ağbirçəklərin qoyduğu qohum-əqrəba adət-ənənəsini gənc nəsil də qoruyub saxlamalıdır. Dədə-babaların qoyduğu el yolunu getməyəndə, xeyir-bərəkət olmur.

O, 7 illik orta məktəbi bitirdikdən sonra Bərdə rayonunda yaşayan Əli əmisigilə gəlir. Talış Məmmədov Bərdədə Mexanizatorluq məktəbini bitirib.

Qaratəpə kolxozunda Partiya Təşkilatı katibi, baş mexanik, pambıq və bostan briqadiri vəzifələrində işləyib. O, Bərdə avtomobil parkında da çalışıb.

Talış Məmmədov 1958-ci ildə Xanım Məmmədova ilə ailə həyatı qurub. Bu nigahdan Sevda, Baxşeyiş, Nərgiz, Xanlar, Fəxrəddin, Leyla və Günəş adında övladları var.

Talış Məmmədov 2016-cı ildə vəfat edib.



### Əşrəf Məhərrəm oğlu Məmmədov

Əşrəf Məmmədov 1934-cü ildə Narınclar kəndində anadan olub. Əşrəf əmim ibtidai təhsilini (I-IV siniflər) Narınclar kəndində, sonra isə Qaratəpə kəndində orta təhsilini davam etdirmişdir. Orta ixtisas təhsili alıb. Bakı Ticarət Texnikumunu bitirib. 1957-1961-ci illərdə ticarətin iqtisadiyyatı ixtisası üzrə tam kursu bitirmişdir. Əşrəf əmim əmək fəaliyyətini ferma müdiri kimi başlamış,sonra isə ticarət sahəsində işləmişdir. 1975-1986-cı illər ərzində ticarət sahəsində işləmişdir. Əşrəf əmim Pürüzə xanımla ailə həyatı qurmuşdur. Bu nigahdan Pürüzə bibimdə həyat yoldaşı ilə çiyin-çiyinə kişi qeyrəti ilə övladlarını ərsəyə çatdırmışlar. Əşrəf əmim 12 il iflic xəstəliyindən əziyyət çəkmişdir. Ailə qayğıları Pürüzə bibimin üzərinə düşmüşdür. Mən yaxşı xatırlayıram. Əmim hər yay Şuşaya gələrdi. Atam əmimin müalicəsinə diqqət və həssaslıqla yanaşardı. Anam Əşrəf əmimin qayğısına xüsusi qalardı. Heç yadımdan çıxmaz, əmim, bir əlində çəlik, bir əlindən də məni tutub Şuşada Güllü parkda gəzərdik. Əmim yaddaşımda şirin xatirəli, baməzə, xoşsimalı obrazda qalıb. Kənddən mənə yoldaşlıq məktubları yazardı. Əşrəf Məmmədov 1953-cü ildə Firuzə Musa qızı ilə ailə həyatı qurmuşdur. Bu nigahdan Stanbul, Ulduzə, Nadir, Rüsxarə, Lətafət, Sədrəddin adında övladları olmuşdur. Əşrəf Məmmədov 1986-cı il 23 iyunda Narınclar kənd qəbirstanlığında dəfn olunmuşdur.



**Əjdər Məhərrəm oğlu Məmmədov**

Məmmədov Əjdər Məhərrəm oğlu 1935-ci ildə Narınclar kəndində kolxozçu ailəsində anadan olmuşdur. Atası Məmmədov Məhərrəm Yusif oğlu, anası Məmmədova Səkinə Abdulla qızı kəndli olubdur. H.Aslanov adına Narınclar kolxozunun üzvü olublar.

1942-ci ildə Narınclar kənd ibtidai məktəbinin 1-ci sinifinə daxil olmuşdur. 1952-ci ildə Ağdam rayonunun Boyəhmədli kənd orta məktəbini əla əxlaq və müvəffəq qiymətlərlə bitirmişdir. 1952-ci ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun baytarlıq fakultəsinin I kursuna daxil olmuşdur. İnstitututda 3 il kurs komsomol təşkilat katibi və digər ictimai işlərdə çalışmışdır. 1957-ci ilin iyul ayında institutu əla əxlaq və müvəffəq qiymətlərlə bitirərək, Azərbaycan Kənd Təsərrüfat Nazirliyinin təyinatına əsasən, 1957-ci ilin avqust ayının 5-dən 1958-ci ilin mart ayının 17-nə kimi Narınclar kəndinin H.Aslanov adına kolxozunda baytar həkimi vəzifəsinda işləmişdir. 1958-ci ilin mart ayının 17-də Şuşa Kənd Təsərrüfat Texnikumuna müəllim təyin olunub. Eyni zamanda 17 iyul 1958-ci Şuşa rayonu üzrə Baş baytar həkimi işləyib. Sov. İKP MK-nin çağırışı ilə “Xam Torpaq”da mə0hsul toplanılmasında iştirak etməklə “Xam Torpaq fatehi” adı və döş nişanı ilə təltif olunmuşdur. 4 may 1959-cu il tarixdə DQMV-nin PK-nin Mardakert rayon partiya komitəsinin, Narınclar H.Aslanov kolxozunun ümumi yığıncağının qərarı ilə kolxoz sədri seçilmişdir. 8 oktyabr 1963-cü ildə Kənd Təsərrüfatı Nazir-

liyinin təyinatı ilə Ağdam rayonunun M.F.Axundov adına sovxozuna baş baytar həkimi təyin olunmuşdur. 15 sentyabr 1965-ci ildə Kənd Təsərrüfatı Nazirliyinin təyinatı ilə Şuşa Kənd Təsərrüfatı Texnikumuna müəllim təyin olunmuşdur. Azərbaycan Kənd Təsərrüfatı Nazirliyinin 03 oktyabr 1977-ci il tarixli 209 No-li əmrinə əsasən həmin texnikumun direktorunun tədris işləri üzrə müavini təyin edilmişdir. 1968-ci ildə N.E.Bauman adına Kazan Baytarlıq İnstitutunu, 1975-ci ildə Xarkov Zoobaytarlıq İnstitutunun İxtisasartırma fakultəsini bitirmişdir. 1973-76-cı illərdə "Kənd təsərrüfatı məhsullarının toplanışı və tədarükü zərbəçisi", "Sosializm yarışının qalibi" Döş nişanı ilə təltif olunmuşdur. 1982-ci ildə Azərbaycan-KP MK-nin Marksizm-Leninizm Universitetini bitirib. 1985-ci ildə Moskva K.İ.Skryabin adına Akademiyanın pedaqoji fakultəsini bitirib.

1984-cü ildə uzun müddət vicdanlı və qüsursuz əməyinə görə SSSR Ali Sovetinin qərarı ilə "Əmək ordeni" medalı ilə təltif olunub. Baş leytenant rütbəsi alıb.

Əjdər Məmmədov təbiəti mühafizə tədbirlərində fəal iştirakına görə fəxri fərmanlar, diplomlar, tələbə-inşaat dəstəsinin inşa etdiyi social-mədəni obyektlərində göstərdiyi aktivliyə görə fəxri fərman və təşəkkürnamələrlə təltif edilmişdir. O, "Xam torpaq" açıqla qəhrəmanlıq epopeyasında fəal iştirakı gəncər üçün bir örnək olmuşdur. Eyni zamanda, o, "30 xam torpaqçı" "Gəncin Bilik Dəstəsi"nə rəhbərlik etmişdir. Dövrün mətbu orqanlarında Ə.Məmmədovun fəaliyyəti geniş işıqlandırılmış və əməyinə yüksək qiymət verilmişdir. Onun əməyini o dövrdə hökümət zərbəçi əmək ilinin qələbəsində rolunu yüksək qiymətləndirilmişdir.

Azərbaycan SSR Kənd Təsərrüfatı Nazirliyinin 16.07.85-ci il tarixli 429 saylı əmri ilə Şuşa Kənd Təsərrüfatı Texnikumuna müdir təyin edilmişdir.

Məlum hadisələrə görə 1998-ci ildən məcburi köçkün kimi İmişli şəhərində məskunlaşmışdır.

Azərbaycan Kənd Təsərrüfatı Nazirliyinin əmri ilə 24 sentyabr 1998-ci il tarixdən Respublika ali, orta ixtisas və peşə təhsili üzrə Tədris-metodika kabineti müdirinin müavini vəzifəsinə təyin edilmişdir.

Texniki təlim vasitələrinin tətbiqinə aid üç yaradıcılıq işi, 10-a qədər təlimat, metodiki işləmələri texnikumda uğurla tətbiq edilmişdir.

Əjdər Məmmədov 1964-cü il dekabrın 25-də Ruqiyyə xanım Hümbət qızı ilə ailə həyatı qurmuşdur. Bu nigahdan Malik, Xaliq, Nizami, Aynurə adında övladları olmuşdur. Qarabağın ağsaqqalı, görkəmli ziyalı Əjdər Məmmədovun nəvələri öz bilik və bacarıqları ilə babasının adını, şan-şöhrətini ləyaqətlə uca tuturlar.

**Əjdər Məmmədovun təltifləri:**







***Əjdər Məmmədov (sağdan birinci) xam torpaqçı gənclərlə birlikdə***



## İnqilab Abdulla oğlu Baxşəliyev

İnqilab Baxşəliyev Narınclar kəndində 1935-ci ildə (pasportla 1935, əslində 1932-ci il) anadan olmuşdur. Orta təhsilini Narınclar və Manikli kənd məktəblərində başa vurduqdan sonra Şuşa Kənd Təsərrüfatı Texnikumuna daxil olmuşdur. Zootexnik ixtisasına yiyələnmişdir. Əmək fəaliyyətinə 1950-ci ildən Həzi Aslanov adına Narınclar kolxozunda başlamışdır. 1950-1998-ci illər zootexnik, briqadir, ferma müdiri vəzifələrində qabaqcıl işçi kimi tanınıb. Kommunist Partiyasının üzvü olub.

Məlum hadisələrlə əlaqədar Narınclar kolxozu erməni quldurlarının hücumuna məruz qalmışdır. Azərbaycan Respublikasının Qarabağ bölgəsində və başqa rayonlarında erməni hərbi birləşmələrinin təcavüzü nəticəsində zərər çəkmiş vətəndaşın həlak olması, yaxud səhhətinin başqa cür zədələnməsi haqqında 372 saylı aktında (05.08.1991) göstərilən faktdan məlum olur ki, Narınclar kənd H. Aslanov adına sovxozun qoyun sürüsünü otaran zaman erməni quldurları tərəfindən odlu silahla sağ diz oynağından yaralanmışdır. Ağır vəziyyətdə Kəlbəcər rayon Mərkəzi rayon xəstəxanasına aparılmışdır. Həmin xəstəxanadada 1991-ci ilin 19 iyulundan 3 avqustunadək stasionar müalicə kursu keçmişdir.

İnqilab Baxşəliyev sovxozun fermasını erməni qarətindən qoruyub, İmişli rayonuna gətirib çıxarmışdır. Bir müddət İmişlidə qaldıqdan sonra oğlu Bərdədə ev alıb ora köçürür. Ömür-gün yoldaşı vəfat edəndən sonra Bakıda uşaqların yanında qaldı. İnqilab kişi mülayim, xoş söhbətli, fikirlərini, arzularını səmimi bölüşən xoşxa-siyyət bir ağsaqqal kimi yadımda qalıb.

İnqilab Baxşəliyev 1953-cü ildə Xədicə Yunis qızı Rəhimova ilə ailə həyatı qurmuşdur. Bu nigahdan Xatirə, Şakir və Yeganə adında övladları olmuşdur.



**Kamran Əziz oğlu Tahirov**

Kamran Tahirov 1935-ci ildə Narınclar kəndində anadan olub. Narınclar 7 illik kənd orta məktəbində təhsil alıb. Ağdərə rayonu Qərvənd kənd məktəbində orta təhsilini bitirib.Kamran Tahirov ilk əmək fəaliyyətinə Narınclar kənd kitabxanasında başlayıb. Təhsilini Şuşa Rayon Pedoqoji Texnikumunun İbtidai sinif təhsilinin metodikası ixtisasında davam etdirib və ömrünü bu şərəfli peşəyə həsr edib.

Kamran Tahirov 1964-cü ildən Narınclar kənd orta məktəbində pedaqoji fəaliyyətə başlayıb. Kamran müəllim Bahadur müəllimdən sonra gənc nəslin yetişməsində xüsusi rolu olub və 2006-cı ildə təqaüdə çıxıb. Kamran müəllimin Tahirov Əlövsət, Vüqar, Hikmət, Şəlalə, Hüsniyyə adında tərbiyəli övladları var.

Onun qardaşı Kamal Tahirov Şuşada Kənd Təsərrüfatı Texnikumunda Zootexnik ixtisasını bitirib.

O, Gümüş Süleyman qızı ilə ailə həyatı qurmuşdur. Bu nigahdan Əlövsət Bayram, Novruz, Rövşən, Tükəzban, Çiçək, Nərgiz, Səmərqə, Qəndəb adında övladları anadan olmuşdur. Bayram müəllim Narınclar kənd orta məktəbində dərs deyir. Kamran müəllimin oğlu Əlövsət Tahirov I Qarabağ müharibəsində qəhrəmancasına şəhid olmuşdur. Döyüşlərdə göstərdiyi igidlik və qəhrəmanlığı dillər əzbəri olmuşdur.



## İdris Novruzəli oğlu Baxşəliyev

İdris Novruzəli oğlu Baxşəliyev 1935-ci ildə Narinclar kəndində anadan olub.

Atası Baxşəliyev Novruzəli Bəşir oğlu faşist Almanyasını Sovet İttifaqına hücumu zamanı vətənin müdafiəsinə yollanan mərd oğullardan biridir. O, 1941-1945-ci ilər böyük qəhrəmanlıq göstərərək həlak olmuşdur. Atası cəbhəyə getdikdən sonra anası Baxşəliyeva Şamma Fərəc qızı 4 uşağı zəhmətlə böyütmüşdür. Baxşəliyev İdris ailənin böyük övladı olduğuna görə, ailənin çətin zamanlarında anasına dəstək olmuşdur. Onun özündən başqa, Qönçə, Gülarə, Mürşüd adında bacı-qardaşı olub. Baxşəliyev İdris Narınclar kəndində ibtidai sinifi bitirdikdən sonra Ağdərə rayon Manikli Ağdam Rayon Qərvənd kənd məktəblərində orta təhsilini davam etmişdir. Orta məktəb bitirdikdən sonra Ağdam rayonunun Təsərrüfat Texnikumunun Mühasibat ixtisasını bitirmişdir və həqiqi hərbi xidmətə çağırılmışdır. Əsgərlik müddətində ailəsinə fəxri fərmanlar göndərilmişdir. Hərbi xidmətdə Komunist partiyasına qəbul olmuşdur. Hərbi xidmətdə paraşütçü olmuşdur. Sonra öz doğma kəndində H. Aslanov kolxozunda müxtəlif vəzifələrdə çalışmışdır. Həmkəndlisi Baxşəliyeva Pakizə Musa qızıyla ailə həyat qurmuşdur. Bu nigahdan Çingiz, Gülaba, Dilşad, Gündüz adında övladları olmuşdur .

İdris Baxşəliyev 1990-cı ildə vəfat etmiş, Narınclar kənd qəbirstanlığında dəfn olunmuşdur.



*Kamal Şükürov və Səmayə Şükürova*

## Kamal Əlastan oğlu Şükürov

1935-ci ildə Narınclar kəndində doğulub. 1942-ci ildə orta məktəbə gedib, 1951-ci ildə hərbi xidmətə çağrılıb. Moskvada 3 il hərbi xidmətdə olub.Yaxşı xidmətinə görə Komminist Partiyası sıralarına qəbul olunmuşdur. 1954-cü ildə hərbi xidmətdən qayıtdıqdan sonra Ağdam rayonunda Texniki peşə məktəbində qiyabi təhsil alaraq H.Aslanov kolxozunda işə başlayıb. 1957-ci ildə həmin kolxozun partiya təşkilatının katibi vəzifəsinə seçilib. Uzun müddət həmin kolxozun ferma müdiri işləyib. Məlum səbəblər I Qarabağ müharibəsi ailə üçün faciəvi oldu. Zahid döyüşlərdə qəhrəmancasına Şəhid oldu. Nişanlı olan Zahid Şükürov toyuna 20 gün qalmış şəhid oldu.

Kamal Şükürov 2010-cu il mayın 18 də dünyasın dəyişdi.



**Zakir Məhərrəm oğlu Məmmədov**

Məmmədov Zakir 25 noyabr 1936-cı ildə Narınclar kəndində anadan olub.

Orta məktəb haqqında sənədlər yoxdur. 1955-1959-cu illər Şuşa Pedaqoji məktəbində "İbtidai məktəb müəllimi" ixtisası üzrə təhsil alıb.

1960-1963-cü illərdə Leninqrad şəhərində hərbi xidmət keçib. Baş çavuş rütbəsi ilə təxris olunub.

1963-1967-ci illərdə M.F.Axundov adına Azərbaycan Pedaqoji İnistutunun Rus dili və Ədəbiyyat fakültəsində qiyabi təhsil alıb.

1964-1980-ci illərdə Nareştar kənd orta məktəbində müəllim, 1980-1987-ci illərdə həmin məktəbin direktoru işləyib.

1987-1992-ci illərdə həmin kənddə Həzi Aslanov adına kolxozun direktoru vəzifəsində işləyib.

1994-1996-cı illərdə Kəlbəcər rayonu Narınclar kənd H. Aslanov adına sovxozun direktoru işləyib.

1997-1999- cu illərdə həmin kənddə müəllim işləyib.

1999-2012-ci illər Kəlbəcər rayonu Ə.Tahirov adına 29 saylı tam orta məktəbin direktoru işləyib, sonra təqaüdə çıxıb.

21 fevral 2019-cu ildə rəhmətə gedib.



**Həsən Hüseyn oğlu Rüstəmov**

Həsən Rüstəmov 1936-cı ildə Narınclar kəndində anadan olub.

Narınclar kənd məktəbində ibtidai təhsil alıb, yuxarı sinifləri isə Şuşa şəhər 3 saylı orta məktəbində oxuyub. O, təhsilini davam etdirərək, Şuşada Muhasibat uçotu ixtisasına yiyələnmişdir.

Həsən Rüstəmov Bakıda Ali Partiya məktəbini bitirmişdir. Burada təhsil aldığı illərdə həm də işləyib.

Həsən Rüstəmov xeyli müddət kənd sovet sədri və katib işləmişdir. Kargüzarlıq işlərində zəngin təcrübəsivar idi. O, işlədiyi sahədə bilik və bacarığı ilə hörmət qazanmışdır.

Həsən Rüstəmov 1957-ci ildə Səltənət Məhərrəm qızı Məmmədov ilə ailə həyatı qurmuşdur. Bu nigahdan Arzu və Sevinc adında övladları doğulmuşdur.

Həyat yoldaşı Səltənət xanım 1985-ci ildə vəfat etmişdir.

Həsən Rüstəmov 1992-ci ildə yol qəzasında həlak olmuşdur.



**Hidayət İbrahim oğlu Baxşəliyev**

Hidayət Baxşəliyev 1937-ci ildə Narınclar kəndində anadan olub.

Narınclar və Xındırıstanda orta təhsil almışdır. Gəncədə Mühasibat uçotu ixtisasına yiyələndikdən sonra Xalq Təsərrüfatı İnistutunun iqtisadçı-mühasib ixtisası üzrə qiyabi təhsil alır.

O, mühasib, katib, sovet sədri, kolxoz sədri, baş mühasib, baş iqtisadçı vəzifələrində işləmişdir.

1996-cı ildə təqaüdə çıxmışdır.

Tilya xanımla ailə həyatı qurmuşdur. Bu nigahdan sonra İlya, Fəridə, Zemfira, Qərənfil, Roza, Təranə, Xoşqədəm, Nəsibə, Ələmdar, Aynurə adında övladları olmuşdur.

İlya 2002-ci il (25 dekabr), Qərənfil 2003-cü il (29 noyabr) və Taleh dünyasını dəyişmişdir.



## Sabir İbrahim oğlu Baxşəliyev

Baxşəliyev Sabir İbrahim oğlu 1937-ci ildə Narınclar kəndində anadan olub. 1945-ci ildə Narınclar kənd orta məktəbinin 1-ci sinifinə daxil olmuşdur. Orta məktəbi bitirib, hərbi xidmətə getmiş, sonra isə Şuşa Kənd Təsərrüfat Texnikumuna daxil olaraq baytar həkimi ixtisasına yiyələnmişdir. Texnikumu bitirdikdən sonra Ağdərə rayonu Narınclar kənd heyvandarlıq kolxozunda baytar həkimi işləməyə başlayıb. 2001-ci ilə qədər Narınclar heyvandarlıq təsərrüfatında baytar həkimi işləmişdir.

2004-cü ildə vəfat etmişdir. 6 övlad atasıdır. Övladlarından üçü ali təhsillidir.



**Mirzə Fərzəli oğlu Fərzəliyev**

Mirzə Fərzəliyev 1937-ci il 31 martda Narınclar kəndində anadan olub.

Narınclar kənd məktəbində orta təhsil almışdır. O, 17 yaşında kənddən çıxmış, həyat və fəaliyyəti Bakı ilə bağlı olmuşdur.

Mirzə Fərzəliyev texniki peşə və texnikum üzrə orta ixtisas təhsili almış, qida sənayesi üzrə ixtisasa yiyələnmişdir. Təhsilini başa vurduqdan sonra ticarətlə məşğul olmuşdur. Xeyli müddət mağaza müdiri işləmişdir.

Mirzə Fərzəliyev 1963-cü ildə Səyyarə xanımla ailə həyatı qurmuşdur. Bu nigahdan Elxan, Esmira, Fərzalı adında övladları doğulmuşdur.

Mirzə Fərzəliyevin nəvələri xaricdə təhsil almışlar və öz sahələrində uğurlara imza atmışlar.

Mirzə Fərzəliyev 1998-ci il 31 martda vəfat etmişdir.



**Mamed Əhməd oğlu Mamedov**

Mamed Mamedov 1938-ci il mayın 10-da Narınclar kəndində anadan olub.

Narınclar kənd məktəbində 1945- 1953-cü illərdə 8 illik orta təhsil almış, 1960-1963-cü illər ərzində hərbi xidmətdə olmuşdur.

Mamed Mamedov 1965-ci ildə Əliyeva Saray Qənimət qızı ilə ailə həyatı qurub. 8 övladı olub: Arifə, Elza, Pərvanə, Əlzadə, Gülbəniz, Əlzamin, Habil və Vəkil.

Mamed kişinin anası Bəyim nənə və Saray xanımın anası Tavat nənə sadə, zəhmətkeş bir insan olaraq elin yaddaşında qalmışdır.

Mamed Mamedov Narınclar kəndində təsərrüfat briqadiri vəzifəsində işləmişdir.

Mamed kişi mehriban, duzlu, şirin söhbətləri ilə camaatın hörmətini qazanmışdır.



**Xurşud İbrahim  oğlu Baxşəliyev**

Xurşud Baxşəliyev 1941-ci ildə Narınclar kəndində anadan olub.

Narınclar kənd orta məktəbində təhsil almış, Bərdə Mexanizasiya və Şuşa Kənd Təsərrüfatı Texnikumunu bitirmişdir. Eyni zamanda, arıçılıq peşəsinə də yiyələnmişdir.Xurşud Baxşəliyev 1974-cü ildə Azərbaycan Dövlət Pedaqoji İnstutunun qiyabi şöbəsində İbtidai Təhsil pedaqogikası və metodikası ixtisası üzrə bitirmişdir. O, 1952-ci ildə Həzi Aslanov adına kolxozda əmək fəaliyyətinə başlamışdır.

Xurşud Baxşəliyev 1962-1972-ci illər ərzində Narınclar kənd orta məktəbində müdir vəzifəsində çalışıb. Xurşud Baxşəliyev 1976-1987-ci illərdə ferma müdiri işləyib. O, 1991-ci ildə Şuşa rayonlararası Ekologiya Nəzarət Komitəsində müfəttiş, 1992-2001-ci illərdə isə sovxozda manqa briqadiri işləyib. 2002-2003-cü illərdə Şuşa Regional İdarəsində mütəxəssis kimi fəaliyyət göstərib. 2003-cü ildə Sarıyel fermer təsərrüfatına rəhbərlik etmişdir. Xurşud Baxşəliyev 1958-ci ildə Ulduz Rüstəm qızı İbrahimova ilə ailə qurub. Sədaqət, Nazilə, Fazilə, Natiq, Namiq, Salim adında övladları var. Xurşud Baxşəliyev 2020-ci il dekabrın 15-də vəfat etmişdir.

Ağdam rayon Aşağı Çullu kənd qəbirstanlığında dəfn olunmuşdur.



## Ruqiyyə Hümbət qızı Məmmədova

Məmmədova Ruqiyyə Hümbət qızı 10 iyun 1947-ci ildə Narınclar kəndində kolxozçu ailəsində anadan olmuşdur. Atası Məmmədov Hümbət Usub oğlu 1910-cu ildə Narınclar kəndində anadan olmuşdur. Anası Məmmədova Zərxara Abdulla qızı 1928-ci ildə Narınclar kəndində anadan olmuşdur.

1953-cü ildə Narınclar kəndində 7 illik məktəbin 1-ci sinifinə daxil olmuşdur. 1960-cı ildə 7-ci sinifi qurtarıb, 8-ci sinifi Ağdam rayonunun Qərvənd kəndində oxumuşdur. 1960-1961-ci tədris ilində M.Əzizbəyov adına Şuşa pedoqoji texnikumun məktəbəqədər şöbəsinə daxil olmuşdur.1965-ci ildə həmin texnikumu əla qiymətlərlə bitirmişdir. 1968-ci ildə M.H.Vəzirov adına Şuşa Pedaqoji Texnikumunda laborant vəzifəsində çalışmışdır. 1968-ci ildə Həsən bəy Zərdabi adına KDPİ-nun dil-ədəbiyyat şöbəsinə daxil olmuşdur. 1973-cü ildə Şuşa 72 №li texniki peşə məktəbinə dil-ədəbiyyat müəllimi təyin olunmuşdur.

1985-ci ildən Baş müəllim adına layiq görülmüşdür.

1992-ci ildə Qarabağ hadisələrinə görə məcburi köçkün düşmüşdür. 30 oktyabr 1992-ci il tarixdən Kəlbəcər rayonunun Narınclar kənd orta məktəbinə dil-ədəbiyyat müəllimi təyin olunmuş, həmin ildən etibarən direktorun təlim-tərbiyyə işləri üzrə müavin vəzifəsində işləmişdir.

2005-ci ildən təqaüdə çıxmışdır. Hal-hazırda təqaüddədir.



**Bünyad Hümbət oğlu Məmmədov**

Məmmədov Bünyad Hümbət oğlu 1948-ci ildə Narınclar kəndində anadan olmuşdur. 1966-cı ildə Ağdam rayon Qərvənd kənd orta məktəbinin 11-ci sinfini bitirmiş. 1968-ci ildə Leninqrad (indiki Sankt-Peterburq) şəhərində həqiqi hərbi xidmətdə olmuş, ordudan təxris olduqdan sonra 1971-ci ildə Xankəndi şəhərində daxili işlər orqanlarında sıravi polis nəfəri kimi xidmətə başlamışdır. 1975-ci ildə SSRİ Daxili İşlər Nazirliyinin Bakı Orta Xüsusi Milis Məktəbinə qəbul olunmuş, 1977-ci ildə həmin məktəbi fərqlənmə ilə bitirib, leytenant rütbəsi ilə Xankəndi şəhər Milis Şöbəsinə sahə müvəkkili kimi qayıtmışdır. 1979-cu ildə SSRİ Daxili İşlər Nazirliyinin Milis Akademiyasında təhsil almış. 1981-1984 -cü illərdə Ağdərə rayonunda cinayət- axtarış inspektoru, 1985-1988-ci illərdə Şuşa şəhərində Milis şöbəsində rəis müavini, 1988-ci ilin sentyabrından Daqlıq Qarabağ Daxili İşlər İdarəsində əməliyyat üzrə rəis müavini təyin olunmuşdur. 1989-cu ilin dekabr ayında Füzuli rayon Milis şöbəsinə əməliyyat üzrə rəis müavini təyin olunub. 1992-ci ilin fevral ayında Füzuli rayon polis şöbəsinin rəisi vəzifəsinə təyin olunmuş, 2008-ci ilin noyabr ayından təqaüdə çıxmışdır. Polis polkovnikidir. Dağlıq Qarabağ və onun ətrafında gedən döyüşlərdə iştirak etmişdir.

Müharibə veteranıdır. Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin Sərəncamı ilə "İgidliyə görə" medalı ilə təltif olunmuşdur. Orqanlarda işlədiyi müddətdə qüsursuz xidmətinə görə fərqlənmişdir.

Bünyad Məmmədov 1980-ci ildə Amaliya xanımla ailə qurub, Akim, Elnurə, Bəxtiyar, Füzuli adında övladları var.

## Təltif olunduğu mükafatlar









**Vilayət Şiraslan oğlu Quliyev**

Quliyev Vilayət 1948-ci ilin iyun ayının 1-də Narınclar kəndində anadan olub. 1955-ci ildə orta məktəbin birinci sinifinə qəbul olmuşdur. 1963- cü ildə 8-ci sinifi, 1965-ci ildə Ağdam 1saylı məktəbi bitirmişdir.

1967-1970-ci ildə Hərbi xidməti başa vurub Bakı Politexnik Texnikumuna daxil olub. Texnikumu bitirdikdən sonra Bakı şəhər Kommunal Təsərrüfat sahəsində çalışmışdır. Ailəlidir, 5 övladı var. Kiçik övladı Tural II Vətən müharibəsində Füzuli və Xocavənd uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşmuşdur.

Vilayət Quliyev Bakıda yaşasada, el-obasını ziyarət etmişdir.



**Yusif Məhərrəm oğlu Məmmədov**

Yusif Məmmədov 1950-ci ildə Narınclar kəndində anadan olub. 1965-ci ildə Narınclar kənd orta məktəbini bitirib.

Yusif Məmmədov 1968-ci ildə Şuşa Kənd Təsərrüfatı texnikumunun santexnik ixtisasına daxil olub. 1970-72-ci illərdə hərbi xidmətini başa vurub. Hərbi xidmətini çəkəndən sonra təhsilini davam etdirərək, 1975-ci ildə bitirib.

Yusif Məmmədov 1976-cı ildə Narınclar H.Aslanov adına kolxozda zootexnik işləyib. 1992-ci ildə məcburi köçkün düşərək, Yevlaxın Kolanı kəndində məskunlaşıb, özünün fərdi təsərrüfatı ilə məşğul olub.

Y.Məmmədov 1976-cı ildə Bəsti İsmayıl qızı ilə ailə qurub. Bu nigahdan Elşən, Zibəndə, Eyzangül, Murad, Arifə adında övladları var.



**Yusif Bahadur oğlu Fərzəliyev**

Yusif Fərzəliyev 1951-ci ildə Narınclar kəndində doğulub. Ağdam rayonunun Şıxbabalı kəndində orta təhsilini bitirmişdir. 1974-cü ildə BDU-nun tarix-coğrafiya ixtisasını bitirdikdən sonra Çərəkdar kənd orta məktəbi və Xankəndi 4 saylı orta məktəbdə tarix müəllimi işləyib. 1976-cı ildə Xankəndi Pedaqoji İnstitutunda müəllim işləyib. Məlum hadisələrlə əlaqədar ADPİ-nun Şuşa filialında, daha sonra Ağcabədi rayonunda müəllimlik fəaliyyətini davam etdirib.

Azərbaycan Dövlət İqtisad Universitetinin Azərbaycan tarixi kafedrasında müəllim, dosent vəzifələrində işləyir.

1980-cı ildən Tahirə xanımla evlidir, Altay, Aynur, Günay, Türkan adında övladları var.



## Qamboy Hümbət oğlu Məmmədov

Qamboy Məmmədov 1951-ci il oktyabrın 1-də Narınclar kəndində anadan olub. 1968-ci ildə Narınclar kənd 8 illik məktəbi bitirmiş, 1969-cu ildə Şuşa Kənd Təsərrüfatı Texnikumunun baytarlıq ixtisasına daxil olmuş, 1973-cü ildə oranı bitirmişdir.

1973-75-ci illərdə hərbi xidmətdə olmuşdur. Hərbi xidmətdə nümunəvi əsgərlik keçmişdir.

1975-2001-ci illər ərzində H.Aslanov adına Narınclar kolxozunda baytar həkimi işləmişdir. Əmək fəaliyyətinin nəticələrinə görə fəxri fərmanla təltif edilmişdir. Aqrar sektorda özəlləşdirmə nəticəsində kolxoz quruluşu ləğv edildikdən sonra Qamboy Məmmədov 2001-ci ildən fermer təsərrüfatına rəhbərlik edir.

Qamboy Məmmədov el-obanın xeyir-şərində fəal iştirak edir. Bir insan kimi zəhmətkeş, qoçaq, eləcə də ünsiyyətcil, baməzə olan Q.M.mmədov digər müsbət keyfiyyətləri ilə seçilir.

Qamboy Məmmədov 1976-cı ildə Məhruzə Məhərrəm qızı Məmmədovla ailə həyatı qurmuşdur. Bu nigahdan onların İntiqam, Ceyran, Səkinə, Cənnət adlı övladları olmuşdur.



**Yelmar Cümşüd oğlu Baxşəliyev**

Yelmar Baxşəliyev 1953-cü il fevralın 19-da Narınclar kəndində qulluqçu ailəsində andan olmuşdur. O, Narınclar kənd məktəbinda oxumuş, 1969-cu ildə Ağdam rayon 1 saylı orta məktəbi bitirəndən sonra ADPİ-nin tarix fakültəsinə qəbul olunur. 1973-cü ildə məzun olub, 1981-ci ilədək Narınclar kənd orta məktəbində tarix müəllimi işləyir. 1981-1985-ci illər ərzində Ağdərə rayon komsomol komitəsinin 2-ci katibi vazifəsində çalışır. 1985-ci ildə Kəlbəcər rayon milis şöbəsi rəisinin müavini təyin olunur. 1990-cı ildə rayon ərazisində erməni kəşfiyyat qrupunun zərərsizləşdirilməsində mayor Y.Baxşəliyevin xidmətləri olmuşdur. 1995-ci ildə Bakı Dəmiryol Polis İdarəsində müxtəlif vəzifələrdə çalışmışdır. 2008-ci ildə Daxili İşlər naziri general Ramil Usubovun əmri ilə Nəqliyyatda Baş Polis İdarəsi rəisinin böyük köməkçi vəzifəsinə təyin edilir. 2011-ci ildə təqaüddədir.

Y.Baxşəliyev 1986-cı ildə Zenfira xanım Mahiyəddin qızı ilə ailə həyatı qurub. Bu nigahdan Faris, Esmira adında övladları anadan olmuşdur.



**Çingiz Hümbət oğlu Məmmədov**

Çingiz Hümbət oğlu Məmmədov 1961-ci il martın 20-də Narınclar kəndində anadan olub. 1979-cu ildə Şuşa şəhər 3 saylı internat məktəbini bitirmişdir. 1980-82-ci illərdə hərbi xidmətdə olmuşdur. 1987-ci ildə XDPİ-nin riyaziyyat üzrə müəllimlik peşəsinin tam kursunu bitirmişdir. Ç.Məmmədov qiyabi təhsil ala-ala müəllim işləyirdi. 1987-1996-cı tədris illərində Narınclar kənd orta məktəbinin direktor vəzifəsində çalışmışdır. Məlum hadisələrlə əlaqədar olaraq 1990-1992-ci illərdə könüllü özünümüdafiə dəstəsinin komandiri kimi kəndin müdafiəsinə rəhbərlik etmişdir.

1996-2001-ci ilə qədər H. Aslanov adına sovxozun direktoru vəzifəsini icra etmişdir.

1987-2014-cü ilə qədər seçki komissiyasının sədri vəzifəsini aparmışdır.

2001-2016-cı illərdə həmin məktəbdə riyaziyyat fənnini tədris etmişdir.

2016-cı ildən üzübəri Kəlbəcər rayon Narınclar kənd inzibati ərazi dairəsi üzrə sədr vəzifəsindədir.

Ç.Məmmədov 1987-ci il avqustun 9-da Zəminə Sabir qızı Baxşəliyeva ilə ailə qurub. Bu nigahdan onların Elmiz, Hümbət, İntizar, Orxan, Zərxara adında övladları olmuşdur.



**Çingiz İdris oğlu Baxşəliyev**

Çingiz Baxşəliyev 1961-ci il aprelin 16-da Narınclar kəndində anadan olub.

1968-1978-ci illərdə təhsil alıb. 1979-cu ildə Şuşa Sovxoz Texnikumuna daxil olub, 1982-ci ildə bitirib.

1984-cü ildə ailə həyatı qurub. 1985-ci ildə Gəncə Kənd Təsərrüfatı İnstitutunun Baytarlıq fakültəsinə daxili olub, 1991-ci ildə fərqlənmə ilə bitirib. Həzi Aslanov adına sovxozda baş həkim kimi fəaliyyətini davam etdirib. Məlum səbəblərdən doğulub boya-başa çatdığı kənddən məcburi köçkün düşərək İmişli rayonunda məskunlaşmış və orda baytar həkim kimi fəaliyyət göstərib. 2003-cü il iyul ayının 24-də ağır xəstəlikdən vəfat edib.



**Malik Əjdər oğlu Məhərrəmov**

Çarpayımı bəzərəm,
dörd yanında gəzərəm
Gəlib səni tapmaram, ay Malik,
Baş götürüb ölkə-ölkə gəzərəm.
Əziziyəm, bala dağı,
Yandırdı məni bala dağı,
Xoş avazlı bülbül idin,
Susdurdu bala dağı,

Qarabağda talan var.
Zülfün üzə salan var.
Getmisən tez qayıt, gəl,
Gözü yolda qalan var.
Ay Malik, bilirəmki xəstəsən,
Ayağa dur, yataq sənə yaraşmır.
Dağ oğlusan, səndə qartal əzmi var.
Bu daş qəfəs sənə yaraşmır.

1965-ci il oktyabrın 10-da Narınclar kəndində anadan olub. 1972-ci ildə Şuşa şəhər 4№li orta məktəbin 1-ci sinifinə daxil olmuşdur. 1979-cu ildə həmin məktəbin 8-ci sinifini bitirmişdir. Həmin ildə Sabir adına Bakı Pedaqoji Texnikumuna daxil olmuş, 1982-ci ildə həmin texnikumu əla qiymətlərlə bitirmişdir. 1985-ci ildə Narınclar kənd orta məktəbinə təyinatla müəllim təyin olunmuşdur. 1986-1987-ci illərdə Moskva şəhərinin Odinçovski rayonunda hərbi xidmətdə olub. Xidmətdən sonraöz pedaqoji fəaliyyətini Narınclar kəndində davam etdirmişdir.

1991-1995-ci illərdə Nəsrəddin Tusi adına Pedaqoji Universitetində təhsil almışdır.

1992-1995-ci illərdə təyinat üzrə İmişli rayon 2 saylı orta məktəbində müəllim işləyib. Həmin ildə Narınclar 29 saylı kənd orta məktəbinə müəllim, 1997-ci il iyul ayından məktəbə direktor təyin olunub. 1999-cu ildə xəstəliyinə görə öz ərizəsi ilə işdən azad olub.

2000-2003-cü illər ərzində Dağıstan Dövlət Universitetinin Bakı filialında işləyib.

Birinci Qarabağ müharibəsinin qazisi olub, 2016-cı il noyabrın 29-da dünyasını dəyişib.





***Malik Məhərrəmov Sovet ordusu sıralarında hərbi xidmətindən xatirə şəkilləri***



**Elçin Rəşid oğlu Məmmədov**

Məmmədov Elçin Rəşid oğlu Narınclar kəndində anadan olub. 1984-1986-cı illərdə Almaniyada tank qoşunları alayında xidmət edib. Hərbi xidməti başa vurduqdan sonra 1986-1989-cu illərdə Ağdam rayon Kənd Təsərrüfatı Texnikumunu bitirib. 1990-cı ildə Xocalı milis bölməsinin ilk əməkdaşlarından biri olub. Xocalı faciəsindən əvvəl isə torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə vurulmuşub. "Boz dağ", "Noragux", "Həsənabad", "Əsgəran" və digər əməliyyatlarda yaxından iştirak edib və düşmənin xeyli canlı qüvvəsini və hərbi texnikasını məhv etmişdir.

1991-ci ildə Ağdam rayonundan Xocalı şəhərinə işləyən inşaat briqadasının avtobusu Əsgəran rayonu ərazisində erməni quldurları tərəfindən aşırılmışdı. Bu hadisə ilə əlaqədar olaraq E.R.Məmmədov öz yoldaşları Sadıq Mədətov (pasport masa rəisi), polis serjantları X.Səlimov, Ə.Ağayev, Ə.Vəliyev və F.Alverdiyevlə birlikdə özlərini hadisə yerinə çatdırıb, yaralıları Ağdama gətiriblər. Bundan başqa Ağdamdan Şuşaya gedən maşın karvanını müşayiət edib. 1991-ci ilin sentyabrında E.R.Məmmədov rəhbərlik tərəfindən aldığı məlumata əsasən Əsgəran qalası yanında erməni quldurları tərəfindən

güllələnmiş Azərbaycanın Milli Qəhrəmanı N.Əhmədovu və fəxri ada layiq görülmüş Ə.Vəliyevi düşmən əlindən xilas edib.

1992-ci ildə Xocalı faciəsi zamanı E.R.Məmmədov dinc əhalinin sağ-salamat Ağdam istiqamətində çıxarılmasında yaxından iştirak etmiş, həmin hadisə vaxtı həlak olmuş 5 nəfər Xocalı sakinini və iki yaralı qadını Ağdam rayonunun Şelli kəndinə gətirmişdir.

O, Kəlbəcər, Laçın istiqamətində gedən döyüşlərdə də iştirak etmiş, 1992-ci ildə Ağdərə rayonunun Qazançı kəndi uğrunda gedən döyüşlərdə daxili qoşunların əsgərləri ilə birlikdə düşmənin 3 postunu götürmüşlər. Həmin ağır və qanlı döyüşlər zamanı Elçin oktyabr ayının 30-da erməni quldurlarının basdırdığı minaya düşmüş və ağır bədən xəsarətləri almışdır. Bir müddət müalicə olunduqdan sonra Elçin yenidən döyüş xəttinə qayıtmış Çıldıran, Qazançı-Sıravənd, Baş Güneypərə və Manikli kəndləri uğrunda gedən döyüşlərdə igidlik göstərib.

1993-cü ildə Xocalı RPŞ-də E.R.Məmmədov rota komandirinin müavini vəzifəsində işləyib, 1994-cü ildən isə rota komandiri vəzifəsinə irəli çəkilib. 1993-cü ildə Ağdam rayonu Salahlı, Qiyaslı, Papravənd və Boyəhmədli, Güllücə, Cəvahirli, Nəmirli, Çıraqlı və Qərvənd kəndləri uğrunda gedən ağır döyüş əməliyyatlarında düşmənə qarşı cəsarətlə döyüşdü. Qərvənd kəndində düşmənlər tərəfindən yaralanmış, iki nəfər polis əməkdaşını və bir nəfər şəhid olmuş polis işçisini döyüş xəttindən çıxartdı.

Elçin Məmmədov 2016-cı il aprel döyüşlərində Talış kəndi istiqamətində yaralıların daşınmasında iştirak etmişdir. Polkovnik-leytenant Elçin Məmmədov Xocalı RPŞ-nin PPXB-nin komandiri vəzifəsində çalışır. Hal-hazırda Xocalı rayonunun Çanaqçı və Sığnaq kəndlərində xidmətini layiqincə davam etdirir.

Elçin Məmmədov 1994-cü ildə Dilşad Məmmədova ilə ailə həyatı qurmuşdur. Bu nigahdan onların Aysel, Ülkər və Həsən adında övladları dünyaya gəlmişdir.

Nümunəvi xidmətinə görə Elçin Məmmədov “N” saylı hərbi hissənin komandanlığı tərəfindən iki dəfə Fəxri fərmana, şöbə

rəhbərliyi və Daxili İşlər Nazirliyi tərəfindən mükafata layiq görülmüşdür.








**Xaliq Əjdər oğlu Məmmədov**

Xaliq Məmmədov 6 sentyabr 1967-ci ildə Şuşa şəhərində anadan olmuşdur. Şuşa şəhərində orta məktəbi bitirmişdir. 1984-cü ildə Kənd Təsərrüfatı İnstitutu Mühasibat uçotu və təsərrüfat fəaliyyətinin təhlili fakültəsində, İqtisadçı ixtisası üzrə tam kursu bitirmişdir. 1986-1988-ci illərdə hərbi xidmətdə olmuşdur. 1991-1992-ci illərdə Şuşa kənd təsərrüfatı texnikumunda müəllim vəzifəsində çalışmışdır. 1992-1993-cü illərdə Gənclər institutunda metodist işləmişdir. 1993–1998-cü illərdə Qərb Universitetində baş müəllim vəzifəsində çalışmışdır. 1995-ci ildə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən İqtisad elmləri namizədi, alimlik dərəcəsi diplomu verilmişdir. 1996-2000 Əziz Əliyev adına Dağıstan Dövlət Universitetinin Bakı filialında dekan, kafedra müdiri, direktor müavini vəzifəsində çalışmışdır. 2000-ci il avqust ayından Ticarət Nazirliyi, Dövlət Nəzarət Müfəttişliyinin rəis müavini və rəis vəzifəsində çalışmışdır. 2001-ci ilin yanvarında Ticarət Nazirliyinin İstehlak Mallarının Ekspertizası Mərkəzində baş direktor vəzifəsində çalışıb. 2002 – 2007-ci illərdə İqtisadi İnkişaf Nazirliyinin İstehlak Mallarının Ekspertizası Mərkəzində direktor vəzifəsində çalışmışdır.

2007- 2008-ci illərdə İqtisadi İnkişaf Nazirliyinin İstehlak Bazarına Nəzarət üzrə Dövlət Xidmətində rəis vəzifəsində çalışmışdır. 2008-noyabr-avqust aylarında İqtisadi İnkişaf Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondunun icraçı direktor vəzifəsində çalışmışdır. 2011-2012-ci illərdə Qlobal Telekom şirkətində baş direktor vəzifəsində çalışmışdır. 2013-cü il iyun-avqust aylarında Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi yanında Texniki Tənzimləmə və Standartlaşdırma üzrə Dövlət Nəzarəti Xidmətinin rəis müavini vəzifəsində çalışmışdır. 2016-cı il noyabr ayında "Ərzaq məhsullarının tədarükü və təchizatı" ASC İdarə Heyətinin Sədr müavini vəzifəsində çalışmışdır.

2008-ci ildən İqtisadi İnkişaf nazirinin əmri ilə Dövlət qulluğunun müşaviri verilmişdir.

Ailəlidir. 3 övladı var.



**Nizami Əjdər oğlu Məmmədov**

Şuşa şəhərində ziyalı ailəsində anadan olub, orta təhsilini Şuşa 2 saylı fizika-riyaziyyat təmayüllü orta məktəbində alıb.

N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetində tarix-(əlavə dövlət hüququ), Azərbaycan Dövlət İqtisad Universitetində isə iqtisadçı-hüquqşünas ixtisaslarına yiyələnib. İlk dəfə tarix müəllimi kimi Kəlbəcər rayon Narınclar kəndinin şəhid Əlövsət Tahirov adına 29 saylı orta məktəbində işə başlayıb.

N. Məmmədovun ilk yazısı hələ Şuşa şəhər 4 saylı orta məktəbin VI sinif şagirdi olan vaxt "Şuşa" qəzetində çap olunmuşdur. 1983-cü, 1985-ci, 1990-cı illərdə N. Məmmədov təhsildə və ictimai işlərdə fərqləndiyinə görə Fəxri fərmanlarla təltif edilmişdir. Eyni zamanda, şahmat yarışlarında Qarabağı uğurla təmsil etmişdir. Pedaqoji fəaliyyətində orta məktəb, orta-ixtisas və ali təhsil müəssisələrində işlədiyi 35 illik təcrübəsi ilə gənc nəslin təlim-tərbiyəsi və şəxsiyyətyönümlü vətəndaş yetiştirilməsinə töhfələr vermişdir. Onun yetirmələri respublika va xarici ölkələrin universitetlərində təhsil alırlar. O, vətənpərvərlik, ilahi dəyərlər və müasirlik kontekstində milli ruhlu minlərlə vətəndaş yetişdirmişdir.

"İlin ən yaxşı pedaqoji mühazirəsi" adında keçirilən nominasiyada respublika üzrə Təhsil Nazirliyinin I yer diplomuna layiq görülmüşdür.

Nizami Məmmədov elmi fəaliyyətinə AMEA-nın Milli münasibətlər Elmi-Tədqiqat İnstitutunda başlamışdır. AR Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında Politologiya və siyasi idarəetmə kafedrasında "Millətlərarası münaqişələr və onların həlli yolları" mövzusunda elmi tədqiqatlar aparmışdır.

1997-ci il 30 may tarixində keçirilən "Azərbaycanda keçid dövrü və siyasi elmlər problemi" adlı elmi-nəzəri konfransında "Müasir dövrdə Azərbaycanda siyasi elmlərin vəzifələri", Gənclər Təşkilatları Milli Şurasının 1998-ci il 26 fevral tarixində keçirilən elmi yığıncağında Qarabağ münaqişəsi və erməni diasporası, Gənclər və İdman Nazirliyinin xətti ilə keçirilmiş "Azərbaycan dövlət quruculuğunda gənclərin rolu" elmi-praktik konfransında "Gənclik və müstəqil dövlət quruculuğu adlı hərbi təcavüzü və onun nəticələrinin aradan qaldırılmasına xüsusi diqqət yetirilir.

1999-cu il 21-24 apreldə Beynəlxalq Elmi Kollokviumda Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının xətti ilə ABŞ, Almaniya, İsrail, Şimali Kipr, Rusiya və başqa ölkələrin nüfuzlu nümayəndələrinin iştirak etdiyi toplantıda "Qarabağ münaqişəsi və milli özünüdərk problemi" mövzusunda çıxış etmişdir. Kollokviumun materialları ingilis, rus dillərinə tərcümə olunaraq dünyanın elm mərkəzlərinə göndərilmişdir.

"Multikulturalizmə giriş" fənni üçün hazırlanmış yeni tədris proqramları əsasında təlimi müvəffəqiyyətlə başa vuraraq diplomla təltif edilmişdir.

2020-ci ilin oktyabr ayında Azərbaycan Dövlət Televiziyasında "Multikulturalizm" verlişinin əsas qonağı kimi ondan geniş müsahibə götürülmüşdür.

Nizami Məmmədovun elmi araşdırmaların nəticələri 1994-cü ildən başlayaraq dövri mətbuatda çap olunmuşdur. Kütləvi İnformasiya Vasitələrində və elmi nəşrlərdə çoxsaylı məqalələri nəşr olunmuşdur, televiziya və radio verilişlərində iştirak etmişdir.

AR Nazirlər Kabinetinin “İqtisadiyyat və həyat” adlı elmi-nəzəri jurnalında “Konfliktologiya və onun respublikamızda elm kimi öyrənilməsi” adlı məqaləsində yeni konseptual təkliflərlə çıxış etmişdir.

Nizami Məmmədov 2000-ci ildə çapdan çıxmış “Erməni təcavüzü və tarixi həqiqətlər” adlı kitabın müəllifidir.

AR “Avropa Nəşr Mətbu Evi” Nizami Əjdər oğlu Məmmədovu milli-mənəvi dəyərlərimizin qorunmasında səmərəli fəaliyyətinə, cəmiyyətdəki fəal ziyalı mövqeyinə, ölkədə keçirilən ictimai-siyasi tədbirlərdə yaxından iştirakına, tarix, hüquq sahələri üzrə çoxsaylı dəyərli elmi məqalələrdən, Azərbaycan tarix elminin aktual problemlərinə dair yaradıcı təkliflərinə, gənclərin vətənpərvərlik ruhunda tərbiyəvi sahəsində göstərdiyi xidmətləri ilə bağlı münsiflər heyətinin qərarına əsasən “İlin ən yaxşı vətənpərvər tədqiqatçı alimi” qızıl medalı və diplomu ilə təltif etmişdir.

2005-ci il 6 noyabr parlament seçkisində deputatlığa namizəd olan Nizami Məmmədov Xalqın seçkisi – Millətin elçisi şüarını rəhbər tutaraq xarizmatik lider keyfiyyətləri ilə xalq arasında nüfuz qazanmışdır. Allaha ibadətlə yanaşı ilahi elmlər üzrə araşdırmalar aparır. Xocalı soyqırımını tanıtma İctimai Birliyi İdarə Heyətinin və Dünya Azərbaycanlıları Həmrəyliyinə Dəstək Cəmiyyətinin üzvüdür.

Nizami Məmmədov pedaqoji, elmi, ictimai-siyasi fəaliyyətində millətə xidmət və Vətəni işğaldan azad etmək missiyasında bilik və bacarığını əsirgəmir.

Təfəkkür və əməllərində İlahi eşq, millət və vətən fədaisi, ruhi saflaşma, mərhəmət, haqq-ədaləti müdafiə, insanların dərdlərinə diqqət və qayğı göstərmək, dünyanın taleyinə yanan, Bütöv Azərbaycan missiyası ilə yaşayan bir şəxsiyyətdir.

Nizami Məmmədov əlillər, şəhid ailələri, təqaüdçülər, müharibə veteranları, aztəminatlı ailələr, valideyn himayəsindən məhrum uşaqlar, kimsəsiz qocalar evinə, qaçqın və məcburi köçkün ailələrinə ürək ağrısı və kövrəkliklə baş çəkərək dərdlərinə şərik olur, mənəvi dayaq olur.

Nizami Məmmədov elmi-pedaqoji fəaliyyətində Ermənistanın Azərbaycana hərbi təcavüzünü mövzusunda araşdıımalar aparmışdır. Xüsusilə, beynəlxalq elmi tədbirlərdə bu mövzunu diqqət mərkəzində saxlamışdır.

## NİZAMİ MƏMMƏDOVUN ELMİ-TƏDQİQAT İŞLƏRİNDƏN

**“Milli özünüdərketmə ” mövzusunda küçirilən Beynəlxalq Elmi Kollokviumun materialları (21024 aprel 1999-cu il)**

**Nizami Məmmədov**
**Azərbaycan Respublikası Prezidenti yanında**
**Ali Dövlət İdarəetmə Akademiyası**

## QARABAĞ MÜNAQİŞƏSİ VƏ MİLLİ ÖZÜNÜDƏRKETMƏ PROBLEMİ

Yuxarıda Mavi Göy çökmədikcə, aşağıda qara tirpaq yarılmadıqca sənin elini və nəslini kimsə pozammazdı. Amma sən düçmənin ərmağanlarına aldandın, təfriqələrə, fəsadçəlara aldandın, sənin xilaskarın olan atalarına üsyan etdin! Yurdu böldün və öldün! ...

Elli-obalı millət idim, elim hanı? Kimə el qazanıram? Xaqanlı millət idim, xaqanım hanı? Hansə xaqanın hğkmü ilə durub-oturacağam?

Türk bəyləri! Millət! Eşidim!

Ey Türk milləti! Titrə və özünə dön!

Bilğə xaqan.

Millət özünüdərketmə anlayışının tədqiqinə poliaspektlilik meyarından yanaşılmalıdır. Bu aspektlər sırasına tarixi keçmişimiz, milli-mənəvi dəyərlər, dinimizin, mədəniyyətimiz, milli psixologiyamız, dövlətçilik ənənələrimiz, vətənpərvərlik və müasirlik məfhumları aiddir. Bu sahələr də milli kimliyimiz, varlığımız total olaraq inkas olunmuşdur.

Qarabağ münaqişəsində milli özünüdərketmə aşağıdakı məsləl期rdə əks olunur:

1. Erməni-türk münaqişəsi və Qarabağ münaqişəsində milli özünüdərketmə problemi tarixi yanaşma;

2. Qarabağ münaqişəsinin müasir vəziyyəti (ərazi işğalı + insan tələfatı + maddi ziyan) çağdaş milli özünüdərketmə nöqteyi-nəzərindən;

3. Milli özünüdərketməni müəyyənləşdirərkən "nə üçün?", "həlli yolları haradadır?" testoloji suallarından çıxış edərək milli faciəmizin səbələrini, xilasımızı göstərmək;

- Tarixi torpaqlarımızın itkisi və Qarabağ işğalının səbəbləri;
- Münaqişənin aradan qaldırılmasının həlli yolları;

4. Qarabağ münaqişəsi və milli özünüdərketmə problemində dövlət, vətənpərvər qüvvələrin, ziyalıların avanqard rolu

5. Milli özünüdərketmə: gənclər və hərbi vətənpərvərlik;

6. Qarabağ münaqişəsi və milli özünüdərketmənin tərbiyəvi əhəmiyyəti;

- Vətənpərvərlik devizi: "Soruşma Vətən, sən bizim üçün nə etmisən, soruş: Vətən biz sənin üçün nə etmişik?"
- Mənəvi-əxlaqi dəyərlər (milli şərəf, qürur və heysiyyat).

Özünütənqid, özünüqiymətləndirmə proqnozlaşdırma kriteriyasından.

**Nəticə**

Qarabağ münaqişəsi və milli özünüdərketmə problemi Azərbaycan cəmiyyəti üçün müasir və gələcək baxımdan akrual olduğundan məsələnin elmi-tədqiqat obyektinə çevrilməsinə böyük luzum var. Mənim fikrimcə bu tezislər problemin araşdırılmasında elmi-metodik subyektiv mülahizədir.

**Mamedov Nizami**
Supreme State Management Academy
within the Azerbaijan President (Conflictology)

## THE KARABAKH CONFLICT AND THE PROBLEM OF NATIONAL SELF – CONSCIOUSNESS

While the blue sky was unsettled and the ground was cracked, no–one would be able to destroy your people and generation. But you were deceived by the enemies' presents, tricksters and frauds and rebelled against those people who were your saviors! You divided your land and died!

We were a nation with a motherland, but where are our people? For whom are we gaining folk? We were a people with a king, but where is our king? How will we act without a king?

Turkic gentlemen! Nation! Look!

Turkic nation! Shiver and return to yourself!

Bilga khagan.

The essence of national self–consciousness must be explained by many aspects such as historical background (ancient history), national moral–spiritual values, religion, culture, national psychology, governmental traditions, patriotism and modernism, etc. Our nationality and the existence of our nation have been reflected in these areas.

The national self–consciousness in the Karabakh conflict is expressed in the following ways:

1. An historical approach to the problem of the Armenian–Turk conflict in Karabakh.
2. The present situation of the Karabakh conflict (territorial occupation + death + material loss) from the point of view of modern self–consciousness.
3. Answering questions such as "Why?", "What is the solution?" in order to show the causes of this national tragedy and the solution of it to determine the national self–consciousness:

- The loss of historical territory and the causes of the Karabakh invasion;
- Finding ways to end this conflict.

4. A vanguard role of the government, patriotic forces and educated people in the Karabakh conflict and in the problem of national self–consciousness.
5. National self–consciousness: the young and military patriotism.
6. The positive essence of the Karabakh conflict and national self–consciousness.

a) a motto of patriotism: "Don't ask, Motherland, what you have done for us, ask What have we done for you?"

b) moral–spiritual values (national honor, pride, integrity) self–criticism, self–appreciation, prognosing criteria.

## Conclusion

Because the Karabakh conflict and the problem of national self–consciousness is very topical for Azerbaijan society in terms of modernism and the future. It is natural that this topic has been turned into a subject for scientific investigation. In my opinion, these theses represent scientific–methodological subjective viewpoints in the investigation of these problems.

**Elm işlərinin siyahısı**

1. Kuti etnosunun tarixinə dair
2. Kuti etnosunun tarixinə dair (davamı)
3. Müasir dövrdə Azərbaycanda siyasi elmlərin vəzifələri
4. Gənclik və müstəqil dövlət quruculuğu
5. Erməni təcavüzü və tarixi həqiqətlər
6. Erməni mənşəyi və antiaborigenliyi (I mərhələ)
7. Erməni mənşəyi və antiaborigenliyi (II mərhələ)
8. Alban xristian abitələri və alban katalikosluğu
9. "Erməni xəstəliyi" və ifrat vəhşilik
10. The Karabakh conflict and the problem of national self-consciousness
11. "Erməni təcavüzü və tarixi həqiqətlər" adlı tarixi əsər.
12. Konfliktologiya və onun respublikamızda elm kimi öyrənilməsi zərurəti

**Mürvət Qədimoğlu Həkəri**
**Azərbaycan Yazıçılar Birliyinin üzvü**

## Məkanın Tanrının dərgahındadır

**(Əziz dostumuz Nizami müəllimə)**

Göylərdən yerlərə boylanıb baxan
Tanrının Yerdəki nurlu bəndəsi.
Yaxşılıq titulun boynuna taxan,
Yaxşı insanların sirdaşı sənsən

Cismində cəm olub saflıq, təmizlik,
Bəzən bu saflıqda uşaq kimisən.
Təpədən dırnağa həqiqət, düzlük,
Yalanı doğrayan bıçaq kimisən...

Tanrı səni yerə buta göndərib, -
Düzlüyə qərq olsun Yer üzü deyə.
Neçə yol önünə cənamaz sərib,
Gündəlik hesabat verirsən Göyə...

Təmizlik, həqiqət yox olan yerdə,
Namərdlik, nadanlıq çapır yerində.
Sənintək insanlar çox olan yerdə,
Allah arxayınlıq tapır yerində.

Bir öyrətmən kimi biliyin, zehnin –
Bizlərə qidadır... Dolub daşırıq.
Oxuya-oxuya biz səni hər gün,
Beləcə, Tanrıya yaxınlaşırıq...

Qəlbində həmişə Allah sevgisi,
Hər sözün yalanı yandıran közdü.
Sənin hər kəlməndə Quran ayəsi,
Sənin hər sözün də İlahi nurdu.

Sənə dost olammaz hər ardan uzaq,
Saflıq bir üzüksə, sən ona qaşsan.
Harda haramlıq var – sən ordan uzaq,
Harda halallıq var – sən orda başsan.

Bir elə örnəkdi, biliyin, ağlın,
Nizami olammaz hər yoldan ötən.
Yaşayar üzü ağ, hey açıq alın,
Sənintək insanı çox olan Vətən!

Adıntək işində nizamlı, düzgün,
Əməlin yetişir uca göylərə.
Tanrıyla təmasda ağ olub üzün,
Adını qoyana alqış min kərə!

...əyilibdi sanki uca qamətin
Tapdaqlar altında qalandan Şuşa.
Tanrıya ən yaxın olan millətin,
Bəs nədən taleyi toxunur daşa?!

Sən "Allahu-Əkbər" çağıran günü,
Yalan saplağından üzülücəkdi.
Qarabağın bəxti ağa çıxa gün,
Əyilən qamətin düzələcəkdi.

Sən tarix yazanda, çarxı pozdular,
Utandı yalandan tarix yazanlar.
O gündən özünə qəbir qazdılar,
Haqqa, həqiqətə qəbir qazanlar...

Hardakı əqidə, düzlük olanda,
Yol açar, yeriməz yağlı yalanlar.
Başqa rütbədədir Allah yanında,
Əqidəsi saflıq, düzlük olanlar.

Sənə dost deyəmməz dələduz, hər bic,
Hey yetdin doğmanın harayına sən.
Ömrünü-gününü hey kərpic-kərpic
Hörürsən həqiqət sarayına sən.

Saflığa çağrışla doludur yükün,
Həqiqi qiymətin Allahındadır.
Özün yer üzündə gəzsən də bu gün,
Məkanın Tanrının dərgahındadır.

10.08.2010




***Nizami Əjdəroğlu atası Dədə Əjdərin və qardaşı Malik müəllimin məzarlarına Şuşa torpağını səpərkən***



**Etibar Rəşid oğlu Məmmədov**

Etibar Rəşid oğlu Məmmədov 1969-cu ildə Narınclar kəndində anadan olub. Narınclar kənd orta məktəbini bitirdikdən sonra Belarusiyada hərbi xidmət keçib.

Etibar Məmmədov 1990-cı ildə DİN-də milis nəfəri kimi işə başlayıb.1992-ci ildə Qarabağ döyüşlərində iştirak etmişdir. Döyüş bölgəsində minaya düşərək sol ayaqı amputasiya olunmuşdur. Hal-hazırda təqaüdçüdür.

Etibar Məmmədov 1995-ci ildə Arzu Həsən qızı Məmmədova ilə ailə qurub. Bu nigahdan onların Rəşad, Rəşid, Hüseyn adında övladları var.



## Muğan Camal oğlu Novruzov

Novruzov Muğan 1971-ci il aprelin 18-də Ağdərə rayonu Narınclar kəndində anadan olub. 1978-1989-cu illərdə kənd orta məktəbində təhsil alıb, 1991-1996-cı illər Naxçıvan Dövlət Universitetinin Fizika fakültəsində təhsil alıb, təyinatla Yevlax rayon Nemətabad kənd orta məktəbinə müəllim göndərilib. 1997-ci ildən Ağdam rayonu 144 nömrəli tam orta məktəbdə, 1998-ci ildən Kəlbəcər rayon Hövsət Tahirov adına 29 saylı tam orta məktəbində müəllim, 2000-ci ildən həmin məktəbdə dərs-hissə müdiri vəzifəsində işləyib. 2012-ci ildən təhsil şöbəsinin göndərişi əsasında Təhsil Nazirliyinin 26.04.2012-ci il tarixli 11/376 nömrəli əmrinə əsasən direktorların vəzifə imtahanlarından keçərək, həmin məktəbə direktor vəzifəsinə təyin edilib.

Həyat yoldaşı – Novruzova Cəmilə Sabir qızı. 29 saylı tam orta məktəbdə tarix müəllimi işləyir. İki övladı var.Novruzlu Samirə Muğan qızı. GDU Azərbaycan dili və ədəbiyyat fakültəsinin III kurs tələbəsidir. Novruzzadə Cəmaləddin Muğan oğlu. GDU-nin Tarix və coğrafiya fakültəsinin IV kurs tələbəsidir.

Ailə üzvləri Yeni Azərbaycan Partiyasının üzvləridir.

Ailə hazırda Kürdəmir rayon Qaçqın və Məcburi köçkünlər üçün yeni salınmış 564 nəfərlik qəsəbədə yaşayır.



**Vüqar Kamran oğlu Tahirov**

Tahirov Vüqar Kamran oğlu 1977-ci ildə Narınclar kəndində müəllim ailəsində anadan olub. 1984-cü ildə Narınclar kəndindəki orta məktəbin 1-ci sinfinə daxil olmuş və 1994-cü ildə bu məktəbi bitirmişdir. 1999-cu ildə Asəf Zeynallı adına Musiqi Texnikumuda "Xanəndə" sinfinə (muğam solisti) daxil olub. O Xalq artisti Ağaxan Abdullayevdən dərs alıb. 2002-ci ildə Bakı Musiqi Kollecini "Xanəndə" (Solo oxuma) ixtisası üzrə bitirib. Vüqar Tahirovun xanəndə kimi formalaşmağında İmişli rayonunun Cəfərli kəndindən olan tanınmış xanəndə, muğam ustası Vahid Səhliyalı oğlu Əliyevin böyük rolu olmuşdur. Vahid Əliyev incəsənət məktəbində Muğam Muzeyi yaratmış və milli sərvətimiz olan muğam dəstgahları və zərbi muğamların sistemləşdirilmiş cədvəlini tərtib etmişdir. 2000-ci ildən Azərbaycan Milli Konservatoriyasının "Muğam" kafedrasının Baş müəllimi, Qaval ifaçısı Mahmud Salahın rəhbərlik etdiyi "Qədim Şərq" muğam kollektivinin üzvüdür. 2002-ci ildə Vüqar Tahirov Azərbaycan Dövlət Opera və Balet Teatrının səhnəsində “Leyli və Məcnun” operasında baş rollardan biri olan İbn Səlam obrazını canlandırır. Vüqar Tahirov UNESCO tərəfindən Özbəkistanın Səmərqənd şəhərində keçirilən "Şərq Taronaları" V (2005-ci il) və

VII (2009-cu il) Beynəlxalq Musiqi Festivalının iştirakçısı olmuşdur. Hər iki festivalda Azərbaycan Milli Konservatoriyasının “Muğam” kafedrasının Baş müəllimi, Qaval ifaçı Mahmud Salahın rəhbərlik etdiyi “Qədim Şərq” muğam qrupunun üzvü kimi çıxış etmişdir. Vüqar Tahirov 2005-ci ildə keçirilən "Şərq Taronaları" V Beynəlxalq Musiqi Festivalının ən Zil səsli - yüksək diapazona malik ifaçısı kimi qeydə alındı və Diploma layiq görüldü. 2006-cı ildə Azərbaycan Milli Konservatoriyasının “İfaçılıq” fakültəsinə "Muğam" kafedrasının "Solo oxuma" ("Xanəndə") ixtisasına qəbul olub, ustadı Xalq artisti Ağaxan Abdullayevdən xanəndəlik sənətinə yiyələnib. 2010-cu ildə" Xanəndə" ixtisası üzrə Azərbaycan Milli Konservatoriyasını bitirib. 2012-ci ilin aprel ayında Böyük Britaniyanın Kembric şəhərində “Azərbaycan Muğamı Uşaqların ifasında” Layihəsi çərçivəsində “Qədim Şərq” ("Ghadim Sharq") muğam kollektivinin CD albomu işıq üzü gördü. Həmin Audio diskdə tələbəsi ilə birgə Vüqar Tahirovun da ifaları var. Layihənin müəllifi Böyük Britaniyanın Kembric şəhərində / UK Orta Asiya Musiqi Mərkəzinin direktoru, Kembric Universitetinin professoru Dr. Raziya Sultanovadır. Bu Audio disk üçün musiqi parçaları 2010-cu ilin dekabrında Bakı şəhərində BBC Radiosunun Azərbaycan filialının səsyazma studiyasında lentə alınıb. 2012-ci ilin dekabr ayında, Solist Tahirov Vüqar, Mahmud Salahın rəhbərlik etdiyi “Qədim Şərq” ("Ghadim Sharq") muğam kollektivi ilə Böyük Britaniyanın “Kembric Universiteti”ndə “Türk Asiyasında Populyar Kültür: Performans və İnam” Beynəlxalq Simpoziumu çərçivəsində konsertlərdə çıxış edib. Böyük Britaniyaya həmin səfərində Vüqar Tahirov London şəhərində BBC Radiosunda “Qədim Şərq” muğam kollektivinin müşayiətilə Audio disk üçün musiqi parçaları yazdırdı. 2013-cü ildə CD albom işıq üzü gördü. 2013-cü il avqustun 2-də Rusiyanın paytaxtı Moskva şəhərində P.İ.Çaykovski adına Konservatoriyanın təşkilatçılığı ilə keçirilmiş “Dostlar Toplayırıq” lV Beynəlxalq Musiqi Festivalına dəvət alan Azərbaycan Milli Konservatoriyasının “Muğam” kafedrasının Baş müəllimi, Qaval ifaçısı Mahmud Salahın rəhbərlik etdiyi “Qədim Şərq” muğam qrupunun üzvü kimi Vüqar Tahirov Festivalda geniş konsert

proqramı ilə çıxış etmişdir. 2013-cü il 3-4 avqustunda Rusiyanın Kaluqa vilayətində “Etnomir” etno-parkı ərazisində "Özünə yol" Beynəlxalq Etno-Festivalı keçirilir. Qaval ifaçısı Mahmud Salahın rəhbərlik etdiyi “Qədim Şərq” muğam qrupu da bu Festivalın iştirakçısı olur. Həmin muğam qrupunun üzvü Vüqar Tahirov gözəl ifaları ilə festival iştirakçılarının rəğbətini qazanır. 2013-cü il sent-yabrın 3-dən 9-dək Vüqar Tahirov Rusiyanın Həştərxan vilayətində keçirilən "Qızıl Çölün Səsləri - 2013" IV Beynəlxalq Etnoqrafik Festival-Müsabiqəsinə dəvət olunur. Qaval ifaçısı Mahmud Salahın rəhbərlik etdiyi “Qədim Şərq” muğam qrupunun müşayiəti ilə çıxış edən Vüqar Tahirov yarışmanın yüksək pilləsinə - I yer mükafatına layiq görülür. 2006-cı ildən Sumqayıt Şəhər Musiqi Kollecində çalışır; “Muğam” şöbəsinin Baş müəllimidir. “Xanəndə” ixtisası üzrə dərs deyir. Bu illər ərzində gənc nəslin xanəndə kimi yetişməsində böyük əməyi var. Vüqar Tahirov yaradıcılıq fəaliyyətinin bütün dövrlərində Azərbaycan Tele-Radio kanallarında mütəmadi olaraq çıxışlar edib. Respublikamızın Dövlət tədbirlərində böyük səhnələr-də fəal çıxışları ilə musiqi mədəniyyətimizə xidmət edib.



## Elməddin Tahir oğlu Tahirov

Tahirov Elməddin 1983-cü il iyunun 25-də Xankəndi şəhərində doğulmuşdur. 2000-ci ildə Kəlbəcər rayon Narınclar kənd orta məktəbini bitirmişdir. 2001-ci il iyulun 7-də həqiqi hərbi xidmətə getmiş və 2003-cü il yanvarın 2-də hərbi xidməti başa vurub ehtiyata buraxılmışdır. 2004-cü il martın 22-də Daxili işlər orqanına xidmətə qəbul olunmuşdur. DİN-nin Füzuli rayon Polis şöbəsində xidmətimi davam etdirir. Elməddin Tahirov Azərbaycanlı olmağı ilə fəxr edir. Elməddin Tahirov 2008-ci ildə Ətrabə İldırım qızı ilə ailə həyatı qurmuşdur. Bu nigahdan Həcər və Tahir adında övladları var.



FƏXRİ FƏRMAN

MSY-nın mühafizəsi üzrə polis nəfəri polis baş serjantı

Tahirov Elməddin Tahir oğlu

Rayonda ictimai asayişin və əhalinin təhlükəsizliyinin qorunması sahəsindəki xidmətlərinə görə

təltif olunur

Füzuli rayon polis şöbəsinin rəisi, polis polkovnik-leytenantı: Xəqani Məmmədov

02 iyul 2014





**Huseyn Etibar oğlu Məmmədov**

Hüseyn Məmmədov 2001-ci il noyabrın 18-də Mingəçevir şəhərində anadan olub. Orta məktəbi Mingəçevirdə bitirib. Məktəb illərində çalışqan, qoçaq, əməksevər şagird kimi tanınıb.

Hüseyn Məmmədov 2010-cu ildən etibarən qardaşları ilə birlikdə Mingəçevir İdman Klubunda cüdo üzrə məşğul olub, gərgin məşqlər nəticəsində yüksək nailiyyətlər qazanıb. Azərbaycan bayrağını Rusiya və Gürcüstan idman meydanlarında qələbə çalaraq yüksəkliklərə qaldırmışdır.

2017-ci ildən orta məktəbi bitirdikdən sonra Şəhid Ələmdar Quliyev adına peşə məktəbinə (tornaçı sənəti) qəbul olur. Əsgərlik yaşı çatdığı üçün ordu sıralarına çağırılır. 2000-ci il yanvar ayında Beyləqan N saylı hərbi hissəsində qulluğa başlayır.

Azərbaycan Böyük Vətən müharibəsinin iştirakçısıdır. Hüseyn Məmmədov Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Xocavənd istiqamətlərində döyüş yolu keçib.Döyüşlərdə düşmənin texnikasını və xeyli sayda əsgərini məhv edib.

Ali Baş Komandan cənab İlham Əliyevin sərəncamı əsasında müxtəlif medallarla təltif edilib. Millətimiz Azərbaycanın igid, qəhrəman oğulları ilə fəxr edir.

## Narınclar eli ilə dostluq körpüsü salan görkəmli şəxsiyyətlər



**Tapdıq Nəsir oğlu Qaraşov**

Tapdıq Qaraşovun Kolanı elindən olan narınclılarla bağlılığının maraqlı tarixçəsi var. Tapdıq baba nağıl edir. Uşaqları yaylağa aparmışdım. Sırxavənd yurdunda Qavan qayasının qərb hissəsində üzbəüz yerləşən Qəhrəman bəyin (Kolanı İsmayıl bəyin oğlu) yurduna düşdük. Dəmirli bulaqda çörək kəsdik. Əşrəf əminizlə rastlaşdıq. Sınaqlardan keçmiş dostluğumuz belə başladı. Bundan sonra Narınclar camaatı ilə gediş-gəliş yarandı. Atanız Əjdər müəllim ilə mehriban münasibətlərimiz yarandı. Nizami müəllim, sizə nəql etdiyim bu hadisə 1960-cı illərə aiddir.

Tapdıq Qaraşov 1924-cü ildə Ağdam rayonu Əhmədədli kəndində anadan olmuşdur. O, orta təhsilini Əhmədədli kənd məktəbində almışdır. Sonra Gəncə Kənd Təsərrüfat inistutunun zootexnik fakültəsinə daxil olmuşdur. Təhsilini bitirdikdən sonra Cəbrayıl rayonunun üzümçülük sovxozunda baş zootexnik işləmişdir. Ağdam rayonunun tələbi ilə Cəbrayıldan Ağdam rayonunun M.F. Axundov adına üzümçülük sovxozuna direktor müavini təyin edilmişdir. Hazırda Bakı şəhərində yaşayır.

Azərbaycan ağsaqqallarından biri, Kolanı elinin tanınmış nümayəndəsi Tapdıq Qaraşov canlı salnamədir. Onun həyat və fəaliyyəti maraqlı hadisələrlə zəngindir. O, fenomenal yaddaşı, nitq mədəniyyəti, ünsiyyət psixologiyası ilə nəzər-diqqəti cəlb edir. Şahidi olduğu əhvalatları təfsilatı ilə nəql etməsi çox əhəmiyyətlidir. Suallara aydın və yığcam cavab verməsi müsahibi yormur. Təbəssümü, şirin yumoru, ədəb-ərkanı insana mənəvi rahatlıq bəxş edir. Bu mənada aradakı yaş fərqi hiss olunmur.

Tapdıq Qaraşov mənim üçün ləyaqətli, alicənab, lütüfkar, nümunəvi ağsaqqaldır. Məmləkətimizin, millətimizin çox dəyərli ziyalısı və canlı tarixi yaddaşıdır. Qədim- qayım türksoylu Kolanı elinin adət-ənənələrini yaşadan Tapdıq Qaraşovun zəngin həyat təcrübəsi gənclərimiz üçün mənəvi tərbiyə rolunu oynayır. O, zəhməti, əməksevərliyi, idarəçilik qabiliyyəti ilə el-obanın etimadını qazanmışdır.

Tapdıq Qaraşov nəsillərə örnək olan gözəl ailə başçısıdır. Ömürgün yoldaşını itirmək onu çox sarsıtdı. Tapdıq babanın iki oğlu, üç qız övladı var. Hüseyn müəllim təhsil sahəsində, İsa müəllim dövlət idarəçiliyində humanizmi, yüksək səviyyədə iş bacarığı və məsuliyyəti ilə tanınırlar. Kamilə xanım müəllimə, İradə xanım mühasib, Aidə xanım həkim kimi öz peşə vəzifələrini layiqincə yerinə yetirirlər.



**Vəliyəddin Məhəmməd oğlu Əfəndiyev**

Vəliyəddin Əfəndiyevin timsalında Narınclar camaatının əlaqə qurması bir hadisə ilə səciyyələnir. Belə ki, 1948-ci ildə Ağdam rayonunun Boyəhmədli kənd məktəbində Vəliyəddin müəllim direktor, həyat yoldaşı Məleykə xanım müəllimə işləyirdi. Atam Əjdər müəllim və Əşrəf əmim həmin məktəbdə 8-ci sinifdə oxuyurdular. Bu iki qardaşın yaxşı oxumağı, təlim-tərbiyəsi, intizamlı olması Vəliyəddin müəllimin diqqətini cəlb edir. O, uşaqları evinə apararaq Məleykə müəlliməyə tapşırır ki, bunlara diqqət və qayğı göstərərsən. Eyni zamanda, Əşrəf əmimi kirvə tuturlar. Bax beləcə öz övladları kimi doğma münasibətlər yaranır. Təməli saf niyyətlə qurulan əlaqə, el-oba arası dostluq ünsiyyətinə çevrilir. Taleyin qismətinə bax ki, Səkinə nənəm Vəliyyəddin müəllimin evində dünyasını dəyişir. Hal-hazırda da əsası dədə-baba qaydası ilə qoyulan ənənəni gənc nəsil davam etdirir.

Bir müəllif kimi istədim ki, Qarabağda maarif xadimləri kimi tanınan Vəliyəddin Əfəndiyev və Məleykə xanım Əfəndiyevanın keçdiyi həyat yolu haqqında oxuculara məlumat verim.

Vəliyəddin Məhəmməd oğlu Əfəndiyev 1902-ci ildə Şuşa qəzasının Ətyeməzli (indiki Ağdam rayonunun Ətyeməzli kəndi) kəndində dünyaya gəlmişdir. İlk təhsilini Ağdam şəhər məktəbində

(indiki Ağdam şəhər 1 nömrəli orta mekteb) almışdır. O, Şuşada açılmış qısa müddətli müəllimlər hazırlayan kursu 1 sentyabr 1920-ci ildə bitirmişdir. 1920-ci ilin noyabr ayında açılmış Şuşa müəllimlər seminariyasında oxumuş, 1925-ci ildə 17 müdavimdən biri olmuşdur. 1937-ci ildə Azərbaycan Dövlət Qiyabi Pedaqoji İnstitutuna daxil olmuş, 1942-ci ildə Azərbaycan Dövlət Universitetinin qiyabi şöbəsini coğrafiya ixtisası üzrə tam kursu bitirmişdir. Ona orta məktəbin coğrafiya müəllimi ixtisası verilmişdir. Vəliyəddin Əfəndiyev 1925-ci ildə Qubadlı rayonunun Xocahan kəndində açdığı ilk ibtidai məktəbin müdiri olmuşdur. 1928-1930 illərdə Laçın, Tərtər, Ağdam rayonlarında partiya, komsomol, həmkarlar ittifaqı təşkilatlarında məsul vəzifələrdə işləmişdir. Vəliyəddin Əfəndiyev Ağdam rayon xalq maarif şöbəsində müfəttiş (1930), Ağdam kəndli-gənclər məktəbinin müdiri (1930-1935), rayon partiya Komitəsində təbliğatçı (1935-1937). Boyəhmədli kənd orta məktəbində direktor, müəllim (1938-1952), Ətyeməzli kənd natamam orta məktəbində direktor, müəllim (1953-1964) işləmişdir. O, 1964-cü ildə fərdi təqaüdə çıxsa da, Tillər kənd məktəbində pedaqoji fəaliyyətini davam etdirmişdir. Vəliyəddin Əfəndiyev rayon inqilabi şöhrət şurasının katibi olmuşdur. Onun müxtəlif mövzulu yazıları "Lenin yolu" qəzetində çap edilmişdir. Vəliyəddin Əfəndiyev "Şərəf nişanı" ordeni, bir neçə medalla, "Qabaqcıl maarif xadimi" döş nişani, "Sosializm yarışının qalibi", "50 il Sov İKP-də", habelə VKGİ ve respublika komsomolu Mərkəzi Komitəsinin yubiley döş nişanı ilə təltif edilmişdir.

Vəliyəddin Əfəndiyev 1984-cü ildə vəfat etmişdir.



**Məleykə Məhəmmədalı qızı Əfəndiyeva**

Məleykə Məhəmmədalı qızı Əfəndiyeva 1905-ci ildə Şuşa qəzasının Ətyeməzli (indiki Ağdam rayonunun Ətyeməzli kəndi) kəndində anadan olmuşdur. Şuşa pedaqoji texnikumunu bitirmişdir.

Məleykə Əfəndiyeva Bərdə rayonu Alpout kənd qız məktəbinin müdiri (1926-1927), Qubadlı rayonu Xocahan kənd ibtidai məktəbinin ibtidai sinif müəllimi (1927-1930) işləmişdir. Xocahan və başqa kəndlərdə savad kurslarının açılmasında, qızların təhsilə cəlb edilməsində əsas rol oynamışdır. Ağdam kəndli-gənclər məktəbində, Ağdam rayonu Boyəhmədli kənd orta məktəbində, Ətyeməzli kənd orta məktəbində ibtidai sinifdə dərs demişdir.

SSRİ Ali Soveti Rəyasət Heyətinin 11 iyul 1949-cu il tarixli fərmanı ilə “Şərəf nişanı” Ordeni ilə təltif edilmişlər.

29 dekabr 1992-ci ildə rəhmətə getmişdir.

# SON SÖZ ƏVƏZİ

Son söz əvəzini Nizami Məmmədovun əsərinə verdiyi addan ilhamlanaraq belə bir hikmətli ifadə ilə başlamaq istərdim: “El bir olsa… nağıl dönüb gerçək olar…”.

Biz xalq olaraq Birinci Qarabağ Müharibəsində itkilərimizdən sarsılmağımıza rəğmən İlahi qüvvə ürəyimizdəki ümidi azalmağa qoymurdu. 30 il ərzində bütün bayramlarda “Gələn il bu bayramı Qarabağımızda keçirmək” arzusunu dilə gətirirdik. Bu illər ərzində Qarabağın möcüzəli təbiətini görməyən bir nəsil böyüdü.

Azərbaycan təhsilinin ana xəttini təşkil edən Vətənin azadlığı, Şəhid və Qazilərin igidliyindən ilham alan pedaqoji heyət şagirdləri hərbi-vətənpərvərlik ruhunda yetişdirdi. Bax bu nəsil də Zəfər dastanının qəhrəmanları oldu.

Müzəffər Ali Baş komandanımız Prezident İlham Əliyevin çağırışı ilə Dövlət-Xalq-Ordu bir dəmir yumruq kimi birləşdi. Ulusumuz büsbütün döyüşə yollanmaq üçün xalq hərakatında birləşdi. “Ya Şəhid ol, ya Qazi” şüarı Azərbaycanın rəmzinə çevrildi.

İlahi Qələbəyə təşnə olan millətin tarixinə 44 günlük ədalətli müharibə nəsib etdi. Milli namusumuzun simvolu olan Şəhid və Qazilər cahanşümul şücaəti ilə dünyanı heyran qoydu. Ali Baş Komandanın qətiyyəti, xalq və ordunun dəyanətinin təntənəsindən dədə-babalarımızın ruhu şad oldu. El-obamızın ağsaqqal və ağbirçəklərin xeyir-duaları çin oldu.

Türk milləti olaraq möcüzəli qəhrəmanlıq salnaməsi yazdıq. Bir ağrılı yerimizə də münasibət bildirmək istərdik. Əfsuslar olsun ki, möhtəşəm tarix yaratsaq da, bu tarixi olduğu kimi yazıya almadıq. Türkiyə Cümhuriyyətinin qurucusu Atatürk yazırdı: “Tarixi yazmaq tarixi yaratmaq kimi önəmlidir. Yazan tarixi yaradana bağlı qalmazsa, dəyişməz gerçək insanlığı çaşdırmaq olacaq. Tarix gerçəkləri yanıltan bir sənət deyil, tərsinə, onu açıb göstərən bilim alanı olmalıdır”.

Məhz bu mənada tarixçi-ideoloq dəyərli ziyalımız Nizami Məmmədovun oxucunun diqqətinə təqdim etdiyi “Zəfərdən el-oba

irsimizə" adlı kitabı Zəfərimizin izi ilə bir elin tarixi hekayətinə işıq saçır.

Hörmətli Nizami Məmmədovun ictimai nüfuzu olan ziyalılarımızdandır. Belə bir işıqlı ziyalımızın əsəri haqda rəy bildirmək həm məsuliyyətli, həm çox qürürvericidir. Nizami müəllimin dövlət və dövlətçilik, milli-mənəvi dəyərlər, irfanla bağlı mövzularda səmimi məntiqi düşüncəyə söykənən ibratəmiz çıxışları insanlarda onun şəxsiyyətinə rəğbət oyatmışdır. Mən tədbirlərdə bunun şahidi olmuşam. Nizami müəllimin özünəməxsus xarizması, onun davranış mədəniyyəti və natiqlik məharətinə xüsusi bir qəribəlik verir. Qəlbinin səsindən qaynaqlanan mənəvi sərvətlərimizlə çulğalaşan nitqləri nurlu təsir bağışlayır. Müəllifin əsərini mütaliyə edəndən sonra məndə bir Zəfərimizin işığında el-oba irsimizə marağım daha da artdı. Bu sahədə bilgilərimi artırmaq üçün müəllifdən müsahibə götürdüm. Müsahibimin verdiyi cavablar br çox məsələlərə aydınlıq gətirdi. Özüm üçün müəyyən qənaətlərə gəldim. İlk öncə türk elləri haqqında araşdırmalar, kitablar yazan insan mənəvi saflıq nümunəsi olmalıdır. Mən bu insanın fikirlərində, dünyagörüşündə əsas meyarın İlahi Eşq, millət və dövlət sevgisini kəşf etdim.

Nizami Məmmədov maarifçilik fəaliyyətində 44 günlük Vətən Müharibəsinin incəliklərini gənc nəslə pedaqoji ustalıqla aşılayır. Müəllif millətə xidmət missiyasını Bütöv Azərbaycan və Türk Birliyinin təşəkkül tapmasında görür. Bu ideyanı ömrünün əsas qayəsi hesab edir.

Hesab edirəm ki, bir əsərə qiymət verərkən müəllifin şəxsiyyətini, dünya baxışını və yanaşma tərzini öyrənmək zəruridir. Əslində bu tip əsərlərdə yazar öz milli-mənəvi kimliyini aşkara çıxarır. 44 günün hər bir günü möcüzə sayılır və dünya hərb tarixində unikallığı ilə seçilir. Məhz 44 günlük möcüzənin ziyasına boyanaraq türk ruhunun ecazkarlığı nəzər nöqtəsinə gətirilir. Möcüzəli Zəfərin işığı ilə bir kolanı elinin yaranma tarixi, onun bağlandığı bölgələr, nəsil şəcərəsi, social-məişət məslələri, kənd təhsili oxucuların diqqətinə çatdırılır. Eyni zamanda Qarabağın ağsaqqalları və adlı-sanlı insanların həyat yoluna nəzər salınır. Xüsusi ilə nəzər diqqətimizi gənc nəsil üçün nümunəvi olan ailə modeli cəlb edir. Buradan aydın olur ki, cürbəcür

sınaqlara, çətinliklərə sinə gərməkdə milli-mənəvi dəyərlərimizi yaşadan ailə institutu nə dərəcədə əhəmiyyətli rola malikdir. Qloballaşan dünyada milli varlığımızı qorumaq üçün ailə dəyərlərindən başlamalıyıq. Müəllif də bir elin timsalında milli-məvəvi sərvətlərimizi ümumiləşdirərək ibrətamiz nəticələr çıxarır.

Nizami Məmmədovun bu əsəri bir çox cəhətdən dövlətimiz, xalqımız üçün dəyərlidir. Beləki Qarabağın aborigen bir kolanı elinin etnoqrafiyasını verməklə bu torpağın əsil sahibinin biz olduğu göstərir. 44 günlük Vətən müharibəsindən sonra tarixi həqiqətlərin çatdırılması zəruridir. Informasiya müharibəsi baxımından bu əsər öz aktuallığı ilə seçilir. Nizami Məmmədov bu əsərə qədər də bu sahədə ciddi uğurlara imza atmışdır.

Ermənisatanın Azərbaycana hərbi təcavüzünə qarşı elmi fakt və dəlillərlə zəngin "Erməni təcavüzü və tarixi həqiqətlər" (Bakı, 2000) kitabını yazmışdır. Kitab erməni alimlərinin əsassız ərazi iddialarına tarixi planda elmi cavabdır. Kitabın təqdimat mərasimində respublikanın görkəmli ziyalıları və rəsmi nümayəndələr müsbət rəylərini bildirmişlər. Onu da qeyd edək ki, beynəlxalq və respublika səviyyəli kollokvium və konfranslarda bu mövzu ilə bağlı məruzələr və tezislərlə çıxış etmişdir. 1997-ci ildə "Azərbaycanda keçid dövrü və siyasi elmlər problemi" adlı konfransında "Müasir dövrdə Azərbaycanda siyasi elmlərin vəzifələri", "Azərbaycanın dövlət quruculuğunda gənclərin rolu" adlı elmi-praktik konfransında "Gənclik və müstəqil dövlət quruculuğu" mövzularına dair tezislərlə çıxış etmişdir. Müəllifin bu səpkidə silsilə məqalələri dövrü mətbuatda çap olunmuşdur. Məsələn, "Erməni təcavüzü və tarixi həqiqətlər", "Erməni mənşəyi və antiaborigenliyi", "Böyük Ermənistan təcavüzkarlığının tarixi kökü", "Alban xristian abidələri və Alban Katalikosluğu", "Erməni xəstəliyi və ifrat vəhşilik" bu kimi silsilə məqalələri qeyd etmək olar. "Konfliktologiya və onun respublikamızda elm kimi öyrənməsi zərurəti" elmi məqaləsinin çap olunması respublikamız üçün elmi-praktik əhəmiyyət kəsb edir. Televiziya və radio verilişlərinə dəvət olunan müəllifdən müsahibələr götürülmüşdür.

Müəllif bu mövzuda qəzetlərə da müsahibələr vermişdir. Müəllifin bir şüarı çox təqdirəlayiqdir. Bu ideya 44 günlük müharibədən bir neçə il əvvəl irəli sürülmüşdür. Bu şüar belədir: "Qarabağın azadlığı öncə təhsilin inkişafından asılıdr". Məhz Vətən Müharibəsində xüsusi təyinatlı dəstələrin aldığı müasir hərbi təhsil bu yanaşmanın bariz nümunəsidir. "Həftə içi" qəzetində verdiyi müsahibəsində müəllif təhsilin müasir dövrdə inkişaf istiqamətlərinə dair maraqlı fikirlər söyləmişdir: "Müstəqil Azərbaycanın möhkəmlənməsi, işğal olunmuş yurdlarımızın azad olunması, milli inkişaf, dünyaya inteqrasiya prinsipləri naminə hamını aşağıdakı milli ideoloji şüar ətrafında birləşməyə çağırıram: Təhsilli millət hər şeyi qadirdir". Çox dəyərli Nizami müəllim, illər öncə uzaqgörənliklə, müdrikliklə etdiyiniz bu çağırışa görə Sizə bir daha təşəkkürümüzü bildiririk!

Kitab Tarixi Zəfərimizin işığında yazılmışdır. Adından da görünür ki, müəllif burada iki əsas xəttə diqqət ayırır: 44 günlük möcüzəvi savaş və el-oba irsi.

Kitabın əsas məzmumu 10 bölmədə əks olunmuşdur. Əsas məzmuna keçmədən öncə dövlət və dövlətçiliklə bağlı atributları, tarixi və ideoloji məna kəsb edən materiallar verilmişdir: Azərbaycanın və Türkiyənin Dövlət Himnlərinin sözləri, "Şuşa Bəyanatının" mətni, "Şuşa" şeiri, Şah babamızın (Şah İsmayıl Xətainin) vəsiyyəti. Bu hissələr tarixi əsasları olan Türkiyə-Azərbaycan qardaşlığını tərənnüm edir. Türkiyə-Azərbaycan münasibətləri dövlət başçıları İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan ökələr arası dostluq və qardaşlıq münasibətləri, ölkə rəhbərləri qardaşlığı ilə də möhkəmlənməkdədir.

Birinci bölmədə Qarabağ Savaşına dair retrospektiv, xronoloji təhlillər aparılır. Birinci Qarabağ savaşında erməni işğalçıları tərəfindən beynəlxalq hüquq normaların pozulması an, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin bu 30 il ərzində məsələnin sülh yolu ilə həllinə aid fəaliyyəti qeyd olunur, İkinci Qarabağ savaşına aparan yol: 2016-ci il aprel hadisələri, 2020-ci il "Tovuz hadisələri" haqda məlumatlar təqdim olunur. Bölmənin əsas hissəsi İkinci Qarabağ Müharibəsinin günlük xronologiyasına həsr olunmuşdur. N.Məmmədov İkinci Qarabağ Müharibəsini Azərbaycanın Böyük Vətən Müharibəsi adlandırır. Çünki İkinci Qarabağ Mühari-

bəsində Güneyli qardaş və bacılarımız mübarizəmizə mənəvi dəstək verdi.

Kitabın ikinci və üçüncü bölmələrində çox zəngin və geniş material təqdim edilir. Müəllif tarixi faktlar, sənədlər və el-obada ağızdan-ağıza yayılan söhbətlər, əhvalatlar əsasında qədim türk yurdu olan kolanı eli, caamatı haqda çox maraqlı tarixi-etnoqrafik məlumatları işıqlandırır. Bu ellərin insanları, bəyləri haqda, onların həyat tərzi haqda, elin daxili qayda-qanunları haqda, bu yerlərdə baş vermiş maraqlı hadisələri rəngarəng və dolğun təqdim edir. Haşiyələrdə o dövrün məişətində geniş yayılan, türk ellərinə xas olan köçlə bağlı maraqlı təsvirlər verilir. Hətta köç yolları haqqında məlumat, o yerlərin toponimikası, qədim el sözləri təqdim edilir. Tarixi köç yolları xəritəsi özlüyündə  Qarabağ və Qərbi Azərbaycan (indiki Ermənistan) ellərini həm coğrafi, həm el-oba bağlarını əks etdirir. Köç yollarının əhatə etdiyi toponimlərin sırasında heç bir erməni mənşəli sözə rast gəlinmir! Müəllifin mötəbər mənbələrə istinadən verdiyi cədvəllər dediklərimə əyani sübutdur. Tarixdən də məlumdur ki, indiki Ermənistan ərazisi tarixi-etnik dədə-babadan ulu oğuz yurdudur.

Müəllif elat insanının danışığını, o dövrlərdə işlənən, bu gün isə unudulmaqda olan sözləri bizlərə çatdırır. Məsələ, muxuru alacıq, elat, dədə, fərməş, gərdən, at çulu və s. Bu məqamlar mənsub olduğumuz etnomədəniyyətin məhz türk soyuna aid olduğunu əyani şəkildə təsdiqləyir. Müəllif öz fikrini belə açıqlayır: "Gənc nəslimizə unudulmaqda olan köç və karvan barədə məlumat vermək istərdim. Belə ki, yurd, yer adları olan toponimlər vətənimizin, mədəniyyətimizin və milli kimliyimizin mühüm meyarlarından biridir”. Verilən yer adları təsvir olunan el-obaların böyük bir türk mədəniyyətini tərkib hissəsi olduğunu təsdiq edir.

Bu hissədə müəllif türk soyuna xarakterik olan ağsaqqallıq institutunun el-obanın həyatında əhəmiyyətindən bəhz edir.  El ağsaqqalarına olan hörmət bizlərə əcdadlarımızdan miras qalmışdır. Müəllif öz mətnini Dədə Qorqud  nəsihətləri ilə bəzəyir, zənginləşdirir və elə özü də bir ağsaqqal olaraq gənc nəsilə nəsihətdə bulunur: “Müasir gəncliyə üzümü tutub bildirmək istəyirəm ki,

müqəddəs öyüd-nəsihətə, məsləhətlərə laqeyd yanaşma taleyimizə sağalmaz yaralar vurur". Nizami müəllim öz atasını Dədə Əjdər adlandıraraq onun keçdiyi şərəfli həyat yoluna yüksək dəyər verir. Bunu müəllifin gənc nəslə bir vacib mesaji kimi dəyərləndiririk. Müasir dövrdə ataya, anaya laqeydlik faktlarının çoxaldığı halda belə bir örnək çox vacibdir. Ümid edirik ki, gənc oxucular bu cür nəsihət və örnəklərə laqeyd qalmayacaqlar.

Növbəti bölmə elin nəsil şəcərəsinə həsr olunub. Ümumiyyətlə, hər bir insan öz nəslini, əsil-nəcabətini tanımalıdır. Odur ki, bir elin nəsil şəcərəsini vermək ziyalılar üçün də çox dəyərlidir. Beləki, hər bir ziyalı öz nəslinin soy ağacını dərindən öyrənərək yeniyetmələrə çatdırmalıdır. Digər tərəfdən də Nizami müəllimin verdiyi nəsil şəcərəsi o elə mənsub olan insanların öz dədə-babalarını tanımaqda çox qiymətli mənbədir.

Maraqlı materiallardan biri də sözügedən elin məskun olduğu məkanın xalq təbabəti haqqında bilgilər verilməsidir. Yeri gəlmişkən, qeyd edək ki, müalicəvi olan bitkilər və onlardan istifadə qaydaları geniş oxucu kütləsi uçun də dəyərlidi.

Kitabın bir etnoqrafik məziyyəti də ondadır ki, türk-müsəlman dünyası üçün səciyyəvi olan adət-ənənələri, xalq oyunlaarı, Novruz bayramı ilə bağlı qiymətli nümunələri göstərməsidir. Xalq oyunlarını yerli koloritlə təsvir edən müəllif bu hissədə milli-ideoloji yanaşma sərgiləyir. Gənclərin milli ruhda böyüməsi və asudə vaxtlarının səmərəli keçməsi üçün xalq oyunlarımızın rolunu xüsusi vurğulayır. Kompyuter texnologiyaları bütün həyatımızı əhatə edərək canlı ünsiyyəti yox dərəcəsinə salır. Bunun nəticəsi olaraq nəsillərarası mənəvi bağların qırılmasının şahidi oluruq. Nizami Məmmədov bir pedaqoq, ideoloq olaraq əsrimizin bu bəlasını zərərli vərdiş adlandırır və məsələ ilə bağlı proqnozlar verir: "Fikrimcə, bu problemə ictimai diaqnoz qoymaq vaxtıdır (bəlkə də vaxtı keçmişdir). İnternet asılılığı adı ilə qoyulan bu sosial xəstəlik diaqnozu bütün yaş qrupları üzrə total yayılmışdır. Odur ki, dövlət və cəmiyyət olaraq sağlam nəsil naminə bu problemin həlli yolunu tapmalıyıq".

Təsvir obyekti olan Narınclar eli xalqın keçdiyi bütün tarixi mərhələlərdən qürurla keçmişdir. Əsrlər boyu tarixi hadisələrin

yaratdığı çətinlikləri, mürəkkəblikləri milli-mənəvi dəyərlərə sığınaraq qət edə bilmişdir. XX əsrin böyük bəlalarından biri də faşizmdır. İnsanlıq adına utanc gətirən bu hadisəyə bir xalq olaraq laqeyd qala bilməyən xalqımız İkinci Dünya Müharibəsi zamanı faşizmə qarşı mübarizəsini sovet ordusunun tərkibində aparmışdır. Tarixən əsl döyüşçü kimi ad çıxaran kolanı elinin oğulları da faşizmlə mübarizəyə qoşuldu. O savaşdan qayıdanlar da oldu, qara xəbəri gələnlər də... Qanlı döyüşlərin şahidi olan oğullardan biri də müəllifin babası Hümbət Məmmədov olmuşdur. Hümbət Məmmədov Berlinə qədər şərəfli döyüş yolu keçmişdir. Övladları və nəvələri onun müharibə ilə bağlı xatirələrini hər zaman qürurla yada salır. Müharibədə Hümbət Məmmədov azərbaycanlılardan təşkil olunan 416-cı Taqanroq diviziyasının tərkibində vuruşmuşdur. Tarixdən bilindiyi kimi, 1943-cü ilin avqustunda Taqanroq şəhərinin azad edilməsinə görə diviziyaya «Taqanroq» fəxri adı verilmişdir. 1944-cü il yanvarında 5-ci zərbə ordusunun tərkibində Dnepr çayını keçərək onun qərb sahilinə çıxmışdır. 1945-ci ilin yanvarında diviziya Varşavanın azad edilməsində iştirak etmiş və Oder çayının qərb sahilinə çıxmışdır. Berlinə birinci daxil olan hissələr içərisində 416-cı diviziyanın 1373-cü alayı da (komandir, general-mayor Heybət Heybətov) var idi.

Azərbaycanın layiqli övladı dövlət və elm xadimi Əziz Əliyevin 416-cı Taqanroq diviziyasının güclənməsində xüsusi rolu olmuşdur. Əziz Əliyev 1942-cü il sentyabrın 23-də Dağıstan Vilayət partiya Komitəsinin birinci katibi vəzifəsinə təyin edilmişdir. Əziz Əliyevin Taqanroq Diviziyasının formalaşmasında göstərdiyi xidmətlər tarixin yaddaşında silinməz iz buraxmışdır. Əziz Əliyevin könüllü dəstələrin yaranması haqqında verdiyi qərardan sonra Dağıstanda elliklə ordu sıralarına yazılanların sayı sürətlə artdı. Onun fəaliyyəti müharibə dövründə arxa və cəbhənin istiqamətində qurulmuşdur. Hümbət Məmmədovun övladlarına Əziz Əliyev haqqında eşitdiyi söhbətləri danışardı. Əziz Əliyev haqqında olan işıq saçan söz-söhbətləri nəql etdikcə onların bu tarixi şəxsiyyətin vətənpərvər, təşkilatçı, əsl dövlət və elm xadimi habelə humanist obrazı canlanır.

Kitabda Əziz Əliyevlə bağlı Umummilli lider Heydər Əliyevin nitqi mənə çox xoş təsir bağışladı. Belə ki, mətndə Əziz Əliyevin yaşadığı dövr, həyatı, titanik fəaliyyəti elə incə təhlil edilir ki, heyran qalmamaq mümkün deyil. Bir nüansı da qeyd etmək istərdim ki, xalqımız öz layiqli övladlarının xatirəsini əbədiləşdirir. Heydər Əliyevin İkinci Dünya Müharibəsində döyüşən Azərbaycan oğullarının xatirəsini əziz tuturdu. Heydər Əliyevin təşəbbüsü ilə Taqanroq uğrunda döyüşlərdə şücayət göstərən azərbaycanlı əsgərlərin xatirəsini əbədiləşdirmək məqsədi ilə Rusiyanın Taqanroq şəhəri Sambek təpəsində Şöhrət Memorialı ucaldılmışdır. Memorialın açılışında iştirak edən Heydər Əliyev nitq söyləmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığı ilə 2011-ci ildə Azərbaycan hökumətinin vəsaiti hesabına Memorial büsbütün yenidən qurulmuşdur. Taqanroq diviziyası ilə bağlı və onun xatirəsinin əbədiləşdirməklə bağlı bir ailənin 3 üzvünün baba, ata və oğul üçlüyünün – Əziz Əliyev, Heydər Əliyev, İlham Əliyev – fikir, əqidə birliyinin nümunəsini görürük. Bu birliyin xalqımızın dünyaya tanıdılmasında, uğurlara və nailiyyətlərə imza atmasında əvəzsiz rolunu bir daha vurğulamaq istərdik. Bu birlikdən doğan ləyaqətli varisliyin nümunəsi olaraq Müzəffər Ali Baş Komandanımızın sərkərdəlik fəaliyyətində təzahür edir. Məhz bundan irəli gələn 44 günlük möcüzələrdən biri də (əsərin "44 günlük möcüzə. El-oba irsimiz" adlandırılması təqdirəlayiqdir) Prezidenrt İlham Əliyev Şuşanın azad edilməsi xəbərini sevinc qəhəri ilə xalqa çatdırarkən müqəddəs milli dəyərlərimizi əks etdirən bir kəlam söylədi: "Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu böyük qələbədir! Bu gün Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır!". İlham Əliyevin şəxsiyyətində onun mənsub olduğu el-obanın, nəsil şəcərəsinin genetik kodları tarixi zəfərimizdə deşifrə olundu. Məhz milli-etnik genetikanın türk soyu Tarixi Zəfərimizlə bu nəslin timsalında özünü göstərdi. Bu baxımdan qəhrəmanlığın, mübarizliyin Böyük Zəfərə imza atmağın eldən-obadan, nəsildən-nəsilə keçən qan yaddaşı ilə əlaqəsinin fövqalədə əhəmiyyətini dərk etdim.

Müəllifin kitabda təhsilə ayrıca yer ayırması fikrimcə heç də səbəbsiz deyil. Belə ki, Nizami müəllim özü müəllim ailəsində

doğulub, boya-başa çatmışdır. O, uşaq yaşlarından müəllim peşəsinin aliliyini valideynləri Əjdər Məmmədov və Rüqiyyə Məmmədova timsalında görmüşdür. Əjdər müəllim pedaqoq olaraq respublikanın rayonları üzrə kənd təsərrüfatı sahəsi üzrə yüzlərcə mütəxəssislər yetirmişdir. Hər iki valideyn el-obaya bağlılığı və insanpərvərliyi ilə nüfuz qazanmışdır.

Təhsil sahəsi ilə bağlı bölmədə müəllif faktiki material təqdim edərək bu elin-obanın məktəb ənənələri, təhsil ocaqları haqda ətraflı söz açır. Bu coğrafi arealda yerləşən təhsil ocaqlarında xalqın nüfuzlu şəxsləri, elm və təhsil xadimləri, Şəhid və Qazilərimizi yetişmişlər. Onlara Vətən, Ana, Torpaq sevgisi aşılanmışdır. 30 il o məktəblər köçkün məktəbi kimi fəaliyyət göstərdilər. O təhsil ocaqlarının tarixi, tanınmış pedaqoqları haqda yazaraq N.Məmmədov onlara bir abidə ucaltmış oldu. Onlara əbədilik bəxş etdi, dünyadan köçənlərin ruhunu şad etdi. Bu gün müasirləşən dünyada müəllim nüfuzunun zəiflədiyini görürük. Lakin, bu bizim mental təfəkkürə ziddir. O mənada müəllifin müəllim nüfuzunun qorunması ilə bağlı mövqeyi açıq şəkildə seçilir.

Ermənilərin əsassız torpaq iddiaları ilə barışmayan Qarabağ elinin igidləri bu XX əsrin sonunda erməni faşizmi ilə mübarizəyə qalxmalı oldular. Qan yaddaşımızdan süzülüb gələn mübarizlik, barışmazlıq, yenilməzlik kimi cəhətlər öz sözünü deməkdəydi. Ürəyində müqəddəs Vətən sevgisi olan igidlərimiz lazım gələndə əliyalın da olsa, düşmənlə mübarizə aparır, ölümün gözünə dik baxmağı bacarırdılar. Babalardan miras qalan bu torpaqları qorumaq onların müqəddəs borcu idi. Birinci Qarabağ Müharibəsində canı, qanı hesabına düşmənlə mübarizə aparan igidlərin keçdikləri şərəfli döyüş yolu bizlər və gələcək nəsillər üçün bir nümunədir. Onların həyat hekayələrini müəllifin qələmə alması müqəddəs ruhlarına bir tövhədir.

Oxucuya təqdim olunan kitabın xalqımız, gələcək nəsillərimiz üçün çox dəyərli bir əsər olduğunu br daha vurğulamaq istərdik. Kitabda işıqlandırılan bütün məsələlər müqəddəsimizdir. Şanlı qələbəmizin el-oba irsi ilə vəhdətindən qaynaqlanan bu məsələlər növbəti araşdırmalara bir təkan olacağına əminik. Dəyərli ziyalımız

Nizami Məmmədovun ziyasının və ali mənəvi-əxlaqi dünyasının, tutduğu müqəddəs irfan yolunun işığında yazdığı bu əsər türk ellərinin, Turan elinin, qan yaddaşımızın təntənəsidir. Nizami müəllimin öz obrazında İlahi Qüvvəyə sığınması, ona xarakterik olan yüksək insani və irfani keyfiyyətlərinin vəhdətinin şahidi oluruq.

Nizami müəllim İlahi qüvvəyə sığınaraq dövlət və dövlətçilik, Türk Birliyi, o taylı bu taylı Azərbaycan naminə çıxdığı işıqlı və qüdrətli yolda əminliklə addımlayır. İlahi Nurdan, İrfandan, Təsəvvüfdən İşıq alan ruhu ilə əmindir ki, insanı Dünya və Axirətdə Millət, Vətən, Dövlət naminə çalışan insanlar Yaradana daha da yaxınlaşır. Bu məqamda müəlliflə bağlı bir Nizami müəllim Allah aşiqi olaraq İlahinin Öz Nurundan bizə bəxş etdiyi Ruhun bu fani dünyada İlahi paklığını qorumağı təbliğ edir. Nizami müəllimin daxili saflığından süzülən işıq onun bəsirət gözünü açmışdır və o, dünyanın yuvarlandığı mənəvi böhrandan xilasımızı İman və İlahi eşqdə görür.

**Dürdanə Hümbətova**
**Bakı Slavyan Universitetinin elmi katibi,**
**filologiya üzrə fəlsəfə doktoru, BSU Jurnalistika**
**kafedrasının dosenti**

# ƏDƏBİYYAT


1. X.Babayeva, S.Şahverdiyev. Zəfər tariximiz. Məqalələr. “Mücrü” nəşriyyatı, 2021
2. Azərbaycan SSR. İnzibati-ərazi bölgüsü. Bakı, 1968, s.170-171
3. Azərbaycan toponimləri. Ensiklopedik lüğət. Bakı, 1999, s.379
4. Mirzə Camal Cavanşir Qarabaği. Qarabağ tarixi. Bakı, 1989, s. 107-108
5. Abbasqulu Ağa Bakıxanov. Gülüstani-İrəm. Bakı, 2016, s. 155
6. Yaqub Mahmudov, Kərim Şükürov. Qarabağ. Real tarix, faktlar, sənədlər. Bakı, 2009, s.64.
7. Tofiq Mustafazadə. Qarabağ xanlığı, Bakı, 2010, s. 96.
8. Nazim Məmmədov. Azərbaycanın Ağdarə rayonunun tarixi. Bakı, 2014, s. 24-34.
9. Ənvər Çingizoğlu, Fazil Baxşəliyev. Qarabağın el və obaları. Bakı, 2007, s.172-173.
10. X.D.Xəlilov. Qarabağın elat dünyası. Bakı, 1992, s. 61-62.
11. Skibitski M.A. Карабахские казенные летние пастбища. T. IV, Тифлис, 1899, с.35
12. Nəzər Heydərov. Zəngəzur dağlarında, Azərnəşr, Bakı, 1989, s. 3.
13. Tahir Talıblı. Əziz Əliyev: dövrü, həyatı, şəxsiyyəti. Bakı, Göytürk, 1997, s. 160-170
14. https://www.yeniazerbaycan.com/Analitik_e54755_az.html
15. Soy. Tarixi-etnoqrafik dərgi. 2012, №9(65).

# KİTABIN İÇİNDƏKİLƏR

Ön söz ........................................................................ 24
Müəllifdən...................................................................... 26
I Bölmə
Azərbaycanın Böyük Vətən Müharibəsi............................ 33
II Bölmə
Narıncların bağlandığı bölgələr......................................... 112
III Bölmə
Narınclar kəndinin yaranma tarixi.................................... 138
IV Bölmə
Narınclar elinin nəsil şəcərəsi........................................... 165
V Bölmə
Narınclar haqqında ümumi məlumat.................................. 192
VI Bölmə
Narınclar elinin adət-ənənələri.......................................... 205
VII Bölmə
Narınclar sovet dönəmində............................................... 212
VIII Bölmə
Narınclarda təhsil............................................................. 253
IX Bölmə
Narıncların qara günləri................................................... 263
X Bölmə
Qarabağın görkəmli ağsaqqalları
və tanınmış şəxsiyyətləri................................................... 275
Son söz əvəzi.................................................................... 384
Ədəbiyyat…………………………………………………… 394

**Nizami Əjdər oğlu Məmmədov**

# Zəfərdən el-oba irsimizə

Redaktor: Dürdanə Hümbətova
Kompyuter dizaynı: Nurlan Məmmədov

Nəşriyyatın direktoru: Ş.M.Şəfizadə

“Müəllim” nəşriyyatında çap olunmuşdur.
Tel.: (+99470) 213 10 61
(+99410) 213 10 61
E-mail: muallim.mmc@gmail.com

Çapa imzalanmışdır: 21.11.2023. Sifariş: 157
Kağız formatı: $60\times84^{1/16}$ . Şərti ç.v.: 24,75. Sayı: 100